ELÇİN ƏLİYEV

ADİL HƏMİD DƏLİDAĞLI

# NƏCƏFALILARA GEDƏN YOL

Bakı-2010

**Elçin Behbud oğlu Əliyev, Adil Həmid (Dəlidağlı),**
**"Nəcəfalılara gedən yol".**
"E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, Bakı, 2010, səh. 424.

Kitabda Nəcəfalılar kəndinin tarixindən, əhalisinin ulu keçmişindən, adət – ənənələrindən, məişətindən və təbiətindən bəhs edilir. Bu məlumatlar elimizin müdrik insanları uzunömürlülərimizdən Əliyeva Gülbəs Məhəmməd qızının, Həmidova Mələk Məşədi Pirməmməd qızının, Həmidova Savad Şahmar qızının, Hümbətov İmamverdi Əli oğlunun və başqalarının söylədikləri rəvayətlər əsasında yazılmışdır.

Bura, həmçinin, elimizin dəyərli ağsaqqalları Səfər Əliyevin, İbrahim Həmidovun, İsa Piriyevin, Əli Piriyevin, Şura Əliyevin və fenomen yaddaş sahibi Mənzər Əliyevanın söylədikləri əhvalatlar da daxil edilmişdir.

Bundan başqa, kitabda Kəlbəcər rayon İcra Hakimiyyəti və Comərd İnzibati Ərazi Vahidliyi üzrə nümayəndəliyin rəhbəri Ramiz Musayev tərəfindən verilmiş, eləcə də, Kəlbəcərin rəsmi internet saytında yerləşdirilmiş və «Kəlbəcər harayı» qəzetində dərc edilmiş statistik məlumatlardan da istifadə olunmuşdur.

Vətənpərvər el oğulları Elçin Əliyev və Adil Həmidin əməyi nəticəsində toplanmış bu məlumatlar gələcək nəsillərə çatdırılması üçün bədii publisistlik dillə oxuculara təqdim olunur.

Müəlliflər kitabın ərsəyə gəlməsində və dəyərli məlumatların əldə edilməsində zəhməti olan hər bir şəxsə öz dərin təşəkkür və minnətdarlığını bildirirlər.

Bu kitab müəlliflərin şəxsi vəsaiti hesabına ərsəyə gəlmişdir və Nəcəfalılar kəndinin sakinlərinə təmənnasız ərməğan edilir.

İSBN 978-9952-438-66-6

© Elçin Əliyev, Adil Həmid (Dəlidağlı)

## SEYİD YUSİF AĞANIN XEYİR DUASI İLƏ



Azərbaycanın bir çox bölgələrində, xüsusilə də Aran Qarabağda ağır cəddi, xeyriyyəçiliyi ilə sayılan-seçilən seyidlərdən olan Seyid Yusif Seyid Hüseyn oğlunu hamı tanıyırdı. Abbasov Seyid Yusif ağa Seyid Hüseyn oğlu 1926-cı il fevral ayının 3-də Bərdə rayonunun Canavarlı kəndində, əslən iranlı olan Seyid Hüseyn ağanın ocağında dünyaya gəlmişdir. Seyid Yusif babanın cəddini çağıran, müşkül işi olan hər bir şəxs Ulu Tanrının istəyi ilə dardan qurtarar, şəfa tapar, məkrdən, şərdən uzaq olardı. Əsl imam xüsusiyyətlərini özündə cəmləşdirən Seyid Yusif baba həmişə səliqəli geyinər, mənalı, məntiqli və maraqlı söhbətlər edər, hədislər söyləyərdi. O, camaatı düzgün əmələ, doğru yola səsləyərdi. Ocağı daima qonaqlı-qaralı olardı.

Seyid baba yay aylarında Kəlbəcər rayonuna Qaradağlı yaylağına gələrdi. Bu yaylaq Puşkin kolxozunun inzibati ərazi vahidliyinə daxil olduğundan, Nəcəfalılar, Pirilər, Günəşli (Kilsəli), Comərd və Qaragüney kəndlərinin camaatı da həmin yaylağa köç düşərdilər. Seyid baba ilə yaylaq qonşusu olan kənd camaatı onun gözəl xasiyyətinə, mənəvi dünyasına, adətlərinə, insanpərvərliyinə daha yaxından bələd idilər. Seyid Yusif ağa hər-hansı bir səbəbdən yaylağa qalxmayanda Qaragüney kəndində Yumuru kişinin oğlu Güloğlanın evində qalardı.

Kəlbəcərin işğalından sonra köçkünlərə böyük maddi və mənəvi dayaq olan şəxslərdən biri də Seyid Yusif ağa olmuşdur. Öz evində onlarla məcburi köçkün ailəsinə sığınacaq verməklə yanaşı, seyid həm də ətraf kəndlərdə məskunlaşan köçkünlərə və imkansızlara da əl tutardı. O, taxıl biçinində onlara taxıl, Qurban bayramında qurbanlıq, Məhərrəmlikdə isə ehsan paylayardı. “İnşallah, o gözəl ocaqlarınıza qayıdacaqsınız. Bunu

mən hər namazda Böyük Yaradandan diləyirəm", - deyə camaata ürək-dirək verər, onların ümdini artırar, dəyərli söhbətləri ilə sakitləşdirərdi.

Seyid Yusif ağa 2005 -ci il avqust ayının 26-da ömrünün 79 -cu yayında aramızdan getdi. O, dünyasını dəyişsə də, ocağında dəyərli, alicənab oğullarını, nəvələrini görüb təskinlik tapırıq.

Qədirbilən elimiz seyidin vəfatından sonra onun yaşadığı Bərdə rayonunun Canavarlı kəndinin adını dəyişərək, o böyük insanın şərəfinə «Seyid Yusifli» adlandırmışlar. Bu gün Bərdə rayonunun Seyid Yusifli kəndinə gedən maşın karvanının ardı-arası kəsilmir. Bu karvan mənəvi təskinliyə ehtiyacı olanları, müşkül işlərinin həllini, xəstəliklərinin çarəsini Ulu Tanrıdan diləyənləri Seyid Yusif ağanın ocağına aparır. Seyidin nəvələri böyük ehtiramla zəvvarları stola dəvət edirlər. Dualar oxunur, hədislər danışılır, Ulu Tanrımız, peyğəmbərlərimiz və imamlarımız yad olunur. Seyid Yusif babanın həyat tərzini, adətlərini xatırladan şəxsi əşyaları, kitabları saxlanılan zəngin muzeyi həyəcansız ziyarət etmək mümkün deyil.

Dəfələrlə ılıq nəfəsi üzümüzə dəyən, duaları ilə bizləri instituta, hərbi xidmətə yola salan Seyid Yusif baba dünyasını dəyişsə də, ruhu daima bizimlədir. O, sağ olsaydı, yəqin indi də həmişəki kimi işğal olunmuş torpaqların tezliklə alınmasını Ulu Tanrıdan diləyərdi. Kəlbəcər dəyərlərinin mində birini özündə əks etdirən bu kitabı yazmaq fikrimizi bəyənər və bizə uğurlar arzulayardı. Qoy, Ulu Tanrı sevimli bəndəsi Seyid Yusif ağanın xətrinə başladığımız bu məsuliyyətli və ağır işimizdə bizə yar olsun! Amin!



**Seyid Yusif ağa və nəvələri.**

## ÇİÇƏKLİ YURDUN O BİRİ ÜZÜ



Nədənsə, kəndimizdə çox adam Nəcəfalılar kəndi barədə söhbət düşəndə adətən, "Çiçəkli yurdun o biri üzü" deyərdi. Bu, bəlkə də, kəndlərimiz arasında olan doğma münasibətdən irəli gəlirdi. Çünki hər iki kəndin– nəzərimdə dünyanın ən gözəl kəndi– Quzeyçirkinin, həm də eyni dağa söykənən Çiçəkli yurdun o biri üzündə şahanə görkəmiylə dağlara dirsəklənmiş Nəcəfalılar kəndinin adamları , bir-birinə o qədər məhəbbətli, ülfətli idilər ki, buna ayrı səbəb axtarmaq da lazım deyildi. Təkcə bir fakt kifayət edər ki, dediklərimin doğruluğuna şübhə yeri qalmasın: təbii ki, qonşu kəndlər arasında arabir otlaq-örüş üstündə müəyyən mübahisələr olardı. Kim biçinə tez başlasaydı, qonşu kəndin ərazisindən bir lay artıq biçməyi qənimət sayardı və buna görə də müəyyən narazılıqlar baş qaldırardı. O zaman dağdan ağır ağsaqqallar araya girər, münaqişəni yerindəcə həll edərdilər. Həmsərhəd kəndlərlə bu, təbii qarşılanacaq hallardır. Ancaq Nəcəfalılarla Quzeyçirkin camaatı arasında buna bənzər və yaxud digər xoşagəlməz hadisələr yadıma gəlmir. Təkcə bizim kəndlə yox, digər qonşu kəndlərlə də Nəcəfalılar eyni doğmalıqla münasibət saxlayardılar. Çünki o camaatın xəmiri mehr-məhəbbətdən yoğrulmuşdu. Özlərinə məxsus şirin ləhcəli, gülərüz, hər kəlmənin başında "qadan alım", "başına dönüm" deyə-deyə danışardılar, indi də elə danışırlar. Başlarına gələn müsibətə, ağır köçkünlük illərinə baxmayaraq…

İndi dəbdir, hər kimin imkanı var, nəsli-nəcabəti haqda kitab yazır, olanı-olmayanı tarixə salmağa çalışırlar. Ancaq Adil müəllimlə Elçin müəllim yanıma gəlib Nəcəfalılar kəndi haqda kitab hazırladıqlarını, nəşrinə kömək etməyimi xahiş edəndə, sevindim və tərəddüd etmədən ailəsinin gündəlik ruzisini qazanmaq üçün yaratdığı mətbəəsində

çap etməyi yaxın dostum Cəfər müəllimdən xahiş etdim. Təbii ki, Cəfər müəllim Kəlbəcərin adicə bir cığırı barədə də kitabın olmasına ürəkdən sevinən dostumuzdur. Beləcə, əziz kəlbəcərlilər, daha bir kəndimizin adamlarının, tarixinin, etnoqrafiyasının, duzlu-məzəli sözlərinin it-bata düşməyinin qarşısı alındı. Təbii ki, kağızda, kitabda…Və mən sizlərlə özümüzə, bütün Azərbaycan xalqına, Azərbaycan dövlətinə bu bitib-tükənməz sərvətlərinin tezliklə qaytarılacağı üçün müraciət edirəm: ayağa qalxıb doğma torpaqlarımızı yağı düşməndən azad etmək vaxtıdır! Həsrətdən dili-dodağı çatlayan, gözlərinin kökü saralan soydaşlarımızı ulu Göyçəyə, qədim türk oylağı Zəngə–zura, cənnət Qarabağa, Laçına, Kəlbəcərə, Nəcəfalılara... qaytarmaqla real tarixi bərpa etmək məqamıdır! Bu yolda hər birimizə yüksək döyüş əzmi, Qələbə sevinci arzusuyla…

***Sizin Əlövsət Ağalarov***

## GÖZƏL İNSANLARIN DƏYƏRLİ YURDU HAQQINDA KİTAB



Haqlı olaraq deyirik ki, Azərbaycanı bölgələrə ayırmaq düzgün deyil. Əlbəttə, bu fikirlə mən də razıyam. Çünki özümü həmişə Çindən başlayıb Avropanın içərilərinə qədər uzanan nəhəng türk torpaqlarının övladı, doğulduğum Şamaxını isə bu böyük diyarın bir doğma zərrəsi bilmişəm. Bu baxımdan yerlibazlıq edən, əlinə kiçik bir səlahiyyət keçən kimi öz ətrafına yalnız öz həmyerlilərini yığan vəzifəliləri çox kiçik ürəkli adam hesab edirəm.

Amma başqa bir mənada hər bir bütöv varlıq zərrəciklərdən ibarət olduğu kimi, Azərbaycan da müxtəlif, çoxsaylı, rəngarəng bölgələrdən ibarətdir. Hər bölgənin öz gözəlliyi, öz fərqli xüsusiyyətləri var.

Azərbaycanı bir gül bağçasına bənzətsək, əlbəttə, burada yalnız qızılgül kolları görməyimiz çox da ürəkaçan olmaz. Bu bağçada qızılgüllə yanaşı zanbaq, yasəmən, lalə, nərgiz, novruzgülü, bənövşə və s. ətirli güllər bir-birinə qarışıb.

Beş barmağın beşi də bir olmadığı kimi, bölgələrimizin də xüsusiyyətləri eyni deyil. İş elə gətirib ki, tanınmış şair Adil Cəmil və bu kitabın müəllifi Adil Həmid də daxil olmaqla, çox sayda kəlbəcərli ilə tanış olmuşam. Şamaxıda İcra hakimiyyəti strukturunda işləyərkən ilk vaxtlar orada məskunlaşmış xeyli kəlbəcərli ilə ünsiyyətdə olmuşam.

Nədənsə, məndə belə bir fikir formalaşıb: harada üzünü görmədiyim, haqqında eşitmədiyim bir kəlbəcərlinin adını çəkirlərsə, mən dərhal onun mehriban, saf, təmizqəlbli adam olması təsəvvürünə gəlirəm.

Açığını deyim ki, o vaxt mənfur düşmənlərimiz

rayonları işğal edəndə Kəlbəcərin işğalı məni daha çox sarsıtdı. Vətənpərvər şair Adil Həmidin və hüquqşünas Elçin Əliyevin əlinizdə tutduğunuz bu kitabını oxuyandan sonra isə Kəlbəcəri itirməklə (müvəqqəti də olsa) nə qədər çox şey (maddi və mənəvi) itirməyimizin bir daha şahidi oldum.

Kitabı oxudum və çox təsirləndim. Mənə elə gəldi ki, Kəlbəcəri təzədən itirdim....

Adil Həmid Dəlidağlı ilk şeir kitabını çap etdirdikdən sonra həmyerlisi Elçin Əliyevlə çox çətin, məsuliyyətli və şərəfli bir yükün altına giriblər. Onlar çalışıblar ki, Kəlbəcərin, xüsusilə də böyüyüb boya-başa çatdıqları Nəcəfalılar kəndinin nə bircə qarış yeri, nə də bircə sakini də unudulmasın, onlar barəsində yazılan bu dəyərli məlumatlar gələcək nəsillərə çatsın. Bundan yaxşı, bundan şərəfli iş nə ola bilər ki?!

Müəllifələr bu kitabda Nəcəfalılar kəndinin ensiklopediyasını yaradıblar. Kitabı oxuyan hər kəs on yeddi il əvvəlki Nəcəfalılar kəndinə gedəcək, onun çəmənlərində, meşələrində, dağlarında, yaylaqlarında gəzəcək. Hər bir sakinin ayrılıqda qonağı olacaqdır.

Bu baxımdan bu kitab təkcə kəlbəcərlilər üçün yox, bütün Azərbaycan vətəndaşları, bütün gənclərimiz üçün faydalı ola bilər.

Nəhayət, belə bir çətin işə girişdikləri üçün Adil Həmidə və Elçin Əliyevə dərin təşəkkürümü bildirirəm!

***Elxan Elatlı,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü,***
***"Qızıl qələm" mükafatı laureatı.***

# YURD HƏSRƏTİ

Hörmətli oxucular, əziz həmkəndlilərim!

Nə zamansa əlimə qələm alıb kitab yazacağım heç ağlıma da gəlməzdi. Lakin, görünür el-oba həsrəti, doğma yurd göynərtisi, bizləri bundan sonra hələ çox işlər görməyə vadar edəcəkdir.

Talelərinə məcburi köçkünlük, didərginlik qisməti yazılmış, respublikamızın 21 bölgəsinə səpələnmiş həmyerlilərimizin xeyir-şər işlərində iştirak etmək mənim üçün olduqca xoşdur. Onların şən və gülərüz simalarını, gələcəyə nikbin və ümid dolu baxışlarını gördükcə təsəlli tapıram. Lakin onlarla söhbət zamanı bəzən doğma diyarımızda qoyub gəldiyimiz müəyyən yer adlarını, əsrlərdən süzülərək yaddaşlarımızda həkk olunmuş dəyərli adət-ənənələrimizi, hətta yaxın qohum-əqrəbalarının adlarını unutduqlarını gördükdə isə olduqca məyus olur və bərk narahatlıq hissi keçirirəm.

İtirilmiş maddi nemətləri nə vaxtsa geri qaytarmaq olar. Lakin nəsildən-nəslə keçərək əsrlərin sınağından çxan, ata-babalarımızın göz bəbəyi kimi qoruduğu mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qaytarmaq olduqca çətindir. Əgər bu gün o yerlərin hər qarışına bələd olan insanların bəziləri həmin yerlərin adını, elimizin müəyyən adət-ənənələrini, hətta ulu baba-nənələrin, qohum–əqrəbanın adlarını unudurlarsa, onda o yerləri hələ görməmiş yeni nəsil bu dəyərləri necə yaşadacaq və gələcək nəsillərə necə ötürəcəkdir?!

Bütün bunları fikirləşdikcə bu itkinin nə qədər ağır və facəili olduğunu dərk edir, dəhşətə gəlirsən.

Məhz bu zərurətdən öz doğma elmizin tarixindən, insanların–dan, təbiətindən, adət-ənənələrindən bəhs edən bir yazılı yaddaş kitab yazmaq qərarına gəldim. Öz düşüncələrimi elimin dəyərli oğlu Adil Həmidlə bölüşərkən o, mənim bu niyyətimi bəyənərək, özünün də belə bir arzuda olduğunu bildirdi. Bu ülvi niyyətlə biz məqsədimizə doğru getməyə başladıq.

Sizlərə təqdim etdiyimiz bu kitab ulu keçmişimizə, doğma kəndimizə, onun hər bir şəxsinə olan dərin hörmət və rəğbətimizdən ərsəyə gəlmişdir.

Üzərimizə olduqca çətin, lakin çətin olduğu qədər də şərəfli və qürur doğuran bir iş götürdüyümüzü yaxşı başa düşür, bunun bütün məsuliyyətini dərindən dərk edirik. Ona görə də mötəbər mənbələrdən əldə etdiyimiz obyektiv məlumatları heç bir təhrifə yol vermədən kitaba daxil etməyə çalışmışıq. İnanırıq ki, kitabı oxuyan hər bir şəxsi, xəyalən olsa da, yenidən həsrətində olduğumuz doğma yurdumuza apara biləcəyik. Xəyalımız bir quş tək o yerlərə uçaraq, kəndimizin hər qarış torpağını ziyarət edəcəkdir. Qayğısız yaşadığımız illərə dönərək o illərimizi yenidən yaşayacağıq. Unudulmaqda olan bir çox dəyərlərimizi xatırlayaraq, onları yaddaşlarımızda əbədi həkk edəcəyik.

Ülvi duyğularımızdan doğan bu çətin və məsuliyyətli işin öhdəsindən nə qədər gələ bilmişik, bunu siz dəyərli oxucularımız deyəcək və qiymətləndirəcəksiniz.

Məlumat azlığından, həmçinin respublikamızın müxtəlif bölgələrinə səpələnmiş həmkəndlilərimizlə əlaqələr saxlamağın çətinliyi ilə bağlı və bizdən asılı olmayan bu və ya digər səbəblərdən müəyyən şəxslər və ya hadisələr barədə kitabda qeyri-dəqiqliyə yol verilməsi mümkündür. Əgər hörmətli oxucularımız belə hallara rast gələrlərsə, onda kitabın gələcək nəşrlərində bu nöqsanların aradan qaldırılması üçün bizimlə əlaqə saxlamalarını xahiş edirik!

Sizlərlə yenidən doğma Kəlbəcərimizdə, Nəcəfallıar kəndində görüşmək arzusu ilə sizi sevən və dəyərləndirən eloğlunuz

***Elçin Əliyev.***

# HƏSRƏT YÜKLÜ ÖMÜR KARVANININ ÜMİD AXTARIŞLARI

Salam, əziz oxucu!

Bu keşməkeşli, gəlimli-gedimli, narahat dünyanın qayğılarından bir anlıq əl çək. Gəl, mənə yaxın əyləş! Səni sevən, sənin üçün qəlbi döyünən, narahat olan bir insanın səmimiyyətinə inan! Səni maraqlı, rəngarəng, bənzərsiz bir səyahətə aparacam. Burda sevinc də var, kədər də, qüssə də, qəm də.

Ey insanlar, dərdi məndən,
Məni dərddən aralayın!
Lap bitişmiş olsaq belə
Qılınc çəkin paralayın.

***Mehdixan Kəlbəcərli.***

Ancaq kədərdən, dərddən qorxmayın. İnsanı kədər saflaşdırar, duruldar. Kədərin ayağına yıxılanlar həmişə başda olublar. Dərdin çəkisi ağır, qiyməti baha, sonu isə sevincdir.

Dənləri insan olan polad pərli “zaman“ adlı dəyirmandan bir umacağım var; sizi aparacağımız o səyahətimiz uğurlu olsun. Xoş təəssüratlı anlar yaşayasınız!

Bu gün sizi nisgilli, həsrətli, zülmət qaranlıqları yarıb ətrafa nur saçan bir ocağın-Azərbaycanın zümrüd tacı Kəlbəcərin ziyarətinə aparacağam. Toylu-büsatlı, sazlı-sözlü, adət-ənənəli, şairlər, yazıçılar məskəni, xoş anlarımın şahidi, dəhşətli günlərimin şəhidi olan ağır elli Kəlbəcərin səyahətindən doğan bu ocağın işığına doğru aparacağımız bu yolda yenilməz qüdrət sahibi olan, şəfqətli Rəbbimiz bizə yar olsun!

Gözə görünməyən, heç kəsə bəlli olmayan sirləri bilmək yalnız Allaha məxsusdur. Gecə və gündüzü bizlər üçün ram edən, on səkkiz min aləmi yaradan Rəbbimiz kimin doğru yolda olduğunu daha yaxşı biləndir.

Ey Rəbbim, bizə kömək et! Öz dərgahından bizə qüvvət və cəsarət ver! Qoy bu səyahətdən üzüağ çıxaq!

Axı, zəhmətsevər söz xiridarlarının, ər igidlərin məskəni olan qədim Kəlbəcər eli həmişə saf sözə, sanballı, ağır çəkili kəlməyə qiymət verən olub.

Hər zülmət gecənin nurlu sabahı olduğu kimi, biz inanırıq ki, bu gün Kəlbəcərin üstünü almış qara buludlar sabahın nuru ilə əriyəcəkdir. Kəlbəcər üfüqlərindən yenidən günəş doğacaqdır. Obalarından insan səsləri, dağlarından, yamaclarından qoyun -quzu mələşməsi, zirvələrindən isə qartal qıyı eşidiləcəkdir!

Sizə xoş ovqat, yaddaşlarda qalan dəyərli təəssürat arzusu ilə sizi sevən

***Adil Həmid Dəlidağlı.***

# I HİSSƏ

## NƏCƏFALILARA GEDƏN YOL



# I FƏSİL

## TARİXİMİZƏ QISA SƏYAHƏT

Hörmətli oxucularımız!

Biz – kitab müəllifləri tarixçi deyilik. Artıq bildiyiniz kimi, birimiz hüquqşünas, digərimiz isə şair və ədəbiyyatçıdır. Ölkəmiz barədə olan bilgilərimiz isə zəngin tarixə, mədəniyyətə və incəsənətə malik olan vətənimizin keçmişi barədə hər-hansı araşdırmalar aparmaq və ya müstəqil fikirlər söyləmək üçün yetərli deyildir. Bu kitabı yazarkən bizim belə bir niyyətimiz də olmayıb. Sadəcə olaraq, doğma Nəcəfalılar kəndimizin tarixindən, əhalisindən, adət-ənənələrindən, təbiətindən yazarkən, Allahın hökmü ilə bir parçası olduğumuz doğma Azərbaycanımızın və onun dilbər guşəsi Kəlbəcər diyarımızın keçmişinə qısa bir səyahət etməyi özümüzə borc bilmişik. Tariximizlə bağlı kitaba daxil etdiyimiz məlumatları isə rəsmi mənbələrdən dərslik kitablarından, qəzet və jurnallardan, Azərbaycanın və Kəlbəcərin internet saytlarından və digər mötəbər mənbələrdən əldə etmişik. Həmin rəsmi, statistik məlumatlara heç bir düzəliş və əlavələr etmədən, onları qəlbimizdən və ruhumuzdan gələn, Vətənə məhəbbət və Vətən həsrətli hisslərimizlə yoğuraraq sizlərə təqdim edirik.

# FIRTINALARDA KEÇƏN ÖMÜR

*Vətəni sevməyən insan olmaz;*
*Olsa, ol şəxsdə vicdan olmaz!*

***Abbas Səhhət .***

İnsanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrə təsadüf edir. Bu dövrün 4 mln il bundan irəli olması elmi əsaslarla sübuta yetirilmişdir. Azərbaycanda Füzuli rayonunun yaxınlığında Azıx mağarasında, Qarabağda Tağlarda, Kəlbəcərdə Zarda, Naxçıvanda Qazmada, Qazaxda Qədirdərədə, Çaxmaxlıda, Kəkillidə və digər bölgələrdə açıq düşərgələrdə aparılan arxeoloji tədqiqatlar bunun əyani sübutudur. Bu zaman insanların ilk əmək alətləri daşdan olmuşdur. İnsanlar öz həyat tərzini, məşğuliyyətini daş yaddaşına həkk etmişlər.

Körpəlikdə oynadığımız beşdaş oyunundan tutmuş son məqamda baş daşımıza çevrilən daşlar bu gün də minilliklərin yaddaşını özündə yadigar saxlayır. Bundan sonra gələn dövr Tunc dövrü və ya Kür-Araz mədəniyyəti dövrü adlanırdı. Bu mədəniyyətin əsas yayılma sahəsi Kür -Araz ovalığıdır. Bu dövrdə əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuşdur. Yeni heyvan növlərinin əhliləşdirilməsi, xüsusilə də təsərrüfatda atdan istifadə olunması işi xeyli asanlaşdırmışdır.

Kür-Araz mədəniyyətinin son dövrlərində Azərbaycanın dağlıq ərazilərində Xoşbulaq və Xolazək (Kəlbəcər) yaylaqları kimi yaşayış məskənlərində məskunlaşma başa çatmışdır.

Eramızın III-VI əsrləri Sasanilər dövlətinin formalaşması ilə tarixdə iz buraxmışdır. Daha sonra VII-IX əsrlərdə torpaqlarımız ərəb əsarətində olmuşdur. Bu zaman onlar həm islam dininin daha geniş yayılması üçün təbliğatlar aparır, həm də öz hakimiyyətlərinin dairəsini genişləndirirdilər.

VII əsrdən başlayaraq xalq təbabətini ərəblər daha sürətlə inkişaf etdirdilər. Bir neçə əsr müddətində ərəblərin öyrəndikləri 2600 dərman maddəsindən 1400-ü bitki mənşəli idi. Qeyd edək ki, Azərbaycan təbibləri ərəb xalq təbabətini

qəbul etməklə yanaşı, həm də onu xeyli zənginləşdirmişlər. Bu təbiblərdən Əbu Mənsurun rolunu xüsusilə göstərmək olar.

Ərəb xilafətinin süqutundan sonra IX-XI əsrlər isə tarixdə Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətinin fəaliyyəti ilə yaddaşlara yazıldı.

1054-1136-cı illər Səlcuqların, 1136-1225-ci illər isə başçıları Atabəy Şəmsəddin Eldəniz olan Eldənizlər dövlətinin hakimiyyətini unudulmaz etdi.

Monqolların ölkəmizə yürüşü də izsiz keçmədi. Ölkəni talayıb viran etməkdən zövq alırdılar.

Hülakülərin, Teymurilərin də təsirində az olmamışıq. Bundan sonra Qaraqoyunlu da olmuşuq, Ağqoyunlu da.

XVI əsr tariximizdə, ədəbiyyatımızda olduğu kimi ərazilərimizdə də ən böyük dəyişikliklər dövrü olub. Gözəl sərkərdə, dahi şəxsiyyət, şair və siyasətçi Şah İsmayıl Xətainin dövründə torpaqlarımız daha geniş, millət daha qürurlu, dilimiz daha doğma və təmiz olmuşdur. Azərbaycan dili dövlət dili səviyyəsinə qaldırılmışdır. Türk dilinə gözəllik, parıltılıq verən, onu ətirli çəmənə döndərən dahilərdən Xətaini, Füzulini, Aşıq Qurbanı, Həbibini göstərmək olar.

Torpaqlarımızın ümumi sahəsi 410 min kv. km olmuşdur. Sonralar torpaqlarımız Əfşar nəslindən olan Nadir şahın himayəsində olmuşdur. Ondan sonra xanlıqlara, sultanlıqlara parçalanmalar baş verdi. Bu zaman Kəlbəcər Qarabağ xanlığının tərkibində olmuşdur.

XIX əsrin əvvəllərində Kürəkçay müqaviləsi ilə Qarabağ Xanlığı Rusiyaya birləşdirilir, 1822-ci ildən isə tamamilə ləğv olunaraq Rusiyanın müstəmləkəsi olur. 1828-ci il Türkmənçay müqaviləsi Azərbaycanın əzəli torpaqlarını iki yerə parçaladı. Doğma elim şimal və cənuba bölündü. Hələ bu azmış kimi, Azərbaycan ərazisi vilayət, quberniya və qəzalara bölündü. Onlara rəhbərlik isə ruslara tapşırıldı. O zaman Kəlbəcər Yelizavetpol quberniyasına, Cavanşir qəzasına tabe idi.

1918-ci ilin dəhşətli mart soyqırımından sonra erməni millətçilərinə qarşı nifrət artdı. Millətimin azadlıq uğrunda mübarizəsi özünün son həddinə çatdı. Bunun nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Lakin bunu da xalqıma çox gördülər. Cəmi 23 ay yaşayan Cümhuriyyətimizi düşmənlər boğdular. Yenidən yadellilər doğma ellərimizə yürüş etdilər. Azərbaycan yenidən işğal olundu. Bu dəfə isə rus bolşevikləri tərəfindən.

Yenidən xalqımın azadlıq səsi boğuldu.

Nə az, nə çox, düz 70 il müstəmləkəlik həyatını yaşadıq.

Böyük Vətən müharibəsi illərində Adolf Hitlerə SSRİ-nin şəhərlərinin təsviri olan tortu gətirib, «bəyəndiyiniz hissəni götürün»,-, deyə təklif edən zaman o, məmnuniyyətlə tortun üzərindən "Bakı"nı götürmüşdür.

Hələ sovetlər hakimiyyəti dövründə Azərbaycan torpaqları azaldılaraq 86,6 min kv. km-ə endirilmişdi. Təkcə 1948-1953 -cü illərdə Stalinin qərarı ilə 100 mindən artıq azərbaycanlı Qərbi Azərbaycandan zorla çıxarılmışdır...

Bəli, Azərbaycan tarixinin sirli, sehrli səhifələrinə baş vurduqca adamı həm qürur hissi bürüyür, həm də qorxulu, ədalətsiz qərarlardan doğan dəhşət hissi. Yüzilliklər boyu dəfələrlə ədalətsiz hökmlərə, elan olunmamış müharibələrə məruz qalsaq da, sonda həqiqət bizim tərəfimizdə olduğundan səbirli, ədalətli və rəhmli Allahın köməyi ilə tarixin sınaqlarından üzüağ çıxmışıq.

Daha sonra xalqımın qan yaddaşına qanla yazılmış qanlı 20 Yanvar gecəsi!

Deyirlər, 1990-cı il 20 Yanvar gecəsi doğulan uşaqların əksəriyyəti oğlan olmuşdur. Millətimin azadlığı uğrunda amansız düşmənə qarşı əliyalın çıxan, sinələrini tanklara, BTR-lərə, odlu-alovlu silahlara sipər edən, qanlı 20 Yanvar faciəsində şəhidlik zirvəsinə ucalan ər oğullarımızın, qeyrətli qızlarımızın yerləri boş qalmasın deyə, Ulu Tanrı millətimə yar olmuşdur. Xalqıma yeni oğullar bəxş etməklə boşalmış səflərimizi doldurmuşdur. Axı həqiqət bizim tərəfimizdə idi...

O ki qaldı əsrin ən böyük faciələri olan Xocalı, Şuşa, Kəlbəcər, Ağdam, Cəbrail, Füzuli, Zəngilan, Xocavənd, Xankəndi, Qubadlı və Laçın rayonlarında tökülən nahaq qanların, törədilən soyqırımlarının haqqına, yəqin ki Ulu Tanrının köməyi ilə, gündən -günə güclənən qüdrətlənən azərbaycanlılar öz ağlı, zəkası və öz igid sərkərdələri ilə birlikdə bu haqqın hesabını bir gün çəkəcəklər. Elimiz ağlaya-ağlaya tərk etdiyi ata-baba yurdlarına, ocaqlarına nə vaxtsa gülə-gülə qayıdacaqdır. Bu gün isə Allahın sevdiyi ən yaxşı xüsusiyyətlərdən biri olan səbir etməyi üstün tutur, ədalətin mütləq qalib gələcəyinə inanırıq.

Biz tarixin bəzi səhifələrinə sizinlə birlikdə ötəri bir nəzər saldıq. Bu təəssüratın bədii təsviri isə belə yarandı:

## BAX, BUNLARDAN YAZMALIYIQ!

Dedin: – "Niyə az yazırsan,
Yazmağı ki, bacarırsan?!"
Hansı dərdim yazım ki, mən,
Sakitləşsin qəlbim bir az?!
Xalqımın başına gələn
Fəlakətlər deyildir az:
Çox talayıb Sasanilər,
Sonra da məşhur ərəblər.
Yaxşı ki, varmış Babəklər,
Koroğlular, Cavanşirlər.
Monqollar da az etməyib,
İzi yurdumdan getməyib.
Talayıblar hər nə varsa,
Məhəl qoymayıblar yaşa.
Başımıza gəlib oyun:
Əvvəl olmuşuq "ağ qoyun"
"Qara qoyun "da olmuşuq,
Bir-birimizi vurmuşuq.
Görüb tükənməz sərvətin
Gücdən düşmüş bu millətin
Əldən verməyib fürsəti
Rus "dost"secib bu milləti.
70 il çəkib şirəsin
Qoyublar quru dənəsin
Nədən yazım, kimdən yazım?!
Qəlbim göynər sızım-sızım.
Xalqım bu günə qalıbsa,
Millət yasa batıbdırsa,
Hansı məhəbbətdən yazım?
Hansı ədalətdən yazım?

Bu dünyada neçə dadlı
Meyvə verən ağaclar var.
Dənədən yaranıb onlar.
Biz yenidən güclənməli,
Yenidən boy atmalıyıq!
Xalqımıza sədaqətli,
Əhdə vəfa olmalıyıq
Arzumuza çatmalıyıq.
Bax, bunlardan yazmalıyıq!!!

***Adil Həmid***

# II FƏSİL

## QƏDİM YURDUN TARİXÇƏSİ



# AZƏRBAYCANIN ZÜMRÜD QAŞI – KƏLBƏCƏR



*Kəlbəcər həm alimlər, həm şairlər,ziyalılar,*
*həm də çox fədakar insanlar diyarıdır.*

***Heydər Əliyev***

Azərbaycan Respublikasının cənub-qərb bölgəsinin zirvəsi, Qarabağın qala qapısı sayılan gözəl Kəlbəcər diyarı dəniz səviyyəsindən 3616-3724 metr hündürlükdə yerləşir.

Ən qədim insan məskəni olan Kəlbəcərdə ibtidai insanın təşəkkül tapması və formalaşması dörd milyon ildən artıq bir tarixə malik olan dördüncü geoloji dövrlə bağlıdır.

Kəlbəcər rayonunda 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri – Zar mağarası və 6 min il yaşı olan qaya təsvirləri, çöp şəkilli qədim türk əlifbası nümunələri aşkar edilib. Zarda tapılan tağbənd ev damlarında ev əşyaları və əl vuranda ovulub külə dönən yorğan-döşək, qalaq-qalaq insan sümükləri buranın ən qədim insan məskəni olduğundan xəbər verir.

İnsan qohumlarına qanı ilə bənzədiyi kimi, qayaüstü rəsmlər də öz cizgiləri ilə qohumu Qobustanın cizgilərinə bənzəyir. Burada olanda Qobustanı xatırlayırsan. Burada “Türk qəbirstanlığı”adı ilə tanınan bir neçə məzarlıq var ki, bunların da ən böyüyü Zar və Türkeşəvənd kəndlərinin ərazisindədir.

Antik dövrün abidəsi olmaqla yanaşı, bu yerlər çox zəngin flora və faunaya da malikdir. Ərazidə yerləşən yaylaqlar heyvandarlığın inkişafı üçün böyük zəmin yaradır. Kəlbəcərin 93000 hektar ərazisinə hər il yay aylarında Azərbaycanın onlarla rayonundan 380 mindən çox mal-qara yaylamağa gətirilirdi.

Torpağın üstünü min bir bəzəklə cilalayan, gözəllikdə heç nəyi əsirgəməyən İlahi burada yerin tərkini də

zəngin yaratmışdır. Bu yerlərdə 77 növ mineral, 30-a yaxın şirin sulu çaylar var.

Tez-tez yağıntı düşdüyündən havanın temperaturu, hava şəraiti gün ərzində bir neçə dəfə dəyişir. Bəlkə də, buna görədir ki, rayonun qoynunda yerləşdiyi dağ "Dəlidağ "adlanır. Hər tərəfdən dağlarla əhatə olunan rayon ərazisi üçüncü və dördüncü dövrün vulkanizm lava axınına məruz qalıb. Tərtər çayı sol axını boyunca möhtəşəm qayalıqlarda gözəl təbii mənzərələr yaratmışdır. Bu da sonrakı dövrlərdə aşınmaya məruz qalaraq tikinti materialları olan çınqıllara dönmüşdür.

Kəlbəcər rayonu 1930-cu ildə Azərbaycan SSR tərkibində inzibati rayon statusu almışdır. Azərbaycanda ərazisinə görə ən iri rayondur. Ümumi sahəsi 1936 kv. km, əhalisinin ümumi sayı 58340 nəfər təşkil edirdi. Sıxlığı 80-130 kv. km-dir. Əhalinin 98% azəri türkü, 2% digər millətlər idi. Telefon kodu : 237-dir. Bir rayon mərkəzi, 128 kəndi 46 sovetlikdə birləşirdi. 2 qəsəbəsi, 140 iri və orta müəssisəsi, 115 məktəbi, 9 uşaq bağçası, 1 peşə məktəbi, 107 xəstəxana və tibb mərkəzi, 172 mədəniyyət obyekti vardır. Kəlbəcərin 397 kv. km məhsuldar, 343 kv.km heyvandarlıq üçün otlaq sahəsi vardır.

Kəlbəcər, həmçinin "İstisu" mineral sudoldurma zavodu və "Şorbulaq" civə zavodu ilə də məşhurdur.



**Kəlbəcər şəhəri.**

## KƏLBƏCƏRİN İQTİSADİ – COĞRAFİ MÖVQEYİ

Kəlbəcər rayonu qərbdə Ermənistan Respublikası, şimalda Daşkəsən, Göygöl (Xanlar), Goranboy, şərqdə Ağdam, Xocalı, cənubda isə Laçın rayonu ilə əhatə olunub.

Kəlbəcərin təbii sərvətlərindən alınan gəlir respublikamızın heç bir rayonunun gəliri ilə müqayisə oluna bilməzdi. Lakin, zəhmətsevər, dağ vüqarlı Kəlbəcər camaatı təkcə təbiətin onlara verdiyi hazır nemətlərdən istifadə etməklə kifayətlənməyərək, həm də öz zəhmətləri, alın təri, əl qabarları ilə yaşamağa üstünlük verirdilər.

İqtisadiyyatın əsasını kənd təsərrüfatı: maldarlıq, tütünçülük, bağçılıq, tərəvəzçilik və arıçılıq təşkil edirdi. Rayonda 31 kolxoz, 2 sovxoz fəaliyyət göstərirdi. Hər il min tonlarla kənd təsərrüfatı məhsulları (ət, süd, yağ, bal, tütün) istehsal olunurdu. Rayonda maldarlıq geniş inkişaf etmişdi. Əhalinin şəxsi təsərrüfatında 11841 baş iri buynuzlu, 103481 baş xırda buynuzlu heyvanlar vardı. Şəxsi təsərrüfatlarda 551 arı ailəsi vardı. Bununla yanaşı, əhali xalçaçılıqla da məşğul olurdu. Kəlbəcərin Çələbid, Xonçalı, Gül və s. gəbələri tək ölkəmizdə deyil, dünyada məşhurdur. Kolxozçular ildə dövlətə 260 t tütün, hər inəkdən 1 bala və 1 lt süd vermək öhdəçiliyi ilə çalışırdılar. Ərazisində 80-dən çox dağ yerləşən Kəlbəcərin geniş və səfalı yaylaqlarında respublikanın onlarla rayonundan gətirilən yüz minlərlə iri və xırda buynuzlu mal-qara bəslənirdi. Salyan və Ağcabədi rayonlarında isə Kəlbəcər rayonu təsərrüfatının mal-qarası üçün qış otlaq sahələri ayrılmışdı.

## Toponimləri

Qartal kimi uca qayada qərar tutan Kəlbəcər rayonu münbit torpaqlara, gözəl iqlim şəraitinə məxsusdur. Bu məkanda əkib-becərmək çox faydalı və məhsuldar olduğundan, onun adının da toponimi el arasında “gəl becər” kimi məşhurdur. Lakin Kəlbəcər toponiminin mənşəyi qədim türk dilində “kevliçer” kimi qəbul edilir ki, bu da “çay üzərində qala” deməkdir. Yaşayış məntəqəsinin yerləşdiyi qayalarda

Tərtər çayı boyunca düzülmüş qədim süni mağaralar mövcuddur. Burada oronomik toponimlərin hamısı türk mənşəlidir. Bir sıra türk mənşəli tayfa adları bu gün də yaşamaqdadır.

## KƏLBƏCƏRİN BÖLGƏLƏRİ

Qeyd etdiyimiz kimi, Kəlbəcərdəki toponimlərin hamısı türk mənşəlidir: Kəlbəcər şəhəri, İstisu qəsəbəsi, Ləmbərən ərazisi, Zəylik, Zar, Mollabayramlı, Zivel, Çıraq, Şurtan, Qaraçanlı, Lev, Keştək, Yellicə, Dalqılınclı, Şaplar, Daşbulaq, Milli, Çaykənd, İstibulaq, Qılınclı, Nəcəfalılar, Nadirxanlı, Sarıdaş, Başlıbel, Tırkeşəvənd, Əsrik, Zülfüqarlı, Abdullauşağı, Almalıq, Ağcakənd, Mərcimək, Comərd, Dəmirçidam, Seyidlər, Təkərqaya, Susuzluq, Çəpli, Qamışlı, Yanşaq, Ağdaban, Bağlıpəyə, Çərəktar, Kərəmli, Günəşli, Bağırxan, Narınclar və s.

**Yer və yurd adları:** Çorman, Barmaq, Çiçəkli, Söyüdlü, Abdal, Qaraxanlı, Qaramanlı, Xəndək, Yüzdək, Tələlər, Ağcalıkənd, Kosayatan, Gərdən, Kalafalıq, Qaradağlı, Qoçdaş, Tərtər, Dəlidağ, Keyti, Tamaşa, Dikyurd, Düzyurd, Yelli yurd, Aydoğan, Gendərə və başqaları.

## Abidələri, qaya təsvirləri və qalaları

Dünyada hər şeyə ad qoyan Dədə Qorqud əşya və ya insanlara ad qoyarkən onun funksiyasına, oxşarlığına və səciyyəsinə görə ad qoymuşdur. Ən qədim insan məskənlərindən biri olan Kəlbəcər antik dövrün canlı abidəsi kimi özündə ən qədim türk əlifbası nümunələrini, alban mədəniyyətini əks etdirən qayaüstü təsvirləri, e.ə. 3-cü minilliyə aid gil qabları, dən daşlarını, dəvəgözü və çaxmaqdaşından hazırlanmış bıçaqları qoruyub saxlayırdı. Burada 1976-cı ildə divarının qalınlığı 2m, diametri 20mm olan dairəvi tikili qalığı tapılmışdır ki, bu da ilk insan məskəni kimi sübuta yetirilmişdir. Bazalt daşına həkk edilmiş çoxlu sayda qədim heyvan təsvirlərindən, ov səhnələrindən, yallıya bənzər oyunlardan ibarət olan qayaüstü təsvirlər Şərcəli dağ, Qurbağalıçay, Gəlin qayası, Soltan Heydər (Şah İsmayılın atası Soltan Heydər hər yay burada dincəlirmiş), Ayı çınqılı, Zolxa gölü, Dəvəgözü dağı adlanan yerlərdə tapılmışdır. Bu

təsvirlərin 3500-dən çoxu Kəlbəcər Tarix - diyarşünaslıq muzeyində qeydə alınmış və çoxlarının şəkilləri çəkilərək muzeydə təşkil edilmiş guşədə saxlanılırdı.



**Tərtər çayı üzərində Soyuqbulaq körpüsü.**

VI-VII əsrlərdə Alban knyazı tərəfindən, heç bir ağac materialından istifadə olunmadan tikilən Xudadəng qalası və eləcə də Laçınqaya, Lev, Uluxan, Qaraçanlı, Qalaboynu və Comərd qalaları da qədim alban abidələrindəndir .

Xudadəng abidə komleksi Kəlbəcərin 29 kilometrliyində, Tərtər çayının sol sahilində yerləşirdi. Deyilənə görə, Xaçın Arsax hökmdarı Həsən Cəlali bu abidəni XIII əsrdə qızı Arzu xatunun şərəfinə tikdirib. Bu binaların üstü tağbənd-günbəz şəklində hörülmüş və heç bir ağacdan istifadə olunmamışdır. Xudadəng abidəsində olan yazıları və şəkilləri hələ o zamanlar ermənilər imkan düşdükcə balta ilə yonaraq izlərini itirməyə çalışırdılar. Sonra isə çəkdikləri filmlərdə onlara erməni kilsəsi adı verərək çox ustalıqla uydurmalar fikirləşirdilər.



**Daş qoçlar**



**Daş fiqurlar**

Bu beş qala bir-birlərini işarələrlə başa salan əhalinin karvan yollarını qorumaq üçün inşa edilmişdir. Hətta Laçınqayanın sağ sahillərindəki çınqıllıqdan çaya enən bir yeraltı yol var. Comərd qalasının düz qurtaracağında dairəvi, möhkəm bir tikili var idi ki, onun da başında dibi görünməyən bir quyu vardır. Yuxarıdan atılan daşın hara düşdüyünü eşitmək olmurdu.

Kəlbəcər ərazisində Çaykənd, Çərəkdar, Bağlıpəyə, Yuxarı Qamışlı, Yuxarı Şurtan və Zəylik kəndlərində çay üzərində qurulmuş çoxlu tağbənd, daş körpülər də vardır ki, onların da bir neçəsi son zamanlara qədər saxlanılırdı.

Kəlbəcər Tarix–Diyarşünaslıq muzeyinin həyətinə gətirilmiş 28 ədəd yazılı və şəkilli daşlar, nəinki Kəlbəcərin, həm də bütün Azərbaycan torpağının qədim insan məskəni olduğunu sübut edir. Ona görə də ağıllı, uzaqgörən ziyalı alimlərimiz hələ o zamanlar Kəlbəcəri ciddi nəzarətə alıb, qorumağı tələb edirdilər.

"Kəlbəcərdə yerləşən Löh qalasının beli dəvə boynuna oxşayırdı. «Löh» qalasının basında dərinliyi 3 -5 metr olan dasdan yonulan quyular var idi. Burada qida məhsulları, ərzaq və su saxlanılırdı. Həmin quyuların içərisindən bitib çıxan palıd ağacının birinin diametri 30-40 sm idi.

Kəlbəcər qalalarının içərisində ən hündürü Comərd və Nəcəfalılar kəndi yaxınlığında yerləşən Comərd qalasi idi. Bu qalaya maşınla, atla nə qədər yaxınlaşsan da, yenə də ən azı 500 metr yuxarı piyada qalxmaq lazım idi. Qalanın sıldırım qayalardan ibarət olan bir tərəfinə isə quşdan başqa heç bir canlı ayağı dəyməzdi.



## KƏLBƏCƏRİN FLORA VƏ FAUNASI

**Florası:** Rayonun ərazisində planetin “ağ ciyəri” adlanan 40 min hektardan çox meşə örtüyü vardı. Qırmızı kitaba düşən Ayı fındığı, Gürcü palıdı, Qırmızı palıd, Qafqaz cökəsi, Saqqallı qozağacından tutmuş ən adi ağaclara qədər yüzlərlə ağac vardır. Bu ağaclar təkcə oduncaq və qiymətli inşaat materiallarından başqa, həm də iqlim dəyişdirici, suqovucu və müdafiə funksiyaları daşıyırdı. Burada uzun ömürlü palıd, çinar, söyüd, dağdağan və Ayı fındığı ağacları ilə bərabər vələs, ulas, vən, göyrüş, toz, qovaq, Ayıgilası, şam, ardıc, alma, armud, qoz, tut, fısdıq, itburnu, yemişan, gilas, moruq, qarağat, zoğal, əzgül və çoxlu cır meyvə və giləmeyvələr də vardı.

**Dərman bitkiləri:** Kəlbəcər rayonunun ərazisində 4 mindən artıq bitki boy atırdı. Bunlardan 200-ü dərman bitkisi idi. Uzun illərin təcrübəsinə arxalanan Kəlbəcər camaatı bu bitkilərdən xalq təbabətində çox geniş istifadə edirdi. İnsanların sağlam və uzunömürlü olmasının səbəblərindən biri də onların təbii müalicə üsullarından istifadə etmələri idi.



Kəlbəcərdə alma, armud albalı, qoz, əzgil, ərik, zoğal, gilas, gilənar, göyəm, tut, fındıq, fısdıq, şaftalı və başqa meyvə ağacları yetişirdi.Kəlbəcərdə yetiəşən digər ağaclar və bitkilər : ayıdöşəyi, andız, acı əvəlik, acı yonca, acı çiçək, bağayarpağı, baldırğan, balqabaq, bat-bat, bəlğəmotu, bənövşə, bayaqotu, böyürtkən, bu–laqotu, qaytarma, qantəpər, qarağat, qarğıdalı, qatırquyruğu, qızılgül,



qırxbuğum, qovaq, quşəppəyi, dağ yoncası, dağlaləsi, dəvədabanı, dəlibənq, dəmirovotu, əvəlik, əməkömənci, ilanotu, əzmə, zəyzrik, zirə, zirinc, inciçiçəyi, itburnu,

yarpız, yasəmən, yerkökü, yovşan, kartof, kahı, keşniş, kəklikotu, kələm, kəpənəkçiçək, kərəviz, kəçəvər, gavah, gərməşov, gicitkən, güldəfnə, güləvər, güləbətin, gülümbahar, güləcətin, lərpə, ləçəkotu, lobya, meşə gilası, moruq, murdarça, nanə, nərgiz, novruzgülü, öküzboğan, öldürgən, öskəotu, palıd, pərpərən, pıtraqotu, pişikotu, pomidor, razyana, reyhan, sarımsaq, soğan, solmazçiçək, söyüd, tərxun, tozağacı, turp, xanımotu, xaşxaş, xədicəgülü, xəndəkotu, xəşənbül, xiyar, xımı, üskükotu, çaytikanı, çiyələk, çobanyastığı, cökə, çuğundur, cəfəri, çil, cincilim, şalgam turpu, şam, şahtərə, şirpəncəsi, şomu, şüyüd və s.

**Faunası:** təbiət kəlbəcərlilərə çox qiymətli hədiyyələr bəxş etmişdi. Onların əvəzini, yəqin ki, hələlik qaytarmaq mümkün deyil. Heç olmasa, onları dəlicəsinə, fanatik sevgi ilə sevə bilsəydik... Məcnun kimi, Romeo kimi. Ya da Dilqəm kimi. Həyatının hər anını təhlükə altına atıb işğal altında olmasına baxmayaraq, təkbaşına indi də Kəlbəcəri görməyə gedən Dilqəmin vətən sevgisini ifadə etməyə söz də acizdir.



Torpağa bağlılıq, təbiətə vurğunluq bizə qandan gəlir. Yaylağa, qışlağa köçmək, onun hər qarışını tanımaq, sevmək sevimli məşğuliyyətimiz olub. Bəs görəsən kim və necə əkdi bu tərk etmək, qoyub getmək toxumunu. “Düşdüyün yurdun qədrini köçəndə bilərsən,” – deyiblər. Ölüb o yerlərdə qalsaydıq, bu gün həsrət alovunda qovrulmazdıq...



Kəlbəcər meşələrində iribuy–nuzlu maral, pələng, ceyran, cüyür, dağkeçisi, dovşan, dələ, qonur ayı, porsuq, canavar, vaşaq, kirpi və s. heyvanlara rast gəlmək adi hala çevrilmişdi.

Adları “Qırmızı kitab”a düşən turac, qırqovul, kəklik və qartallardan tutmuş, göyərçin, alabaxta, şanapipik,

xəzər ları, qazlar, ördəklər, qara leylək, bildirçin, meşə xoruzu, cüllüt, dovdaq, sultan toyuğu və bir çox qonaq quşlar ətrafımızı bəzəyirdi.

Sularda qızılxallı balıq üzərdi. Hərdən uşaqları qorxudan su ilanları olmasaydı...

## Su mənbələri

Kəlbəcərdə həyat rəmzi olan suya hər yerdə təsadüf etmək olardı. Hər dərəsindən süd kimi çaylar axır, saysız- hesabsız bulaqları insanlara fayda verirdi. Rayonun suları qapalı xəzər hövzəsinə aid olub, əvvəlki geoloji dövrlərdə tektonik çökmə nəticəsində Göyçə gölü ilə əlaqədə olan Alagöllər Sarımsaqçay vasitəsilə Tərtərlə əlaqə yaratmışdır. Zod aşırımında, Söyüdlü yaylağında çoxlu vulkanik və tekfonik göllər mövcuddur. Bunlardan ən böyüyü dərinliyi 9 metrə çatan Böyük Alagöldür.

Gölə tökülən çayların ən böyüyü Azadçaydır. Bundan başqa Tərtər və Tutğun çayları da təsərrüfata böyük xeyir verir. Şəfalı suyu ilə dünyada məşhur olan İstisu ilə birlikdə Turşsu, Bağırsaq və Keştək mineral bulaqlarını da göstərmək olar. Bundan başqa, Kəlbəcər rayonunun ərazisində onlarla kiçik dağ çayları da vardır. XX əsrdə Kəlbəcərdə Tərtər çayının üstündə tikilmiş SES isə Kəlbəcəri və ətraf rayonları elektrik enerjisi ilə təmin edirdi.

## Mineralları

hələ çox qədimdən Kəlbəcərin Zod, Söyüdlü sahəsində, Qızılbulaq yataqlarında, Zar-Bəzirxana kəndləri ərazisində, Ağduzdax istiqamətində qızıl istehsal edilib və o zaman Azərbaycanın paytaxtı olan Təbrizə göndərilirdi.

Qızıl, xrom və civə kimi faydalı qazıntılarla zəngin olan Kəlbəcər rayonu həm də başqa minerallar və süxurlarla da məşhurdur.

Burada 77 növ mineral var:

A. avqit, aqat, azurit, aktionolit, amelitist, anqidrit, antimonit, aqaqonit, arseno-pit, azbest.

B. barit, biotit, bro–nit, bronzit.
V. vezivuan, vismotit.
D. diallaq, diopist, dolomit.
Q. qalent, qarnierit , qematit, qızıl, qranat.
İ. ilemenit.
K. kaleit, kvarts, kinovan, kabeltik, kovellin, kremen, krokoit, kuprit.
G. gümüş, gibs.
L. labrador, lazurit, leytsit, limonit.
M. maqnezit, maqnetit, malaxit, markazit, mis, malibdent, muskovit.
N. nikelin.
O. obsidian, olivit, oniks, opal, ortoklas,
P. prentlandit, prit, pirrotin, platin, prenit,
R. rodnit.
T. talk, topaz, tserussit, tsirkon, tsorit,turmalit.
F. fluyorit, fuksit.
X. xalkorin, xalkorit, xaltsedon, xlorit, xromit.
Ş. şinipel, şirgözü.

## Süxurları

A. amfibiolit, andezit, aplit.
B. bazalt, bismut, brekçiya, burnonit.
V. vulkan, vombası.
Q. qarbo, qranit, qranediorit.
D. dağ bülluru, daş kömür, dendrit, diorit.
Ə. əhənğdaşı.
J. jadenit.
Z. zimevit.
Y. yaşma.
K. kvasit, konqlamerat, korall.
L. lapilli, listevenit.
M. mərmər, miqmatit, mikroklin.
P. pemza, peridotit, pesannik.
R. rilioit.
S. serpentitit, sienit, slanets, suçlinok.
T. traverit, troktalit, traxit, tuf.

İlahinin bəxş etdiyi bütün bu yeraltı və yerüstü sərvətlərin axtarışı, kəşfiyyatı və istismarı sahəsində Azərbaycanın alim geoloqlarının böyük rolu olmuşdur. Bunlardan akademik Mirəli Qaşqayı, Şamil Əzizbəyovu , Səttar Süleymanovu, Zəki Vəliyevi, Fazil Zeynalovu və kəlbəcərli Mayıl Nağıyevi, Kərəm Əliyevi, Qanboy Heydərovu, Əmrah Əhmədovu, Tofiq Məmmədovu (Borçalı mahalı Qaçağan eli), Şiraslan Yusifovu, Həqiqət Rəhimlini, Fəxrəddin Alıyevi, Köçəri Həsənovu, Kərim Musayevi göstərmək olar.

## DAĞLARIN MÖCÜZƏSİ – İSTİSU

İlahinin Kəlbəcərə bəxş etdiyi min bir nemətdən biri də dünyada məşhur olan loğman suyu, dirilik suyu – İstisudur. Dəniz səviyəsindən 2225 m hündürlükdə, silsilə dağ yamaclarında, Kəlbəcərdən 25 km-lik yolda yerləşən bu möcüzəli bulaq öz tərkibinə görə, hətta Çexoslovakiyada yerləşən məşhur Karlovı -Varidən yüksək keyfiyyətə malikdir.

Azərbaycan Nazirlər Sovetinin sədri Həsən Seyidov Çexoslovakiyada dincələrkən həkimi ona Kəlbəcərdəki İstisuyun daha keyfiyyətli olduğunu demişdir. O zamanın məşhur alimləri, akademikləri bu bulağın tərkibini öyrənmiş və çox müalicəvi, həm də zəngin tərkibli olduğunu sübut etmişlər. Bir litr suyun tərkibində 6-7 qram mineral olmaqla, litium, brom, mərgümüş, fosfor, sink, med, nikel, maqnezium, dəmir və s. kimyəvi maddələr vardır. İstisudan ildə 3 milyard 963 min litr su çıxırdı. Sudolduran sexlərdə isə cəmi 800 min litrindən istifadə edilirdi. Qalan hissəsi havayı axıb çaylara qarışırdı.

1138-ci ildə zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində yaranan bu bulağın suyunun tərkibi karbon qazlı, hidrokarbonatlı, xloritli, sulfatlı, natriumludur. Sərtliyi – 5,5. M4,9Co7, 1HCo353, C134So41Na75, Ca14. T 61 dərəcə C -dir.

İstisuit mineralı Kəlbəcər rayonundakı İstisu kurortunun adındandır.

Bu mineral tərkibli sudan həm içmək, həm də müalicəvi vanna qəbul etmək kimi istifadə edilirdi. Nəticədə minlərlə xəstə İstisu kurortunda mədə-bağarsıq xəstəliyindən, maddələr mübadiləsi pozğunluğundan, sinir sistemi, hərəkət orqanları,

ginekoloji, uroloji, xroniki qəbizlik, qaraciyər, öd kisəsi, qastrit, və s. xəstəliklərdən şəfa taparaq gülə - gülə evlərinə dönürdü.

İstisuda müalicə-istirahət zonasının yaranması 1925-ci ildən Azərbaycan hökumətinin diqqət mərkəzində olmuşdur. Sonralar burada istirahət-mualicə tikintilərinin aparılmasına Azərbaycan Kommunist Partiyası MK-nin birinci katibi M. C. Bağırov şəxsən nəzarət etmiş, 1930-cu ildə isə özü İstisuda olmuş və tikinti işləri ilə maraqlanmışdır.

1980-ci illərdə İstisu qəsəbəsində 1 və 2 nömrəli İstisu sanatoriyaları tikilib istifadəyə verilmişdir. Hər il burada 50 min nəfər müalicə alır və istirahət edirdi.

Taleyin xoş qismətindən o yerlərdə yaşamaq bizə də nəsib olmuşdur. İnsan bəzən səadətin lap bir addımlığında olduğu halda onu uzaqlarda axtarır. Təbiətin bizə bəxş etdiyi bu gözəlliyin qədrini isə lazımınca bilməmişik. Koroğluya nərə və güc verən bu dirilik suyu havayı axıb gedirdi. Bura gələn insanlar qısa bir yolu 4 -5 saata narahat yolla getməli olurdular. İstisuda mehmanxana olmadığından qonaqlar yerli qəsəbə sakinlərinin evlərində qalmalı olurdular.

1964-cü ildən tikilməyə başlamış pansionat binasının tikintisi başa çatmamış, binanın qarşısındakı qaldırıcı kran isə pas atıb çürüyürdü. İstisuyun 17 kilometrliyindən Ermənistanın kurort şəhəri Cermuxa qaz çəkildiyi halda, İstisuda hələ də təbii qaz yox idi.

Öz zərimizin, öz xəzinəmizin qədrini özümüz bilmədiyimizdən İlahinin qəzəbinəmi tuş gəldik?!



# KƏLBƏCƏR TARİX-DİYARŞÜNASLIQ MUZEYİ

Dağlar və qalalar məskəni olan Kəlbəcər hər qarışında xalqımızın tarixini yaşadır.

Təzə yaradılan uca binalar ulu dağlarla üz-üzə dayanırdı. Son vaxtlar yaradılan Tarix – Diyarşünaslıq muzeyi də bənzərsiz, mənəvi xəzinədir. Bu muzeyin içi ilə çölü arasında sərhəd itir, onun haradan başlanıb haradan bitdiyini bilmək olmurdu. Fasadı naxış və ilmələrdən ibarətdir–daş xalça, daş ilmə. Qəhrəman Kəlbəcər xalqının yaratdığı daş xalça. İçərisindəki 47 mindən çox eksponatın hər birinin böyük tarixi əhəmiyyəti var. Burada nümayiş etdirilən "Yeddi hünər" oyunu ən qədim oyunlardandır; sınağa çəkilən cavanın atı çaparaq meydanda qoyulan erkəyi atın belinə götürməsi son günlərə qədər Kəlbəcərdə nümayiş etdirilirdi.



Muzeydə diqqəti cəlb edən əsas cəhətlərdən biri də Azərbaycan folkloruna, şifahi xalq ədəbiyyatına, maarifinə doğma münasibət idi. Belə ki, muzeydə ustad aşıq Dədə Şəmşirin həyat və yaradıcılığına dair memuarlar, bayatıları və qoşmaları, atalar sözlərindən ibarət lent yazısı və dəftərləri saxlanılan ayrıca guşə vardır. Həmçinin Azərbaycan maarifinin Koroğlusu adlandırılan Azərbaycanın qabaqcıl maarif xadimi, Lenin ordenli Cəfər Əhmədovun pedaqoji fəaliyyəti barədə ayrıca guşə yaradılmışdır.



**Mis məişət əşyaları.**

Görkəmli alim Şamil Əsgərovun təşəbbüsü ilə 1980-ci illərin əvvəllərində yaradılan bu muzeyin həyəti 900 kv.metr olmaqla, 3 kabineti, 9 nümayiş salonu vardır. Muzeydə 5 min ildən çox yaşı olan nizələr, oxlar, daş dəyirmanlar, şamdanlar, daşlaşmış ilbiz, daşdan yonulmuş qoç və s. daxil olmaqla 47 mindən çox tarixi əhəmiyyətli eksponat vardı. Eşidən hər bir kəlbəcərli öz



**Daş şamdan.**

qədim

əşyalarını gətirib muzeyə verirdi. Muzeyin çöl divarlarında portfrit, dəvəgözü, bazalt və digər qiymətli daşlarla yanaşı, 2037 rəng çaları olan daşlardan da istifadə edilmişdir. Həyətdə 14 at və qoç heykəlləri, yer hanası nümayiş



**Kəlbəcər rayonu. Xudavənd abidə kompleksi. V-XVIII əsrlər.**

etdirilirdi. 67 ölkəni təmsil edən elm adamları, alimlər bu muzeydə olmuş və müzeylə bağlı öz həyəcanını, təəssüratlarını ifadə edən rəylər yazmışlar.

# III FƏSİL

## KƏLBƏCƏRİN ZİYALILARI

Kəlbəcər füsunkar təbiəti, təbii sərvətləri ilə zəngin olduğu qədər, həm də ziyalılar diyarıdır. Bu torpaqdan onlarla məşhur şairlər, el sənətkarları, dövlət, elm və mədəniyyət xadimləri çıxmışdır. Artıq qeyd etdiyimiz kimi, bu kitab doğma Nəcəfalıların tarixi, adət-ənənəsi, insanları və təbiətinə həsr olunmuşdur. Ona görə də bir parçası olduğumuz Kəlbəcərin bütün ziyalıları haqqında olmasa da, bir neçəsi barədə məlumat verməyi özümüzə borc bilirik.

## ŞAMİL ƏSGƏROV



Zamanında el üçün ağlayan görkəmli şəxslərdən biri də nüfuzlu el ağsaqqalı Şamil Əsgərovdur. Kəlbəcərin 73 alimindən biri – filologiya elmləri namizədi, şair, publisist, tarixçi-etnoqraf, folklorşünas və muzeyşünas, yüzlərlə məqalənin, bir neçə kitabın müəllifi Şamil Səlim oğlu Əsgərov 1929-cu ildə Kəlbəcərin Ağcakənd kəndində anadan olmuşdur. O, 1948–50-ci illərdə Ağdam Dövlət Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə, 1955–59-cu illərdə isə Bakı Ali Partiya Məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. Şamil Əsgərov 1953-55–ci illərdə Kəlbəcər rayon Komsomol Komitəsinin birinci katibi, 1965-68-ci illərdə Kəlbəcər rayon İcraiyyə Komitəsinin sədri, 1968–78-ci illərdə isə Kəlbəcər rayon Xalq Maarif şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Rayonda maarifçiliyin inkişafında böyük rolu olan alim 10 il Rayon Maarif şöbəsinə rəhbərlik etmiş və bu illərdə böyük işlər görmüşdür. Rayonda ən çox məktəb binası məhz onun təhsil şöbəsinə rəhbərlik etdiyi dövrdə tikilmişdir. Şamil Əsgərov ”Kəlbəcərin müdafiəsinə fövqəladə yardım komitəsi”nin ilk yaradıcısı və sədri işləyərkən də böyük fədakarlıqlar göstərmişdir.

Elinin vətənpərvər oğlunun min bir əziyyətlə yaratdığı Kəlbəcər Tarix-Diyarşünaslıq muzeyi dünya şöhrətli bir abidəyə çevrilmiş qiymətli sənət əsəri idi. Topdağıtmaz mülkü ilə bərabər min bir əziyyətlə yaratdığı bu muzeyi darmadağın görmək onun taleyinə yazılmış ən ağrılı və acılı bir qismət idi. Kəlbəcərin simvolu olan bu muzeyi Bakıda yaratmaq həvəsi ilə Bakı 3 saylı peşə məktəbində bir sinif otağı almışdı. Yeni muzeydə 3200-dən çox əşya, uzunömürlülərin taxta üzərində çəkilmiş

rəsmləri, tikmələr, küplər, qədim pullar, fotoşəkillər və.s. toplaya bilmişdi.

Doğma Kəlbəcərin işğalı vətənpərvər alim–şairin yaradıcılığına da öz təsirini göstərmişdir :

Ağrıma ürəyim, ağrıma yenə,
Gözümdə Kəlbəcər həsrətim qalıb.
Dağa getməliyəm səninlə hələ,
Borcluyam, Vətənə xidmətim qalıb.

***Şamil Dəlidağlı.***

## CƏFƏR ƏHMƏDOV



Kəlbəcər rayon Tarix–Diyar–şünaslıq muzeyində nəzərə çarpan və maraq çəkən guşələrdən biri də qabaqcıl maarif xadimi, "xalq maarifinin Koroğlusu" Cəfər Əhmədova həsr edilmiş guşə idi.

Əslən Laçın rayonunun Minkənd kəndindən olan Cəfər müəllim Kəlbəcərə gələn ilk ali təhsilli müəllimlərdən biri olmuşdur. Sovet rejiminin qanlı-qadalı repressiyası illəri bu ailədən də yan keçməmişdir. Əslən bəy nəslindən olan Cəfər Əhəmədovun atası-anası, qardaşları və digər qohum - əqrəbaları bu repressiyanın qurbanları olmuşlar. Rejim tərəfindən Orta Asiya ölkələrinə sürgun edilmiş ailə üzvlərinin çoxu elə orada da rəhmətə getmişlər. Bəy əsilli olduğundan daima təqib və təzyiqlərə məruz qalmasına baxmayaraq, Cəfər Əhəmdov 40 ildən çox Kəlbəcər rayonunun Qamışlı, Yanşaq, Seyidlər, Çıraq, Zəylik, Ağcakənd və Qılınclı məktəblərində qızğın pedaqoji fəaliyyət göstərmişdir. Keçmiş SSRİ məkanında Cəfər Əhmədov yeganə şəxs olmuşdur ki, Kommunist partiyasının üzvü olmadığı halda onun sinəsini Lenin, Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri bəzəmiş və Respublikanın əməkdar müəllimi, "Qabaqcıl maarif xadimi" kimi yüksək fəxri adlara layiq görülmüşdür. Direktoru olduğu Kəlbəcər rayonu 1 saylı orta məktəbə dövlət tərəfindən onun adı verilmişdir. Cəfər Əhmədov öz fədəkarlığı, iradə və zəhməti, nüfuz və hörməti nəticəsində Kəlbəcər rayonunda internat məktəbinin açılmasına da müvəffəq olmuşdur.

Cəfər Əhmədovun dövrünün ən tanınmış ziyalıları, şair və ədibləri ilə möhkəm dostluq əlaqələri olmuşdur. Bir çox görkəmli şair və yazıçılar yay aylarında istirahətlərini Cəfər Əhmədovla birlikdə keçirmək üçün ona qonaq gələrdilər. Onun evində kimlər olmamışdır?! Azərbaycanın üzdə

olan simaları; Əli Vəliyev, Bayram Bayramov, Sülyeman Rəhimov, Qasım Qasımzadə, Mirəli Qaşqay və onlarla digər görkəmli ziyalılarımız. Cəfər Əhmədovun xalq şairi Səməd Vurğunla yaxın dostluq əlaqələri olmuşdur. Yazıçı Ziyəddin Göyüşovun «Fəzilət və qəbahət» əsərində onların bu dostluğundan olduqca geniş və ətraflı bəhs edilmişdir.

Qanlı-qadalı illərin bu ailəyə vurduğu ağır itkilərə və müsibətlərə baxmayaraq, Cəfər Əhmədov öz nəslinə dayaq olmuş, onları oxutdurmuş və gözəl sənət sahibləri olmaları üçün əlindən gələni əsirgəməmişdir. Cəfər müəllimin oğlu Əli Əliyev atasının nəcib peşəsini davam etdirmiş, atasının əvvəllər direktoru olduğu 1 saylı Kəlbəcər orta məktəbinə sonradan o rəhbərlik etmişdir.

Cəfər Əhmədovun qardaşı övladları İbadullah və Feyzullah Əliyevlər, Əbülfəz və Nüsrət Əhmədov qardaşları, qardaşı oğlu - Azərbaycan Dövlət Memarlıq və İnşaat Univesitetində, Azərbaycan Dövlət İqtisad Universitetində və digər ali məktəb ocaqlarında çalışan pedaqoq Qəmbər Əliyev ömürlərini pedaqoji fəaliyyətə həsr edərək sənətlərinin zirvələrinə çatmışlar. Onlar bir çox fəxri



**Cəfər Əhmədov qardaşı Əhməd Əhmədov və digər ailə üzvləri ilə birlikdə.**

adlara və təltiflərə layiq görülmüşlər. Nüsrət Əhmədov dəfələrlə SSRİ Müəllimlər Qurultayına nümayəndə seçilmişdir.

Cəfər Əhmədovun qardaşı oğlu Əliyev Nadir Əhməd oğlu isə Azərbaycan Dövlət Neft Akademiyasının

geologiya fakultəsini bitirərək Türkmənistan Respublikasında, sonralar isə doğma Bakımızda neft mədənlərində, geoloji kəşfiyyat idarələrində baş geoloq və digər məsul vəzifələrdə işləmiş, gözəl mütəxəssis kimi tanınmışdır.

Cəfər Əhmədovun digər qardaşı övladları –Zakir və Mirzəxan Əliyevlər isə ömürlərini təbabətə həsr etmişlər. Onlar ömürlərinin sonunadək Musa Nağıyev adına xəstəxanada həkim kimi çalışmaqla yanaşı, həm də Azərbaycan Dövlət Tibb Universitetində pedaqoji fəaliyyətlə də məşğul olmuşlar. Zakir Əliyev travmatoloq, Mirzəxan Əliyev isə peşəkar cərrah kimi ölkəmizdə özlərinə ad-san qazanmışlar.

Bu nəslin digər nümayəndələri–Keykavuz Əliyev, Əmrah Əliyev, Behbud Əhmədov, Məhəbbət Əhmədov, İbadullah Əliyev, Feyzullah Əliyev və başqaları öz ağsaqqallığı, ağır təbiəti, qohumcanlığı, halal zəhmətləri ilə qohum-əqrəba arasında sevilən-seçilən ağsaqqlarımızdan olmuşlar. Ürəyi–yumşaqlıq, kövrəklik, insanpərvərlk bu nəslə xas olan xüsusiyyətlərdəndir. Bəlkə də elə ona görədir ki, bu nəsldə uzunömürlülərə rast gəlmək olmur. Lakin, onlar nə qədər qısa ömür yaşasalar da, yaşadıqları ömrülərinin hər bir günü bir əsrə bərabərdir. Bu qısa ömürlərini elə yaşayırlar ki, heç vaxt unudulmurlar, gənc nəslin yaddaşlarında əbədi həkk olaraq qalırlar. Allah dünyalarını dəyişmiş o nəcib insanların hamısına rəhmət eləsin!

Ömrünü şam kimi əridən Cəfər müəllimin anadan olmasının 75 illiyi və pedaqoji fəaliyyətinin 45 illiyi münasibətilə 1966- cı il aprel ayının 15-də Kəlbəcər rayon mədəniyyət evinin qabağında böyük bir yubiley mərasimi keçirilmişdi. Yubileyə gələnlərin ardı-arası kəsilmirdi. İllərlə dərs verdiyi şagirdləri yubliyarı təbrikə tələsirdi. Gah təbrik teleqramları gəlir, gah da yüksək kürsüdən tanınmış ziyalılar, şairlər, yazıçılar ağızdolusu danışırdılar. Yubiley komissiyasının sədri Uğurlu Qasımov, üzvü isə görkəmli şair Məmməd Aslan idi. Çıxış edənlər Cəfər müəllimin zəngin biliyə, məntiqi düşüncəyə malik olan istedadlı müəllim, gözəl insan olduğundan danışır, xalq maarifinin çiçəklənməsi uğrunda səmərəli pedaqoji fəaliyyətindən, gənc nəslin tərbiyəsi işindəki xidmətlərindən söhbət açırdılar. Bayram Bayramovun, Əli Vəliyevin, Süleyman Rəhimovun,

APİ-nin professoru Verdizadənin təbrik teleqramları maraqla dinlənilir. Onun əməyi nəticəsində yüksələn, ucalan insanların timsalıında özü ən yüksək zirvədə dayanan yubilyara söz verilir. Alqış səsləri dağlara, dərələrə səs salır.

Hamı ona təşəkkürünü bildirir və uzun ömür, cansağlığı arzulayır.

1979-cu ildə ömrünün 88 yaşında dünyasını dəyişən xalq müəllimini qədirbilən Kəlbəcər xalqı daim qəlblərində, şirin xatirələrində yaşadacaq.

## Y A Ş A

**(Sadıq Qaranın "qabaqcıl maarif xadimi"**
**Cəfər Əhmədova ithaf etdiyi şeir)**

Yarpaqlar ağacı gözəl göstərir,
Dağların zirvəsi qar aşığıdır.
Çəmənə çiçəklər min zinət verir,
Zəhmət də insanın yaraşığıdır.
Səni xatırladım Cəfər müəllim,
Xoş yubileyində, bayram günündə.
O vüqarlı başın kim bilməyir, kim,
Nə qədər ucadır xalqın önündə?!
Demirəm ki, ancaq 100 il ömr elə
İlləri sevinclə vuraraq başa.,
Deyirəm, qəlbinin öz arzusuyla,
İstəyincə yaşa, şərəflə yaşa.

## SAZLA SÖZÜN TİLSİMİNDƏ


Aşıq Şəmşir

Deyirlər, dünyada yaradıcı qüvvə olan üç əziz, müqəddəs varlıq var: birincisi, on səkkiz min aləmi yaradan, təkrarolunmaz və bənzərsiz İlahi, ikincisi dünyaya övlad bəxş edən analar və üçüncüsü isə sözdən dürr və ləl-cəvahir yaradan söz sənətkarları.

Böyük Yaradan Kəlbəcər xalqına verdiyi minlərlə nemətlərin içində söz xiridarları olan şairləri də bəxş etmişdi. Şairlərin qiymətli sözlərini isə əsrlərlə qoruyub saxlayan və bizə çatdıran sehrli sazın ustaları-aşıqlar olmuşdur. Bu iki sehrli varlığın-sazla sözün tilsimində ağır məclislər kecirilib, dərdlər, kədərlər unudulub, elin, obanın adət-ənənəsi, həyat tərzi təkrarlanaraq yaddaşlara həkk olunub. Tarixən qonşu Göyçə, Qarabağ və digər bölgələrlə xeyir-şərləri bir olan Kəlbəcər aşıqlarının yaradıcılığında Göyçə aşıq məktəbinin güclü təsiri olmuşdur. Bu münasibətlər hər iki məktəbin mütəşəkkil inkişafına və formalaşmasına qarşılıqlı təsir göstərmişdir.

Kəlbəcər məclislərini Göyçə ustadlarından Aşıq Alı, Aşıq Ələsgər, Növrəs İman bəzədiyi kimi, Göyçə toylarını da Kəlbəcər aşıqlarından Ağdabanlı Qurban, Dədə Şəmşir, Aşıq Bəsti və başqa saz, söz sənətkarları bəzəmişlər. Kəlbəcər məclislərinin və adət-ənənələrinin vurğunu olan Aşıq Ələsgər xoş təəssüratla yazırdı:

Gəşt eylədim, bu dünyanı dolaşdım,
Kəlbəcərin xeyri -şəri yaxşıdır...

Ustad Ələsgərin Kəlbəcərdə ən yaxın dostu Ağdabanlı Aşıq Qurban olmuşdur. Təsadüfi deyil ki, didərgin Göyçənin taleyini Kəlbəcərdə ilk dəfə Aşıq Qurbanın, Dədə

Şəmşirin müqəddəs ocağı olan Ağdaban yaşamışdı.

Aşıq Şəmşir 1893-cü ildə Kəlbəcərin Dəmirçidam kəndində görkəmli el sənətkarı aşıq Qurbanın ailəsində dünyaya gəlmişdir. Söz-sənət tariximizdə Ağdabanlı Qurban adı ilə qalan bu ustad aşıq, tanınmış el şairi aşıq Ələsgərin müasiri olmuşdur. Onların yaxın ünsiyyətindən, dostluq əlaqələrindən bir sıra deyişmələri yadigar qalmışdır. Aşıq Ələsgər və Ağdabanlı Qurbanın yaşadığı dövrdə Kəlbəcər və Göyçə ədəbi mühiti eyni ənənələrdən bəhrələndiyindən, bu hər iki qonşu bölgənin aşıq sənətinə də öz müsbət təsirini göstərmişdir. Belə dahi saz-söz sənətkarlarının arasında dünyaya göz açan, bu mühitdə daxili dünyasını tapan balaca Şəmşir tez bir zamanda sazın sirlərinə yiyələnmiş, ona verilmiş ilahi vəhyini bu ustadların və ulularin təsiri ilə cilalamışdır. Çox keçmədən o, el yığıncaqlarında müstəqil məclislər aparan istedadlı saz şairinə çevrilmiş və dədəlik mərtəbəsinə qədər ucalmışdır.

Aşıq Şəmşirin Azərbaycanda daha yaxından tanınmasında xalq şairimiz Səməd Vurğunun böyük xidməti olmuşdur. Kəlbəcər dağlarında istirahət edən xalq şairi özünəməxsus səsi, sozü və ifası olan aşıq Şəmşirlə tanış olur. Kəlbəcər dağlarına şairin gəlişini alqışlayan Aşıq Şəmşir bu münasibətlə bədahətən «Xoş gəlib» rədifli qoşmasını demişdir.

2003-cü ildə respublikamızın Prezidentinin fərmanı ilə bütün rayonlarda dədə Şəmşirin 110 illik yubileyi keçirilmişdir. Ölkə rəhbərliyi bu el ağsaqqalının sənətini, sözünü yüksək qiymətləndirərək onu «Şərəf nişanı» ordeni ilə təltif etmişdir. Dədə Şəmşirin yubiley mərasimləri 2004-cü ildə H.Əliyev adına respublika Sarayında yüksək səviyyədə yekunlaşmışdı.

Kəlbəcər aşıqlarından aşıq Qardaşxanın, Qəmkeş Allahverdinin, aşıq Xalıqverdinin və başqa el sənətkarlarının formalaşmasında, tanınmasında aşıq Şəmşir yaradıcılığının böyük rolu olmuşdur.

Aşıqlıq sənətini dədəlik səviyyəsinə qədər yüksəldən ustad öz şeirlərində ulu yurdun gözəlliklərini, təbiətini tərənnüm edərkən:

Düşsə vətənimdən kənar məzarım,
Alışar məzarım, yanar məzarım…

– deyə narahatçılıq keçirirdi. İlahi dərgahından pay alan Dədə Şəmşirin bu narahatçılığı İlahiyə ayan oldu ki, bu gün də:

Şəmşiri qoynunda firavan saxlar,
Qurbanı olduğum o ana dağlar.

Bəlkə də xoşbəxtdir Şəmşir baba. Ədəbiyyatımıza gözəl, sanballı irs, xalqa isə layiqli, vətənpərvər, fəxrli, xalqın dar günündə ona arxa olan Qənbər müəllim və Cavid müəllim kimi övladlar verib. Özü isə tərkivətən deyil. Ruhu ağır məclislər keçirdiyi ocaqları, doğma yurdunu, dağları, çəmənləri dolaşır.



**Qəmkeş Allahverdinin** həm söz ustalığı, həm də aşıqlıq sənəti kəlbəcərlilərə yaxşı tanışdı.

Aşıq-şair Qəmkeş Allahverdinin sevimli şeirlərində biri də "Yatıbdı" şeiridir:

Bu gün yolum düşdü qəbristanlığa,
Orda zaman qışdı, dövran yatıbdı.
Sanki pıçıldaşdı hər məzar daşı:
– Şair, asta yeri, insan yatıbdı.

Pul işləmir orda, qiymətsizdir zər,
Sərdar hökm eləmir, işləmir nökər.
Nə zəhmət var orda, nə alında tər.
Ağadan yuxarı çoban yatıbdı.



Dəfələrlə el məclislərimizdə uzun gecəni sübhə çıxmışıq **Aşıq Ədalətin** sazının, sözünün sehrində. Şeirlərin təsirindən bir anda ağlayıb, bir anda gülmüşük.

Kimdən yazım, kimdən söy–ləyim ki, vərəq çatsın, mürəkkəb tükənməsin. Dərgahına şükürlər olsun, Ulu Tanrı! Bir mahalda bu qədər şair?!

Bununla yanaşı Kəlbəcərin şənliklərini bəzəyən, cilalayan xanəndələrindən **Ziyadxan Süleymanov, Akif Bayramov, Kürdoğlu,** musiqi alətləri ifaçılarından **Bahadır Sadıqov, Zahid Şirinov, Natiq Ələkbərov, Ədalət, İlham, Qara,** kamançada **Əlövsət** müəllim, **Nadir Fərəcov, qarmonda Nemət, Nurəddin, Eldar, Kamil, Məcid, Nurəddin, Şakir**, zurna və balabanda **Salman, Sədir, Bədəl, Aslan, İsmayıl, Yusif** və başqaları, nağarada **Bayram, Rövşən, Vəlioğlu, Nəsrəddin, Qardaşxan, Cabbar** və başqalarının adını çəkmək yerinə düşərdi.

## KƏLBƏCƏR ŞAİRLƏRİ




Elinin, obasının qənirsiz gözəlliklərini, gülünü, çiçəyini tərənnüm edən, elinin acı taleyindən yana-yana yazan şairlərimiz çoxdur.

Hələ gənc yaşlarından şeirləri dilimizin əzbəri, toy-şənlik məclislərin bəzəyi olan, Azərbaycan Yazıçılar birliyinin üzvü Vətənoğlu kimi tanıdığımız, lakin sonralar

Gələcək nəsilə şirin nağılam
Bir də bu dünyaya çətin doğulam
Daha nə vətən var, nə də oğulam
İndi mən olmuşam Bəlalı Bəhmən,

-deyə haray çəkən **Bəhmən** müəllim, şeirləri bir sıra mətbuat orqanlarında dərc olunaraq sevilə-sevilə oxunan istedadlı şair, gözəl tərcüməçi kimi ictimaiyyətdə tanınan, böyük ingilis şairi Bayronun poemalarını dilimizə tərcümə edən ilk azərbaycanlı şair, “ Sənsiz”, ”Nə yaxşı görüşdük”, “Könlümə bahar düşdü”və s. kitabların müəllifi.

Mənim doğma kəndim, doğma diyarım,
Deyimmi qəlbimin parasısan sən?

Para qəlb nədir ki, canım-
ciyərim,
Gözümün ağısan, qarasısan sən.

– deyən sevimli el oğlu **Ənvər Rza** və yaxud elin vətənpərvər oğlu, 73 alimdən biri, söz sərrafı, Kəlbəcər Tarix- Diyarşünasliq Muzeyinin müəllifi və yaradıcısı Şamil müəllim deyərdi:

İgidi söz, kababı köz,
Yandırar, külə döndərər.
Söz qanana bircə kəlmə
Əridər milə döndərər…



Azərbaycan-Türkiyə ədəbi əla– qələrinə ilk dəstək olan ziyalımız, iyirmiyə yaxın maraqli kitabın müəllifi, tanınmış şair, Kəlbəcər rayon qəzetində məsul katıb işləyən, sonralar bir çox nəşriyyatlarda məsul vəzifələrdə çalışan, sevimli "Dərədən-təpədən" verilişinin müəllifi və aparıcısı peşəkar jurnalist və publisist **Məmməd Aslan** yazırdı:

...Burda yuxu bilməz, ilham oyaqdı;
Burda qafiyələr yüngül ayaqdı...
Burda hazır misra varaq-varaqdı,
Yığıb çəmənimdən, çölümdən aldım.

Bədii yaradıcılığa çox erkən başlayan, Kəlbəcərin itkisinə dözməyərək 2003-cü ildə ömrünün çiçəklənən çağında vəfat edən, daim həsrət-həsrət:

Tikanlıqda gül gəzirsən,
Sızqaldıran sel gəzirsən,
Qədir bilən el gəzirsən,
Kəlbəcəri hardan alım?!

– deyərək haray çəkən və:

...Sücaət, neyləyək, baxt belə baxtdı,
Darıxma, hər şeyi həll edən vaxtdı.

Bir gün gülə-gülə qayıdacaqdı,
Ağlaya-ağlaya köçən Kəlbəcər.

– deyən **şair Şücaət** el-obaya təskinlik verərdi.

"Səməd Vurğunla Aşıq Şəmşirin görüşü"nün səbəbkarı, saz-söz xiridarı **Səfər Verdiyevin** yaradıcılığında da Kəlbəcər həsrəti böyük yer tuturdu:

Əhvalı pərişan yatdım bu gecə,
Yuxuda mən Ceyran bulağı gördüm.
Gördüm ki, quruyub ta, axmır suyu,
Kəsilib üstündən qonağı gördüm.

Əslən Göyçə mahalından olan **Əli Qurban Dastançı**nın da taleyinə Kəlbəcərdə yaşayıb-yaratmaq düşüb:

Əliyəm, gözümdən tökülməz yaşım,
Yeni bir mərtəbə ucaldı başım.
Şəmşir atam oldu, Qənbər qardaşım,
Verdiyin nemətə şükür, İlahim,

– deyə taleyindən razılıq edirdi.

Taleyin xoş qismətindən bu gözəl insanların çoxları ilə şəxsən tanış olamaq bizə də nəsib olub. Dərəli-təpəli Tərtər-Kəlbəcər yolunu hiss etmədən birlikdə keçdiyim **Dəmirçi Abbas** xəbərdarlıqla deyirdi:

Düşmən girəvə kəsib bərəni,
Ayıq ol, arxayın yatma, amandı!
Özünə dost bilmə üzə güləni,
Dostunu düşmənə satma, amandır!..

Hadisələrdən sonra isə "niyə gülmürsən ? "deyənə belə cavab vermişdi:

Dəmirçi itirdi həyatın, malın,
Fələk də soruşmaz qaçqının halın.
Qış günü çadırda ayağı yalın,
Donan qan ağlayır, mən necə gülüm?

Müəllim, ictimai xadim, RİK-in katibi "Bir Ömürdür yaşadım" kitabının müəllifi **Qara müəllim** yazırdı:

Ox oldum, namərdin gözünü tökdüm,
Doğrudur ilqarım, peymanım, əhdim.
Qarayam, həmişə el dərdi çəkdim,
Demədim bu qohum, bu yaddı mənə.

Və yaxud:

Əyyubun zamanı hansı zamandı?
Qurtarıb etibar, Allah amandı.
Gözəlin qəlbində sədaqət andı,
Kişinin qanında qeyrət olaydı,

– deyən **Əyyub Cabbarov,**

…Gənclikdə dünyanı gəzməyə çalış,
Tufanlı dənizdə üzməyə çalış.
Yaqub sənə qurban, dözməyə çalış,
Yaxın olacaqdır uzaqlar yenə,

– deyən **Yaqub Cabbarov** qardaşlarının da sözlərini rayonun əksəriyyəti əzbər bilirdi.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, gözəl müəllim, son zamanlar daha da sızıltılı seirləri ilə ürəkləri parçalayan **Mirsəyyaf Zamanlı** Kəlbəcərdə bir ocaq qalamağı ən böyük ziyarət sayır:

Torpağına dizin-dizin sürünəm,
O dağları gözüm bir də dolana...

**İdris müəllim** yazırdı ki,

Ora peşman gələn, qəlbi sağ gedər,
Xoş niyyətlə gələn üzü ağ gedər,
Möcüzə var: xəstə gələn sağ gedər,
Min şəfalı qaynaq Kəlbəcərdədi.



Sözün qədrini, qiymətini bilən, elimin fəxrlə adı çəkilən oğlu, şair, türkoloq, tərcüməçi-publisist **Adil Cəmil** söz adlı bir varlığa daha məsuliyyətlə yanaşmağı daim məsləhət bilir:

Gülən çox dünyanın düz adamına,
Hərə sahib çıxır öz adamına.
Mən də çevrilmişəm söz adamına,
Beş kəlmə uzadım sözün ömrünü.

Doğma Kəlbəcər həsrəti ilə sinəsi alovlanan **Mehdixan Kəlbəcərli** bu həsrəti öz misralarında belə ifadə edir:

Yandıqca yanacaq, sönəsi deyil,
Qəlbimdə alovdu, közdü Kəlbəcər.
Bir zaman tacıydı Azərbaycanın,
İndi də bir quru sözdü Kəlbəcər…

və yaxud, 35 illik yaradıcılığını Kəlbəcərdə qoyan

On kitabım, yazı -pozum,
Köynəyində telli sazım,
Şirin sözüm, xoş avazım,
Şəhid oldu Kəlbəcərdə.

– deyə fəryad qoparırdı.



**Zakir Həsənoğlu** “Tərtərlə söhbət” kitabında xalqının başına gələn faciəli tarixi bədii surətdə əks etdirir:

Döyüş ruhu külə dönüb sovrular,
Sərkərdə satılsa, əsgər neyləsin?
Baş biləni dönük çıxsa ölkənin,
Buna xalq neyləsin, fərdlər neyləsin?

O illərdən bəri hamı kimi narahat gecələr yatan Kəlbəcərin dəyərli şairi **İslam Əzimovun** da şeirləri son illər qəm üstündə köklənib:

İslamam , hicrana olmuşam kölə,
Tökülür üstümə qəm şələ-şələ.
Babamın ruhunu gətirib dilə,
O dağları soruşuram hər gecə.

Sözün, sazın qədrini bilən Kəlbəcər bu gün də öz yazarları ilə fəxr edir, gənc şairlərinin şeirlərində çətin günlərinə həmdəm, yaralarına məlhəm tapır. Bunlardan **Məmməd Nərimanoğlunu, İlham Məmmədlini, Nəriman Ocaqlını, Ələmdar Keştəklini, Yunusoğlunu, Adil Həmidi, Orxan Adiloğlunu, İbrahim Səfərlini, Nuridə Qılınclını, Xatirə Nadirxanlını, Nüşabə Bəkirqızını, Sevda Dəlidağlını, Nəzmiyə Piriyevanı** və başqalarını göstərmək olar.

Elimin ağir gunlərini, narahat anlarını hiss edib təlaş keçirərək mən də öz hisslərimi belə ifadə etmişdim:

**GÖRƏRSƏN**

Yurdumuza qonaq gəlsən, a dostum,
Əl dəyməmiş xəzinələr görərsən.
Gül -çiçəklə bəzənmiş al çəməndə
Bülbül necə nalə çəkər, görərsən!

Qəhrəmanlar yurdu bu ulu dağı,
Sevməyən tapılmaz sözümün sağı.
Qızlar dəstə-dəstə hər axşam çağı,
Bəzənib bulağa gələr, görərsən!

Təbii sərvəti aşıb başından,
Elim ləl çıxarır adi daşından
Qayalar dil açıb desə yaşından
Çox qədimdən bu eli ər görərsən!

Ac ilanlar nemətinə sürünür,
Keşikdə qartallar dalğın görünür.
Onunçün təbiət ala bürünür,
Adilinsə üzündə kədər görərsən.

***Adil Həmid,20 avqust 1991.***

# IV FƏSİL

## NƏCƏFALILAR KƏNDİ

Nəcəfalılar kəndi Azərbaycan Respublikasının qərb bölgəsində, Kəlbəcər rayonunu da dəniz səviyyəsindən 1233 km hündürlükdə yerləşir. Coğrafi enliyi–40.1422222°, coğrafi uzunluğu–46.2205556°. Coğrafi koordinatları: şimal enliyi– 40° 8’ 31, şərq uzunluğu–46° 13’ 14”. Saat qurşağı UTC +4.



# KƏNDİMİZƏ GEDƏN YOL

Hə, mənim əzizlərim. Aranın istisindən, bürkülü havasından çıxan xəyal könlüm ciyərlərimə dolan çiçək ətirli Kəlbəcər havasından ruhlanaraq sürətlə doğma yurda tərəf pərvazlanırdı. Yolboyu səpələnmiş rəngbərəng güllərin bihuşedici ətri, meh vurduqca nazlanan görünüşü qəlbimizi riqqətə gətirir, bizdə nastolji hisslər yaşadırdı.

Dolanbac dağ yollarının aşırımında qarşımızda bir lövhə asılmışdır: “Kəlbəcərə xoş gəlmişsiniz”

Qəhər məni boğur. Göz yaşım yanağımdan gilələnib yerə düşdükcə qayalara çırpılaraq axıb gələn Tərtər çayını xatırladır. O



çayın ki, dərəsindən dağlara qalxdıqca hündürlük qurşaqları bir-birini əvəz edir. Qaraagac, qaratikan kolları enliyarpaq meşələrlə əvəz olunur. Meşələrdə palıd, vələs, ulas, ağcaqayın, göyrüş, söyüd, yemişan, çayqırağı yerlərdə isə çaytikanı, zoğal, əzgil ağacları yolların kənarlarını bəzəyir. Hündürə qalxdıqca subalp və alp çəmənlikləri başlanır. Aşağı hissələrdə mülayim olan iqlim, yuxarı qalxdıqca soyuq dağ iqlimi ilə əvəz olunur.

Əziz dost! Atalar "niyyətin hara, mənzilin ora" deyiblər. Gəl sənli-mənli bir niyyət edək: "Gəlsin o müqəddəs gün, o unudulmaz tarix, o an ki, qədirbilən, qonaqpərvər, dost yolunda canından keçən Kəlbəcərə qonaq gedəsən". Kəlbəcərin aran kəndləri olan Çərəkdarı, Bağlıpəyəni, Vəngi, Bulanıqsuyu keçəndən sonra Tunel deyilən bir yaşayış məntəqəsinə çatırsan. Ancaq Tunel hələ görünmür. Bura Tutqu və Tərtər çaylarının qovuşduğu yerdir. Bura həm də yolayrıcıdır. Sağa – Kəlbəcərə və yuxarı – İstisuya gedən yoldur. Həmin yolun üstündə çayqırağı kəndlər; Nadirxanlı, Qılıncıl, Çaykənd və onlarla digər kəndlər yerləşir. Sola isə – Comərd, Almalıq, Zülfüqarlı, kiçik İstisu, Oruclu, Ağcakənd, Başlıbel və başqa kəndlər istiqamətində gedən yoldur. Əgər biz sola burulan həmin yolla, Tutquçayı boyunca getsək, bir az qabaqda



yolun nəhəng qayanın ortasından keçdiyini görəcəyik. Bax, bu eni 6 m, uzunluğu 220 m olan həmin Tuneldir. Tuneli keçib irəli gedəndə isə qədim Comərd qalasının ətəyində yerləşən ilk kənd–Comərd kəndi səni qarşılayacaq. Kənd

mağazasının qarşısından sağa yol ayrılır. Həmin yoldan sağa dön. Arandan bura qədər gəldiyin düz yoldan fərqli olaraq ilk dəfə sərt yoxuş səni sınayacaqdır. Əgər qorxmadan "Seylabın başı"na qalxdınsa, demək, sürücün xam deyil. Quşların səsində uyuyan gözəl, ətirli meşə yolu ilə "Sarıbulağı", «Maral vurulan» suyu keçəndən sonra qarşına Qaragüney kəndi çıxacaqdır. Olduqca mehriban, qonaqpərvər Qaragüney kəndinin camaatı səni gülərüzlə qarşılayıb hara getdiyini soruşacaqlar. Səni yoldan saxlayıb bir stəkan çaya, bir qismət çörəyə qonaq etmək istəyənlər çox olacaq. Yoluna davam etmək istədikdə isə məmnuniyyətlə yol göstərəcəklər. İrəlidə Tirgehi, Sızqa suyu keçdikdən sonra artıq Kəlbəcərin ən yaraşıqlı, füsunkar təbiətli, sıx meşəli, yaşıl çəmənli kəndlərindən biri olan Nəcəfalılar sənə "Xoş gəldin! "– deyəcəkdir.

İlahi, niyyətin böyüklüyünə bax! Təkcə onu fikirləşmək bütün bədənimi titrətdi. Əlimdə qələm az qalır od tutub yansın. Qolumun üstündə tüklər biz-biz durub. Nə vaxt dayanmışam, bilmirəm. Ancaq vərəqin islanmasından xelyi vaxt keçdiyi hiss olunur.

Qaragüney kəndini keçəndən sonra maşın yolu səni Tirgehə, oradan isə «Sızqa su» adlanan dərəyə gətirəcəkdir. Dərəni keçdikdən sonra yolun sag tərəfində Dəyirman yeri, Turşsu, bir az o tərəfdə isə Binənin yalı və Pirilər yerləşir.

Kəndə gedən yolun sol tərəfində isə səni ilk qarşılayan Ziyəddin Şəmilovun evi olacaqdır. Onların evini keçdikdən sonra, məktəbin altı deyilən yerdə döngədən sola burulsan Nəcəfalılar kənd orta məktəbinə çatacaqsan. Məktəbin üst tərəfi kəndin qabağı adlanır. Orada Həsənov Köçərinin, Piriyev Elburusun, İbrahimov İlhamın, Əliyev Kərəmin, Əliyeva Ənnafın, Şirəliyev Bəşirin, Əliyev Şakirin evləri yerləşir.

Kənd yolunun sağ tərəfində Nəbi Xəlilovun, Vaqif və İman Novruzov qardaşlarının evləridir. Onların evindən qabaqda isə Nərimanın dərəsidir. Dərənin üst tərəfi Top ardıc adlanır. Nərimanın dərəsini keçdikdən sonra, kənd yolu ilə irəliləyərkən yolun sol tərəfində Yatalğa adlanılan yerdə Əliyeva Mənzərin və Əliyev Mətləbin evləridir. Həmin yolun sağ tərəfində isə aşağıda İbrahimov Abbasın evi və camaatın bostan yerləridir. Kənd yolu səni Sənəkdolan çayına gətirb çıxaracaq. Çaya çatmamış yolun sol tərəfində Zərniyarın yeri, ondan

yuxarıda isə sürütmə yolu, Göy qum, lap yuxarıda isə kəndin yalıdır. Yalın belində isə Palıdlıq, Duzdaq adlı yerlər yerləşir. Sənəkdolan çayını keçdikdən sonra sola burulan yol səni Kolavata aparacaq. Kolavatda Abbasov Məhəmmədin və onun uşaqları İzzət və Rasimin evləri, həmçinin Əliyev Natiq Şura oğlunun ev yeri yerləşir. Sənəkdolan çayını keçdikdən sonra yolu sağa dönsən kəndin mərkəzinə gələcəksən. Yolboyu kəndin mərkəzinə qədər sağ tərəfdə Kəndin altı, Qozlu dərə və Moruqlu dərə və camaatın bostan yerləridir. Sol tərəfdə isə İmran və Qəhrəman Kazımov qardaşlarının, Salman və Salah Əliyev qardaşlarının, Səfər Əliyevin evidir. Səfər kişinin evinin qabağında isə dörd yol başlayır. Dörd yolun sol tərəfi ilə Səfər kişinin evinin yanından yuxarı qalxan yol səni çiçəkli yaylaqlarımıza, dağlara aparacaqdır. Həmin yolun sağ tərəfində yuxarıda Əliabbas Əliyevin, ondan yuxarıda, sol tərəfdə Yunus Əliyevin və Zilfirman Abbasovun evləridir. Həmin yolla yuxarı qalxdıqda Sarı torpaqlıq adlanan yer və Tələlər başlayır. Sarı torpaqlıqda kəndin bostan yerləri və Həsənova Narıngülün, Kazımov Umudvarın, Abbasov Nemətin, Əliyev Söhbətin və Kamil Əliyevin evləri yerləşir. Oradan yuxarılarda isə Tələlər boyu camaatın tütün sahələri və biçənək yerləri başlayır.

Səfər kişinin evinin qabağından sağa burulsan kəndin mərkəzinə doğru Aydın və Şura Əliyev qardaşlarının, Yusif Abbasovun və Heydər Abbasovun evləridir. Həmin evlərin arasında isə əvvəllər kəndin mağazası, klubu və köhnə məktəb binası olmuşdur. Oraya həmçinin el arasında «Mətəl təpəsi» də deyirdilər. Bu yerə belə adın verilməsi isə uzun və yorucu təsərrüfat işlərindən sonra kənd camaatının ora yığılaraq asudə vaxtlarını keçirmələri ilə bağlı idi. Mətəl təpəsindən qabaqda Süleyman Məmmədovun, bir az qabaqda sağda Fərzalı Əliyevin, ondan da qabaqda isə Əsgər Əliyevin və Möhübbət İbrahimovun evləridir. Aşağıda, Sarıdaşın altında isə Nöfəl Şəmilovun evidir. Sarıdaşdan sağda Yusif, Qənbər və İsa Piriyevin, Həsən Mamedovun və oğlu Hüseyn Mamedovun evləridir. Yusif Piriyevin evinin altında Fərmanın dərəsi adlanan yerdə isə yeni istifadəyə verilmiş kənd mağazası yerləşir. Fərmanın dərəsi boyunca gedən yol səni Turşsuya, Dəyirman yerinə, oradan isə Pirilərə aparacaqdır. Biz hələ bu yola qayıdacağıq. İndi isə Səfər Əliyevin

evinin qabağındakı dördyola qayıdaq.

Dördyoldan qabağa gedən yol Dəfə gedən yoldur. Həmin yolla irəli getdikcə yolun sağ tərəfi məhlə yerləri, qabaqda isə Atuçandır. Yolun sol tərəfi Əliabbas Əliyevin məhlə yeridir. Atuçandan solda Tahir Əliyevin evi və bostan yeridir. Oranı da keçdikdən sonra yol səni Dəfin çayına gətirəcək. Çaydan sola ayrılan yol Qırmızı alma adlanan yerə və ondan yuxarılarda yerləşən Aralıq, Güney və Başkəndə aparır. Çayı keçdikdən sonra həmin yolboyu İbrahimov Əlövsətin, ondan yuxarıda Məhəmməd Həmidovun, ondan yuxarıda isə Müzəffər Xəlilovun evidir. Qırmızı almaya gedən yolun altında Abbasov Bahadurun və oğlu Abbasov Əlinin evləri yerləşir. Dəfin çayından keçdikdən sonra yuxarı–Dəfə qalxan yolun sağında Təmbəki qayasının üstündə İslam İbrahimovun, qabaqda Asif Abbasovun və lap başda – Göy qumun altında Elman Məmmədovun evidir. Dəfə qalxan yolun sol tərəfində Xəlilov Qəfərin, Novruz Əliyevin, yuxarıda isə Həmzə Əmirovun evləridir. Həmzə Əmirovun evindən yuxarıda oğlu Ədalət Əmirovun evi və Əli Məmmədovun məhlə yeri yerləşir. Sonra isə Güney və Aralıq yerləri başlayır.

Dəfin çayını keçdikdən sonra sağ tərəfə burulan yol səni Kahanın qabağına aparacaqdır. Kahanın qabağına gedən yoldan sola burulan yol Qındırğalığın yalına, oradan isə qonşu Qılınclı və Nadirxanlı kəndinə gedən piyada yoldur.

Qındırğalığın yalına gedən yolboyu Zülfü, Hüsü və Pənah Musayev qardaşlarının, Yadigar və Surxay Məmmədov qardaşlarının və İdris Şəmilovun evləridir.

Kahanın qabağına gedən yolun altında Umud Musayevin, ondan qabaqda İmamverdi Hümbətovun və oğlu Camalın evi, sonra isə Vəli Həsənovun, ondan aşağıda isə Həmzə Əliyevin və Fehruz Əliyevin evləridir. İmamverdi Hümbətovun evinin alt tərəfində dərədə yuxarı Turşsu, Həmzə Əliyevin evindən sonra isə dərədə Novlu bulaq yerləşirdi. Novlu bulağı keçdikdən sonra Piri Piriyevin, ondan sonra Ələs Şəmilovun evidir. Sonradan həmin evi Mamedov Səyavuş Əsgər oğlu almışdır. Ələs Şəmilovun evindən aşağıda isə bayaq adını çəkdiyimiz Fərmanın dərəsidir. Bu o dərədir ki, oradan Pirilərə gedən yol başlanır. Həmin yolboyu aşağı Turşsu, ondan sonra Dəyirman yeri, İlan kahası, Binənin qabağı, kəndin qəbristanlığı, Doqquz donu,

Tələ qurulan, sonra isə Pirilər kəndi gəlir. Pirilərdən Nəcəfalıların Alçalı kənd adlanın yerinə, Kazım binəyə və qonşu Nədirxanlı kəndinə maşın yolu gedir. Pirilər kəndində aşağıdan birinci Əziz və Əli Piriyev qardaşlarının, yuxarıda Lətif və Savad Həmidovların, Dilqəm Piriyevin, Əlif Piriyevin evləri yerləşir. Onların evindən sonra Şərabanın bulağıdır. Həmin bulağı keçdikdən sonra qabaq tayda–Dik güneydə isə İbrahim Həmidovun evidir. İbrahim Həmidovun evinin yanından kəndin ziyarətgah yerlərindən olan Əli Pəncəsi pirinə piyada yolu gedir. İbrahim Həmidovun evinin qabaq tayında isə köhnə ev yerləri olan Kalafalıqlar və Ağaların hasarı yerləşir. İbrahim Həmidovun evini keçdikdən sonra Binənin yalı və Qındırğalığın yalı başlayır.

Pirilər kəndindən Alçalı kəndə gedən yolun sonunda Comərd qalasına aparan keçilməz cığırlar başlayır. Həmin qalanın qabaq tərəfi Nəcəfalılar kəndi, arxa tərəfi Tunel adlanan yer, sağ tərəfi Qaragüney və Comərd kəndləri, sol tərəfi isə Nədirxanlı kəndidir.

## KƏNDİMİZİN TARİXİ

Əziz dostum! Əyləş, təmiz Kəlbəcər balı ilə bir stəkan kəklikotu çayı iç. Ağzın tama gəlsin. Mən də sənə bu yerlərdən danışım.

Nəcəfalıların tarixi uzaq keçmişə söykənir. Babalarımız Nəcəfalılar kəndinin və onun adının yaranma tarixi ilə bağlı belə söyləmişlər:

VII əsrdən başlayaraq ərəb xilafəti islam dininin daha geniş yayılması və öz hakimiyyətlərinin daha böyük əraziləri əhatə etməsi üçün ölkələrə xəlifələr, din xadimləri və seyidlər göndərirdilər. Bu dövrlərdə İraqın Nəcəf şəhərindən Seyid Əli xəlifə adlı şəxs indiki Laçın rayonunun Danbulaq kəndinə, sonradan Böyük Seyidlər kəndinə, daha sonra Kəlbəcərə gəlir. Özünə məskən axtaran seyidə qonşusu Comərd kəndinin camaatı indiki Nəcəfalılar kəndinin ərazisini nişan verir. Oranın münbit torpağını, qalın meşəsini, bol suyunu, geniş otlaq sahəsini görən Seyid Əli buranı bəyənir. O, oğlu və digər ailə üzvləri ilə birlikdə maral buynuzu ilə əkir, darı və digər dənli bitkilər səpərək buranı

becərir. Ərazidən bol məhsul götürən seyid burada məskən salır. Qonşu kəndlərdə yaşayan insanlar onları "Nəcəfdən gələn Əli", "Nəcəfli Əli", "Nəcəfəlilər" deyərək çağırırlar. Ona görə də onların yaşadıqları bu kənd "Nəcəfalılar" kəndi adlandırılır. Hətta bəzi mənbələrə görə sovetlər dövründən indiki Nəcəfalılar kəndinə Seyidlər kəndi də deyirmişlər. Nəcəfalılar kəndində yaşayan Seyid Xudaverdi, Seyid Şahbəndə və onun övladları Seyid Əli xəlifənin nəslindəndirlər. Nəcəfalılar kəndində Seyid Əlinin adı ilə bağlı bir çox yer, yurd, bulaq adları vardır. Bundan başqa, bizə baba və nənələrimizdən Seyid Əli haqqında rəvayət və əhvalatlar da gəlib çatmışdır. Kəndin adının tayfa adı ilə, yəni "Nəcəfalılar" kimi adlanması da yuxarıda deyinləri bir daha təsdiq edir.

Deyilən bəzi fikirlərə görə isə kəndimizin ilk sakinləri iki qardaş – Nəcəf və Alı qardaşları olmuşlar. Kənd də o iki qardaşın adı ilə "Nəcəfalılar" adlanmışdır. Qeyd etdiyimiz kimi, Seyid Xudaverdi, Seyid Şahbəndə və onların övladları Seyid Alı (Əli) qardaşının nəslidir. Ancaq Nəcəf adlı şəxsin nəslinin kəndimizdə bu günə gəlib çatan nümayəndələri yoxdur. Həmçinin kəndimizdə Nəcəfin adı ilə bağlı yer, yurd adları da yoxdur. Baba-nənələrimizdən Nəcəf baba ilə bağlı əhvalatlar da bizə gəlib çatmamışdır.

Kəndimizin yaranma tarixi və adı ilə bağlı məlumatlar uzaq keçmişin sirli-sehrli düyüncəsi olaraq qaldığından biz bunları yazıb sizlərin ixtiyarına veririk.

Dağıstandan gəlmiş milliyyətcə azərbaycanlı olmuş Məhəmməd (bəzilərinin dediyinə görə isə Məmmədxan) babanın da bu kəndin ilk sakinlərindən hesab edənlər var. Kəndimizdə yaşayan Namaz, Avaz və Hümbətalı qardaşları və onların övladları Məhəmməd babanın nəslidir. Ancaq çox qədim əsrlərdən xəbər verən yer adları, kalafalar, hasarlar, məişət əşyaları, üstündə yazılar olan mis qablar sübut edir ki, kəndimizin tarixi Məhəmməd babanın bu kəndə gəldiyi vaxtdan daha əvvəlki dövrlərə söykənir. Cəmi 3-4 km məsafədə yerləşən qonşu kəndlərdə -Kilsəlidə (Günəşlidə) qədim daş dövründən qalan alban kilsəsi, Comərddə isə ulu tariximizin yadigarı olan Comərd qalası bu yerlərin ilk sakinlərinin uzaq keçmişindən xəbər verir. Kəndin yaxınlığındakı "Muncuqlu təpə" deyilən yerdən neçə illər boyu hər dəfə qazdıqca çıxan və tükənmək bilməyən

rəngarəng muncuqlar da bu yerlərin qədim məskən olmasından xəbər verir.

Ona görə də kəndimizin yaranma tarixinin Məhəmməd babanın bu kəndə gəldiyi dövrdən, yəni cəmi 300-400 il bundan əvvəl başlanma fikri səhvdir.

Nəcəfalılar camaatının çoxu əvvəllər Alçalı kənddə, Pirilərdə yaşamış, sonralar Nəcəfalılara köçmüşlər. Alçalı kənddə olan köhnə qəbrstanlıq, Pirilərdə "Kalafalıq" deyilən yerdə bir neçə evin yarısı uçmuş barısı son vaxtlara qədər qalırdı. "Ağaların hasarı", "Məşədi Əmirin darı yeri" deyilən qədim yaşayış yerləri buna əyani sübutdur.

Kitab müəllifləri kəndin adının yaranması və tarixi ilə bağlı verilən məlumatlara və mənbələrə böyük hörmət və ehtiyatla yanaşır. Bununla belə, daha çox məntiqi nəticələrə, kəndimizdə ta qədimdən mövcud olan yer, yurd, kalafa, hasar və digər məkan adlarına, kəndimizdə saxlanılan qədim məişət əşyalarına, onların üzərində olan yazılara istinad etdərək kəndin adında və yaranma tarixində birinci variantın daha məntiqli və əsaslı olduğuna üstünlük verirlər.

Pirilərlə Kazım binənin arasında nəhəng bir daşın üzərində aydınca hiss olunan əl izi var idi ki, kənd camaatı bunu "Əli pəncəsi", "Əli piri" adlandırırdılar. Camaat bir müşkül işə düşdükdə Uca Allaha dua eləyər, duaları qəbul olunanda isə həmin pirə aparıb nəzir qoyardılar. Sərt daş növü olmasına baxmayaraq əlin altında mum kimi əzilən bu daş əsrlərin nişanəsi olaraq nəsillərin inanc yeri, piri kimi qalmaqda idi.

Bakı şəhəri, Buzovna kənd məscidinin axundu Axund Hacı Sultan Hüseynqulu oğlu Əlizadə özünün «Həzrət Əli (ə) və Azərbaycan» adlı kitabında (səh.22) göstərmişdir ki, İmam Əli (ə) Kəlbəcər rayonunun Seyidlər kəndi yaxınlığında, Lök qalasında Lök adlı cadugərlə vuruşmuşdur. Döyüş zamanı İmam Əli onun qoşununu qıraraq qalaya daxil olur. Bunu görən Lök adlı həmin cadugər qorxuya düşür və cildini dəyişərək qaladan qaçır. Lökün qaçmasından qəzəblənən İmam Əli (ə) onun arxasınca iri bir qaya atır. Qaya gədikdə Lökün dəyərək yerə düşür. İmam Əli (ə) Düldül atına minib Lökə ardınca çapır, onun yanına gəlirək Lökü orada cəzalandırır. Çox güman ki, Pirilərdəki gədikdə üzərində əl izi olan həmin qaya məhz İmam Əlinin (ə) Lökün arxasınca atdığı elə həmin qayadır. Bildiyimiz

kimi, Azərbaycanın müxtəlif yerlərində imam Əlinin (ə) əl, ayaq izləri və digər nişanələri olan yerlər kifayət qədər çoxdur.

## KƏNDİMİZİN COĞRAFİ MÖVQEYİ

Nəcəfalılar kəndi qərbdə Günəşli (Kilsəli) kəndi ilə (2 km), Quzeyçirkin kəndi ilə (2.2 km), şərqdə Laçın kəndi ilə (1.8 km), cənubda Comərd kəndi ilə (3 km), şimalda isə Qılınclı kəndi ilə (1.5 km) məsafədə yerləşirdi.

Coğrafi mövqeyinə görə Nəcəfalılar kəndi həm dağ, həm də aran kəndidir. Belə ki, Nəcəfalılar kəndinin yuxarı sərhədində yerləşən kəndlər–Alxaslı, Milli, Qüzeyçirkin və başqa kəndlər dağ kəndləri kimi tanındığı halda və orada yalnız dağ iqliminə aid bitkilər yetişdirdiyi halda, kəndimizin aşağı sərhədlərində yerləşən kəndlər–Nədirxanlı, Çaykənd, Qılınclı və başqa kəndlər isə aran kəndi kimi tanınır və burada artıq aran bitkiləri–istiliksevən bitkilər yetişdirilirdi. Nəcəfalılar kəndi bu iki iqlim tipinin arasında yerləşdiyindən burada həm istiliksevən, həm də soyuğadavamlı bitkilər yetişdirilirdi.

Burada məskən salan babalarımız da məhz bu yerlərin əlverişli iqlimini, meşə ehtiyatını, münbit torpağını nəzərə alaraq burada məskən salaraq yaşamağı qərara almışdılar.

Öz füsunkar görünüşü, əlverişli iqlim şəraiti, məhsuldar torpaqları, çoxsaylı təbii bulaqları və çayları ilə kəndimiz Kəlbəcərin digər kəndlərindən fərqlənir. Səhəngdolan və Dəf çayları kəndi üç yerə–kəndin qabağı, kənd və kahanın qabağı hissələrinə ayırır. «Kahanın qabağı»nda isə «dəf» adlanan yer də vardır. Həmin yer oval formada olduğundan oraya «dəf» deyilir. Kəndlə üzbə–üz hissədə, qədim Comərd qalasının ətəyində isə kəndimizin Pirilər adlanın qədim yaşayış sahəsi yerləşir. Kənd hər tərəfdən sıx meşələrlə, yuxarı hissələrdə isə böyük əkin, otlaq və biçənək sahələri ilə əhatə olunmuşdur.

# KƏNDİMİZLƏ HƏMSƏRHƏD KƏNDLƏR

**Nədirxanlı kəndi** ilə sərhəd aşağıdan Kazım binə deyilən yerdən başlanır və pirin (Əli pəncəsi) yanından, yal beli Güneyin başından, Başkənddən, Taxta qoyulandan, Qoşa bulaqlardan, Sarıçiçəklidən keçirdi Düz yurd deyilən yerə qədər. Kədərləndirici hal o idi ki, ömrü boyu qonşu, qohum olan bu kəndlər arasında hərdən kiminsə biçin zamanı 10 metr o tərəf–bu tərəfə keçməsi üstündə Sarıçiçəkli biçənəyində mübahisələr düşürdü. İndi isə 2 min kv. km-ə yaxın cənnət məkanımızı bütün sərvətləri ilə birlikdə yağı düşməndən geri ala bilmirik...

**Alxaslı kəndi** ilə bizim əraziləri Dağınıq çınqıl, Meydan düzü, Qaradağlı, Dana düzü və Qancıq dərəsinin suyu boyu ayırırdı.

**Tutquçay bölgəsi** ilə sərhəd Dağınıq çınqıl, Ayğır bulağı, Qaçay düşən, Sarı yoxuş, Quş yuvasının başının üstü deyilən yerlər ayırırdı.

**Quzeyçirkin kəndi** ilə sərhədlərimiz Til qayadan, Ağduzdaxdan, Göbələkli yerdən, Çal qayadan, Çiçəkli yurdundan ayrılırdı.

# NƏCƏFALILARIN FLORASI



## LOĞMAN TƏBİƏTLİ KƏNDİM

**Florası:** Kəlbəcərin bir çox kəndindən nəzərə çarpacaq dərəcədə fərqlənən Nəcəfalılar qeyri-adi gözəlliyə malikdir. Burada Alçalı kəndindən başlanan qədim Comərd qalasınadək uzanan sərt qayalar, Kazım binədən başlayıb Tikanlığa qədər davam edən sıx meşələr, Böyük biçənək, Düz yurd, Yal yurd, Sarıçıçəkli, Qaradağlı kimi rəngarəng çiçəkli, atlıya boy verməyən biçənəklər kəndimizi əhatə edirdi. İlahi bizlərə insanın ruhunu oxşayan şır-şır axan dümağ çayları, şəlalələri, adamın dişin göynədən qayalardan süzülən buz bulaqları, meyvəli bağları, ciyələkli düzləri və başqa nemətləri bəxş etmişdir. Kəndin meyvəli bağlarının yanından ötüb keçdikcə almanın, armudun, gilasın, gilənarın, moruğun, qarağatın, çiyələyin və başqa-başqa ətirli meyvələrin ətri adamı bihuş edirdi. Nəcəfalılar kəndinin meyvə bağları sanki cənnət bağlarını xatırladırdı. Cənnətə bənzəyən çəmənlərindəki min bir rəngə çalan rəngbərəng dağ çiçəkləri, gülləri insanı valeh edirdi.

Bu çəmənlərdə min bir dərdin dərmanı bitkilər bitirdi. Nənə və babalarımız onlara miras qalmış üsullarla bu dərman bitkiləri ilə müalicələr edir, övladlarını xəstələnməyə qoymurdular. Həkimə çox nadir hallarda müraciət edən bu camaatı, sən demə, saxlayan da elə bunlar imiş. Əhali təbiətin gözəlliyindən zövq alır, meyvəsi, giləmeyvəsi və tərəvəzi ilə qidalanırdı. Meşələrin oduncağından isə məişət əşyaları düzəldirdilər. Çəmənlərin çiçəkləri ilə xəstəliklərdən qorunar və şəfa tapardılar. El arasında ən məşhur olan bu bitkilərdən xalq təbabətində geniş istifadə olunurdu.

**Nəcəfalılar kəndində bitən dərman bitkiləri:**

**Qoz**–bel ağrısı, ürək ağrıları zamanı, sinir sisteminin yaxşı fəaliyyətində və bədənin qüvvətləndirilməsində istifadə edilir. Qoz bədənə istilik və quruluq verir.

**Alma**–ürəkbulanma, ürək və bədənin işinin qüvvətləndirilməsində faydalı sayılırdı.

**Armud**-yemək qanı mötədilləşdirir, bağırsaqları bərkidirdi.

**Heyva**–suyu öskürəyi azaldar, sinəni yumşaldardı, qəbzliyin qarşısını alır.

**Moruq**-öskürmə zamanı, soyuqdəy–mədə geniş istifadə olunur.

**Böyürtkən, qarağat**-qan artıran vasitələrdən biri olub soyuqdəymədə də istifadə olunurdu.

**Baldırğan**–kötüyündən çiçəyinə qədər dərman idi. Ürək ağrısında, iştahsızlıqda, bəlğəm zamanı sinə yumşaltmada böyük əhəmiyyəti var.

**Bənövşə**–ürək ağrısını, sətəlcəm və plevrit zamanı tez köməyə gələrdi. Sinəni yumşaldar, astma xəstəliyi zamanı kömək edərdi.

**Şüyüd**–böyrək və sidik kisəsi ağrılarında, köpdə istifadə olunurdu.

**Andız çiçəyi və kökü**– soyuqdəymənin, öskürəyin dərmanıdı. Sidikqovucu xüsusiyyəti də var. Böyrək və sidik kisəsini isti saxlayır.

**Gülxətmi**–soyuqdəymə zamanı bəlğəm gətirmədə daha çox istifadə olunur. Ətirli çayı çox asan içilir və faydalıdır. Diş ağrısında gülxətmi suyu faydalı sayılardı.

**Qızılgül**–ürək ağrısında, ciyər şişində və ağrısında məmnuniyyətlə istifadə olunurdu. Dadlı mürəbbəsi süfrələri bəzəyir, insanlara həyat bəxş edirdi. Diş dibinin ətini möhkəmləndirər, ağrısını kəsərdi.

**Zoğal şirəsi**–bağırsağı möhkəmləndirər, susuzluq və qan təzyiqini yatırardı, ödü sakitləşdirərdi. Ondan soyuqdəyəmə zamanı istifadə olunurdu.

**Çiyələk**–bədənə soyuqluq və rütubət verərdi, öd xəstəliyi üçün istifadə edilərdi. Meşələrə qırmızı xalı kimi döşənən meşə çiyələyini yeyəni ürəyi möhkəm, beyni aydın, qanı təmiz və bədəni rütubətli olardı.

**Kəklikotu**–ən çox içdiyimiz çay olub, soyuqdəymədə, qan təzyiqində daha çox köməyə gələrdi. Kəklikotu çiçəyinin mürəbbəsi üzü qəşəngləşdirərdi. Bulaqların üstündə bitir.

**Yarpız**–ağıza tam, ürəyə tab verməklə yanaşı, Qanı duruldur, böyrək daşlarını da təmizlənməsində istifadə olunurdu. Babasili təmizləyən və ağrını sakitləşdirən ən yaxşı vasitə idi.

**Əməköməci**–öskürəyi sakitləşdirər, sinəni yumşaldar və bəlğəm gətirərdi.

**Nanə**–ürək ağrısında köməyə gələr, ağızdan pis iyi dəf edərdi.

**Turp**–bədənə istilik verirdi, sidikqovucu xüsusiyyətə malikdir. Həzmi yaxşılaşdırır, iştaha verir. Sidik kisəsinin daşını təmizləyir, dalaq xəstəliyində yaxşı təsir göstərir. O, həm də üzün dərisini duruldur. Qara turp deyilən nadir turp növünə burada daha çox rast gəlinirdi. Bu turp növü Nəcəfalılarda ən çox tanınan və istifadə olunan turp idi. Nəcəfalılar turpu...

**Kığ**–ağızda olan acılığı aparar, iştaha verərdi. Bu bitki hər yerdə bitməzdi.

**Bağayarpağı**–yaraları sağaldar, mədə xorası ağrılarında köməyə gələrdi.

**Yarayarpağı–**suyunu yaraya yod əvəzi tökərdilər.

Bundan başqa kəndimizdə bitən qatırquyruğu, qırxbuğum, quşəppəyi, dəvədabanı, dəmirovotu, əvəlik, əzgil, zirə, zirinc, itburnu, gicitkən, gərməşov, nərgiz, novruzgülü, peşəməngülü, solmazçiçəyi, xaş-xaş, xədicəgülü, cincilim, şomu, süddücə, kortun, şoşan, cajux kimi bitkilər də hamıya tanış

idi. Meşələrində və düzənliklərində müxtəlif növ göbələklər var idi. Meşələrində palıd, vələs, göyrüş, ardıc, şam, küknar, söyüd, fistıq, dağdağan, cökə, ayı gilası, yovşan, itburnu, yemişan, göyəm, zoğal, zirinc, qoz, fındıq, alma, armud, gilas, gilanar kimi ağaclar və kol bitkiləri bir-birini əvəz edər, gözün yorulmamasına, zövqün oxşanmasına xidmət edərdi. Saymaqla tükənməyən bitkilər həyatımızın xilaskarı, zövqümüzün, ruhumuzun qidası idi.

Gündəlik qidamız olan süd, yumurta, nehrə yağı, təzə şor, pendir, cücə əti, quş ətləri, keçi, dağ keçisi və digər ov ətləri müalicəvi xüsusiyyətlərə malik idi.

# NƏCƏFALILARIN FAUNASI



**Faunası:** Nəcəfalıların ərazisində sıx meşələrin, həm də geniş çəmənlərin, düzlərin, yaylaqların olması burada bir çox heyvanların və quşların məskən salmasına şərait yaratmışdır.

Zəngin meyvəli-giləmeyvəli meşələrində ayı, dələ, dovşan, cüyür, kirpi, porsuq yaşayırdı. Qayalarda dağkeçisinə, kəkliyə, meşə xoruzuna, sularında qazlara, ördəklərə rast gəlinirdi. Ayaq dəyməyən yerlərdə iri maral buynuzlarının tapılması burada maralların da olmasından xəbər verirdi.



Çəmənlərini bülbüllər, bildirçinlər, boz sərçələr, turaclar, göyərçinlər, şanapipiklər, torağaylar, cüllütlər və başqa quşlar bəzəyərdi. Yazda durnaların və qaranquşların gəlişi bizi sevindirər, payızda köç etmələri isə qüssələndirərdi.

Zirvələrində qartallar, quzğunlar, şahinlər və bir çox quşlar sığınacaq tapardı.

Hərdən insanları vahiməyə salan vaşaqlar, gorəşənlər də əskik deyildi. Canavarlar isə çobanları bezdirmişdi. Nankor qonşular kimi sürüdən yediyini yeyər, yemədiklərinin isə boğazını üzərdi.

## TOPONİMLƏR

Kəndimiz xalqmızın tarixi keçmişini, adət-ənənələrini, məişətini özündə qoruyub saxlayırdı. Bu yer adlarının hər biri bir hadisə və yüzlərlə xatirələrin canlı şahidləridi.

## Yer, yurd və biçənək adları

Tirgeh, Mədən qayası, Rəcəb düşən , Top ardıc, Öküz təpəsi, Sızğa su , Kəndin qabağı, Nərimanın dərəsi, Yatalqa, Alçalıq, Çökək, Böyük biçənək, Qumun başı, Sürütmə yolu, Duzdaq, Palıdlıq, Tağının ağ daş yeri, Tikanlıq, Şirinin çökəyi, Sarıyol, Alağalı yalı, Göy qum, Qancıq dərəsi, Dana düzü, Acılı düz, Qaradağlı, Sarıçiçəkli, Qoşabulaqlar, Gölün düzü, Duz yurd, İsmayıl bəy düşən, Korabulaq, Yal yurd, Baş kəndin qabağı, Aydın biçən, İdris biçən, Surxay biçən, Dəfli yurd, Qəfər biçən, Məhəmməd biçən, Arxac burun, Kalafalıq, Dolayı bulaq, Kosayatan, Böyük şırran, Mirzalının çuxuru, Halçalıq, Toyolan, Kiçik dəhnə, Böyük dəhnə, Mehdinin çuxuru, Tələlər, Məşədi Şəmşir yeri, Sulu biçənək, Sarıtorpaqlıq, Kolavat, Teymurun yeri, Hüseynin yeri, Qaçayın tapı, Baxşalının xırmanı, Hümbətalının yeri, Seyidalının xırman yeri, Dəfin başı, At uçan, Şəmşirin yeri, Əlinin yeri, Abbasəlinin yeri, Elmanın yeri, Pənahın yeri, Fərhadın yeri, Sənəkdolan, Zərnigarın yeri, Kəndin altı, Qozlu dərə, Moruqlu dərə, Xırman, Sarıdaş, Fərhadın dərəsi, Yuxarı Turşsu, aşağı Turş su, Dəyirman yeri, İlan kahası, Doqquz donu, Məşədi Şəmşir bağı, İslam vurulan, Gen dərə, Varsaq tələsi, Tələ qurulan, Darı yeri, Səfər ölən, Alçalı kəndin qabağı, Qəbiristanlıq yeri, Qalanın altı, Qala, Alçalı kəndin dərəsi, Tələlər, Quqqu, Gərdən, Alçalı kəndin daşı, Qara bərəyə, Daşın dalı, Kazım binə, Pir, Pirin yalı, Çiçək inək doğan, Ağaların hasarı, Dik güney, Pirilər (Binə), Binənin qabağı, Kəndin qəbiristanlığı, Məmmədəlinin xırman yeri, Kalafalıq, Ardıclı, Qındırğalığın yalı, Qındırğalıq, Moruqlu dərə, Kahanın qabağı, Tənbəki qayası, Dəf, Göy qum, Muncuqlu təpə, Ağ daş, Moltanın qəbri, Güney, Kəfşən güneyi, Aralıq, Qırmızı alma,

Gölün düzü, Tək palıdın üstü, Qırmızı qaya, Tələnin dalı, Şalban göl, Kahanın qabağı, Zerzəmi, Ədilin çəpəri, Nadirin çöpü, Dəyirmi tələ, Gəvənli burun, Ala inək qalan, Məşədi Əmir əlik vuran, Sacayaq tapılan, Qabıq qayası, Dik duzdax, Arı qayası, Maral uçan, Mədətin dam yeri, Xaçlar , Məyəl, Səbət keçməz və başqaları.

## Çay, bulaq və göl adları

Top ardıcın bulağı, Mədən bulağı, Yarpızlı bulaq, Şırran bulaq, Dolayı bulaq, Çeyilli bulaq, Qiblə bulağı, İbrahimin tozlu bulağı, Nərimanın bulağı, Lüləpərli bulaq, Ayğır bulağı, Camış gölü, Novlu bulaq, Şalban göl, Sızqasu çayı, Fərhadın bulağı, Sənəkdolan, Kolavatın bulağı, Çökəyin bulağı, Kalafalığın bulağı, Tikanlığın bulağı, Qoşa bulaqlar, Böyük Şirran ( oradan kəndə su çəkilmişdir), Seyidalı bulağı, Ayğır bulağı, Göy bulaq, Çiçəkli bulaq, Kora bulaq, Astan bulağı, Düz yurd bulağı, Baş kənd bulağı, Mirzalı bulağı, Yal yurdun bulağı, Dolayı bulaq, Dəfli yurdun bulağı, Soyuq bulaq, Gölün yeri, Nədirin bulağı, Baxışalı bulağı, Şalban gölü, Dəfin çayı, İslamın bulağı, Dəfin bulağı, Kəndin bulağı, yuxarı Turşsu, Aşağı Turşsu, Kor bulaq, Damcı bulaq, Şəmşirin bulağı, Həmərsünlü bulaq, Qiblə bulağı, Əlifin bulağı.

Gərdəndə 1940–44-cü illərdə geoloqlar 15 ədəd quyu qazmışlar. 1962–1966-cı illərdə isə bu yerlərdə buruqlar vurulmuşdu. Orada çıxan Axar bulaq və onlarla digər adsız bulaqlar.

# ƏHALİSİ

## Nəcəfalılar və Pirilər

**Əhalisi:** (01.01.2009-cu il tarixə olan ümumi statistik məlumatlar).

Taleyin sərt sınağına çəkilən Kəlbəcər sakinləri qatarı pozulmuş durna kimi pərən–pərən olub ölkənin bütün bölgələrinə dağıldı. Tezliklə öz doğma ocaqlarına qayıtmaq arzusu ilə qohum, tanış, dost evində müvəqqəti məskunlaşan camaat günü aya, ayları illərə calayıb həsrətinin on altıncı ildönümünü yaşayır. 01. 01. 2009 cu il tarixə olan statistik məlumata görə təkcə Comərd kənd icra nüma–yəndəliyinin məcburi köçkünləri respublikamızın 21 rayonunda məskunlaşmışlar. Nümayəndəliyin əhalisi 300 ailə olmaqla 1162 nəfərdən ibarətdir. Bunlardan 28 nəfəri Kəlbəcər rayonunun başqa kəndlərindən və respublikamızın digər rayonlarından kəndimizə gələn gəlinlər, qalanları isə nümayəndəliyin daimi sakinləridir. Nümayəndəliyin əhalisinin 551 nəfəri isə Nəcəfalılar və Pirilər kəndlərinin sakinləridir. Köçkünlərdən 56 nəfəri hərbi xidmətdə, Rusiyanın şəhərlərində olduqları səbəbindən yemək xərci almasalar da, qalan 1106 nəfəri ölkənin məcburi köçkünlər üçün göstərdiyi qayğıdan yararlanır və onlara ayrılan yemək xərclərini alaraq dolanırlar. Nümayəndəliyimizin başçısı elimizin dəyərli oğlu, gözəl ziyalımız Musayev Ramiz Zülfü oğludur. Əhalinin 21 rayona dağılmasına baxmayaraq, Ramiz müəllim vaxt tapıb hamının dərd–sərləri ilə tanış olur, xeyir-şərlərində iştirak edir. O, üzləşdiyimiz problemləri vaxtında rayonun icra başçısına və lazımi orqanlara çatdırır və bunların həllində fəal iştirak edir. Nümayəndəliyin əhalisi Azərbaycanın müxtəlif regionlarında, o cümlədən Abşeron rayonunda 37 ailə olmaqla – 140 nəfər, Qaradağda 1 ailə olmaqla–7 nəfər, Binəqədidə 1 ailə olmaqla–5 nəfər, Nizamidə 1 ailə olmaqla -5 nəfər, Sabunçuda 13 ailə olmaqla–74 nəfər, Suraxanıda 16 ailə olmaqla–74 nəfər, Səbaildə 12 ailə olmaqla–45 nəfər, Xətaidə 2 ailə olmaqla–7 nəfər, Bərdədə 47 ailə olmaqla–172 nəfər, Qazaxda 1 ailə olmaqla–4 nəfər,

İsmayıllıda 4 ailə olmaqla–19 nəfər,
Yevlaxda 51 ailə olmaqla - 202 nəfər, Mingəçevirdə
1 ailə olmaqla–2 nəfər, Naftalanda 1 ailə olmaqla–5 nəfər,
Samuxda 8 ailə olmaqla–24 nəfər, Tərtərdə 28 ailə olmaqla–112
nəfər, Şamaxıda 8 ailə olmaqla–33 nəfər, Şəmkirdə 4 ailə olmaqla-15 nəfər, Goranboyda 19 ailə olmaqla-67 nəfər, Göygöldə 12 ailə olmaqla–50 nəfər və Gəncədə 33 ailə olmaqla–123 nəfər məskunlaşmışdır.

Hal-hazırda 10 nəfər hərbi xidmətdədir. 10 nəfər isə Rusiyanın şəhərlərind ə dolanışıq tapıb. Bir nəfər də olsun fərarimiz yoxdur.

Nəcəfalılar və Pirilər tarixən bir kənd olmuşlar. Məşədi Pirməmməd, Məşədi Şəmir, Ağalar, İdris, Ələs kişi olmaqla Nəcəfalılar camaatının bir çoxu əvvəllər Pirilərdə (Binədə) yaşamışlar. Təhməz baba isə Alçalı kənddə yaşamışdır. Kəndimizin əhalisi Pirilərdən 14 ailə – 54 nəfər, Nəcəfalıdan isə 128 ailə – 497 nəfər olmaqla 142 ailədən – 551 nəfərdən ibarətdir. Bunlardan 14 nəfər rayonun başqa kənlərindən və respublikanın digər bölgələrindən gələn gəlinlərimizdir. Kəndimizin əhalisi də nümayəndəliyin əhalisi kimi respublikanın 21 rayonuna dağılaraq müvəqqəti məskunlaşmışlar. Nəcəfalılardan 251 nəfər kişi, 246 nəfər qadın, Pirilərdən isə 29 nəfər kişi, 25 nəfər qadın olmaqla kəndimizin 280 nəfər kişi və 271 nəfər qadını hal-hazırda doğma od-ocaqlarından ayrı düşərək köçkünlük taleyi yaşayırlar.

Hər axşam işıqlı sabaha ümidlə, hər gün xoş, səadətli gələcəyə arxayınlıqla yaşayan camaatımız respublikanın rayonlarında aşağıdakı kimi məskunlaşmışlar:

# Kəndin əhalisinin məskunlaşdığı rayonlar

| № | Məskunlaşdığı rayonun adı | Nəcəfalılar | | Pirilər | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|
| | | Ailə | Nəfər | Ailə | Nəfər | Ailə | Nəfər |
| 1. | Abşeron | 13 | 48 | – | – | 13 | 48 |
| 2. | Binəqədi | 1 | 5 | – | – | 1 | 5 |
| 3. | Bərdə | 20 | 73 | 4 | 12 | 24 | 85 |
| 4. | Qazax | – | – | – | – | – | – |
| 5. | Qaradağ | 1 | 7 | – | – | 1 | 7 |
| 6. | İsmayıllı | 2 | 8 | 2 | 11 | 4 | 19 |
| 7. | Yevlax | 32 | 128 | – | – | 32 | 128 |
| 8. | Mingəçevir | 1 | 2 | – | – | 1 | 2 |
| 9. | Naftalan | 1 | 5 | – | 1 | – | 5 |
| 10. | Nizami | – | – | – | – | – | – |
| 11. | Sabunçu | 3 | 14 | – | – | 3 | 14 |
| 12. | Samux | 4 | 13 | – | – | 4 | 13 |
| 13. | Suraxanı | 4 | 19 | – | – | 4 | 19 |
| 14. | Səbail | – | – | 6 | 21 | 6 | 21 |
| 15. | Tərtər | 8 | 33 | – | – | 8 | 33 |
| 16. | Xətai | 2 | 7 | – | – | 2 | 7 |
| 17. | Şamaxı | 3 | 13 | – | – | 3 | 13 |
| 18. | Şəmkir | 2 | 6 | – | – | 2 | 6 |
| 19. | Goranboy | 8 | 24 | – | – | 10 | 37 |
| 20. | Göy-göl | 10 | 37 | – | – | 10 | 37 |
| 21. | Gəncə | 13 | 55 | 2 | 10 | 15 | 65 |
| | YEKUN: | 128 | 497 | 14 | 54 | 142 | 551 |

Kəndimizin əhalisi bir-birlərinin xeyir-şər işlərində, tədbirlərdə iştirak etmək üçün yüzlərlə kilometr məsafə qət etməli olurlar. Bəzən də bu mərasimlərin sorağını alsalar da, onların harada yaşadıqlarını bilmədiyindən qohum-əqrəba yanında xəcalətli qalırlar. Təki, Allah bizləri xəcalətli etməsin! İnşallah, tarixin bu sınağından da həmişə olduğu kimi üzüağ çıxarıq.

Əhalimizin müvəqqəti məskunlaşdığı yerləri də arayıb-axtarıb tapmışıq. Bunlarla sizi də tanış edirik: Abşeron rayonunun Xırdalan qəsəbəsində Məmmədov Yadigarın, Əmirov İzzətin, Məmmədov Səyavuşun, Həsənov Köçərinin, Əliyev Pərvizin, Məmmədov Əlinin, Piriyev Namazın, Piriyev Fazil və Bəhlul qardaşlarının ailəsi, Bakı şəhərinin Qaradağ rayonunda Müşfiq qəsəbəsində Həsənov Nofəlin, Binəqədi rayonunda Novruzov Vaqifin, Həmidov Adilin, Sabunçu rayonunda İbrahimov Məhəbbətin, Əliyev Kərəmin, Suraxanı rayonunda Abbasov Əlinin, Xəlilov Raufun, Səbail rayonunda Əziz, Arif, Bəxtiyar, Sabir və Sahib Piriyevlərin, Xətai rayonunda Musayev Zülfinin Naftalanda Abbasov Hicranın, Bərdə rayonunun Mehdixanlı və Həsənqaya kəndlərində Həsənov Etibarın, Əliyev Fehruzun, Əliyev Məcidin, Əliyev Əsgərin, Abbasova Diləfruzun, Abbasova Çiçəyin, şəhid Məmmədov Oqtayın (Gülgəzin), Həsənov Nahidin, Həmidova Savadın, Piriyev Yusifin, Piriyev Arzumanın, Piriyev Əlinin, Abbasov Rasimin, Şirəliyev Bəşirin, Həmidov Qabilin, İsmayıllı rayonunda Piriyev Dilqəmin, Piriyev Elbrusun, Həsənov Vəlinin və Məmmədov İnqilabın, Yevlax rayonunun Mal Binəsi və Hacımahmudlu kəndlərində Novruz Əliyev, Şura Əliyev, Qəhrəman Kazımov, Kamil Əliyev, Murad, Niyaz, Zahid, Tahir, Nemət, Famil Əliyevlərin, Ziyadənin (Sarıqızın), Piriyev Pirinin, Abbasov Bahadırın, Məmmədov Həsənin, Məmmədova Sədətin, Elşadın, Surxay və Malik İbrahimov qardaşlarının, Tərtər rayonunda Abbasov Asifin, İmranın, Camal və Habil Əliyevlərin, Cəmilli kəndində Yaqub və Əyyub Şamilovların, Göygöl rayonunda Ümidvar və Zülfüman Abbasovların, Murovdağ qəsəbəsində Məmmədov Surxayın, Xəlilov Nəbinin, Şamaxıda Əmirov Hafizin, Şəmkirdə İbrahimov Abbasın, Goranboy rayonunda Şamilov İdrisin və Ziyəddinin, Gəncə şəhərində Abbasov İzzətin, Həsənov Sərdarın, Salah, Sübhan və

Əlizaman Əliyevlərin, Məhəmməd, Lətif, Məhər və Təbriz Həmidovların, Hacıkənddə isə Əliyev Həmzənin ailəsi məskunlaşmışdır.

Mehriban Azərbaycan xalqı respublikamızın bölgələrində taleyin acı hökmü ilə öz doğma ocaqlarından didərgin düşmüş qaçqın və köçkünlərimizi çox layiqincə, gülərüzlə, duz-çörəklə qarşılayıb. Həmvətənlərimizin zəhmətsevərliyi, insanpərvərliyi onlara düşdükləri mühitdə hörmət və ehtiram qazandırıbdır. Zəhmətsevər, dağ cüssəli, sağlam düşüncəli Kəlbəcər camaatı məskunlaşdıqları yerlərdə yerli əhali ilə gözəl münasibət qurmuş, əksəriyyəti ilə ömürlük dostluq, qohumluq əlaqələri yaratmışdır.

Şükürlər olsun ki, elimin maddi vəziyyəti də qənaətbəxşdir. Lakin bütün bunlarla yanaşı, kimi dindirirsən, Kəlbəcər yanğısı ilə danışır və tezliklə öz yurd-yuvalarına dönəcəklərinə ümid edirlər.

Çil-çıraqlı, təmtəraqlı şadlıq saraylarında övladlarına toy edən valideynlərin hər biri səbəbkarların övladlarının toyunu Kəlbəcərdə keçirmək arzuları ilə yaşayır. Elçin Əliyev demişkən : «Bu şadlıq sarayları nə qədər çil-çıraqlı olsa da, toylar nə qədər təm-təraqlı keçirilsə də, süfrələr nə qədər bol -bərəkətli olsa da, musiqiçilər də nə qədər tanınmış olsalar da, yenə doğma Nəcəfalılarımızda çubuqdan qurulmuş, hər tərəfdən xalçalərlə bəzədilmiş mağarlarda, «İliç» lampasının işığı altında, gözəl diyarımızın ləzzətli nemətləri ilə bəzədilmiş süfrələr arxasında, qara zurnanın sədaları altında keçirilən toylarımızın yerini vermir. Mən o toylarımız üçün darıxıram. Kəndimin subaylarına isə öz toylarını qürbətdə yox, doğma obamızda Nəcəfalılarımızda keçirməyi arzulayıram»! Amin!

Nədədi o yerlərin ləzzəti?! Ağızın tamı, zövqün, ruhun qidası, ağsaqqal sözünün kəsəri, cavanların qüvvəti, təpəri, süfrənin bəzəyi, ocağın dini-bərəkəti?! Bunları bilmək üçün gərək ən azı o yerlərdə yaşayasan, o yerləri öz doğma yurdun kimi sevəsən, insanlarını isə ən əziz adamların kimi biləsən.

# ƏHALİNİN MƏŞĞULİYYƏTİ

## Əkinçilik və bağçılıq

Əkinçilik və bağçılıq kənd camaatının əsas məşğuliyyətlərindən biri olduğundan bütün ailələr əkinçilik və bağçılıqla məşğul olurdu. Əkinçilik, əsasən, iki istiqamətdə – fərdi əkinçilik və kolxoz əkinçiliyi istiqamətlərində aparılırdı. Kolxozun əkin sahələrində camaat tütün əkib-becərməklə məşğul olurdu. Yazın ilk günlərindən etibarən kənd camaatı parnik və istixanalar düzəldir, qara meşə torpağında ştillər əkirdilər. Ştillər bir az böyüdükdən sonra isə onları əvvəlcədən əkilmiş və vərlənmiş əkin sahələrinə köçürürdülər. Yığılmış tütünlər uzun iynələr vasitəsilə saplara düzülür, sonra isə ağac zoğlarından düzəldilmiş xüsusi yerlərdə asılır və qurudulurdu. Olduqca çətin və ağır zəhmət bahasına başa gələn bu əziyyətli əməyin qiyməti olduqca az idi.

Fərdi, yəni həyatyanı torpaq sahələrində isə kənd camaatı öz tələbatlarını ödəmək üçün istəklərinə uyğun olaraq müxtəlif kənd təsərrüfatı məhsulları – kartof, soğan, qarğıdalı, çuğundur, turp, boranı, xiyar, pomidor, lobya və digər bostan bitkiləri əkib - becərirdi.

Bağlarda çoxlu meyvə ağacları – alma, armud, gilas, gilənar və başqa meyvələr, həmçinin moruq, qarağat, böyürtkən, çiyələk və digər giləmeyvələr yetişdirilirdi. Əlverişli iqlim şəraiti və torpağın münbit olması bol məhsul götürülməsinə zəmin yaradırdı. Bağların meyvələrini yığıb-yığışdırmaq olmurdu. Kənd camaatı artıq məhsullarını satmaq üçün rayon bazarına, bəzən isə hətta ətraf rayonların bazarlarına da apardı.

Kəndin meşələrində çoxlu yabanı meyvə – meşə alması, meşə armudu, zoğal, əzgil, ərik, qoz, fındıq və bu kimi onlarla digər meyvə ağacları və kolları, həmçinin çol moruğu, qarağat, böyürtkən, çiyələk və başqa yabanı giləmeyvələr bitirdi. Kənd camaatı meşələrimizdə yetişən bu zəngin

təbii nemətlərlə öz ərzaq ehtiyatlarını artırır, Ulu Tanrının onlara bəxş etdiyi bu nemətləri qoruyur, onlardan səmərəli istifadə edirdi. Təəssüflər olsun ki, mənfur "hay"ların torpaqlarımızı işğal etmələri nəticəsində nəinki Nəcəfalıların, bütün Kəlbəcərin, Qarabağımızın meşələri, bağları məhv edilmiş, qiymətli ağacları kəsilərək tikinti materialları kimi düşmən torpaqlarına daşınmışdır.

## Maldarlıq

Maldarlıq da kənd camaatının əsas məşğuliyyətlərindən biri idi. Maldarlıq iki əsas istiqamətdə inkişaf etmişdi: ümumi təsərrüfatda birləşmiş kolxoz maldarlığı və kəndlilərin şəxsi təsərrüfatlarında olan fərdi maldarılıq. Kolxoz maldarlığında yüzlərlə iribuynuzlu və xırdabuynuzlu mal-qara, qoyun-quzu saxlanılırdı. Kolxoz mallarının əksəriyyətini yerli cinsdən olan mallar təşkil edirdi. Bununla belə, kolxoza Hollandiyadan, Rusiyadan və digər ölkələrdən ətlik və südlük cinslər də gətirilmişdi. Kolxozda mal, qoyun fermaları təşkil edilmişdi. Bir neçə yerdə müasir tipli mədəni fermalar tikilmişdi. Kəndimizin ağbirçək anası Lalə nənə ömrünün əksər hissəsini maldarlığa həsr etmiş adlı-sanlı sağıcılarımızdan olmuşdur. Piriyev Namaz Əlif oğlu uzun illər kolxozda ferma müdiri vəzifəsində işləmişdi. Həmidov Lətif, Həmidov İbrahim, Məmmədov Həsən, Piriyev Sadıx və başqa naxırçılarımız isə ömürlərinin çoxunu dağlarda mal-qara saxlamaqla keçirmişdilər. Onlar dağların özü qədər vüqarlı, havası qədər saf, suları qədər pak insanlar idilər.



**Kolxozumuzun zəhmətsevər və qabaqcıl sağıcısı Lalə nənə**

Fərdi təsərrüfatlarda da xeyli mal-qara vardır. Hər evdə orta hesabla 10 baş iribuynuzlu, 30-50 baş xırdabuynuzlu heyvan vardır. Bundan başqa, kənd camaatının fərdi təsərrüfatlarında yüzlərlə quş: toyuq-cücə,

qaz, ördək, hinduşka və başqa ev quşları da saxlanılırdı. Qəfil hücuma məruz qalmış elimiz mal-qarasını çıxara bilməmiş, bütün var-dövləti mənfur "hay"lara qalmışdır.

## Arıçılıq

Arıçılıq son zamanlar kənd camaatı arasında daha geniş yayılmağa başlamışdır. İmamverdi Hümbətov, Abbas İbrahimov, Məhəbbət İbrahimov, Camal Əliyev və başqaları kəndimizdə tanınmış arıçılardan idilər. Arıçılığın təmiz və pak bir sənət olduğunu və halallığı sevdiyni bilən bu insanlar, həmin sənətin halallığını daima uca tutmuş, qoruyub saxlamışlar. Olduqca zəngin və rəngarəng təbiəti olan Nəcəfalılar kəndi arıçılığın yaradılması və inkişafı üçün çox əlverişli idi. Kəlbəcərin işğalı zamanı minlərlə arı ailəsi də mənfur "hay "lara əsir düşmüşdür.

## Sənətkarlıq

**Xalçaçılıq** sənəti hələ XVIII əsrin ikinci yarısından Azərbaycanın daha da inkişaf etmiş Qarabağ bölgəsində, o cümlədən Kəlbəcərdə də geniş yayılmışdır. Zəngin çeşidlərə malik Azərbaycan xalçasının 1000-dən çox növü vardır.




**1962-ci ildə Nəcəfalılarda Həmidova Qumrunun adına toxunan cehizlik xalça.**

Xalçaçılıq kəndimizdə ən qədim sənət sayılırdı. Elə bir ev tapılmazdı ki, həmin evdə hana qurulmasın, xalça, kilim, palaz toxunmasın. Bu xalçalar xalqın məişətini, adət-ənənəsini, tarixini, mədəniyyətini özündə əks etdirir, evlərin isidilməsində, bəzədilməsində və el şənliklərində istifadə olunurdu. Uzun qış gecələrində kəndimizin qız-gəlinləri növbə ilə bir evə yığılar, orda hana qurub xalça toxuyardılar. Onların şən səsləri, zarafatları, şaqraq gülüşləri soyuq qış gecələrində sükutə qərq olmuş kəndi oyadar, həzin zümzümələri isə şaxtalı havaya isti bir hərarət gətirərdi.

Təbiətin fırçası ilə tanındı,
Buz bulaqlar dolçasıyla tanındı.
Xalısıyla, xalçasıyla tanındı,
Dünyanı gəzdikcə, gəzdi Kəlbəcər…

***Mehdixan Kəlbəcərli.***

Kəndimizin işğalı zamanı yüzlərlə xalça, palaz, kilim, xurcun, heybə, farmaş və digər əl işlərini gətirmək mümkün olmamışdır. Elimizin bu milli sərvətləri işğalçı ordu tərəfindən İrəvana (Ermənistana) daşınmışdır. Nankor ermənilər Kəlbəcərin «Çələbit», «Xonçalı» «Gül», «Lampalı» və digər nadir naxışlı xalçalarını dünya bazarlarında erməni xalçaları adı altında satırlar.

**Bənnalıq və dülgərlik** sənəti ilə kənd camaatı arasında ad-san qazananlar çox idi. Bunlardan Zülfü Musayevi, Köçəri Həsənovu, Salah Əliyevi, Bahadur Abbasovu, Həsən Məmmədovu və başqalarnı göstərmək olar. Bu sənətkarları rayonun bütün bölgələrində mahir bənna və dülgər kimi tanıyırdılar. Bir çox kənd sakinləri də bənnalıq və dülgərlik sənətini bacarırdılar.. Bu sənətkarların əməyi nəticəsində kəndimizdə onillik orta məktəb, dükan, klub və bir sıra başqa mədəniyyət və məişət obyektləri, həmçinin olduqca gözəl, müasir və yüksək zövqlə fərdi yaşayış evləri tikilmişdir. Çox təəssüflər olsun ki, Kəlbəcərin işğalı nəticəsində elimiz o rahat və isti evlərindən didərgin düşmüş, evlərimizin hətta daşları belə ermənilər tərəfindən sökülərək daşınmışdı.

**Sürücülük** sənəti də kəndimizdə inkişafda olan sənətlərdən biridir. Bir vaxtlar kəndimizdə yalnız bir sürücü – Şura Əliyev və onun idarə etdiyi avtomaşın olduğu halda, artıq son illər kəndimizdə həm fərdi, həm də idarə və təşkilatların balanslarında olan avtomobillərin sayı günü-gündən artırdı. Şura Əliyev kəndimizin ilk və peşəkar sürücüsü kimi tanınmışdır. Sonralar Tahir Əliyev, Kamil Əliyev, Qəhrəman Kazımov, Ziyəddin Şamilov, Natiq Əliyev, Əli Abbasov, Səxavət Həmidov, Sərdar Piriyev, Bəxtiyar Piriyev və başqa sürücülərimiz bu çətin sənətin layiqli davamçıları olmuşlar. Bundan başqa kəndimizdə adlı-sanlı mexanizatorlar, buldozerçi Məhəmməd Mamedov, Nəbi Xəlilov, Nemət Mamedov, traktorçular Həmzə Əmirov, Bəşir Şirəliyev və Vaqif Novruzov, Rasim Mamedov və başqaları öz zəhmətsevərliyi və peşəkarlığı ilə tanınmışlar. Kəlbəcərin işğalı zamanı onlarla fərdi və idarə maşınları, buldozerlər, traktorlar və digər texnikalarımızı mühasirədən çıxarmaq mümkün olmamışdır.
Kəndimizin bacarıqlı elektriklərindən Həsənov Vəlini, Piriyev Əzizi və Kazımov İmranı misal göstərmək olar.

**Ovçuluq** kənd camaatımızın əksriyyətinin ən sevimli məşğuliyyəti idi. Tarla, əkin-biçin işlərindən asudə olan qış aylarında ova getməsi başqa zövq verirdi. Dizəcən çıxan qarı yara-yara bəndi-bərəni kəsib dovşan, dağkeçisi, çöldonuzu (qaban) ovlamaq böyük sənətkarlıq tələb edirdi. Ən həssas quşları, heyvanları duyuq salmadan bir-birini işarə ilə başa salan ovçular bərədə duran yoldaşlarını necə də duyurdular?! Bərədə gözləyən isə ən dəqiq ovçu olmalı idi. Bəzən bir saniyəni itirmək bütün günün əziyyətini itirə bilərdi. Bəzən də ovçu nə qədər dəqiq olsa da, qarşısına gətirilən ovu vura bilmirdi. Ona tuşlanan tüfəngi hiss edən ceyran və ya dağ keçisi burulub məzlum-məzlum balasına baxar, sonra ovçuya baxardı. Bu isə ovçunun ürəyini yumşaldar, öz balalarını yadına salar və qolunu boşaldardı. “Mənim də balam var, atım, atmayım?” - deyə tərəddüd edərdi. Ov süzüb gedəndə isə səhnəni ovçu yoldaşlarına danışar və bəraət qazanardı.

Naşı ovçu kəsdi ovun bərəsin,
Atmalıydı, atammadı, neyləsin?!

Qədim oyunları, adətləri, ənənələri olduğu kimi qoruyub saxlayan Nəcəfalılar əhalisi ovçuluq peşəsini də bütün qaydaları ilə yadigar saxlayırdı. Bu peşəni layiqincə qoruyub saxlayanlardan Zeynal baba, Əziz dayı, Yusif dayı, Nəbi dayı, Sura dayı, Yadigarı dayı, Novruz dayı kimi qocaman ovçularımız vardır. Qəhrəman, Şakir, Oruc, Rauf, Arzuman, Zahid, Nofəl, Əli, Bəxtiyar və başqa cavan ovçularımız bu qədim peşənin sirlərinə yiyələnərək onu layiqincə yaşadırdılar.

Sonralar öz içərimizdə xain qüvvələrin, "sapı özümüzdən olan baltaların" fitnəkar planı ilə bütün ov tüfəngləri yığışdırıldığından əliyalın, naçar camaat tərkivətən olmaq kimi amansız hökmə məruz qaldılar.

# V FƏSİL

## ƏSRLƏRDƏN QALAN MİRAS



# ADƏT VƏ ƏNƏNƏLƏR

Ulu Tanrı Kəlbəcərə gözəl və füsunkar təbiəti, saf suyu, təmiz havanı bəxş etdiyi kimi, oranın insanlarını da olduqca səmimi, mehriban və alicənab xəlq etmişdir. Rayonumuzun el şənlikləri də olduqca gözəl, təmtəraqlı və maraqlı keçirdi. Kəlbəcər elinin xeyir-şərinin vurğunu olan ustad sənətkarımız Aşıq Ələsgər demişkən:

Gəşt eylədim, bu dünyanı dolandım,
Kəlbəcərin xeyri-şəri yaxşıdır.

Ustad aşıqlarımız Nəcəfalılar camaatının adət-ənənələrinə sa–diq qaldıqlarını, xeyir-şərlərinin özünəməxsusluğunu və zənginliyini dəfələrlə qeyd etmişlər. Camaatımız el şənliklərinə xüsusi diqqət yetirir, aşıqlarımıza böyük hörmət və ehtiram bəsləyirlər.

## Kiçik toylar

Müsəlman aləmində sünnət deyilən mərasimin tarixi uzaq keçmişə söykənir. Neçə min il bundan əvvəl İbrahim Peyğəmbərə 120 yaşında sünnət olmaq barədə buyruq gəlir.

Həzrəti Məhəmməd Peyğəmbərimiz (Sallallahu Əleyhi Səlləm) buyururdu ki, İbrahim Peyğəmbər mənim otuz ikinci babamdır. Bu hesabla ən azı 4-5 min il tarixi olan bu qədim və müqəddəs mərasim kənddə bütün dəqiqliyi ilə yaşamaqda idi.

Kənddə oğul uşağı doğulan gündən, bəzən də hələ doğulmamış kiminlə kirvə olmaq barədə düşünürdülər. Qohumlar içində kirvə ən hörmətli, əziz qohum sayılırdı. Müşkül məsələlərdə, qan davalarında barışıqlara kirvəni göndərərdilər. Kirvə gedən yerdə qan düşmənçiliyi bağışlanar, ədavət unudulardı. Kirvə stolun başında əyləşər, gəlişinə erkək kəsilərdi.

Kiçik toy gününə böyük həvəslə hazırlaşardılar. Həmin gün atalar fəxr edər, toyu olan oğul isə müsəlman olduğu üçün fərəh duyardı.

Qonaqlar gün ərzində yeyib-içib şənlənər, rəqs edərdilər. Hamıya şirniyyat paylanardı. Toydan bir həftə sonra

kirvə qonaq çağırılardı. Hədiyyələrlə, xələtlərlə yola salınan kirvə bir neçə gün sonra bəyi qonaq çağırardı. Bundan sonra bu iki ailə arasında qohumluq əlaqələri saxlanılar və nəsildən-nəslə ötürülərdi. Kirvənin qızını almaq və kirvəyə qız vermək yasaq idi. Çünki kirvə oğul üçün ikinci ata, dar günündə ona dayaq, şad günündə isə qürur yeriydi. Bu da kirvəliyin qohumluq kimi nə qədər müqqəds olduğunu bir daha göstərirdi.

## Böyük toy

Bəli, ataya arxa dayaq olan övladlar günü-gündən böyüyür, böyüdükcə də qayğılar artırdı. Bu qayğılar içində valideynə qol-qanad verən, fərəhləndirən, xoşbəxt anlar yaşadan məqamlar da vardı ki, bunlardan biri də toylarımız idi.

## Qız bəyənmə və qız görmə

Bizim yerlərdə sevənlərin görüşmələrinə və söhbət etmələrinə demək olar ki, rast gəlməzdin. Bu oğul və qızlarımızın tərbiyəsindən və həyalarından irəli gəlirdi. Həm də kəndimizin əhalisi çox olmadığından, hamı biri-birini yaxından tanıyırdı. Bundan başqa, kənd camaatı biri-birinə qız verib-qız almaqla qohumlaşmışdılar. Ona görə də sevənlər olsa-olsa baxışları, gözləri ilə bir-birinə nəsə deyərdilər. İlahinin verdiyi hisslərin ən alisi, ən müqəddəsi olan məhəbbət hissi yalnız ürəklərdə özünə məskən tapar, gözlərlə danışardı.

Ulu keçmişimizdə qızı oğlanın anası, atası bəyənib seçər, sonra isə bu barədə oğlana deyərdilər. Müasir dövrümüzdə isə oğlan və qızlarımız özləri biri-birilərini sevib bəyənərdilər. Oğlan öz seçimi barədə sonra bacısına və ya anasına deyərdi. Bundan sonra oğlanın anası, bacıları və atası qızı bəyənərdilər. Hamı razılığa gəldikdən sonra oğlan evi qızın valideyninin fikrini öyrənmək üçün qız evinə özünün münasib bildiyi, yaxın adamını göndərərdi.

Qız eviylə razılıq əldə olunduqdan sonra oğlan evi qız evinə elçi gələcəklərini bildirərdi. Qız evi razılıq verdikdən sonra oğlan tərəfdən 2-3 qadın qız evinə gedər, necə deyərlər, “kol-kos qırılandan” sonra oğlan evi sayılan ağsaqqallarla qız evinə gələrdi.

## Kiçik elçilik

Elçiliyə gecə getməzdilər. Elçilər öz hərəkətləri, sözləri ilə işarə edərdilər ki, elçiliyə gəliblər. Bu zaman deyilərdi: "Qız qapısı, şah qapısı", "qız ağacı, qoz ağacı", "qız yükü, duz yükü" və s.

Elçilikdə süfrəyə gələn çay içilməzdi. Qız tərəf birinci elçilikdə razılıq verməzdi. "Bir qızımın fikrini öyrənim, ağsaqqallarımızla, qohum-əqrəbamla, yaxınlarımla məsləhətləşim, sonra sizə bildirərik. "deyərdilər. Qızın rəyi soruşulanda qız "atam bilər, böyüklərim bilər" deyərdi. Bu həm də qızın razılıq əlaməti idi. Bundan sonra böyük elçiliyə razılıq verilərdi.

## Elçilik

Məsləhət görülən gündən qabaq qız evinə xəbər göndərilərdi ki, bəs filan gün sizə elçi gəlirik. Qız evi də həmin günə qohumlarını, yaxınlarını çağırardı, elçiliyə hazırlıqlar görülərdilər. Elçilik vaxtı qızı öz qohumlardan birinin evinə göndərərdilər ki, elçilərin gözünə görünməsin. Oğlan adamlarını hörmət əlaməti olaraq yuxarı başa keçirərdilər. Bu məclisdə həm qadınlar, həm də kişilər əyləşərdi. Ordan–burdan söhbət etdikdən sonra sözü əsas mətləbin üstünə gətirərdilər. "Əl bizdən, ətək sizdən", " daş sizdən, divar bizdən", " bir qız bir oğlanındı", – deyərdilər. Sonra üz tutub soruşardılar: "Hə, indi sizin sözünüz nədi ? " Qız tərəfdən qızın əmisi, ya da dayısı cavabında yüngül minnətlə deyərdi: "Hörmətli ağsaqqallarımıza əziyyət verib qapımıza gətirmisiniz. Biz onlarla dədə-babadan çörək kəsmişik. Allah xoşbəxt eləsin! " Hamı bir ağızdan "Amin" deyərdi. Qızın bacısı və ya yaxını şirin çay gətirərdi. Hamı bir-birini təbrik edər, xoşbəxtlik, möhkəm və davamlı ailə, uzunömürlü qohumluq arzulayardı. Kimsə qızın olduğu evə gedər, ona "mübarək" deyərək evə gətirərdi. Evdə ata-anası qızı təbrik edib ona xoşbəxtlik arzulayardılar.

## Nişan

Nişan üçün hazırlıq işləri çox ciddi keçərdi. Elçilikdən müəyyən müddət sonra qıza nişan gətirərdilər. Qırmızı lentlə bağlanmış xonçalarda və sandıqlarda qız üçün lazım olan çox şey olardı. Geyimlərdən təkcə ayaqqabıdan, meyvə-tərəvəzlərdən isə soğandan başqa. Çünki bunlar darlıq və acılıq əlamətləri hesab olunurdu. Ayaqqabını isə sonradan qızın yanına gələndə gətirərdilər. Nişan xərclərini oğlan evi çəkərdi. Oğlanın adamları xonçaları nümayiş etdirərdi. Xonçada olan ətirlərdən birini götürüb əyləşənləri ətirləyərdilər və hamı mübarək söyləyərdi. Qız evinə buynuzlarına qırmızı bağlanmış qoç aparardılar.

## Bayramlaşmalar

Toya qədər olan bayramlarda oğlan evi qıza xonça gətirərdi. Bayramlardan başqa mövsüm nübarlarından da qızın payı olardı. Qız evinə başına qırmızı lent bağlanmış qoç da gətirərdilər.

## Kəbin kəsdirmə

Əvvəllər kəbini yalnız mollalar kəsərdi. Hər tərəfdən bir-iki ağsaqqal gedər, bəylə gəlinə kəbin kəsdirərdilər. Sonralar dini kəbinkəsdi ilə yanaşı, həmçinin nikahı dövlət qeydiyyatından da keçirirdilər. Əvvəllər kəbin kəsdirmənin “siğə” forması da var idi. Lakin bu adət sonradan aradan çıxmışdır.

## Cehiz

Toydan 2–3 gün qabaq gəlinin cehizini gətirər, otağı bəzəyərdilər. Kəndin qız–gəlinləri bu işdə fəal iştirak edərdilər. Bəy anası cehizi götürmək üçün qızın qardaşına nəmər (pul, yaxud kiçik hədiyyə) verərdi. Evi bəzədikdən sonra bəzi əşyalara qırmızı lent bağlayardılar.

## Paltarbiçdi

Qız evində növbəti mərasim paltarbiçdi idi. Bu məclisdə ancaq qadınlar olurlar. Qız bacısı qıza verilən əşyaları nümayiş etdirər, oğlan evindən gələn xonçalar göstərilərdi. Burada həm də gəlinin adına paltar biçilərdi. Oğlan adamları qız evinə nəmərlər verərdi.

## Xınayaxdı

Qız yengəsi əlində qabaqcadan hazırlanmış xına oynaya - oynaya qızlar yığışan otağa daxil olur. Sonra bir boş sini gətirib qoyur oğlan adamlarının qabağına. Onlar da ora nəmər qoyurlar. Sonra qızın əllərinə-ayaqlarına xına yaxılır. Məclisdəkilər də əllərinə xına qoyub, nəmər salırdı. Bu zaman oğlan adamlarının qabağına “ikirəngli çay” gətirilir. Onlar da çayı içib nəmər qoyurlar.

## Qız toyu

Nəcəfalılarda toy, ən azı, 2 sutka olurdu. Səhər saat 10–11 radələrində qara zurnanın səsi dağları, daşları lərzəyə gətirər, ətrafa əks–səda salardı. Həmin gün bütün kənd bayram əhvalı yaşayırdı. Hamı “toy başlandı”, “Allah mübarək eyləsin”, “yarıyanlardan olsunlar” söyləyərdi. Qonaqlar yavaş-yavaş mağara toplaşar, cavanlar isə onlara qulluq etməyə başlayardılar. Çox vaxt iki mağar qurulardı. Biri yemək, digəri isə musiqiyə, dastana qulaq asmaq, rəqs etmək üçün. Kimi xonça, kimi cehizlik, kimi də nəmər gətirərdi. Yemək verilməzdən qabaq bəy adamı gəlib “qazan açdı”(qazanın açılması üçün aşbaza verilən pul, yaxud hədiyyə) verərdi. Toyda at yarışması, nişana atmaq, güləşmək, müxtəlif növ rəqs etmək kimi yarışlar keçirilərdi. Rəqslər də mənalı və süjetli olardı. “Maral oyunu” rəqsini nadir adamlar bacarardı. “Kəsmə” havasına ən yaxşı Qanbay kişi, “Ruhaniyə” Piri dayı, Dilqəm dayı, Namaz dayı, Əli dayı , “ Məşədi İbad”a Məhəmməd əmi, Köçəri dayı, “Kərəm gözəlləməsi”nə Həmidov İbrahim rəqs edərdi. Piriyev Namaz qara zurnanın sədaları altında qara atını rəqs etdirərdi. Buna tamaşa etmək olduqca gözəl idi.

Gecə yarısına qədər oynayıb əldən düşən kənd əhli, gecə keçəndən sonra sakitləşərdi. Yalnız bundan sonra aşıqlar maraqlı dastanlar danışardılar. Taleyin xoş qismətindən aşıq Hüseynin, Qəmkeş Allahverdinin, Ədalətin, Bəhmənin və başqa sənətkarlarımızın deyişmələrini, bağlamalarını eşitmək bizlərə də qismət olmuşdur. Aşıqlarımızın sehrli səsi, dəyərli sözü və mənalı dastanlarının təsiri altında gah sevinib, gah da kədərlənmişik. Gözəl el sənətkarlarımız balabançı Salmanın, xanəndə Ziyadxanın, Nəcəfin ürəyəyatımlı ifalarını toylarımızda çox dinləmişik. Respublikamızın tanınmış el sənətkarlarından Aşıq Ələsgər, Aşıq Şəmşir, Azaflı Mikayıl və digər tanınmış aşıqlar da Nəcəfalıların toylarında iştirak etmişlər.

## Gəlin aparma

Toyun ertəsi gün bəy evi qədim el havalarının sədaları altında qız evinə gələrdi:

Al almağa gəlmişik,
Şal almağa gəlmişik.
Oğlanın adamıyıq,
Aparmağa gəlmişik –

deyərək həyətə girərdilər. Qız otağının qapısını kəsənlərə nəmər verib içəri daxil olardılar. Gəlinin qaynı onun belini qırmızı lentlə iki dəfə bağlayıb-açar, üçüncü dəfə isə bağlayardı. Bu zaman deyərdilər :

Anam, bacım, qız gəlin,
Əl ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız, gəlin.

Gəlinin bir əlinə qardaşı, o biri əlinə isə qaynı nəmər qoyaraq dəsmalla bağlayardılar.

Gəlinin atası və ya qardaşı xeyir-dua verərək gəlini otağın ortasına qoyulmuş yanan çırağın başına fırladardılar ki, getdiyi ev işıqlı, ocağı isti olsun. Gəlinin dalınca daş atardılar ki, getdiyi yer möhkəm olsun. Başına şirniyyat səpərdilər ki, dili şirin, ocağı bolluq olsun.

"Vağzalı" sədaları altında gəlini bəy evinə yola salardılar.Gəlinin qarşısında qırmızı lentli güzgü və çıraq aparardılar.

Kimsə astaca oxuyardı:

Verdik bir dana,
Aldıq bir sona,
Di, qalın yana-yana.

## Oğlan toyu

Xüsusi təmtəraqla keçən oğlan toyuna kənddə daha ciddi hazırlaşırdılar. Hələ toya bir neçə ay qalmış dükan-bazarı gəzər, lazımlı əşyaları alardılar. Çox vaxt bazarlığa aran rayonlarına-Bərdəyə, Tərtərə, Gəncəyə, hətta Bakıya gedərdilər. Qız-gəlinlər yığışıb gələr, evin əyər-əskik işlərini birlikdə düzəldərdilər. Cavanlardan bir neçəsi dəvətnamələri paylamaqda kömək edər, qalanları isə mağar qurmaq üçün meşədən cavan, düz ağacları kəsib gətirərdilər. Mağarın içini xalça ilə bəzəyər, xalçanın üstündə pambıqla "Xoş gəlmişsiniz!" yazardılar. Axşam ətlik heyvanların kəsilməsində, doğranmasında, qab-qacaqların qaydaya salınmasında, ocaq üçün Vən ağacının quru odunlarının doğranmasında hamı həvəslə iştirak edərdi. Səhər tezdən kimi samovara köz salar, kimi həyət-bacanı sulayıb-süpürər, aşpaz isə qazanları ocağın üstünə qoyardı. Hər iş hazır olandan sonra qara zurnanın, balabanın və nağaranın sədaları altında gəlini gətirməyə gedərdilər. Qız evi yaxın olduqda hamı oraya piyada, oynaya-oynaya gedərdilər. Gəlini uzaqdan gətirməli olduqda isə xalçalarla bəzənmiş atlarla, sonralar isə avtomaşınlarla yola düşərdilər. Qız evinə yaxınlaşanda qız adamları oğlan adamlarının qabağını kəsib "torpaqbasdı" alardılar. Sonra qayınana sürücüyə və bəyə xələt verib bəyi düşürərdi. Həyətdə çalıb-oynadıqdan sonra qız olan evə yaxınlaşardılar. Qapıda nəmər verib içəri keçər, əsrlərdən bəri qorunub saxlanan bir neçə qaydaya əməl etdikdən sonra xeyir-dua verib gəlini çıxarardılar. Oğlan yengəsi qız yengəsinə "baş bəzəyi" nin haqqını verir və gəlini oğlan evinə aparırdılar.

Oğlan evində oğlan anası nəmər verib gəlini düşürürdü. Bəy evində gəlinin ayaqları altında qurban kəsib qurbanlıq qoyunun qanından gəlinin alnına vururdular

ki, istiqanlı olsun. Sağdışın əlində bolluq rəmzi olan içi düyü ilə dolu stəkan olardı. Yola boşqablar və çörək düzülürdü. Gəlin boşqabları vurub sındırmalı, çörəkləri isə bir-bir götürməli idi. Bu, gəlinin bəy evində ilk sınağı hesab olunurdu. Gəlin bəzədilmiş otağa daxil olur, lakin əyləşmirdi. Qayınatası, qayınanası və digər gələcək qohumları ona nəmərlər boyun olurdular. Kimsə inək, kimsə erkək, kimsə xalça bağışlayırdı. Gəlinin qucağına oğlan uşağı qoyarlar ki, ilk övladı oğlan olsun. Hamı bir ağızdan "xoşbəxt olsunlar!", "oğullu-qızlı olsunlar! " söyləyərdi.

Bundan sonra rəngarəng el musiqiləri, aşıq havaları çalınardı. Qədim el oyunları "Maral oyunu", "Kilim arası", "Yeddi hünər" oynayardılar. Aşıqlarımız qəhrəmanlıq və məhəbbət dastanları söyləyərdilər.

Dağların qoynunda riyakarlıqdan, fitnə-fəsaddan uzaq olan kənd camaatı təmiz havada meşələrin pıçıltısına, quşların mahnı yarışmasına qarışan el havalarına qulaq asar, çiçəklərin ətrindən ətir alan dadlı yeməklərdən yeyib gözəl anlar yaşayardılar. Toy səhərə qədər, çox vaxt iki gün davam edərdi. Sonra "bəy tərifi" olardı. Bu zaman qonaqların, qohumların adları maraqlı şeir parçaları ilə çəkilər, onlar isə aşığa nəmər göndərərdi. Arada bəyin oğurlanması və nəmər alıb azad edilməsi baş verərdi. Tamada ( masabəyi) aşığa yığılan nəmərin qədərini elan edib, toyu yekunlaşdırar, cavanlara xeyir-dua verərdi. Hamı xoş təəssüratlarla evlərinə yollanardı.

Toydan üç gün sonra qız anası yaxın qohumları ilə qızı görməyə gələrdi.

Yeri gəlmişkən, müxtəlif rayonlara səpələnmiş nəcəfalılar ata-babalarımızdan miras qalmış adətlərimizi bu gün də yaşadırlar.

## Üzəçıxdı

Təzə gəlin böyüklərdən, qayınatasından həya edər, yaşmaq tutardı. Toydan 10-15 gün sonra evdə xüsusi hazırlıq görüb gəlini üzə çıxarardılar. Bu zaman qayınata gəlini yanına çağırıb ona qiymətli hədiyyə (zinət əşyaları və yaxud mal-qara) bağışlayaraq təbrik edər, onu ailənin üzvü elan edərdi.

## Gəlingördü

Toydan bir müddət sonra qız evi gəlini görməyə gələrdi. Yeyib-içib şənlənər, maraqlı əhvalatlar danışar, şən zarafatlar edirdilər. Qız evi gəlinə və bəyə hədiyyələr gətirərdi.

## Ayaqaçdı

Gəlingördüdən sonra qız anası bəyi və onun yaxınlarını evinə qonaq çağırardı. "Ayaqaçdı" da kişilər də olardı. Qızın anası bəyə və qızına aldığı hədiyyələri verərdi. Həmin gün, bəzən də 2-3 gün qız evi gəlini qonaq saxlayardı. Sonra gəlinin əri gəlib onu aparardı. Bundan sonra istədikləri vaxt bir-birlərinə gedib- gələ bilərdilər.

## Qonaq çağırma

Bəylə gəlini qonaq çağırmaq da elimizdə əsas adətlərdən sayılırdı. Qızın və oğlanın qohumları, həmçinin yaxın adamları onları növbə ilə evlərinə dəvət edər, yaxşı süfrə açıb, hədiyyələr verərdilər.

Gənc ailənin dünyaya gələn övladları evdə toy-bayrama çevrilərdi. Körpələr evlərində, bəzən isə at belində, çiçək, dərman bitkiləri yığmağa, bulağa su gətirməyə gedəndə və yaxud köç zamanı dünyaya gələrdi.

Körpələr sağlam doğular, tez böyüyər, ağrı-sancı bilməzdilər. Nənə-babalarımızın dərman kimi istifadə etdikləri bitkilərdən, çiçəklərdən hazırladığı həblər, çaylar köməyə gələrdi. Körpəyə adqoyma mərasimi də xüsusi maraqla keçirilərdi. Yığışıb deyilən adların içindən ən məsləhətlisini seçər, uşağa ad qoyardılar.

## Qız qaçırma

Evlənməyin bir yolu da qız qaçırma idi. Əlbəttə ki, "hə aldı", "nişan qoydu" və bu kimi gözəl adətləri yaşamaq hər bir oğlanın, qızın, onların ata-analarının, bacı-qardaşlarının və başqa qohumlarının arzusu idi. Lakin, bu və

ya digər səbəblərdən bəzən qızı oğlana vermirdilər. Bu zaman çıxış yolunu qızı "qaçırma"da görürdülər ki, bunun da öz dadı, öz ləzzəti, öz istiotu vardır.

Qızqaçırma bəzi hallarda tərəflərdən birinin belə məsuliyyətli, təmtəraqlı toy mərasiminə hazır olmadıqlarından da baş verirdi. Bəzən də, elə olurdu ki, ilahi hiss olan sevgi hər iki gəncin ürəyinə hakim kəsilsə də, tərəflərdən birinin valideynlərinin narazılığı onların ailə qurmasına maneə yaradırdı. Bu vaxt gənclər talelərini birləşdirməyin vacibliyini hiss edərək, yeganə çıxış yolunu bir-birinə qoşulub qaçmaqda görürdülər.

Hələ keçmişlərdə nəsillər arasında olan ədavət və ya qan düşmənçiliyi də cavanların öz məhəbbətlərinə qovuşmalarına böyük əngəlliklər yaradırdı.

Qızı qaçırmağa qəti qərar verildikdən sonra yaxın adamlar vasitəsilə qıza xəbər göndərilirdi ki, "bəs bu gün oğlan dostları ilə onu aparmağa gələcək, fürsət düşsə, əldən verməsin". Könlü olan qız ya su gətirmək, ya da çiçək və ya meyvə yığmaq adı ilə evdən çıxar və "ovçunun tələsinə düşərdi". Könlü olmayan qızı isə nə qədər çalışsalar da, aparmaq mümkün olmazdı. Hətta onu qaçırmağa gələn bir neçə oğlana müxtəlif xəsarətlər yetirməklə avtomobilin açarını qırıb onların əlində çıxan qızlarımız da olub. Qız qaçmağa razılıq vermədikdə, qərarında qəti olan oğlan, öz dostları ilə saatlarla, günlərlə, bəndi-bərəni kəsib, öz "ovunu" gözləməli olurdu.

Qaçan qızın arxasınca getməzdilər. Yalnız bir -iki adam gedib, həqiqətən qızın könüllü gəldiyini öyrənərdi. Oğlan qaçırdığı qızı birbaşa öz evinə yox, yaxın adamlarından birinin evinə gətirər, bir müddət keçdikdən sonra isə öz evinə aparardı.

Qızı qaçırılanda yalnız oğlan evində toy edərdilər. Bu zaman qız evindən toyda heç kim iştirak etməzdi. Oğlan adamları qız adamları ilə ehtiyatla dolanar, üz-üzə gəlməməyə çalışardılar. Əsəblər sakitləşəndən, umu-küsü unudulandan sonra isə barışıq günü təyin olunardı.

Bir neçə ağsaqqal qız evinə gedib bu iki ailənin barışması üçün məsləhətlər edərdilər. Barışıqlarda kəndimizin el ağsaqqallarından İmanverdi baba, İdris baba,

Əlabbas baba, Səfər dayı, Piri dayı,
Abbas dayı, Əli dayı daha çox iştirak edərdilər.

Barışıq üçün tələb olunan xərci oğlan evi çəkərdi. Bu mərasimdə oğlan "səhv" etdiyindən qız evi oğlan adamlarına daha çox əziyyətlər verərdi. Oğlan evini "Turş su" bulağından su gətirmək, çətin yarılan odun kötüklərini yarmaq, meşədən odun gətirmək, "torpaq basdı" nəmərini almaq kimi sınaqlardan keçirərdilər.

Barışıqdan sonra qızın cehizi oğlan evinə daşınardı, qonaq çağırmalar olardı, umu-küsülər unudulardı. Hər iki nəsil şirin, istəkli qohumlar kimi yaşamağa başlayardı.

# ELİMİZİN BAYRAMLARI VƏ MƏRASİMLƏRİ

## Novruz bayramı

Elimiz-obamız əsrlərin süzgəcindən keçib gələn dədə-baba adətlərinə, milli ənənələrə daim sadiq olub. Bu adətlər dağ şəlaləsi kimi daşlara-qayalara çırpılaraq, maneələrdən keçərək durulan, göz yaşı kimi şəffaflaşan və elin yaddaşına həkk olunan adətlər idi.

Hələ Sovet hakimiyyətinin qanlı-qadalı günlərində ba–balarımız el şənliklərini, adət-ənənələri yaşadıb nəsildən -nəslə ötürmüşlər. Məhərrəmlik, Ramazan, Novruz və Qurban bayramlarının, Novruz çərşənbələrinin adətləri bütün dəqiqliyi ilə qeyd olunurdu. Mərasim qəhrəmanlarının adları sevilib yaşadılaraq yeni doğulan uşaqlara qoyulurdu.

Yurdumuzda yeni il, yeni həyat Novruzun gəlişi ilə başlanırdı. Bu bayramın gəlişinə xüsusi hazırlıqlar görülərdi. Bayram gününə bir ay qalmış hər həftənin ikinci günü çərşənbə axşamları kimi qeyd olunardı. Uşaqlar və cavanlar tonqal qalamaq üçün meşədən ardıc, şam ağaclarını kəsib gətirər, çoban darağı toplayardılar. Çoban darağı tonqalda səs-küylə yandığından onu mütləq tapardılar. Keçəni yumurlayıb bərk-bərk bağlayar və üstünə ağ neft tökərdilər. Sonra məftilə bağlayıb yandırardılar. Fırladıb havaya atdıqları bu keçə göyün qaranlıq qatlarını işıqlandıraraq ətrafa rəngarənglik verər və uzun müddət sönməzdi. Bir "fişəngi" bir neçə dəfə havaya atmaq olurdu. Hər çərşənbənin öz xüsusiyyətləri, öz mətbəxi vardı. "Su", "Od", "Torpaq" və "Külək" çərşənbələrini qeyd edən camaat, həyət-bacanı, ev-eşiyi təmizləyər, hasarları, banları, ağacları ağardar, xalça-palazı havaya çıxarardı. Camaat addım-addım müqəddəs bayramlardan biri olan Novruza yaxınlaşırdı. Üçüncü çərşənbədən sonra "Xıdır- Nəbi" bayramı keçirilər, qovud bişirərdilər. Dördüncü çərşənbə "İlin axır çərşənbəsi" adlanardı. İlin dərd-sərini, ağrı-acısını tonqaldan tullanmaqla yandırardılar.

Hər məhəllənin öz tonqalı olardı. Hamı tonqalın ətrafına toplaşar, bir-birlərini təbrik edər, deyib-gülər, zarafatlaşıb şənlənərdilər. Sonra evlərin qapısına torba

atardılar. Hər kəs istəyirdi ki, torbasına yaxşı pay qoysunlar. Torbaya qoyulan qoz, fındıq, meyvə, şəkərbura, paxlava ümumi bir yerə yığılardı və uşaqlar arasında bölünərdi. Qız-gəlinlər ürəklərində arzu tutub qulaq falına çıxardılar. Sonra hamı bir evə yığışıb duzlu kömbə bişirərdi. Duzlu kömbədən yeyənlər çalışardılar su içməsinlər. Kömbə yeyən şəxs yuxuda kimin əlindən su alıb içsə, demək həmin adamla və yaxud həmin adamın yaxınlarından kiminləsə qohum olacaqdır. Bundan başqa, mis qaba su doldurub içərisinə ucuna pambıq taxılmış iki iynə sallayardılar. İynələrin hərəsi bir adamın adına sallanardı. İynələr suyun üzərində hərəkət edərək yavaş-yavaş yaxınlaşardı. Əgər iynələr birləşsə, demək, həmin gənclərin taleləri də birləşəcəkdi. Bəzən buna saatlarla vaxt sərf olunurdu. Bəzən də, kimsə cığallıq edib, iynələri süni yolla üfürüb birləşdirirdi.

Qız-gəlinlər fəsəli, qatlama bişirər, qovurğa qovurardı. Qovurğanın içərisinə çətənə qatardılar. Axşamdan xeyli keçmiş qızlar aparıb bulağın üstünə yumurta və iki karandaş qoyardılar. İnanca görə, mələklər gecə gəlib kiminsə adına olan yumurtanı qırmızı, kiminsə adına qoulmuş yumurtanı isə qara rəngləyəcəkdir. Bu isə onların talelərinin qırmızı və ya qara olacağına dəlalət edəcəkdir.

Bəzən oğlanlar yumurtaların yerini gizlicə öyrənib, yumurtaların bəzisini qara, bəzisini qırmızı və yaxud əhvalı xoş olsa, hamısını qırmızı, pis olarsa, onda hamısını qara rəngləyib qayıdardılar. Səhəri gün bundan xəbər tutan qızların arasına vəlvələ düşərdi. Kimi sevinər, kimi də ağlayardı.

Səhər-səhər kim birinci bulaq başına getsə, bulağın ətrafını sulayıb, üstünə şirniyyat qoyardı ki, hamı bilsin ki, bulaqda artıq kimsə olubdur. Birinci bulaq başına getmək şərəf sayılardı, fərasətlilik, qoçaqlıq əlaməti idi. Bulaqdan gətirilən su ilə həyət-bacanı sulayardılar. Ailənin qalan üzvləri əl-üzünü yuyub, dərddən-bəladan sovuşar, yüngülləşərdilər.

Bayram günü səhər yeməyini yeyən kimi hamı kəndə çıxar, bayramlaşaraq bir-birlərini təbrik edərdi. Uşaqlar yumurta döyüşdürərdilər. Onlar qırdıqları yumurtaları sevincək evə gətirərdilər. Hələ bayrama bir ay qalmış hər kəs çalışardı ki, ən bərk yumurtanı seçib bayrama saxlasın. Hətta yumurtaya bəzi “əməllər” edənlər də tapılardı. Çoxbilmiş

uşaqlar yumurtanı duzlu suya qoyub bərkidərdilər ki, bunun da üstü açılıb ifşa olunardı. Bəzən də taxtadan yumurta düzəldib, onu qırmızı boyayaraq döyüşməyə gətirən dəcəl uşaqlar da tapılardı.

Evlərdə isə hamı bayram süfrəsinə hazırlaşardı. Qonşular növbə ilə bir-birlərinə qonaq gedərdilər. Hər kəs çalışardı ki, qonşusunu birinci olaraq bayram süfrəsinə çağırsın. Çünki, ilk bayram aşı dadlı və ləzzətli olardı.

Hamı çalışardı ki, bayram günü evində olsun. Bayramda küsülü olanlar da barışardılar. İmkanı az olanlara daha çox bayram payı göndərilərdi. Bayram günü torpağa toxum atardılar ki, barlı-bərəkətli olsun. Ağaclara bayram suyu verilərdi.

Yeni ruzi, yeni bərəkət, yeni həyat, yeni gün rəmzi olan Novruz bayramı bir neçə gün davam edərdi. Novruzdan sonra tarla işləri, bağ-bağça işləri başlanardı. Torpaq günü-gündən oyanar, ətrafı gül-çiçək bəzəyərdi. Qaranquşların eyvanlarda qurduqları yuvalar yeni həyatın başlanğıcından xəbər verərdi. Baharın müjdəçisi novruz gülü, qar çiçəyi, pəşəməngülü, bənövşə və Nərgiz gülü qar əriyən kimi torpağın altından baş qaldıraradı.

## Qurban bayramı

Kəndimiz yaranan gündən onun ilk sakinləri seyid övladları və din xadimləri olduqlarından dini etiqadlarımıza, islam qaydalarına Allahın əmri, Həzrəti Məhəmməd peygəmbərimizin (s.ə.s) buyurduğu qaydalara riayət edirdilər. Bu dini mərasimlərdən biri də tarixi uzaq keçmişə söykənən Qurban bayramı idi. Buna el arasında həm də "İsmayıl qurbanı" da deyirdik. Böyük səbir və mərhəmət sahibi olan Ulu Tanrı sevdiklərini dəfələrlə sınağa çəkər, Ona sadiq olanları isə öz dərgahından mükafatlandırar. Müqəddəs kitabımızda yazıldığı kimi, Ulu Tanrı tərəfindən İbrahim peyğəmbərə səda gəlir ki, yeganə oğlu İsmayılı aparıb Minə dağında qurban kəssin. İlahiyə olan tükənməz sevgisindən İbrahim peyğəmbər bu göstərişi tərəddüd etmədən qəbul edir. O, bu barədə oğlu İsmayıla söyləyir. Qəlbində Allah sevgisi, ata məhəbbəti olan oğul dərhal Allahın əmrinə ibadət edir. Onlar yola düşürlər. Buyrulan yerə, təyin olunan məkana çatanda ata oğlu ilə vidalaşır və bıçağı hazırlayır ki, oğlunun başını kəssin. Lakin,

bıçağı bir neçə dəfə oğlunun boğazına çəksə də, bıçaq kəsmir. Bundan bərk narahat olan İbrahim peyğəmbər və oğlu İsmayıl bu möcüzəyə mat qalırlar. Bu zaman İlahi dərgahından dizi qara, gözü qara bir qoç peyda olur və onlara səda gəlir ki, "Ya peyğəmbər, sən sınaqdan üzüağ çıxdın. Qurban əvəzi sənə qoç göndərilir. Oğlun İsmayılı azad et." Bununla da, Ulu Tanrı insanlara olan tükənməz mərhəmət və rəhmətini bir daha göstərir. Bəli, böyük kəramət və mərhəmət sahibi olan Uca Allah həmin gün İsmayıla yenidən həyat bəxş etdi. Həmin gündən imkanı olan hər kəs qurban kəsməli və imkansızlara paylamalıdır. Qurban kəsmək Allahtaalanın rizasını qazanıb ona yaxınlaşdırar, savab qazandırar. Günahı olanların isə günahının bağışlanmasına kömək edər.

Qurbanlıq 3 yerə bölünərdi. Bir hissəsi qohum-qonşuya, bir hissəsi kasıblara, imkansızlara paylanar, bir hissəsi də ailə üzvlərinə saxlanardı. Qurbanlıq tələb olunan yaş həddi gözlənilməklə erkək, qüsuru olmayan, sağlam, kök heyvanlardan kəsilərdi. Belə bir hadisə rəvayət olunur ki, bir dəfə Məhəmməd peyğəmbər (s. ə. s.) qurban kəsir və çox hissəsini kasıblara, imkansızlara paylayır, cəmi bir qolunu isə evə gətirir. Evdə xanımı soruşur ki, bizə qalan elə bu oldumu? Peyğəmbərimiz söyləyir ki: " Xeyr, bizə qalmayan yalnız bu oldu".

Kaş, hər bir kəs yaşadığı bu qısa ömürdə onlara qalanın yığdıqları zər-zibanın, qızıl-gümüşün, taxt-tacın yox, yalnız əməllərinin qalacağını biləydi...

Kəndin sakinlərindən çoxu din adamı, seyid, molla, məşədi olduğundan, camaatımız dini bayramlara daha ürəkdən yanaşardı. Hər kəs daha çox mərhəmətli, səxavətli olmağa çalışardı ki, Allahın da onlara səxavəti və şəfqəti artsın.

Novruz bayramından fərqli olaraq Qurban bayramı hər il ötən ildəkindən 10 gün qabaq qeyd olunur. Hər il öz tarixini 10 gün dəyişən bu bayram ilin bütün fəsillərinə düşə bilir.

Qurbanlıq kəsilməsi üçün əvvəlcədən seçilmiş heyvanı qurbanlığa bir-iki ay qalmış sürüdən ayırar, ona xüsusi qulluq edərdilər. Qurbanlığın boğazına və ya buynuzuna qırmızı yaylıq bağlayar, onu vurmaz, incitməzdilər. Bayram günü qurbanlıq heyvana dua oxunmuş duz yedizdirər və su içizdirərdilər. Sonra dua oxunar və qurbanlıq heyvanı üzü qibləyə kəsərdilər. Qurbanlıq kəsilən zaman oxunan duanı bilməyənlər

İmamverdi babanın, Ələs babanın, İbrahim dayının yanına gedər duzu və bıçağı dualadıb gətirərdilər.

İmkanı olan qurbanlıq heyvanı tək, olmayanlar isə bir neçə nəfər yığışıb birlikdə kəsərdilər. Qurbanlıq ətlə bişirilən xörək olan yerdə spirtli içkilər içilməzdi. Qurbanlıq əti ən azı 7 evə paylayardılar. Paylar bərabər bölünər və paya ətin hər bir hissəsindən qoyulardı. Bu zaman tərəzidən istifadə olunmazdı.

Qurban aparılan ev: "Allah qəbul eləsin, Mina dağında kəsilən qurbanlardan olsun. Allah yerində qalana min bərəkət versin! " deyə dua edərdi.

## Ramazan (Orucluq) bayramı

Kəndimizdə bu dini bayram da təmtəraqla keçirilər, bütün qayda və şərtlərinə əməl olunardı. İlin ən müqəddəs çağı, on bir ayın sultanı olan Ramazan ayı insanları bir-birinə daha mehriban, daha mərhəmətli olmağa çağırardı. Bu ayda İlahi dərgahının qapısı açıq olar. Həmin ay dualar daha tez qəbul olunduğu üçün günahların da tez bağışlanacağına böyük ümid var. Ona görə də bu ayda adamlar daha səxavətli, daha nəzakətli olurlar. Bu ayda, hətta dava-dalaşdan qaçılar, ağızlardan dualar, xoş sözlər eşidilərdi. Kasıblar və imkansızlar daha çox yada düşərlər. Qədr gecələri sübhədək yatmazdılar. Ulu Tanrıya dualar oxunar, ibadətlər edilərdi.

Ayın sonunda hamı bir-birini, xüsusən də bu ayda oruc tutan adamları təbrik edər, dualarını qəbul, orucunun mübarək olmasını arzulayardılar.

Orucluq bayramı da əvvəlki ildən 10 gün qabaq başlanar və mübarək sonluğu bayram kimi qeyd olunardı.

## Məhərrəmlik (qətl) ayı

Heç bir qara yazının, qara ləkənin düşmədiyi ağ vərəq ki–mi təmiz uşaqlıq yaddaşımıza qayğısız xoş günlərimizlə birlikdə, həmçinin, bir matəm mərasimi, bir şəhid mərsiyəsi də həkk olunmuşdur. Uşaqlıqda bu mərasimin mahiyyətini hələ yaxşı başa düşməsək də, onun adətlərini qaydalarını öyrənmişdik. Biz bu günün, müsəlman

tarixinin qanlı-qadalı günlərindən biri-imamlarımızın islam yolunda şəhidlik zirvəsinə ucaldıqları gün olduğunu bilirdik. Hər il təkrarlanan bu mərasim dinimiz, amalımız, millətimiz və etiqadımız naminə, əgər lazım gələrsə, canımızdan keçərək şəhid olmaq ruhunda bizi tərbiyə edirdi. Təsadüf deyil ki, Kəlbəcərin işğal tarixinin son gününə qədər Nəcafalılar camaatı doğma kəndi uğrunda vuruşmuş və 9 şəhid vermişdir.

Kəndimiz imamlarımızın şəhidlik tarixinə ürək yanğısı ilə yanaşır, ən böyük itki vermiş ailə kimi hər il bu ayı matəm içərisində keçirirdi. Bu kənddə yaşayan insanlar Məhərrəmlik ayı başlayan kimi evlərin qapısına qara lentlər bağlayardı. Nənələrin hər gün mərsiyə deyib ağlaması eşidilirdi. 60 gün ərzində xeyir işlər, toy–bayramlar, şənliklər təxirə salınardı. Evlərdə radio, televizorlar söndürülüb üzərinə qara parça salınırdı. Hündürdən gülənə, ürəkdən şənlənənə rast gəlməzdin. Hamının üzündə qəm-qüssə, kədər olardı. Saçlara, əllərə xına yaxılmazdı. On günlük "savaş müddətindən" sonra "qətl günü" qeyd olunurdu.

**Aşura** – lüğəti mənası "onuncu gün" deməkdir. **Üçüncü İmamız Hüseynin (ə)** Kərbəla səhrasında faciəvi ölüm günü də məhz Məhərrəm ayının onuncu gününə – Aşura gününə təsadüf etmişdi. Həmən gün hamı kəndin mərkəzinə yığışardı. Ağsaqqallar mərasimin keçirilməsi üçün məsləhətlər verərdi, nənələr, yaşlı xanımlar bir otağa yığışıb mərsiyə deyər, şaxsey gedər, ağlaşardılar. Qalan xanımlar isə imam ehsanı üçün bişiriləcək halvanın umacını ovar, şərbətini hazırlayar, xəmir yoğurub lavaş bişirərdilər.

Kişilər kəndin mərkəzində "Ələm" ağacını qurardılar. Onlar dəstə ilə düzülüb mərsiyə deyər, zəncirlə sinələrinə, kürəklərinə vurar, sinələrinə döyərdilər. Cavanlar ocaq çatar, iri qazanlarda bişirilən halvanı çalmağa növbə ilə kömək edərdilər.

Həmin ay "Tuğ" gəzdirən Əvəz kişi kəndə tez-tez gələr və nəzirlər toplayardı.

Əvvəllər Aşura günündə iti almazla alnlarını çərtib ağ köynəyini al qana boyayan adamlar da çox olurdu. Zaman keçdikcə alın kəsmələr azalmışdır.

Bişirilən halva lavaş (yuxa) və ya çörəklərə bükülüb paylanardı. Bundan başqa, işləyənlərə, uşaqlara, yoldan keçənlərə şərbət də paylayardıq.

Bu mərasim imamlarımızın qətlə yetirildiyi günlə bərabər, həmçinin, qətlin 3, 7 və 40-cı günləri də davam edirdi. Qətlin 40-cı günündən sonra ən ağır günlər sayılan Səfər ayının on günü davam edirdi. Yalnız bundan sonra kənddə sevincli hadisələr, bayramlar, ad günləri və toylar başlaya bilərdi.

Bu ayda yalnız yas mərasimlərinin vaxtı, vədəsi dəyişməz qalırdı. Rəhmətə gedənlərin ölüm günü, 3-ü, 7-si, 40-ı imamlarımızın mərasim günlərinə təsadüf edən ölüləri bir az təskinliklə ağlayar və onları İmam-Peyğəmbər övladları adlandırardılar.

## Yas mərasimləri

“Xeyirlə şər qardaşdır” deyiblər. Elimiz-obamız xeyir işləri təmtəraqla qeyd etməyi bacardıqları kimi, İlahinin əmri, taleyin hökmü ilə gələn şər işləri də təmkinlə, səbirlə və layiqincə yola salırdılar.

Doğum və ölüm həyat hadisəsi olmaqla yanaşı, həmçinin tarazlığı və balansı bərqərar etmək üçün Böyük Yaradanın sirli, sehrli bir möcüzəsidir. Təki Allah əmri olsun!

Uzunömürlülük bizim ellərdə adi hal olduğundan, ölüm hadisəsi çox az olardı. Cavan və ya qoca olmasından asılı olmayaraq, kiminsə qəza nəticəsində və yaxud əcəlin hökmü ilə dünyasını dəyişməsi bütün camaatı qüssə, kədərə qərq edərdi. Cavanların vaxtsız ölümləri ilə bərabər uzunömürlülərdən Süleyman babanın, Əlabbas babanın, İmamverdi babanın, Mələk nənənin ölümü də hamını yandırır, ağladırdı. Bizim kəndimizdə kiminsə halına yanmağı, başqasının kədərini öz kədəri kimi qəbul etməyi hamı bacarırdı.

Kəndimizin camaatı ömrün bahar çağında vaxtsız dünyasını dəyişmiş Vidadinin, Tahirin, Salmanın, Cəmilin, Sədaqətin, Misirin, Nübarın, Qumrunun, Musanın, Elmanın həyatına acıyar, qan-yaş tökərdi. Sən demə, başlarına bundan da betər dərdlər gələcəkmiş. Sonralar İsgəndərin, Yaqutun, Məzahirin, Rasimin, İlqarın, Oqtayın, Orucun, Şakirin taleyi daha çox sarsıtdı el-obanı.

Kədərin olduqca ağır, dərdin dözülməz olmasına baxmayaraq, dərdbilən, haraya gələn Nəcəfalılar

camaatı belə çətin anlarda yas yiyəsinə çox dayaq olardı. “El ilə gələn dərd toy-bayramdır”,- deyərək təsəlli verərdilər. Telefonun olmadığı, texnikanın, avtomobilin az olduğu bir zamanda belə qara xəbəri tez eşidər, haya tez yetişərdilər. Hadisənin ilk saatlarında camaat axışıb gələr, lazımı tədbirləri görməyə başlayardılar. Ağılar, bayatılar, oxşamalar dağları, daşları dələr, meşələri titrədərdi. Görəndə ki, el sənin dərdini öz dərdi kimi qəbul edir, sənlə birgə ağlayır, birgə sızlayır, bir az təskinlik tapırdın, tək olmadığını görüb sakitləşirdin.

## Yasa hazırlıq işləri

Ağsaqqallar cavanları başına yığıb təcili tədbirlər görər, məsləhətlər verərdi. Cavanlardan bir neçəsi qəbristanlığa gedib qəbir qazardı. Bir neçəsi isə mağar qurmaqdan ötəri dirək kəsmək və odun tədarük etmək üçün meşəyə yollanardı. Yaşlılardan bir-ikisi cənazəni yuyub kəfənləyərdi. Qalanları hüzr yiyələrinə təskinlik verər, gələn qonaqları yerbəyer edərdilər. Bir müddətdən sonra hamı cərgə ilə namaza dayanıb mərhumu son mənzilə yola salardı.

Xanımlardan kimsə halva çalar, kimsə xörək hazırlayar, qalanları isə ağlaşma mərasimində ürək yanğısı ilə iştirak edərdilər. Ana-bacıları, xala, bibiləri:

Mənim dərdim uludur,
Yolum elin yoludur.
Əgər dərdimi desəm,
Dərdli dərdin unudur.

Çaylar, suyun qurusun,
Dağlar, otun qurusun.
Fələk, sən də dərdə düş,
Matın-qutun qurusun.

Ağlı, qaralı, canım,
Qəlbi yaralı canım,
Köhnəsi sağalmamış
Təzə yaralı, canım

- deyərək ağlayar, göz yaşı tökərdilər.

Kənd qəbrİstanlığı Pirilərdə yerləşdiyindən mərhumun cənazəsini kənddən Pirilərə qədər çiyinlərində aparırdılar. Dəfndən sonra hamı yığışıb

qalan mərasimlərin keçirilməsi üçün tədbirlər tökərdi. Kimisi öz evindən isti xörək gətirər, kimisi isə hüzr sahibinə ev işlərində əl yetirərdi. Onun mal-qarasını, qoyun-quzusunu, toyuq-cücəsini yerbəyer edər, rahatlayardılar. Yas sahibinin sahə, əkin-biçin, tikinti və sair yarımçıq qalan işlərinə də köməklik edərdilər.

## Yas mərasimi qaydaları

Rəhmətə gedənin yaşından asılı olmayaraq kənddə hüzr olsa, heç kim musiqiyə qulaq asmaz, hündürdən danışıb-gülməzdi. Radio-televizorun üzərinə qara parça salınardı. Toy-nişan tədbirləri təxirə salınardı. Uzaq adamlar 40-ı, yaxın adamlar isə mərhumun ilinin çıxmasını gözləyərdilər.

Rəhmətə gedənin dəfn günü, 3-ü, 7-si, 40-ı, ildönümü və 40-na qədər olan hər cümə axşamları qeyd olunardı. 40-a qədər başdaşı düzəldilib qoyulardı.

Rəhmətə gedənin cavan və ya qoca olmasından asılı olmayaraq, bütün kənd əhli yas mərasiminin qaydalarına hörmətlə riayət edərdi. Kişilər 40 gün üzlərini qırxmazdılar. Məclislərdə mollalar Quran oxuyar, hədislər danışardılar. Mərhum böyük ehtiram və hörmətlə yad edilər, xeyirxah işlərindən danışılardı. Mərhumun 40-cı günü, mərasimdən sonra kənd ağsaqqalları hamıya üzlərini taraş etməyi tapşırardılar. Yalnız bundan sonra üzlər taraş edilərdi.

Qədirbilən elin yanımlılığı dərdi azaldar, kədəri yüngülləşdirər və insanın yaşamaq həvəsini artırardı. Həyatın davam etdiyini dərk edib, ölənlə ölmək olmadığını anlayardın.

Həmkəndlimiz Piriyeva Şəfiqə Məhəmməd qızının başına gələn müsibətlər də elimizin yaddaşında kədərli iz buraxdı. Hələ Nəcəfalılarda olarkən körpə oğlu Vidadini itirən Şəfiqə bacı, köçkünlük dövründə, yəni 2004-cu ilin oktyabr ayının 2-də 31 yaşlı qızı Nəsibəni, noyabr ayının 18-də isə 26 yaşlı oğlu Aqili itirdi.

Həyat eşqinin, yaşamaq həvəsinin söndüyü bir vaxtda el-obası ona dayaq oldu. Dərdli anaya təskinlik verərək dərdinə şərik oldular. Şəfiqə bacı bu gün övladlarıyla, qızı Nəsibənin nişanəsi 11 yaşlı Rövşənə baxaraq təskinlik tapır, yaşayır.

# VI FƏSİL

## DAĞLI-ARANLI KƏNDİMİZ

## UNUDULMAYAN KƏND HƏYATI

Qədim adət-ənənəsini, məişət və mədəniyyətini saxlamaqla bərabər Nəcəfalılar kəndi həm də günü-gündən müasirliyə doğru inkişaf edirdi. Kənddə ikimərtəbəli evlərin, şəxsi avtomobillərin sayı günü-gündən artırdı. Evlərin barıları xas yonulur, içəriləri daha yüksək səviyyədə işlənirdi. Onillik məktəbdə sürücülük kursu açılmışdı. Kəndin 1 uşaq bağçası, 2 kitabxanası, 1 mağazası və klubu var idi.

Kənd camaatının səyi nəticəsində kəndin yolu tez-tez təmir olunurdu. Son vaxtlar yolumuz çox rahat idi. Hər il yaz vaxtı kəndin camaatı ağsaqqalların, sədr və briqadirlərin başına yığılıb iməcilik təşkil edərdi. Həmin gün yolların narahat yerləri bərpa olunardı. Köməksizlərin, oğlu, həyat yoldaşı olmayanların həyət-bacasında abadlıq işləri görülərdi.

Baharın gəlişi ilə kənddə həyat canlanırdı. Biçənəklərin qorunması, istilikxanalara tütün toxumunun səpilməsi barədə məsləhətləşmələr aparardılar. Yaz əkininə hazırlıq işləri görülərdi. Tarlalarda yaz əkininin başlandığı günə xüsusi təmtəraqla hazırlaşardılar. Həmən gün sahənin üstündə erkək kəsilər, kababın ətri bənövşənin, pəşəməngülünün, nərgizin ətrinə, tüstüsü isə yaz dumanına qarışaraq göyün üzündə bir naxış yaradardı. Hər bölgənin öz təamı, öz mətbəxi olduğu kimi, bu yerlərdə başqa ləziz xörəklərlə yanaşı, kababa daha çox üstünlük verilirdi. Bu həm də həyat tərzi ilə bağlı idi. Əsas məşğuliyyəti maldarlıq olan Kəlbəcər əhalisi ildə iki dəfə yaylaqlara köç edərdi. Bir dəfə yaylağa, bir dəfə də qışlağa. Heç bir qab–qacaq tələb olunmadan, qısa vaxtda hazırlanan, bədənə xeyirli olan, qan əmələ gətirən, bədəni kökəldən, böyrəyi isti saxlayan, orqanları qüvvətləndirən və gec həzm olunan bu qida növünü seçmək də təsadüfi olmamışdır.

Heç bir rəssamın çəkə bilmədiyi, təbiətin yaratdığı tablolara, şəlalələrə, sanki gül-çiçəkdən toxunmuş rəngarəng xalılarla sərilmiş çəmənlərə tamaşa etdikcə bu yerlərin zəngin, füsünkar təbiəti bizi heyran edirdi.

Sıra dağların, sıx meşələrin qoynunda özünə məskən salan babalarımız ümidini daima göylərdə Böyük Yaradana, yerdə isə bu torpağa, bu dağlara bağlamışdı. Duz-çörəkli, düz ürəkli Nəcəfalılar camaatının çörəyi də daşdan çıxardı. 6-7 ay var gücü ilə çalışar və bol məhsul götürərdilər. Bəzən isə elə olurdu ki, məhsulun yetişən, barın yığılan vaxtı təbii fəlakətlər – qəflətən yağan dolunun və yaxud güclü selin səbəbindən əziyyətləri boşa çıxırdı. Lakin elin torpağa bağlılığını, sevgisini, onların yaşamaq, yaratmaq əzmini heç bir çətinlik qıra bilmirdi.

Əhalinin əsas məşğuliyyəti tütünçülük idi. Hər il kolxoza 2-3 ton məhsul vermək barədə öhdəçilik götürən ailələr var idi. Qabaqcıl tütünçülərdən Əliyeva Sayad, Əliyeva Şövkət, Əliyeva Şahnigar, Əliyeva Qənirə, Əliyeva Kifayət, Musayeva Seyran, Abbasova Balış, Piriyeva Səkinə, Həmidova Adiləni və başqa–larını göstərə bilərik. Bir çox xanımlarımız xeyli miqdarda tütün təhvil verərək tərif və təltiflərə, qiymətli hədiyyələrə, pul mükafatlarına layiq görülmüşlər.

Baharın ilk gəlişindən isti–likxanalara toxum səpir, becərir, şitilləri sahələrə köçürür, vaxtlı-vaxtında alağını təmizləyir, yığıb bir-bir sapa düzür, quruyandan sonra isə bağlamalar düzəldərək məntəqələrə təhvil verirdilər.

Kolxozumuzda kifayət qədər sağılan inək bəslənirdi. Yaylaqların çiçəkli çəmənlərində otlayıb gələn inəklər sağıcıların üzünü süd kimi ağ edirdi. “Hər inəkdən ildə 1 ton süd vermək” öhdəçiliyi ilə həyatını bu peşəyə həsr edən sağıcılarımızdan Lalə nənənin, Xuraman xalanın, Adilə bibinin, Gülçiçək bacının adını fəxrlə çəkmək olar. Kolxozun kökəltmədə olan mal-qarası Lənbərəndə bəslənirdi. Dəniz səviyyəsindən 2526 m hündürlükdə yerləşən Qoç daş yaylağında, Qaradağlıda, Astanlarda isə el-obamız yaylayırdı. Burada dağla aranın sərhədi itirdi. Bir yaylaqda bir neçə aran rayonun mal-qarası otlayırdı. Uca dağların sinəsində qurulan yüzlərlə çadırın bacasından çıxan tüstü burula-burula havaya qalxaraq bir-birlərinə qarışırdı. Çəmənə yayılan qoyun -quzu mələşməsi, çobanın tütək səsi ilə həmahəng idi. Çiçəklərin rəngindən seçilməyən, al -əlvan geyinmiş qızlar dəstə-dəstə bulağa gələrdilər. Qəh-qəhənin səsi şır-şır axan bulağın suyuna qarışıb həzin bir ahəng yaradırdı. Qarşı

tərəfdə görünən təzəcə biçilmiş ot layları bənzərsiz haşiyə kimi göz oxşayırdı. Bir yerdə əyləşib dörd tərəfə göz gəzdirsən, azı 20-30 növ gül-çiçək görərdin .

Zirvələrin şahı olan qartallar hərdən aşağılara doğru şığıyar, sonra yenidən yavaş-yavaş qalxaraq arxayınlıqla zirvəyə qonardı. Bu yerlərin gözəlliklərini seyr edən adamı dünyanın heç bir gözəlliyi ilə təəccübləndirmək mümkün olmazdı. Ətrafda hər şey sakit, qayğısız, xoşbəxt yaşanan günlərdən xəbər verirdi. Əhali sabah nə edəcəyini yaxşı bilir, axşam evlərində rahat dincələcəyinə əmin idi. Bu yerlər, bu sərvətlər onların doğma babalarından miras qalmış, bundan sonra da onların övladlarına qalacağı şübhəsiz idi.

Hər mövsümün öz işi, qayğısı əsrlərin süzgəcindən keçib gələn, xalqın yaddaşına həkk olunan qaydaları vardı. Gündə 4-5 dəfə dəyişən Dəlidağın şıltaqlıqlarını hamı yaxşı bilirdi. Burada yağışdan qabaq buludun hərəkəti, quşların uçuşu, atların kişnəməsi, itlərin hürüşməsi nəyəsə işarə edirdi. İllərin təcrübəsinə arxalanan camaat təbiət hadisələrini öyrənməklə əvvəlcədən qışın necə keçəcəyini, yayın quraqlıq və ya yağarlıq olacağını hətta, həftə boyu havanın temperaturunu müəyyən edə bilirdi. Onlar ağır kənd həyatının zəhmətinə qatlaşaraq bütün yay boyu qışın hər ehtiyatını görərdilər.

Mal-qaranın otu, ocağın odunu, ailənin azuqəsi artıqlaması ilə hazırlanardı. Çünki zəif adamın yaşaya bilməyəcəyi sərt qış iqlimi kəlbəcərliləri dözümlü, dəyanətli olmağa alışdırmaqla bərabər, həm də onları qışa ehtiyatlı olmağa öyrətmişdi.

Havalar soyuyanda payız yurduna köçərdilər. Üç ay çal -çağırlı, qonaqlı-qaralı yaylaqlar sanki bu ayrılığı duyurmuş kimi üz-gözünü turşudardı. Duman, çən yolları kəsir, buludlar göz yaşını yollara səpələyərək fəryad edirdi. Ancaq biz yaylaqlarımızla bu ayrılığı təskinliklə, arxayınlıqla qarşılayardıq. Bilirdik ki, gələn yay yenə də bu yerlərə qayıdacağıq. Lakin növbəti il belə olmadı. Son dəfə yaylaqlarımızla ayrıldığımız vaxtdan nə az, nə çox, duz 17 il keçir!!! 17 il-bir igidin ömrüdür. 17 il axan göz yaşları Tərtər çayına bərabərdir. 17 il bundan qabaq doğulan körpələr tezliklə Azərbaycanın iyirmi bir rayonunda pasport alacaq. 17 illik həsrətimizin həddi–büluğa çatdığı bir vaxt. O zaman əkilən toxumlar bu gün bar verən, kölgəsində bir sürü

yatan nəhəng ağaclardır. İlahi, biz bu ayrılığa necə dözürük?! Yaratdığın insanlar kövrək olduqları qədər, həm də möhkəm varlıq imişlər.

17 illik bu həsrət zamanında çox hadisələr oldu. Təkcə vətən arzularımız cücərmədi, boy atmadı. Təkcə vətən sevgimiz öz vüsalına qarışmadı. Cücərməkdən danışdım, könlümə bahar düşdü: Yoxdan var eyləyən, quru ağaca can verən İlahi bahar çağları Kəlbəcər təbiətinə xüsusi bəzək verərdi. Qayaların üstündə mamırlar da göyərirdi. Sıldırım qayaların üstündə nəhəng palıd ağaclarını görəndə Yaradanın qüdrətinə şükür edirsən. Bahar bu yerlərə xüsusi nazla, işvə ilə gəlirdi. Ağaclar aran kəndlərindən başlayaraq yavaş–yavaş yuxarılara doğru tumurcuqlanmağa, yarpaqlamağa başlayardı. Meşələrdə ilk olaraq zoğal, alça ağacları çiçəkləyərdi. Bənövşə və pəşəməngül çiçəkləri yerin üstünü xalça kimi örtürdü. Yazın ilıq nəfəsində yenicə oyanmış torpaqdan danaqıranın, çildirimin kökünü itiuclu ağacla çıxarıb nazik çubuğa düzərdik. Daha sonra bənövşə, yazgülü, nərgiz gülləri çəmənləri bəzəyər, gilənar, alma, armud ağaclarının çiçəyinin ətri bağ- bağatı bürüyərdi. Bulaqların ətrafında, sızqa suların kənarlarında yarpız, çəmənlərdə cincilim, qırxbuğum bitərdi. Bu vaxt qız-gəlin onları yığar və kətə (qutab) bişirərdilər. Bizlərdə kətəni qaymaqla, çiyə ilə süfrəyə gətirərdilər. Yazın ilk nübarını nuş edib Allaha şükür edərdik.

Havalar isindikcə dağların qarı əriyib çaylara qarışardı. Sel suları şak-şarakla qabağına keçən xırda daşları, ağac parçalarını, kötükləri özü ilə birlikdə götürüb aparardı. Çayqırağı məhəllələrə ziyan vuran amansız sel, bəzən mal-qaranı, hətta insanları aparmaq təhlükəsi yaradırdı. Kəndimizin sayılan-seçilən kişilərindən olan Əlif Namazov da bu sellərin qurbanı olmuşdu. O, yaz selindən coşan çayın kənarından arı qutularını uzaqlaşdırarkən arxadan gələn güclü sel Əlif kişini “Bulanıq su” deyilən yerə qədər aparmışdır. Sirli-sehrli arı ailəsini xilas etmək uğrunda həyatını verən zəhmətsevər bir insanın ömür yolu beləcə faciəli sonluqla bitmişdi.

Kəndin zəngin təbiəti, rəngarəng çiçəkli çəmənləri burada arı saxlamaq üçün əlverişli şərait yaradırdı. Buna görə də camaatımızın əksəriyyəti arı saxlayardı. Ən çox arı ailəsi İmamverdi babanın, Abbas dayının və Möhübbət müəllimin həyətində olardı.

Min bir dərdin dərmanı olan bal kəndimizdə hər evdə tapılardı. Bal çəkilən günü onun bihuşedici ətri

ətrafa yayılardı. Yoldan keçən hər kəsi çağırıb kəklikotu çayı ilə bala qonaq edərdilər. Təzə xiyarla bal da ləzzətlə yeyilərdi. Qayğanağın üstünə bal süzəndə xüsusi dad, əvəzolunmaz ləzzət verərdi. Qaymağa bal qatmaq isə ağıza tam, ürəyə tab, dizə taqət verərdi. Min çiçəkdən damcı-damcı toplanan bu həyat cövhərinin yaradıcısı olan arıların sirlərini heç kim axıra qədər öyrənə bilməmişdi. Ancaq arı ailəsinin haramlıq sevmədiyini bilən elimiz onların qulluğunda möhkəm dayanar, halal zəhmətlərinə haram qatmadan bol məhsul əldə edərdi. Arısı olmayanlara və nisbətən kasıb ailələrə, həmçinin kəndimizə kənardan təyinatla gələn müəllimlərə də bal payı göndərilərdi. Minəş xalanın bal payı kilodan az olmazdı. Pay vermək, əl tutmaq, kimisə sevindirmək camaatımızın sevimli peşəsi olub. Hər mövsümün öz sovqatı, öz payı vardı. Ehtiyacı olanlara yazda cincilim, qırxbuğum kətəsi, gilas, gilənar, moruq, qarağat, yayda nehrə yağı, təzə şor, tut vedrəsi, payızda alma, armud kisəsi, qışda isə ot, odun göndərilərdi.

...Nəbisi qılınclı, Həcəri atlı,
Eli qonaqpərvər, əli sovqatlı,
Yayı bol bəhrəli, şirin ovqatlı
Zimistanı xoş cəfalım, haradasan?!

***Adil Həmid***

Bol-bərəkətli bağların məhsulunu yığıb-yığışdırmaq olmurdu. Meyvəni yeraltı daxmalarda öz yarpaqlarının arasında saxlayırdılar. Bu daxmalar yayda sərin, qışda isə isti olduğundan meyvə uzun müddət öz keyfiyyətini, ətrini saxlayırdı. Bu daxmaların qapısını açanda ətrafa dünyanın heç bir ətriyyatının verə bilmədiyi gözəl iy yayılardı.

Payızda ot tayasını yığan zaman quru otun arasına tökülən əzgil, çöl armudu da öz dadını qışa qədər qoruyub saxlayırdı.

Hər ehtiyatını, tədarükünü yaxşı görən adamlar sərt qışın necə keçdiyini hiss etmirdi. Qış boyu kişilər mal-qaranı yemləyər, odun-ocağı yandırar, xanımlar isə isti sobanın yanında xalça, palaz, kilim, xurcun və yaxud isti corab toxuyardılar. Qızlar xalça toxuyan qonşulara iməci (köməkçi) gedərdilər. Şən zarafatlarla, deyib-gülməklə, şirin qax, qoz və digər çərəzlər

yeməklə gecədən xeyli keçənədək həvəslə, yorulmadan çalışardılar. Qız–gəlinlərimiz 20-25 günə bir xalçanı toxuyub başa vurardılar. Çeşnilər müxtəlif, iplər rəngarəng, ömür mənalı, günlər isə qayğısız, fikirsiz və dərdsiz keçərdi...

...Qaytar eşq havası çalan günləri,
Əqlimi başımdan alan günləri.
Ömürdən saymaram qalan günləri,
Oduna yandığım gündən savayı.

***Rasim Kərimli.***

Ömrün ən gözəl çağlarıydı o günlər, o aylar. Ürəklərdə mərhəmət, gözlərdə məhəbbət, əməllərdə sədaqətlə yaşayırdıq o günləri. İnsana, torpağa, Vətənə məhəbbət, gələcəyə inam hissi, yaşamağa həvəs, yaratmağa güc verirdi.

## KOLXOZ QURUCULUĞU

Azərbaycanda kolxoz quruculuğunun ilk günlərindən etibarən kəndimizdə də kolxoz yaranmışdır.

Bizim sovetlik 5 para kənddən ibarət idi: Günəşli (Kilsəli), Comərd, Qaragüney, Nəcəfalılar və Pirilər. Kolxozumuz da bir idi. Əvvəllər kolxozumuz “1 may”, sonralar isə Puşkinin adını daşıyırdı.

Sonralar Günəşli (Kilsəli ) bu sovetlikdən ayrılaraq müstəqil sovetlik və kolxoz oldu. Comərd, Qaragüney, Nəcəfalılar və Pirilər isə Nizami kolxozu adı altında birgə işləyib, birgə yaşayırdı.

Nəcəfalılarda 55 ailə olmaqla 310 nəfər, Pirilərdə isə 7 ailə olmaqla 42 nəfər adam yaşayır, yaradır, əkir-becərir və qayğısız günlər keçirirdilər.

Bu kənddə sanballı kişilər, sözü kəsərli, şəxsiyyətli insanlar yaşayıblar. Tarixi bir yol keçib bu el, bu oba. İlk kolxoz quruculuğu illərində Namazov Abbasəli Məşədi Piriməmməd oğlu, Namazov Misir Məhəmməd oğlu, Həsənov Ələs Məşədi Şəmir oğlu, Məmmədova Tuyğun İmamalı qızı, Hümbətov İmamverdi Əli oğlu kolxoz sədrləri işləmişlər. Süleyman Namazov, Zeynal Piriyev, Musa Piriyev, Əliabbas Əliyev, Piri Piriyev, Səfər Əliyev kimi kişilər isə aparıcı işlərdə olublar. Müharibə illərində

bütün kişilər müharibəyə gedəndə kəndimizin "həcərləri" kəndi yaşadıblar. Əhalini acından ölməyə qoymayıblar. Tuyğun nənənin kolxoz sədri olmasından hər kəs ağızdolusu danışa bilər. Aclıq illərində Tuygun nənə camaata toxum, xış, kəl verib. Balasının acından ölməməsi üçün adamlar "4 kq buğdaya 1 inək verməyə hazır olan vaxtı" o, hökumətdən yarıgizlin, yarıaşkar təmənnasız buğda paylayaraq neçə adamı acından ölmək təhlükəsindən qurtarmışdır. O qanlı-qadalı illərdə Tuyğun nənə, Gülbəs nənə, Asiya nənə hamıya kömək əli uzadıblar. 1 kq duzun - 1 kq nehrə yağına bərabər olan vaxtı elin dayağı olublar. "Pis günün ömrü az olar" deyərək camaata təsəlli verirdilər.

Cümşüd babanın gözəl sədr kimi camaata böyük qayğısı olmuşdur. Kilsəli Quliyev Astanın, qaragüneyli Çıraqov İbrahimin, almalıqlı Qəfər müəllimin, zülfüqarlı Müslüm müəllimin də elimizin, obamızın arasında böyük hörməti olub. Gözəl insan Quliyev Əli humanist, ağıllı idarəçilik üsulu ilə çoxlarının qəlbində özünə yer tutmuşdu. Almalıqlı Qəfər müəllimin iş prinsipi də bəyənilmişdi. Qonşu kənddən olan Qəfər müəllim kəndimizin camaatının problemlərinə öz problemi kimi can yandırırdı. Sovetliyin 5 para kəndi bir-biri ilə çox qaynayıb-qarışmışdı. Əksəriyyəti yaxın qohum, qalanları dost, qonşu olduğundan hamı bir evli kimi yaşayırdı. Xeyir-şərləri, yaylaqları, aranları bir idi. Əvvəllər orta məktəbə Kilsəli kəndinə gedirmişlər. Sonralar Nəcəfalılar kəndində də məktəb tikilir. Məktəbin direktoru olmuş Qaragüney kənd sakini Nüsrət müəllimdən hamı hörmətlə danışır. O, ciddi görkəmi, səlis nitqi, səliqəli geyimi, dərin elmi ilə hamının diqqətini cəlb etmişdi. Sonralar bu müdrik insanı kolxoz sədri təyin etdilər. Xoşbəxtlikdən onun idarəçiliyinə, insanlarla davranmaq qayda–larına biz də şahid olmuşuq. Görünür, kəndimizə gözəl insanların rəhbərlik etməsi bizim alın yazımız imiş.

## Kəndimizin kolxoz sədrləri

1. Namazov Abbasəli Məşədi Pirimәmməd oğlu (Nəcəfalılar)
2. Namazov Misir Məhəmməd oğlu (Nəcəfalılar)
3. Həsənov Ələs Məşədi Şəmir oğlu (Nəcəfalılar)
4. Məmmədova Tuyğun İmamalı qızı (Nəcəfalılar)

5.Hümbətov İmamverdi Əli oğlu (Nəcəfalılar)
6. Ismailov Şafaət Tağı oğlu (Qaragüney)
7. Səfərov Cümşüd Göyüş oğlu (Kilsəli)
8. Mehralıyev Sabir (Almalıqlı)
9. Quliyev Əli (Kilsəli)
10. Çıraqov İbrahim (Qaragün)
11. Alıyev Qəfər (Almalıqlı )
12. Tağıyev Nüsrət Şəfaət oğlu (Qaragüney)
13. Müslüm müəllim (Zülfüqarlı).

## Kəndin Sovet sədrləri

1. Budaq kişi (Kilsəli)
2. Namazov Misir Məhəmməd oğlu (Nəcəfalılar)
3. Abbasov Muxtar Şükür oğlu (Nəcəfalılar)
4. Quliyev Əşrəf (Kilsəli)
5. Əmiyev İmran İbrahim oğlu
6. Quliyev Hüsü (Kilsəli)
7. Quliyev Astan (Kilsəli)
8. Səfərov Cümşüd Göyüş oğlu (Kilsəli)
9. Quliyev Şahmar (Kilsəli)
10. İsmayılov Əsgər (Qaragüney)
11. Çıraqov Baloğlan (Qaragüney)
12. Qəmbərov İsmayıl (Kilsəli).

## Sovetliyin katibləri

1. Şəmilov Ələs Məşədi Şəmir oğlu (Nəcəfalılar)
2. Musayev Pənah Vəli oğlu (Nəcəfalılar)
3.Ağayev Şahmar Oruc oğlu (Kilsəli)
4.Piriyev Piri Abbasəli oğlu (Nəcəfalılar)
5.Quliyev Hidayət (Kilsəli)
6.Həşimov Əhəd Yunus oğlu (Comərd).

# VII FƏSİL

## BİZ KİMLƏRDƏN DƏRS ALMIŞIQ

Müəllim, bu ada baş əyir cahan.
Ondan hansı dahi dərs almamışdır ?!
Müəllim sözünə qulaq asmayan,
Tarixlər boyu heç ucalmamışdır.

## MƏKTƏB İLLƏRİ

Kəşməkəşli, enişli -yoxuşlu həyat yollarında insan bir çox peşə sahibləri ilə təmasda olur. Həyatda yeganə bir peşə sahibi var ki, ona hər kəsin ehtiyacı var: fəhlənin də, mühəndisin də, təyyarəçinin də, həkimin də. Bu da bütün peşələrin ilki və öyrədicisi olan-müəllim peşəsidir.

İslam dinində elm öyrədən insan ibadət edən insana, müəllimin mürəkkəbi isə şəhidin qanına bərabər tutulmuşdur. Yaranmışların nuru, bəşəriyyətin nicatı, alimlərin alimi, elmin özü olan Peygəmbərimiz (s.a.s) deyəndə ki, kim mənə bir hərf öyrədərsə, mən onun qulu olaram, yalnız onda müəllimliyin nə qədər ali, ülvi, nəcib və müqəddəs bir peşə olduğunu dərk edirsən!

Ancaq bu peşəyə təkcə yiyələnmək kifayət deyil. Hər an öz üzərində işləmək , hərəkətində, nitqində, əməlində qüsursuz, elmdə üstün olmaq, bütün çətinliklərə sinə gərib qüruru əldən vermədən yaşamaq hər müəllimə xas olmur. Həyat fəlsəfəsini düzgün qurmayan müəllimlər problemi seçdikləri peşədə yox, özlərində axtarmalıdırlar. Güzgünü sındırmaqla, üzündəki qüsurları düzəltmək mümkün olmadığı kimi.

Sovetlikdə ilk məktəb Günəşlidə (Kilsəlidə) olduğundan bu 5 kəndin şagirdləri orta təhsilini 3-4 km yol gedərək orada alırdılar. Sonralar məktəb Qaragüneydə Məşədi ağanın evində, Nəcəfalılarda Heydər kişinin evində olmuşdur. Sonra məktəbi kəndin ortasında kiçik tikilidə, daha sonra isə müasir tələblərə cavab verən yeni onillik məktəb binası kəndin qabağında tikilmişdi.

Taleyin xoş qismətindən, sözün əsl mənasında müəllim olan şəxslərdən dərs almaq bizə də nəsib olmuşdur. Kimdir o insanlar?

## Məktəbimizin ilk müəllimləri

1. Əliyev İsa Əli oğlu (Nəcəfalılar).
2. Möylam müəllim. (Qubadlı).
3. Pənah müəllim (Kilsəli).
4. Sayad müəllim (Qılınclı).
5. Savalan müəllim (Kilsəli ).
6. Rəhim müəllim (Qazax).

7.Nəsif müəllim.
8.Adıgözəl müəllim (Quzeyçirkin).
9.Əşrəf müəllim (Kilsəli ).

## Kəndimizin müəllimləri

1. Əliyev Aydın Baxşalı oğlu – riyaziyyat müəllimi.
2. Həsənov Hüseyn Ələs oğlu – riyaziyyat müəllimi.
3. İbrahimov Möhübbət Rəhim oğlu - fizika müəllimi.
4. İsmayılova Səmayə İsmayıl qızı – ədəbiyyat müəllimi.
5. İsmayılova Leyli Bəhman qızı –ədəbiyyat müəllimi.
6. Piriyev Sabir Əli oğlu – tarix müəllimi.
7. Piriyev Sahib Əli oğlu – ədəbiyyat müəllimi.
8. Hümbətov Ələmdar İmamverdi oğlu – riyaziyyat müəllimi.
9. Hümbətov Şahin İmamverdi oğlu – riyaziyyat müəllimi.
10. Əmirov Ədalət Həmzə oğlu – riyaziyyat müəllimi.
11. Piriyeva Almaz İsa qızı – ingilis dili müəllimi.
12. Abbasov Əli Bahadur oğlu - sürücülük müəllimi.
13. Əliyev Natiq Şura oğlu – ibtidai hərbi-hazırlıq müəllimi.

## Rayonumuzun digər kəndlərindən kəndimizdə dərs deyən müəllimlər

1. Çıraqov Baloğlan Cümşüd oğlu (Qaragüney).
2. Tağıyev Nüsrət Şəfaət oğlu (Qaragüney)–ingilis dili müəllimi.
3. Tağıyev Ziyafət Şəfaət oğlu (Qaragüney) – ibtidai hərbi hazırlıq müəllimi.
4. Tağıyeva Mənsurə Şəfaət qızı (Qaragüney) – ingilis dili müəllimi.
5. Çıraqov Novruz Qəfər oğlu–ingilis dili müəllimi (Kəlbəcər rayonu).
6. Səfa müəllimə – kimya-biologiya müəllimi (Zülfüqarlı kəndi).
7. Əzimov İslam Məhəmməd oğlu – rus dili müəllimi (Çərək–dar kəndi).
8. Nazim müəllim – ibtidai sinif müəllimi (Oruclu kəndi).

## Digər bölgələrindən kəndimizdə dərs deyən müəllimlər

1. İbrahimov Nizami Aslan oğlu – tarix müəllimi (Ağdam rayonu).
2. Kərimov Coşqun – fizika müəllimi (Gürcüstan Respublikası).
3. Kərimova Şəfiqə – fizika müəllimi (Gürcüstan).
4. İsa müəllim – coğrafiya müəllimi (Gürcüstan).
5. Mehman müəllim – kimya-biologiya müəllimi (Bərdə).
6. Vüqar müəllim – rus dili müəllimi (Gürcüstan).
7. Larisa müəllimə - rus dili müəllimi (Gürcüstan).
8. Adilə müəllimə – ingilis dili müəllimə.
9. Palina müəllimə - rus dili müəllimi (Rusiya Federasiyası).
10. Tretyakova Antonina Nikolayevna- rus dili müəllimi (RF)
11. Möyfalı - idman müəllimi (Tovuz rayonu).



**Arxa sırada: sağdan Məhəbbət müəllim, İdris Abbasov, Əli Abbasov, Fehruz Əliyev, Rafiq Əmirov, Ədalət Əmirov, Şahin müəllim, Sabir müəllim, Qənbər müəllim, Əliyev Şakir. Ön sırada: (sağdan-sola) Elminaz müəllimə, Səfa müəllimə, Səmayə müəllimə (direktor), Şəhla Məmmədova.**

## TAĞIYEV NÜSRƏT ŞƏFAƏT OĞLU



Tağıyev Nüsrət Şəfaət oğlu 1940-cı ildə Kəlbəcər rayonunun Qaragüney kəndində anadan olub. 1962-ci ildə M.F.Axundov adına APİ-də (indiki Slavyan universiteti) ingilis dili, Azərbaycan dili və ədəbiyyatı ixtisaslarına yiyələnmişdir.

İlk fəaliyyətini Kilsəli kəndində başlayan Nüsrət müəllim 1970-ci ildə Nəcafalılar kəndinin 8 illik məktəbinə direktor təyin edilib. Geniş elmə, dərin məntiqi təfəkkürə malik olan Nüsrət müəllim az vaxtda kənd camaatının dərin hörmətini və şagirdlərin sevgisini qazanır. Camaat öz sözünün, hərəkətinin yerini bilən, yüz ölçüb, bir biçən müəllimə sevgi ilə yanaşırdı. Deyirlər, Nüsrət müəllimin Tirgehdən gəldiyini görən şagirdlər, artıq öz hərəkətlərinə və danışıqlarına nəzarət edirlərmiş.

Nüsrət müəllim öz təəssüratlarını bizimlə bölüşərək deyir; "O vaxtlar bəzi kəndlərdə olduğu kimi, Nəcəfalılarda da məktəb natamam orta məktəb idi. Ona görə də kəndin uşaqları tam orta təhsil almaq üçün 8-10 km. məsafə qət edərək qonşu Qılınclı kənd orta məktəbinə getməli olurdular. Bir dəfə Rayon Maarif şöbəsinin müdiri Şamil müəllim mənə dedi ki, əgər bir sinif otağı da tikə bilsəydiniz, məktəbinizə doqquzillik statusu verərdim. Mən bu sözü kənd camaatına çatdırdım. Kəndin camaatı elmə, təhsilə çox meylli idi. Ona görə də mənim bu təklifini eşidən kimi, onlar hamı bir ağızdan razılıq verib səhərisi gün işə başladılar. Cəmi 10 günə bir otaq tikib hazırladılar. Məktəbə doqquzillik qərarını aldıq. Bundan ruhlanan camaat daha əlavə 12 otaqdan ibarət məktəb tikib istifadəyə verdi. Bu işdə kəndin ağsaqqallarından İdris Həsənov, Ələs Həsənov, İmamverdi Hümbətov, Səfər Əliyev, Şura Əliyev, Həmzə Əmirov, Həmzə Əliyev, Vəli Həsənov, Piri Piriyev, Salah Əliyev, Əli və Əziz Piriyev qardaşları,

Məhəmməd Abbasov, Nəbi Xəlilov, Zülfü Musayev olmaqla bütün camaat can-başla iştirak edirdilər. Bundan sonra Nəcəfalılar kənd orta məktəbinə onillik statusu verildi".

Öz işini, peşəsini sevən Nüsrət müəllim məktəbə savadlı, təcrübəli müəllimlərin cəlb olunmasına çalışırdı. O, gözəl idarəçiliklə gələcəyə dəyərli nəsil verməkdə əlindən gələni əsirgəmirdi. Məhz, o illərin bəhrəsidir ki, Nüsrət müəllim başda olmaqla, Aydın müəllimin, Hüseyn müəllimin, Mənsurə müəllimənin, Mustafa müəllimin, Abbasəli müəllimin, Möhübbət müəllimin, Səmayə müəllimənin, Leyli müəllimənin, Şahin müəllimin, Ramiz müəllimin, Sabir müəllimin, Ziyafət müəllimin və başqa müəllimlərimizin əməyi nəticəsində bu gün öz işlərində, əməllərində başımızı uca edən Ədalət müəllim, Adil müəllim, polkovnik-leytenant Hicran Abbasov, dəyərli hüquqşünas Elçin Əliyev, Mübariz Abbasov və digər peşələrdə öz işlərinin öhdəsindən layiqlə gələn onlarla şagirdləri müxtəlif işlərdə fəaliyyət göstərirlər.

1975-ci ildə Təhsil Şöbəsində çalışan Nüsrət müəllim, sonralar bizim kəndə kolxoz sədri təyin edilir. Qədirbilən camaatın etibarını və sevgisini qazanan təcrübəli ziyalı kəndin quruculuq, əkin-biçin, tikinti işlərində can yandırır, kəndin ildən-ilə çiçəklənməsi və inkişaf etməsi yolunda böyük işlər görürdü.

Biz bu layiqli insanın gördüyü bütün işləri gözlərimiz önündə canlandıraraq deyirik: "Sağ olun, gözəl insan! Məhz sizin kimi insanların çiynində dayanır cəmiyyətin ağırlığı. Dünyanın balansını səmalarda Böyük Yaradan, yerlərdə sizin kimi yaradıcı, zəhmətsevən insanlar qoruyurlar. Biz fəxr edirik ki, Sizin kimi müəllimlərdən dərs almışıq.Yaxşı ki, siz və sizin kimilər var imiş ! Bu da bizə taleyin bəxş etdiyi bir xoşbəxtlik imiş. Siz hər birimizin qəlbində daim xoş təəssüratlarla, əsl müəllim, əsl kişi, əsl rəhbər obrazı kimi qalacaqsınız! Bizdən sizlərə yalnız Ulu Tanrıdan uzun ömür və sağlam can arzulamaq qalır. Allah amanında!.."

# ƏLİYEV AYDIN BAXŞƏLİ OĞLU



Əliyev Aydın Baxşəli oğlu 1941-ci ildə Nəcəfalılıar kəndində Baxşəli Seydalı oğlunun ailəsində dünyaya göz açmışdır. Dünyaya gəlişi qanlı-qadalı müharibə illərinə təsadüf edən Aydın Əliyevin həyatı da olduqca kəşməkəşli olmuşdur. Atası Baxşəli kişi və böyük qardaşı Şahmalı Böyük Vətən müharibəsinə getdiyindən ailənin bütün yükü anası Gülbəs Məhəmməd qızının çiyinlərinə düşmüşdür. Oğlu Aydının elmə böyük marağı olduğunu görən Gülbəs nənə həyat tərzinin olduqca ağır və çətin olmasına baxmayaraq, onun orta və ali təhsil alması üçün bütün imkan və şəraiti yaratmışdır. Aydın Əliyev əvvəllər Kilsəli kəndində ibtidai təhsilini, sonra Qaragüneydə 8 illik təhsilini, Qılınclı kəndində isə orta təhsilini almışdır. Orta təhsilini müvəffəqiyyətlə başa vuran Aydın Əliyev Gəncə şəhərində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakultəsinə daxil olmuşdur. O, həmin ali təhsil ocağını qızıl medalla bitirmişdir. Onun elmə olan həvəsini savad və bacarığını görən institut rəhbərliyi ona institutda qalaraq müəllim işləməyi təklif etmişdir. Lakin anası Gülbəs nənənin təkidi ilə o bu təklifi rədd edərək doğma kəndinə qayıtmışdır. Aydın müəllim bir müddət Kəlbəcər rayonunun Almalıq və digər kəndlərdə riyaziyyat müəllim işləmişdir. Doğma Nəcəfalılıar kəndində məktəb binası inşa edilən kimi o, yeni açılan həmin məktəbə gələrək burada pedaqoji fəaliyyətini davam etdirmişdir. Aydın müəllim ömrünü kəndinin gələcək nəslinin elm və biliyin sirlərinə yiyələnmələrinə həsr etmişdir. O, işlədiyi dövrdə savadlı pedaqoq, təcrübəli metodist kimi tanınmış, pedoqoji kollektivin, şagirdlərinin və onu tanıyan insanların yaddaşlarında gözəl insan kimi qalmışdır. Rayon səviyyəsində keçirilən olimpiyadalarda və eləcə də buraxılış imtahanları

zamanı cavabı çətin tapılan bir çox misal və məsələlərin həllində Aydın müəllimin köməyinə ehtiyac duyulurdu. Aydın müəllimin yetirmələrinin bir çoxu – Ramiz Musayev, Sabir və Sahib Piriyev qardaşları, Şahin Hümbətov, Ədalət Əmirov, Adil Həmidov və başqaları bu gün onun şərəfli müəllimlik peşəsinin layiqli davamçılarıdırlar. Aydın Əliyevin bir çox şagirdləri isə yüksək ixtisaslara yiyələnərək digər sahələrdə peşəkar mütəxəssislər kimi fəaliyyət göstərirlər.

Bu gözəl insan mənfur ermənilərin bizlərə qarşı yürütdükləri növbəti düşmənçilik siyasətinin qurbanı olmuşdur. Belə ki, bütün ali və ülvi andları pozduqları kimi, Hippokrat andına da xəyanət edən erməni «həkimi» Agdərə rayon xəstəxanasında Aydın müəllimin damarına naməlum məhlul vurmuşdur. Bu da onun hələ yaşamaq və yaratmaq həvəsi ilə dolu ömrünün vaxtsız və faciəli surətdə başa çatmasına səbəb olmuşdur.

Aydın Əliyev 1990-cı ildə doğma kəndində rəhmətə getmiş və Nəcəfalılar kənd qəbristanlığında dəfn olunmuşdur. Allah ona rəhmət eləsin!



**1972–1982-ci illər buraxılışı.**
**Soldan–sağa (arxa sırada): Raya, Adilə, Bahar, Şükufə, Sabirə, Nailə, Natavan, Vəfa.**
**Ön sırada: Əlizaman, Fazil, Bəxtiyar və Yaqub.**

## İBRAHİMOV MƏHƏBBƏT RƏHİM OĞLU



Nəcəfalılarda müəllim peşə–sinin layiqli daşıyıcılarından biri də Məhəbbət müəllim idi. Təbiətən sakit, təmkinli, xaricən daim səliqəli bir şəxs olan İbrahimov Məhəbbət 04.09.1943-cü ildə Nəcəfalılar kəndində anadan olmuşdur. Ibtidai təhsilini Qaragüney kəndində, 7 illik məktəbi Kilsəli kəndində, orta təhsilini isə Qılınclı kəndində bitirmişdir. 1962-ci ildə Oktyabr İnqilabı adına Bakı Neft texnikumuna daxil olmuşdur. 1963-cü ildə isə hərbi xidmətə çağırılmış, Almaniya Demokratik Respublikasında 3 il hərbi xidmətdə olmuş, hərbi xidmətini başa vurduqdan sonra isə texnikumda təhsilini davam etdirmişdir. O, 1968-ci lidə V.İ.Lenin adına APİ-nin fizika fakültəsinə daxil olub, 1973-cü ildə həmin institutu bitirərək təyinatla doğma rayonuna qayıtmışdır. Pedaqoji fəaliyyətinə Nəcəfalılar kəndində başlayan həmyerlimiz bir neçə il səmərəli işlədikdən sonra rayon təhsil şöbəsinə inspektor təyin edilmişdir. Lakin doğma el-obasına olan sevgisi onu yenidən öz kəndinə qaytarmışdır. Taleyin hökmü ilə elə bu illərdə Kəlbəcər rayonundan kəndə təyinatla müəllim işləməyə gələn İsmayılova Səmayə İsmayıl qızı ilə ailə həyatı qururlar.

Son illər Nəcəfalılar kəndində direktor kimi fəaliyyətə başlayan Məhəbbət müəllimin də tale kitabına köçkünlük, didərginlik həyatı yazılmışdır. Amansız illərin ağrı-acısını ürəyində daşıyan hörmətli müəllim, ömür-gün yoldaşı Səmayə müəllimə ilə birlikdə Bakıda Sabunçu rayonu 10 saylı internat məktəbində müəllim işləyir.

Vətənə layiqli övlad olan, alitəhsilli 4 oğul atasıdır. Böyük oğlu İbrahimov Azər Dövlət Neft Akademiyasının geoloji kəşfiyyat fakültəsini bitirib. Ailəlidir. İkinci oğlu İbrahimov Ramil Azərbaycan İqtisad Universitetini bitirib. Ailəlidir. Bir oğlu var. Hal- hazırda iş icraçısı işləyir.

Oğlu İbrahimov Vüsal sürücü işləyir. Ailəlidir.

İbrahimov Tacəddin isə İnşaat İnstitutunda təhsil alır. Subaydır.

Böyük əziyyətlə əkib-becərdiyi bağının barını yemək, hələ ki, qismət olmasa da, qoy Ulu Tanrı ona 4 oğlunun barını yüz illər boyu yeməyi qismət eləsin.

Gülşənə çevirdiyi bağ-bağatına isə, inşallah, dönər. O gün uzaqda deyil!..



**1968–78-ci illər buraxılışı.**
**Soldan – sağa (arxa sırada):**
**Yazgül, Səfa, Narıngül, Nazilə və Rəbiyyə.**
**Ön sırada: Reyhan, Səmayə müəllimə, Xurşud və Aybəniz.**

## HƏSƏNOV HÜSEYN ƏLƏS OĞLU



Həsənov Hüseyn 1951-ci ilin baharında Nəcəfalılar kəndinin sayılan ağsaq–qallarından olan Ələs Şamilovun ailə–sində dünyaya gəlmişdi. O, 1957-ci ildə Qaragüney kənd ibtidai məktəbinə daxil olmuş, 1961- ci ildə Kilsəli kənd 8 illik məktəbində, sonra isə Qılınclı kənd orta məktəbində təhsilini davam etdirmişdi.

Hüseyn Həsənov 1968-ci ildə Gəncə (Kirovabad) Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə qəbul olunub. Ali təhsilini müvəffəqiyyətlə başa vurmaqla yanaşı, həmçinin Marksizm- Leninizm Universitetində də təhsil alıb. 1973-cü ildən doğma kəndində riyaziyyat müəllimi və tədris işləri üzrə direktor müavini, 1979-cu ildən isə Nəcəfalılar kənd orta məktəbinin direktoru işləyib. 1983-cü ildə Puşkin adına kolxozda Partiya Komitəsinin katibi seçilmişdir.

O, direktor işlədiyi müddətdə məktəbin müəllim və şagird kollektivinin dərin hörmətini qazanmışdır. Müasir tipli yeni sinif otaqlarının tikilməsində, şagird istehsalat briqadasının fəallaş–masında, məktəbyanı sahənin yaşıllaşmasında və bağ salınmasında, məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsində gərgin əməyi və xidmətləri olub.

1985-ci ildən Şəmkir rayonuna köçməsi ilə əlaqədar həmin rayonda K. Marks adına orta məktəbdə riyaziyyat müəllimi və Azərbaycan bölməsinin tədris işləri üzrə direktor müavini işləyir.

Həyat yoldaşı əslən şəmkirli olan Sürayə Ramazan qızına da Kəlbəcərin füsunkar gözəlliyini seyr etmək nəsib olub. Qızı Həsənli Yazgül Hüseyn qızı ADU-nun kimya-biologiya fakültəsini bitirib.

Hüseyn müəllim hal-hazırda ailəsi ilə birlikdə Şəmkir rayonunda yaşayır.

# İSMAYILOVA SƏMAYƏ İSMAYIL QIZI



İsmayılova Səmayə İsmayıl qızı 1955-ci ildə Kəlbəcər rayonunda anadan olmuş, 1961-ci ildə Kəlbəcər şəhər 1 saylı məktəbin ibtidai sinfinə daxil olmuş, 1971-ci ildə həmin məktəbi bitirmiş, ADPİ-nin dil- ədəbiyyat fakültəsinə daxil olmuşdur. 1974-cü ildə həmin institutu bitirib.

Taleyin qisməti Səmayə müəlliməni işləmək üçün Nəcəfalılar kəndinə gətirmişdir.Adətən kişi müəllimlərdən ibarət olan Nəcəfalılar 10 illik kənd orta məktəbinin kollektivinə gözəl xanım, istedadlı mütəxəssis, bacarıqlı və işgüzar müəllimənin gəlişi müsbət dəyişiklərə səbəb oldu. Səmayə müəllimə Nəcəfalılar məktəbinə gəlişi ilə bərabər yeni ruh, yeni təəssürat gətirdi. Az vaxt ərzində kollektivin hörmətini qazanmaqla yanaşı, kəndin quruculuq işlərində yaxından iştirak edirdi. 1974-cü ildə dil-ədəbiyyat müəllimi kimi fəaliyyətə başlayan müəllimə 1975-ci ildə dərs hissə müdiri, 1985-ci ildə isə məktəbin direktoru işləmişdir. Kəlbəcər rayonunda o zaman azsaylı qadın direktorlarından biri olub. 1993-cü ildə erməni təcavüzü nəticəsində Kəlbəcərin işğalı ilə əlaqədar Bakı şəhərinin Sabunçu rayonunda məskunlaşan həmyerlimiz 10 saylı internat məktəbində dil–ədəbiyyat müəllimi işləyir. Dediyi şeirlərin deyiminə bir az nisgil, bir az kədər notu əlavə edərək, dəyərli müəlliməmiz sevimli peşəsini davam etdirir.

Gah Leyli kimi nəzakətli, məlahətli səsi ilə quşları səmada saxlayan, gah da Almaz kimi hökmlü, mübariz səsi ilə dağları titrədən Səmayə müəllimə, səsindəki kövrək və nisgil notlarını Nəcəfalılara dönəndə unudar, inşallah !!!

## İSMAYILOVA LEYLİ BƏHMƏN QIZI



Leyli müəllimə 1956-cı ildə Kəlbəcər rayonunda tanınmış İsmayılovlar ailəsində dünyaya gəlmişdir. Əsl azərbaycanlı xanımına xas olan bu gözəl qıza Leyli adı qoydular. Deyirlər, adlar insanın həyatına çox böyük təsir göstərir. O zamandan əvvəlcə elmə, savada, təhsilə, təbiətə, vətənə Leyli tək vurulan gənc qız, sonralar ailəyə, övlada və nəvəyə Leyli məhəbbəti ilə vurulmuşdur.

İlk təhsilini Kəlbəcər şəhər 1 saylı orta məktəbdə, ali təhsilini isə 1973–1977-ci illərdə Bakıda APİ-də almışdı. Ali məktəbi bitirib təyinatını Nəcəfalılara alanda, bəlkə də, kənd məktəbi olduğu üçün narahat olan gənc müəllimə tezliklə həm məktəb şagirdlərinin, həm də kənd camaatının sevimlisinə çevrildi. Hətta pedaqoji fəaliyyətinin 1-ci ildönümündə kəndin ağsaqqalı Abbasov Bahadurun gəlini də oldu.

Keçdiyi hər bir dərsi xoş təəssüratlarla yadda saxlayan, dediyi məsləhətləri, tərbiyəvi söhbətlərini qulağında sırğa edən onlarla şagirdi, bu gün müxtəlif peşələrdə işləyir.

Leyli müəllimə hal–hazırda Bakı şəhərində məskunlaşıb. 286, 274 və 320 saylı məktəblərdə dil-ədəbiyyat müəllimi işləyir. 4 layiqli, tərbiyəli övlad anasıdır.

El şənliklərində, yas mərasimlərində, vaxtaşırı görüşlərdə Leyli müəlliməni görmək bizə bir ziyarət təəssüratı bağışlayır. Doğma yurdda, qədirbilən el-obada görüşmək arzusu ilə!!!

## TAĞIYEV ZİYAFƏT ŞƏFAƏT OĞLU



Tağıyev Ziyafət Şəfaət oğlu 19.12.1954 - cü ildə Kilsəli kəndində anadan olub. Orta təhsilini 8-ci sinfə qədər Kilsəlidə, davamını isə Qılınclı kəndində alıb.

1973–1975-ci illərdə Çita şəhə–rində tank alayında nümunəvi hərbi xidmət keçirməklə yanaşı, həm də zabit kursunu bitirib. Kiçik leytenant kimi vətənə dönən Tağıyev əvvəlcə Kilsəli, bir ildən sonra isə Nəcəfalılar kənd orta məktəbində hərbi rəhbər işləyib. Şagirdlərə hərbi silah və sursatlarla davranma qaydalarından, müharibə şəraitində özünü idarə və özünü müdafiə normalarına yiyələnmə sayəsində böyük bilik və təcrübə verib. Vətənin dar günlərində Kəlbəcərin özünümüdafiə batalyonunda xidmətə göndərilən Ziyafət müəllim bölük komandiri işləyib. 1991-ci ildə Müdafiə Nazirliyinin əmri ilə yaranan 701-ci briqadanın 3-cü batalyonunda komandirin silah-sursat üzrə müavini işləyib. Səhhəti ilə bağlı Z.Tağıyev 1995–ci ildə ordudan tərxis olunmuşdur.

Hal-hazırda Bakı şəhəri, Səbail rayonunun Batamdar qəsə–bəsində məskunlaşıb. Alitəhsilli, yüksək mədəniyyətli, vətənpərvər ruhda böyümüş 3 övlad atasıdır.

Böyük oğlu Səbri İnşaat Mühəndisləri İnstitutunu bitirib. Qızı Şəlalə riyaziyyat müəlliməsi, Ləman isə ibtidai sinif müəlliməsidir.

Ömür-gün yoldaşı Elmira xanımın qayğıkeş ana, sədaqətli həyat yoldaşı kimi ailənin formalaşmasında böyük rolu vardır.

## MUSAYEV RAMİZ ZÜLFÜ OĞLU



Musayev Ramiz Zülfü oğlu 1958-ci ilin qaynar yay günlərində Nəcəfalılar kəndində zəhmətsevər usta ailəsində anadan olub. O, orta təhsilini doğma kəndində, sonra isə Qılınclı kənd orta məktəbində almışdır. Ramiz müəllim 1975-ci ildə Lenin adına APİ-nin (indiki N.Tusi ad.) riyaziyyat fakültəsinə daxil olmuşdur. Həmin institutu fərqlənmə diplomu ilə bitirib, Qılınclı kənd orta məktəbinə təyinat alıb. Bir neçə ildən sonra Nəcəfalılar kənd orta məktəbində riyaziyyat müəllimi işləyib. Güclü yaddaşı, mükəmməl biliyi və ciddi xarakteri ilə şagirdlərin ürəyinə yol tapıb. 1987-ci ildən Qılınclı kənd peşə məktəbində müəllim, 1993-1994-cü illərdə həmin məktəbin direktoru işləyib.

1994-cü ildən Kəlbəcər rayon İcra Hakimiyyəti Başçısının Comərd, Nəcəfalılar, Pirilər və Qaragüney kəndlərindən ibarət inzibati ərazi vahidliyində icra nümayəndəliyinin başçısı olmaq məsuliyyətini çiyinlərinə götürüb. Azərbaycanın 21 rayonuna səpələnən nümayəndəliyin əhalisinin problemləri, qayğıları, dərd-sərləri ilə yaxından tanış olur və bu problemlərin həllində iştirak edir. Əhaliyə bu çətin günlərdə dayaq olur, onları gələcəyə ümidlə, inamla baxmağa sövq edir.

Qılınclı kənd sakini Atakişiyeva Dilbər Hümbət qızı ilə ailə quran Ramiz müəllim nümunəvi ailə başçısıdır. Həyat yoldaşı Dilbər xanım ali təhsilli mütəxəssis idi. Uzun illər Rayon Tütün məntəqəsində laborant işləmişdi. Təəssüf ki, biz onu tez itirdik. Ulu Tanrıdan Dilbər xanıma rəhmət, Ramiz müəllimə bu çətin və şərəfli peşəsində uğurlar, səbir və dözüm, övladlarına cansağlığı və xoşbəxtlik arzulamaq qalır. Onların 3 vətənpərvər, ağıllı və ali təhsilli oğlanları var: Musayev Ramil, Musayev Ramin və Musayev Emin. Böyük oğlu ailəlidir.

## ÇIRAQOV NOVRUZ QAFAR OĞLU



Çıraqov Novruz Qafar oğlu 1958-ci ildə Kəlbəcər rayonunda fəhlə ailəsində anadan olmuşdur. Hələ VIII sinifdə oxuyarkən Kəlbəcər rayon 1 saylı orta məktəbin komsomol katibi seçilən Novruz Çıraqov həmin məktəbi tərifnamə ilə bitirmiş və Azərbaycan Xarici Dillər İnstitutuna daxil olmuşdur. Tələbəlik illərində müxtəlif ictimai vəzifələrdə çalışmış, qrup rəhbəri, tələbə elmi cəmiyyətinin üzvü olmuşdur. Aktiv, maraqlı və fərqli tələbəlik illəri keçirən gənc 1994-cü ildə həmin institutu fərqlənmə diplomu ilə başa vurmuşdur. Bununla yanaşı o, Baki Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirərək politoloq və politologiya ixtisasına yiyələnmişdir.

1981-ci ildə Nəcəfalılar kənd orta məktəbində ingilis-dili müəllimi kimi əmək fəaliyyətinə başlamış, kollektivin ictimai-siyasi, mədəni-kütləvi tədbirlərində fəal iştirak etniş, sevimli müəllim və əsl ziyalı kimi dərin hörmət və nüfuz qazanmışdır.

Doğma xalqını, el-obasını ürəkdən sevən Novruz müəllimin gözəl idarəetmə və təşkilatçılıq bacarığını qiymətləndirən rayon ictimaiyyəti və rəhbərliyi onu ön sıralarda və məsul işlərdə görmək istəmişdir. O, bir neçə dəfə qəsəbə, şəhər sovetinə deputat seçilmiş, direktor müavini, rayon komsomol komitəsinin katibi, II katibi, RPK-də təlimatçı, RİH-də referent və böyük referent vəzifələrində çalışmışdır. Xalqının ağır, acılı günlərində özünü daim onlara çatdırmış, əlindən gələn fiziki, maddi və mənəvi köməkliyi əsirgəməmişdir.

Taleyinə məcburi köçkünlük həyatı yazılan Azərbaycanın zümrüd qaşı olan Kəlbəcər camaatı bu gün Azərbaycanın 59 rayonunda məskunlaşmışdır. Belə çətin şəraitdə Kəlbəcər RİH-nin müavini, təhsil, səhiyyə və mədəniyyət

məsələləri üzrə iş şöbəsinin müdiri işləyən Novruz Çıraqovun da çiyinlərinə ağır bir yük düşür.

Ömrünün 22 ildən çoxunu dövlət qulluğuna həsr edən peçəkar həmyerlimizə bu şərəfli və məsuliyyətli yolda uğurlar arzulayır və Ulu Tanrıdan ona cansağlığı və uzun ömür diləyirik! İnşallah, doğma Kəlbəcərimizin abadlıq və quruculuq işlərində onun dəyərli məsləhətlərinə hələ çox ehtiyacımız olacaq!

Vətəninə, nəslinə layiq olan 3 universitet təhsilli oğul atası, gözəl ailə başçısıdır.

## ƏLİYEV ƏLƏMDAR İMAMVERDİ OĞLU



Əliyev Ələmdar İmam–verdi oğlu 1947-ci il avqustun 15-də Nəcəf–alılıar kəndinin sayılan, seçilən kişilərindən İmamverdi babanın ailəsində dünyaya gəlib. Orta təhsilini Nəcəfalılar kənd orta məktəbində başlasa da, Qılınclı kəndində başa vurmuşdur. O, 1966–1968-ci illərdə hərbi xidmətdə olmaqla yanaşı 6-cı dərəcəli ağac emalı ustası peşəsinə yiyələnir. On il Nəcəfalılar kənd orta məktəbində əmək təlimi müəllimi işləyib. Şagirdlərin əməyə alışmasında, ağacdan müxtəlif əşyalar düzəltməyin sirrini öyrənməsində böyük əməyi olub.

Beş il Puşkin adına kolxozda tütünçülük briqadiri işləyib. Sonra ailəsi ilə Kəlbəcər rayonuna köçərək rayonda gedən tikinti sahələrində usta işləyib. Kəlbəcər rayon sakini Vəli kişinin qızı Əntiqə xanımla ailə qurub. Zaur və İlham adlı iki igid oğlu, İlhamə və Dilarə adlı iki gözəl qız balası var.

1993-cü ildə məlum hadisələrlə əlaqədar Tərtər rayonunda məskunlaşan Ələmdar müəllim, indi Bakı şəhəri Xırdalan qəsə–bəsində köçkün taleyi yaşayır.

Kəndin hər qarışını əzbər tanıyan Ələmdar müəllim yaylaqların, bulaqların, biçənəklərin adlarını yaxşı bilir. Nə–cəfalıların toponimlərinin hazırlanmasında bildiklərini bizimlə həvəslə bölüşmüşdür. Nə vaxtsa o yerlərə dönəndə, o yerlərin adlarını olduğu kimi gənc nəslə çatdırılmasında bu qızıl yaddaş bizə hələ çox lazım olacaq.

## PİRİYEV SABİR ƏLİ OĞLU



Sabir müəllim 02.02.1957-ci ildə el ağsaqqalı Məşədi Pirimməmməd kişinin nəvəsi Piriyev Əli Zeynal oğlunun ailəsində dünyaya göz açıb. Orta təhsilini Nəcəfalılarda alıb. 1976–1978-ci illərdə hərbi xidmətdə olub. 1979-cu ildə Lenin adına APİ daxil olub və 1984-cü ildə həmin institutun tarix fakültəsini əla qiymətlərlə başa vuraraq doğma kəndində müəllimlik fəaliyyətinə başlayıb. Dərin biliyini düzgün metodika ilə tətbiq edən Sabir müəllim əla qiymətlərlə ali məktəb bitirən onlarla tələbənin fəxri müəllimidir.

O, hal-hazırda Səbail rayonunda yerləşən 22 saylı Kəlbəcər rayon məktəbində tarix müəllimi işləyir.

Sabir müəllim Comərd kənd sakini Şavaqatov Nazilə Valeh qızı ilə ailə qurmuşdur. Birgə nikahlarından Sirac adlı oğlu və Jalə və Əfsanə adlı qızları vardır. Onlar oxuduqları məktəbin dərs əlaçılarıdırlar. Qardaşları Sirac yüksək balla ali məktəbə daxil olmuşdur.

## PİRİYEV SAHİB ƏLİ OĞLU



Piriyev Sahib Əli oğlu 1958-ci il noyabrın 12-də Pirilər kəndində anadan olub. 1965-1975-ci illərdə Nəcəfalılar kənd orta məktəbində orta təhsil alıb. Orta məktəbi bitirdiyi il N. Tusi adına APİ-nin filologiya fakültəsinə daxil olub. 1979-cu ildə həmin institutun filologiya fakültəsini əla qiymətlərlə bitirərək, Comərd kənd orta məktəbində pedaqoji fəaliyyətə başlayıb. Mətbuatda, xüsusilə də, rayonun “Yenilik” qəzetində uzun illər məqalələrlə çıxış edib.

Sahib müəllim 1990-cı ilin noyabr ayında həmkəndlisi Musayeva Südabə Pənah qızı ilə ailə həyatı qurmuşdur. İki oğul balanın atasıdır.

Böyük oğlu Pirili Samir (1992-ci il təvəllüdlü) dərs əlaçısıdır.

Pirili Fərid isə məktəbə ilk kövrək qədəmlərini atır.

Sahib müəllim 1993-cü il Kəlbəcərin işğalından sonra Bakı şəhərində yerləşən 16 saylı məktəbin direktoru işləyib. Hal-hazırda Kəlbəcər rayon Təhsil şöbəsində fəaliyyətini davam etdirir.

## HÜMBƏTOV ŞAHİN İMAMVERDİ OĞLU



Şahin Hümbətovun 1960-cı ilin baharında dünyaya gəlməsi el ağsaqqalı İmam–verdi kişinin evinə xüsusi müjdə, xüsusi sevinc bəxş etmişdi. Ailədə bir oğul övlad, bir şahin bala dünyaya gəlmişdi. O yerlərin insanlarına xas olan məğrur, cəld, qorxmaz Şahin, orta təhsilini doğma Nəcəfalılar kəndində almışdır. Şahin Hümbətov 1978-ci ildə Lenin adına APİ-nin riyaziyyat fakültəsinə qəbul olmuş, 1979-cu ildə hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini başa vurandan sonra təhsilini müvəffəqiyyətlə davam etdirmişdir. İki il Comərd kənd orta məktəbində, daha sonra isə doğma Nəcəfalılar kənd orta məktəbində müəllim işləmişdir.

1993-cü ildən Bərdə rayonunun Mehdixanlı kəndində yerləşən 41 saylı Kəlbəcər məktəbinin direktorudur. Bununla yanaşı ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir. Dəfələrlə seçki komissiyasının sədri olub. Ailəlidir. Bir oğlu və bir qızı var. Böyük qızı Hümbətova Şəhanə Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialında, fizika-riyaziyyat fakültəsində fərqlənən tələbələrdəndir. Atasının peşəsini layiqlə davam etdirməyi söz verib.

## ƏMİROV ƏDALƏT HƏMZƏ OĞLU



Əmirov Ədalət 1962-ci il yanvar ayının 15-də Nəcə–falılarda zəhmətsevərliyi və insanpərvərliyi ilə tanınan Həmzə kişinin ailəsində dünyaya göz açmışdı. 1969-1979–cu illərdə Nəcəfalılar kənd orta məktəbini əla qiynətlərlə başa vurub, APİ-nin riyaziyyat fakültəsinə daxil olmuşdur. 1984-cü ildə institutu bitirib doğma kəndində müəllimlik fəaliyyətinə başlamışdır. 1986-cı ildə kəndin sayılan ağsaqqalı Vəli kişinin qızı Elminaz xanımla ailə qurmuşdu. Birgə nikahlarından iki layiqli övladı var.

Vətənin göylərini qara bulud alanda silaha sarılan vətənpərvər el oğullarından biri də Ədalət Əmirov olmuşdur. 1996-cı ildən 1998-ci ilə kimi Şamaxı rayonunun Avaxil kəndində, 1998-ci ildən isə məskunlaşdığı Nağaraxana kəndində müəllimlik edir. Müəllimi ilə fəxr edən onlarla şagirdi respublikanın müxtəlif ali təhsil ocaqlarına yüksək balla daxil olaraq həmin təhsil ocaqlarını əla qiymətlərlə başa vurmuşdur. Bu şərəfli peşəni uğurla davam etdirmək yolunda Ədalət müəllimə uzun ömür və cansağlığı arzulayırıq!

## PİRİYEVA ALMAZ İSA QIZI



Piriyeva Almaz İsa qızı 1965-ci il avqustun 4-də zəhmətsevər bənna ailə–sində anadan olmuşdur. 1972-ci ildə İstisu qəsəbə orta məktəbinin birinci sinfinə daxil olmuş 1982-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirmişdir. 1984-cü ildə Xarici Dillər İnstitutuna daxil olmuş və 1989-cu ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir. İngilis, alman və fransız dillərini öyrənən Almaz müəllimə pedaqogikanın sirlərinə yiyələnərək 1989-cu ildə Nəcəfalılar kənd orta məktəbində ingilis dili müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır. Kəlbəcər rayonunun işğalından sonra Lənbərən bölgəsində məskunlaşan müəllimə orada yerləşən Kəlbəcər rayon 120 saylı məktəbində ingilis dili müəllimi işləyir. Ömrünü şagirdlərinin yolunda şam kimi əridən Almaz müəllimənin həyatda təskinliyi də elə sevimli şagirdləridir. Ona bu yolda uğurlar və nailiyyətlər arzulayırıq!

## ƏZİMOV İSLAM SEYİD MƏHƏMMƏD OĞLU



Əzimov İslam Seyid Məhəmməd oğlu 1958-ci ildə Kəlbəcər rayonunun Çərəkdar kəndində anadan olub. M.F.Axundov adına APRDƏİ–nu bitirəndən sonra Kilsəli kəndində, sonra Nəcafalılarda müəllim işləyib. Nəcafalılarda sevimli müəllim, nüfuzlu insan, toyların maraqlı aparıcısı, dillərdə əzbər olan şair kimi böyük hörmət qazanmışdır.

Bir neçə şagirdin formalaşmasında böyük təsiri olan İslam müəllim onların həyatında istiqamətverici mayaklardan biri olub.

Səni vərəq–vərəq, sətirbəsətir,
Səni heca–heca oxumuşam mən.
Səni qönçə-qönçə, çiçəkbəçiçək,
Səni ləçək–ləçək qoxumuşam mən.

***İslam Əzimov.***

Adətən, məhəbbət şeirləri yazan İslam müəllimin son zamanlar yaradıcılığında həsrət, qəm, kədər notu və vətənpərvərlik ruhu daha çox hiss olunur:

Məhəmməd hümmətinin dinində and içirəm!
Vətənimin bu çətin günündə and içirəm!
Xalqımın hüzurunda, önündə and içirəm!
Qarabağın qisasın düşməndən alacağam!
Mən ya bir qalib əsgər, ya şəhid olacağam!

Bəli, Vətənin dar günündə əsgər də oldu, zabit də İslam müəllim. Şükürlər olsun ki, ölümün pəncəsindən çarpışıb çıxdı elinin vətənpərvər oğlu. Ancaq qəlbi, fikri, düşüncəsi vətəni kimi dardadır şairin. O ellərə, obalara, o

ağır məclislərə qayıtmaq hər an xəyalından çıxmır, ruhunu sakit buraxmır.

3 layiqli övladın atası, iki kitabın müəllifidir.

Hal–hazırda Bərdə rayon 6 saylı məktəbin direktorudur.

Sizə işinizdə uğurlar, dəyərli müəllim! Nəcəfalılarda görüşmək arzusu ilə sizi sizdən çox sevən şagirdləriniz sizə uzun ömür arzulayır.



**1975–1985-ci illər buraxılışı.**
**sağdan-sola, ön cərgə: 1. Ziyafət müəllim (sinif rəhbəri), 2. Məleykə, 3. Əsli, 4. Yeganə, Azər (uşaq) 5. Şəhla 6. Gülbəniz, Hüseyn müəllim (direktor), Adil müəllim, arxa cərgə–Səbri, Murad, Malik, Əyyub, Hafiz və İlqar.**

## İBRAHİMOV NİZAMİ ASLAN OĞLU



İbrahimov Nizami Aslan oğlu 1956-cı ildə Ağdam rayonunun Güllücə kəndində anadan olub. 1975–79-cu illərdə Xankəndi Pedaqoji İnstitutunun Tarix fakültəsini bitirmiş və təyinatla Kəlbəcər rayonu Nəcəfalılar kənd orta məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. O, məktəbin tədris hissə işləri üzrə direktor müavini vəzifəsində işləmişdir.

Nizami İbrahimov sonralar Azərbaycan Texniki Universitetində işləməklə bərabər, həm də ABU-nun hüquq fakültəsində ikinci ixtisas kimi hüquqşünaslıq ixtisasına da yiyələnmişdir.

Nizami İbrahimov bir neçə ali təhsil ocağında müəllim, baş müəllim vəzifələrində, «Ömür» Klinikasında Mətbuat xidmətinin rəisi və digər məsul işlərdə işləmişdir.

Nizami müəllim həm də 300-dən artıq elmi-publisistik məqalələrin və elmi monoqrafiyaların müəllifidir. O, yazıçı–publisist kimi də özünü sınamışdır. «Düha», «Möcüzələr Dünyası», «Günahkarın yurd yeri», «Azərbaycan deyəndə…» kimi kitabların müəllifidir. Nizami İbrahimov, həmçinin «Qanunun səsi», «Gicitkən» və digər qəzetlərin həmtəsisçisi və baş redaktorudur. Dövri mətbuatda şeirləri və məqalələri ilə mütəmadi çıxış edir.

Erməni təcavüzkarlarının Xocalıya hücumu zamanı törətdikləri vəhşiliklərə siyasi qiymət verilməsini ilk tələb edənlərdən biri də Nizami müəllim olmuşdur. O, «Xocalının səsi» qəzetində «Genosid» sərlövhəli məqaləsində ermənilərin törətdikləri bu vəhşiliyi genosid adlandıraraq ictimaiyyətin nəzərini bu dəhşətli faciəyə yönəltmişdir.

Tarixçi-hüquqşünas Nizami müəllim həm də gözəl ailə başçısıdır. O, iki övlad atasıdır. Oğlu Aslanlı Sabutay, qızı Aslanlı Sevinc atasına layiq övladlardılar.

## NƏCƏFALILAR KƏND ORTA MƏKTƏBİNİN 1983-CÜ İL BURAXILIŞININ OĞLANLARI.


Elçin Əliyev


Mübariz Abbasov


Məhər Həmidov


Sərdar Piriyev


İzzət Əmirov


Fuad Çıraqov


İlqar Məmmədov


Fehruz Əliyev

## ƏFƏNDİYEV MAYİL MAYİS OĞLU



Əfəndiyev Mayil Mayis oğlu 1962-ci ilin dekabr ayında Ağdaş rayonunda anadan olub. Sonralar ailəsi ilə birlikdə Bakıya köçmüşdür. O, hərbi xidməti Ryazan şəhərində başa vurmuşdur.

1980–1985-ci illərdə SSRİ-nin 50 illiyi adına APİ-də ali təhsil almış və ingilis-alman dilləri ixtisasına yiyələnərək təyinatla Kəlbəcər rayonu Kilsəli kənd orta məktəbinə göndərilmişdir. 1987-1989–cu illərdə Nəcəfalılar kəndində müəllimlik fəaliyyətini davam etdirmişdir. Mayıl müəllim kəndin sevimli insanlarından biri olan Musayev Zülfünün qızı Şərqiyyə xanımla ailə qurmuşdur. Onların Tacəddin (1988) və Səbinə (1993) adlı iki layiqli övladı var.

Kəndin bütün xeyir-şər işlərində yaxından iştirak edən Mayıl müəllim hər dəfə söhbət düşəndə Kəlbəcərdən xoş təəssüratla danışır və o yerlərə qayıtmağı ən müqəddəs arzu sayır.

## ABBASOV ƏLİ BAHADIR OĞLU



Abbasov Əli 1956-cı ildə Nəcəfalılarda anadan olub.

1962–1972–ci illərdə Kəlbəcər rayonunda orta təhsil alandan sonra Gəncə Politexnik Texnikumuna daxil olub. Əmək fəaliyyətinə Kəlbəcər rayonunun Elektrik Şəbəkəsində başlayıb.

Nəcəfalılar kənd orta məktəbinin sürücülük kursunda avtomobil üzrə təlimatçısı, 1989-cu ildən 1993-cü ilə kimi Kəlbəcər rayon 50 saylı MPMK-da qaraj müdiri vəzifələrində işləmişdir. Həyat yoldaşı İsmayılova Leyli İsmayıl qızı məktəbin qabaqcıl ədəbiyyat müəllimidir.

Birgə nikahlarından yüksək mədəniyyətli, ali təhsilli və tərbiyəli Emin, Elvin, Mehriban və Sevinc adlı övladları var. Ailəsi ilə birlikdə hal-hazırda Bakı şəhərinin Suraxanı qəsəbəsində məskunlaşıblar.

# VIII FƏSİL

## UZUNÖMÜRLÜLƏR MƏSKƏNİNƏ XOŞ GƏLMİSİNİZ!

Təmiz havası, şəffaf suyu, rəngarəng və ətirli gül-çiçəklə naxışlanmış çəmənləri, örkən dolanmaz möhkəm palıd meşələri olan Kəlbəcər təbiəti burada yaşayan insanların da aydın fikrə, dərin zəkaya, möhkəm yaddaşa, saf və pak daxili aləmə malik olmasında və uzun ömür sürmələrində böyük rol oynamışdır. Saf təbiətli Nəcəfalılar kəndində də yaşı yüzü ötmüş onlarla insanlar vardır. Bu fəsildə biz onların bir neçəsi ilə sizləri tanış edəcəyik.

## KƏNDİMİZİN UZUNÖMÜRLÜLƏRİ

***Hər kəs yüz il yaşamasa,***
***günah onun özündədir.***
***O.Sarıvəlli.***

İnsan adlı ali varlıq təbiətin bir hissəsi olduğundan, təbiətdə baş verən dəyişikliklər, hadisələr onun əhvalına, sağlamlığına da təsir edir. Təsadüfi deyil ki, dumanlı-çiskinli payız günlərində insanların nisbətən əhvalı pis, günəşli bahar günlərində isə daha yaxşı olur. Yarpaqlar töküləndə, durnalar uçub gedəndə əhvalımıza bir qəmginlik, bədbinlik gəlirsə, onların gəlişi, ağacların çiçək açması bizi sevindirir, əhvalımızı yüksəldir.

İlahinin özünün mərhəmət və qüdrəti ilə, səxavətlə, heç nəyi əsirgəmədən yaratdığı füsunkar, təkrarolunmaz Kəlbəcər təbiəti öz sakinlərinə bir çox nemətlər vermişdir.

Bu yerlərin insanları dağların havası kimi təmiz, gülləri qədər ətirli, suyu kimi saf, zirvələri qədər əzəmətli və vüqarlı olurlar. Qonaqpərvərlik, alicənablıq, gülərüzlülük və əliaçıqlıq kəlbəcərlilərə xas olan xüsusiyyətlərdəndir. Görünür, bu amillər onların uzunömürlü olmalarında da öz təsirini göstərmişdir. Heç təsadüfi deyildir ki, hələ 80-cı illərdə Kəlbəcər SSRİ məkanında uzunömürlülərin sayına görə birinci yeri tuturdu. Daim təbiətlə təmasda olan bu zəhmətsevər insanların yaşamaq eşqi yüksək, zəkası təmiz, bədəni sağlam olardı. 80-90 il yaşamayanların günahını yalnız onların özündə görərdilər.

Təsadüfi qəzalar, təbii fəlakətlər üzündən dünyasını dəyişənlər istisna olmaqla, qalanları ömrünün ixtiyar çağlarında–100-120 yaşlarında rəh–mətə getmişlər.

Kəlbəcərdə yaşayan uzunömür–lülərdən 147 yaşlı dillər əzbəri Güləndam nənənin, 106 il ömür sürən Püstə Xəlilovanın, 113 yaşlı Quba Babaxanovanın, 140 yaşlı Şamama nənənin, 125 yaşlı İlyas Cəfərovun, 132 Məşədi Pir Məmməd babanın, 115 yaşlı Süleyman babanın, 109 yaşlı Simovar nənənin, Allahyar babanın və onlarla müdrik el ağsaqqallarının adını çəkmək yerinə düşər.

Kəlbəcərin bir guşəsi olan Nəcəfalılarda da uzunömürlülər az olmamışdır. Onların bir neçəsi ilə tanış olaq:

## MƏŞƏDİ PİR MƏHƏMMƏD BABA



Məşədi Pir Məhəmməd baba təxminən XIX əsrin sonuncu illərində (doğum tarixi dəqiq deyildir) Namaz Məhəmməd oğlunun ailəsində dünyaya gəlmişdir. Dini etiqadlara, müsəlman qanunlarına riayət edən ailənin digər üzvləri kimi, Məşədi Pir Məhəmməd baba da Məşədə ziyarətə gedərək Məşədi titulu almışdır. Öz sevimli bəndələrini mükafatlandıran Ulu Tanrı Pir Məhəmməd babanın da ailəsini nəzərindən salmamışdır. Danışılanlara görə, Məşədi Pir Məhəmməd babanın çox uğurlu nəfəsi, sınanmış ocağı, dəyərli məsləhətləri, nəsihətləri varmış.

Səkinə nənə ilə ömür-gün yoldaşı olan Məşədi Pir Məhəmməd babanın 5 oğlu, 6 qızı vardı. Əli bərəkətli, ocağı ruzili olan Məşədi babanın xeyli mal-qarası, var–dövləti varmış. Ailəsi, çobanları dövrün aclıq təhlükəsindən uzaq olmuşlar.

İmkanı olmayanlara əl tutmaq, pay göndərmək Məşədi babanın sevimli xüsusiyyətlərindən idi. Hər nehrə çalxalananda ehtiyacı olanlara yağ, heyvan kəsiləndə isə ət payı göndərərmiş.

Kolxoz quruculuğu zamanı kolxoza öküz, xış, buğda verməsinə baxmayaraq, özü kolxoza üzv olmamışdır. Bunu mayasına yetim-yesir malının qarışdırılmaması ilə izah etmişdir. Yer şumlamaq üçün kotanı olmayana kotan verərdi. Kotanı qaytardıqda isə Məşədi Pir Məhəmməd baba kotanı çayda yuduzdururmuş ki, onun torpağına torpaq qarışmasın. Övladlarının hamısına öküz, xış, taxıl, darı, xalça, mis, gümüş qab–qacaq və zinət əşyaları pay vermişdi. Ağsaqqallarımızın yaddaşına etibar edərək deyə bilərik ki, o, 1947-ci ildə–132 yaşında rəhmətə getmişdir. Allah rəhmət eləsin!

Onun xeyirli nəfəsi, ağıllı kəlamları bu gün də nəvə-nəticələrinin dilində və yaddaşlarındadır. 200-

dən çox nəvə-nəticə, kötücələrinin adlarını yalnız bu kitabda kənd əhalisinin şəcərəsi fəslində xatırladacağıq. Yurdunda qalanları Allah salamat eləsin!!!

Məşədi Pirməmməd ocağının layiqli gəlinlərindən olan zəhmətsevər Sona nənə 1902-ci ildə anadan olmuş, 2006-cı ilin aprelində isə vəfat etmişdir. Namazova Simovar Göyüş qızı isə 1903-cü ildə anadan olmuş, hal-hazırda Bərdə rayonunun Mehdixanlı kəndində ömrünün 107-ci ilində köçkünlük həyatını yaşayır.



**Piriyeva Sona Əsəd qızı (1902).**



**Namazova Simovar Göyüş qızı (1903).**

# HƏMİDOVA MƏLƏK MƏŞƏDİ PİR MƏHƏMMƏD QIZI



Həmidova (Namazova) Mələk Məşədi Pir Mə–həmməd qızı təxminən XIX əsrin sonunda Nəcəfalılarda Məşədi Pir Məhəmməd babanın ailəsində dünyaya gəlmişdir. Son dərəcə gözəl olan bu qızı heç də təsadüfən Mələk adlandırmamışdılar. Gözəlliyi ilə bir çox cavanların ağlını başından alan Mələk nənəni taleyin hökmü ilə Kəlbəcər rayonunun Laçın kəndindən olan Axund Şahmar baba bəyənmiş və alaraq öz kəndinə aparmışdır. Ata-anadan, qohum-qardaşdan ayrı düşməyi çətinliklə dözən Mələk nənə onu tezliklə öz kəndlərinə – Nəcəfalılara qaytarmasını həyat yoldaşından xahiş etmişdir. Mələyi ilahi məhəbbətlə sevən həyat yoldaşı Şahmar baba onunla razılaşaraq Nəcəfalılara köçmüşdür. Şahmar baba burada həm qaynatası Məşədi Pir Məhəmmədin şəxsi dəyirmanında işləyir, həm də mollalıq edirmiş. Deyilənə görə, Şahmar baba dövrün güclü mollalarından biri olmuşdur. Kənddə Qurani-Kərimdən dərs deyib. Heydər baba, Ələs baba, Şahnigar nənə və başqaları onun şagirdləri olublar. Şahmar babanın fərqli xüsusiyyətlərindən biri də o imiş ki, ailələri dağıdan və ya uğursuzluq gətirən duaları yazmazdı. O, yalnız şirinlik duaları yazarmış.

Varlı ailədə “yağ içində böyrək kimi” bəslənən Mələk nənə son zamanlar kiçik çətinliklər olanda təskinliklə söyləyərdi: “Bala, məndən narahat olmayın, vaxtında o qədər görmüşəm ki, ölənədək bəsimdi”. Mələk nənə zəhmətkeş və olduqca səliqəli insan idi. Ömrünün son beş ilinə qədər yun darayar, əyirər, ev işlərində ailəyə kömək edərdi.

Bəli, özünün dediyi kimi, “yağla yatıb qaymaqla oyanan” Mələk nənənin sonrakı dərdləri və vətən

həsrəti olmasaydı, yəqin ki, hələ çox ömür sürərdi. Ömrünün 115 yaşında taleyinə məcburi köçkünlük yazılan Mələk nənə övladı İbrahimin köməkliyi ilə at belində doğma Nəcəfalılardan Murov yolu ilə Xanlar rayonuna qədər özü gedir. Sonradan o, Yevlax rayonunun Malbinəsi kəndində köçkünlük həyatı yaşamışdır. 118 yaşında cənazəsinin “öz övladlarının çiynində getməsi səadətinə” nail olsa da, son dəqiqələrə qədər vətən bayatıları dilindən düşməmiş, gözünün yaşı qurumamışdır:

Qara yazı,
Ağ vərəq, qara yazı.
Bizə kim qarğıdı ki,
Qış verdi qara yazı.

Duzlaq duzsuz qalıbdı,
Bağlar susuz qalıbdı.
Tükənibdir Dəlidağın qonağı,
Biz vətənsiz, vətən bizsiz qalıbdır.

Əzizinəm, gecə dözüm.
Gündüz dözüm, gecə dözüm?
Hicrimə dözməyən, ana,
Hicrinə de, necə dözüm?

Əzizim, ömrə dərdim,
Yük oldu ömrə dərdim.
El dərdim olmasaydı,
Üç yüz il ömür edərdim.

***Adil Həmidin bayatılarından.***

## HÜMBƏTOVA PƏRİ MƏHƏMMƏDƏLİ QIZI



Hümbətova Pəri Məhəm–mədəli qızı 1895–ci ildə Nəcəfalılar kəndində sa–yılan-seçilən, tanınmış kişilərdən olan Məşədi Pir Məhəmməd ocağında dünyaya göz açmışdır. Ömrünün gənclik çağlarını yaylaqlarda, meh vurduqca nazlanan təzə-tər güllərin arasında keçirən Pəri nənə çəmənlərdən rəng alan çeşid-çeşid xalılar, kilimlər, xurcunlar, corablar toxumaqla yanaşı, neçə-neçə qız-gəlinə də bu peşənin sirlərini öyrətmişdir.

Zəhmətsevər insanı əlində oraq taxıl biçəndə, at belində, ot yığanda görmək olardı. Qabaqcıl tütünçü kimi ad qazanmışdır. Elimizin Həcər qızı 9 layiqli övlad anası idi. Övladları da özü kimi hörmətli, halal, zəhmətsevərdilər.

Ömrünün ixtiyar çağlarında köçkünlük taleyi yaşayan Pəri nənə 20 yanvar 2009 -cu ildə Bakı şəhərində vəfat etmişdir. Onu vətənə az da olsa yaxınlaşdırmaq üçün Tərtər rayonunun Xan Qərvənd kəndində torpağa tapşırdılar. Allah Pəri nənənin qərib qəbrini nurla doldursun!

## NAMAZOV SÜLEYMAN MƏHƏMMƏD OĞLU

Namazov Süleyman Məhəmməd oğlu kəndimizin ən uzun ömürlülərindən biri olmuşdur. Ağsaqqalların dediyinə görə rəhmətə gedəndə onun 115 yaşı olmuşdur. Süleyman baba iri cüssəli, sağlam və fövqəladə gücə malik bir şəxs olmuşdur. Kəndimizin kolxoz quruculuğu işlərində fəal iştirak etmişdir. Anbardar, briqadir vəzifələrində işləmişdir. Onun yeddi övladından yeganə nişanəsi Ziyadə xanım (Sarıqız) hazırda Yevlax rayonunun Malbinəsi kəndində məcburi köçkünlük həyatını yaşayır. Süleyman baba qeyri–adi güclü səsə də malik olmuşdur. Deyilənlərə görə, bir dəfə o, kolxoz sədri və digər şəxslərlə birlikdə harasa gedirmişlər. Alçalı kəndin Qala adlanın yerinə çatanda kolxoz sədri briqadirə çox vacib bir məsələni deməyi unutduğunu deyərək, geri qayıtmalı olduqlarını bildirir. Yoldan geri qayıtmaq pis əlamət kimi yozulduğundan Sülyeman baba sədrin sifarişini çağıraraq kəndə çatdıra biləcəyini deyir. Dayandıqları yerdən kəndin evləri kiçik spiçka qutusu kimi göründüyündən, həmin yerlə kəndin arasında olan sahə dərə və sıx meşəlikdən ibarət olduğundan yol yoldaşları onun sözünə inanmırlar. Belə olan halda Süleyman baba onlarla mərcləşir. Kolxoz sədri bildirir ki, əgər Süleyman baba onun sifarişini kəndə çağırıb deyə bilsə, onda qayıdanda ona bir saz erkək verəcəkdir. Süleyman baba onunla razılaşır və əlini qulağının dibinə qoyaraq, kənddə yaşayan kürəkəni Yunusu çağırıb sədrin sifarişini ona deyir. Onun sifarişini Yunusun eşidib-eşitmədiyindən nigaran qalan sədr naəlac qalaraq yoluna davam edir. Onlar getdikləri yerdə işlərini bitirib kəndə qayıdarkən görürlər ki, sədrin sifarişi yerinə yetirilmişdir. Bundan bərk təəssüblənən sədr bu sifarişin kim tərəfindən və necə onlara çatdırıldığını soruşduqda isə Yunis kişi deyir: «Sizin bu sifarişinizi Süleyman dayım o taydan çağırıb mənə dedi». Onlara deyəndə ki, Süleyman kişi sədrin siyarişini Yunusa o taydan yox, Aleyçalı kəndin Qalasından çağırıb deyib, buna hamı

bərk heyrətlənir. Kolxoz sədri isə sözünə əməl edərək Süleyman babaya bir saz erkək bağışlayır. Sülyeman baba evinin içində o qədər hündürdən danışardı ki, kəndin hər yerindən onun səsi eşidilərdi. Qızı Ziyadə (Sarıqız) ona irad tutanda ki, yavaş danışsın, onun dediklərini hamı eşidir, Süleyman baba zarafatla deyərdi, «Mənim heç kəsdən bir sirrim yoxdur, qoy eşitsinlər».

## HÜMBƏTOV İMAMVERDİ ƏLİ OĞLU



İmamverdi baba 1919-cu ildə Nəcəfalılarda el ağsaqqalı Əli kişinin ailəsində dünyaya göz açmışdır.

O, məclislərin, el şənliklərinin nüfuzlu aparıcısı, şər işlərdə təmkinli, səbirli ürək-dirək verən adamı kimi tanınırdı. 1935-cı ildə Növrəstə xanımla ailə quran İmamverdi Hümbətovun ailəsində sevinc sevincə qarışır. Ailədə bir oğul uşağı dünyaya gəlir. Lakin çox keçmir ki, bu sevinc kədərlə əvəz olunur. Milyonlarla insanları gözüyaşlı qoyan İkinci Dünya müharibəsi bu ailədən də yan keçmir. İmamverdi kişini müharibəyə göndərirlər.

Müharibədə qəhrəmanlıq göstərən ailə başçısının evə təsəlli verən məktubları gəlir. Aradan düz 7 il keçir. Nəhayət, döşü "Qırmızı ulduz" nişanlı zabit Hümbətovun qayıtma xəbəri kəndə yayılır. Körpə yaşlarında qoyub getdiyi Camal müharibədən qayıdan atasını tanımamış və bir müddət ona isinişə bilməmişdir.

Sonralar kolxoz sədri, mağaza müdiri işləyən İmamverdi kişi kəndin bütün işlərində fəal iştirak edir, dəyərli məsləhətləri ilə örnək olur. İmamverdi baba 5 layiqli övlad atası idi.

Ömrünün ixtiyar çağında məcburi köçkün kimi qarlı-çovğunlu Murov dağını aşaraq tərki–vətən olmaq taleyi yaşayan ağsaqqalın gözyaşı son günlərədək qurumurdu. 13 oktyabr 2007-ci ildə 88 yaşında dünyasını dəyişən ağsaqqalımızı Bərdə rayonunun Mehdixanlı kəndində torpağa tapşırırlar. Allah rəhmət eləsin!

# ŞƏMİLOV ƏLƏS HƏSƏN OĞLU



Şəmilov Ələs Həsən oğlu 1901-ci ildə Nəcəfalılar kəndində anadan olub. Yeddinci sinfi bitirməklə bərabər ərəb-fars əlifbasını da öyrənmişdir. O, Qurani-Kərimi oxumağı bacarırdı. Kəndin ictimai həyatında fəal iştirak edən Ələs Şəmilov kolxoz sədri, kənd sovetinin katibi, mühasib və mağaza müdiri kimi vəzifələrdə çalışmışdır.

1942-ci ildə kolxoz sədrliyini təhvil verib müharibəyə yollanıb. Müharibə illərində onu Sov. İKP üzvlüyünə namizədliyə qəbul ediblər. Çoxsaylı orden və medallarla müharibədən qayıdan Ələs kişi Kəlbəcərdə KP-ya üzvlük biletini alıb.

Kolxoz sədrliyi dövründə kəndin Aralıq, Tələlər, Toyolan və Güney deyilən sahələrində taxıl əkdirməklə camaatın güzəranını yaxşılaşdırmağa çalışmışdır.

1970-ci illərdə Rayon Partiya Komitəsinin sədri hörmətli İnqilab Nadirov cənablarının təkidi ilə mağaza müdiri təyin edilib. Düzgün ticarətçi kimi 5-6 il fəaliyyət göstərib. Təhvil-təslim zamanı 15 qəpik əskiyi cıxan Ələs baba bundan bərk narahat olub deyir ki, “bu yaşa qədər təhvil-təslimdə mənim əskiyim çıxmamışdır.”

İki layiqli oğulun və bacarıqlı qızın qayğıkeş atası idi. Həyat yoldaşı Gülarə nənə Günəşli kənd sakini Nurəli kişinin qızıdır. O, olduqca mehriban və səmimi bir insan idi.

Ələs baba 1990-cı ildə Şəmkir rayonunda vəfat etdi. O bizim qəlbimizdə hələ çox yaşayacaqdır.

## ƏLİYEV ƏLABBAS HÜMBƏTALI OĞLU



Elimizin dəyərli ağsaqqallarından biri də Əlabbas baba idi. Əlabbas baba 1910-cu ildə Nəcəfalılarda anadan olmuşdur. Müharibənin ağır dəhşətlərini öz gözləri ilə görən həmyerlilərimizdən biri də Əlabbas baba olmuşdur. O, müharibədən I qrup əlil kimi qayıtmış və kəndin ictimai həyatında fəal iştirak etmişdir. Kolxozda hesabdar, briqadir və meşəbəyi vəzifələrində çalışmışdır. Küsülülərin barışdırılmasında, qız elçiliyində, xeyir-şər işlərinin aparılmasında camaatımız ağsaqqalın dəyərli məsləhətlərindən çox yararlanmışlar.

Əlabbas baba həmkəndlisi Hamar nənə ilə ailə həyatı qurmuşdur. Onların Gülüm adlı qızı olmuşdur. Gözəl xasiyyətli, incə qəlbli, yanımcıl Gülüm Əlabbas qızı Qılınclı kənd sakini Şirin kişiyə ərə getmişdir. Onların övladları Əlabbas babanın ruhunu həmişə əziz tuturlar. Hamar nənə rəhmətə gedəndən sonra Əlabbas baba Kilsəli Bəylər kişinin qızı Sayalı xanımı almışdır. Onların birgə nikahlarından isə övladları olmamışdır.

Ömrünün ixtiyar çağında köçkünlük taleyi yaşayan Əlabbas babanın qəbri Bərdə rayonunun Mehdixanlı kəndindədir.

Yerin behişt, ruhun rahat olsun, Əlabbas baba! Bir ağacını kəsməyə icazə vermədiyin o yaşıl meşələrimizi qorumağı bacarmadıq. İnanırıq ki, biz yenidən o yerlərə dönəcəyik. Onda sənin də ruhun vətənin azad göylərində daha rahat dolaşacaqdır.

## ƏLİYEV SƏFƏR BAXŞƏLİ OĞLU

Əliyev Səfər Baxşəli oğlu 1928-ci ildə Nəcəfalılar kəndində anadan olmuşdur. Atası Baxşalı və böyük qardaşı Şahmalı Böyük Vətən müharibəsinə getdiklərindən böyük oğul kimi ailənin bütün yükü onun çiyinlərinə düşmüşdür. O, kəndin kolxoz quruculuğunda fəal iştirak etmiş, kolxozda briqadir, hesabdar vəzifələrində işləmişdir. Düzlüyü, halallığı ilə camaat arasında özünə dərin hörmət qazanmışdır. Səfər Əliyev bir el ağsaqqalı kimi kəndin xeyir -şər işlərində başda olar, öz dəyərli məsləhətləri ilə camaatın işinə yarayardı. Elçilik və barışıqlarda öndə olardı. 1993-cü il aprel ayının 2-də mənfur təcavüzkar erməni silahlı qüvvələrinin Kəlbəcər rayonunu işğal etməsi nəticəsində Səfər Əliyevin ailəsi digər həmkəndliləri ilə birlikdə doğma el-obasından məcburi köçkün düşərək Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır. Səfər Əliyev 2001-ci ildə Yevlax rayonunun Malbinəsi kəndində rəhmətə getmiş və həmin kəndin qəbristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin! Səfər Əliyevin həyat yoldaşı Əliyeva Zöhrə Zeynal qızı 1920-ci ildə Nəcəfalılar kəndində anadan olmuşdur. Səfər Əliyevin və Zöhrə Əliyevanın birgə nikahlarından Behbud, Tahir, Zahid və Ələsgər adlı el-obasının istəkli oğlanları, Şövkət və Təzəgül adlı işgüzar qızları vardır.



**Səfər baba nəvələri Rövşən, Vurğun və Məlahətlə birlikdə.**

# ƏLİYEVA ZÖHRƏ ZEYNAL QIZI

Əliyeva Zöhrə Zeynal qızı 1920-ci ildə Pirilərdə Məşədi Pirməmməd ocağının sayılan, seçilən övladı Zeynal kişinin ailəsində dünyaya gəlmişdir. Kiçik yaşlarından rayonun görkəmli adamlarını evində görmək, qonaqlı-qaralı evdə yaşamaq, milis dəstə komandirinin qızı olmaq onun dünyagörüşünə böyük təsir göstərmişdir. Ailədə 2 qardaşın və 4 bacının böyüyüdür. Qanlı-qadalı müharibə illərində uzun zaman anbardar, hesabdar və digər vəzifələrdə çalışmışdır. Kəndimizin Həcər qeyrətli qızlarından Məmmədova Tuyğun, Abbasova Asiya kimi, Əliyeva Zöhrə də at belində, çiynində silah gedəndə onun yanından ehtiyatla keçərdilər. O, həmkəndlisi Əliyev Səfər Baxşəli oğlu ilə ailə həyatı qurmuşdur.



Elinin ağbirçəyi, dəyərli məsləhətçisi olan Zöhrə nənə ömrünün 89-cu ilini Yevlax rayonunun Malbinəsi kəndində oğlu Zahidin ailəsi ilə birlikdə köçkün həyatını yaşayır. Vətən həsrəti dərdimin üstünə, taleyin sərt hökmündən, 2 oğul itirmək dərdi də gəldi. İlahidən ona səbir və dözüm, qalan övladlarından bolluca sevinc və uğurlu xəbərlər diləyirik!



**Zöhrə nənə nəvələri Vahid, Əsmər, Orxan, Sevil və Nigarla birlikdə.**

# HƏMİDOVA SAVAD ŞAHMAR QIZI



Həmidova Savad Şahmar qızı 1922-ci ildə Nə–cəfalılarda axund Şah–marın kişinin ailəsində anadan olub. Ailənin ilk övladı olduğundan axund atasının gözəl əməllərinin şahidi olmaq səadəti ona nəsib olmuşdur. Atasını itirəndə artıq böyük qız olduğundan, ailənin yükü onun çiyinlərinə düşmüşdü. O, bir yandan atasızlığın, bir yandan da ağır müharibə illərinin çətinliklərini yaşamalı oldu. Gənc yaşlarında kəndin savadlı oğlu, müəllimi Əliyev İsa Əli oğlu ilə ailə həyatı qurmuşdur. Lakin, onun ailə sevinci də uzun sürməmişdir. Belə ki, həyat yoldaşı İsanı tezliklə Böyük Vətən müharibəsinə aparmışlar. Bir neçə ildən sonra ərindən "qara kağız" alan gənc gəlin göz yaşları ilə öz evlərinə qayıdır. Sevimli ərindən aldığı məktubları son illərə kimi əzizləyib saxlayırdı. Sevgi, hörmət və vətənpərvərlik nümunəsi olan bu məktubları oxumaq bizə də nəsib olub..

Bir parça çörək qazanmaq məqsədilə Qarabağa taxıl əkib-becərməyə gedənlər içərisində Savad nənə də vardı. Qoçaq, qorxmaz və qeyrətli qadını bəyənən Bərdənin Hacallı kəndindən olan Abbas baba onunla ailə qurur. Onların bir qızları olur. Lakin, taleyin ağır sınaqları elə bil Savad nənəni qarabaqara izləyirmiş. Çox keçmir ki, Abbas baba da rəhmətə gedir. Qardaşı Həmidov İbrahim yad eldə gəlin olan bacısının çətinlik çəkməməsi üçün onu qız övladı Dilşad ilə birlikdə öz evinə gətirir. Savad nənə qızı Dilşadla birlikdə qardaşı İbrahimin evində qalır. İbrahimin evində Göz açandan Dilşad ona ata, uşaqlarına isə bacı-qardaş deyir. Zaman hər şeyi yerbəyer edir. Onlar lap sonralar dayıuşağı, bibiuşağı olduqlarını bilirlər.

Savad nənəni tale sınaqlara çəksə də, bu gün o, ömrünün 87-ci ilini öz qızının və nəvələrinin

əhatəsində şükürlə, təmkinlə yaşayır.

İnsanlar onun uğurlu nəfəsinin, bərəkətli əlinin şahidi olduqlarından, müşkül işi olanda ona nəzir verməyi əhd edirlər. İşləri düzələndə isə dediklərinə əməl edərək onu ziyarət edirlər.

Qarabağ bölgəsində öz nəfəsi, kamilliyi, alicənablığı ilə tanınan Seyid Yusif ağa Kəlbəcərin çal-çağırlı vaxtlarında bizim kəndin yaylağına - Qaradağlıya yaylamağa gələrdi. Yanına gələn ziyarətçilərə dəfələrlə deyərdi: "Məni tapmayanda narahat olmayın. Mənə dediyiniz nəzirləri Savad nənəyə verin. Bundan mən daha çox şad olaram".

Ömrünün ixtiyar çağlarını yaşayan Savad nənə hər dua edəndə, elimizin–obamızın salamat olmasını, müharibənin qurtarmasını və dədə-baba yurdumuza qayıdılan günü görməsini İlahidən xahiş edir. Biz də onun bu ülvi arzularına qoşularaq amin deyirik!



**Mikayılova Şəfəq və Həmidov Qabil (arxa planda Əlif babanın Pirilərdə xırman yeri).**

# ƏLİYEV NOVRUZ MEHDİ OĞLU



Əliyev Novruz Mehdi oğlu 1924-cü ildə Nəcəfalılarda Mehdi Baxşəli oğlunun ailəsində anadan olmuşdur.

Onun taleyinə müharibənin ilk günlərindən sonuna kimi müharibədə iştirak etmək yazılmışdır. Müharibədə ağır yaralanan Novruz Əliyev 6 ay Moskvada xəstəxanada müalicə olunmuşudur. O, Vətənə I qrup əlil kimi dönmüşdür. Kolxoz quruculuğunda, camaatın xeyir-şər işlərində yaxından iştirak edib. O, briqadir, qoruqçu vəzifələrində işləyib. İri gövdəli, güclü biləkli olması ona ən ağır işlərin öhdəsindən gəlməkdə kömək edib. Kəndimizin “mənəm-mənəm” deyən cavanları gücdə onun qarşısında tab gətirə bilmirdilər. Novruz kişi istənilən gəncin əlini bir əli ilə sıxar, gənc ta dizlərini yerə qoymayana qədər buraxmazdı. Güclülükdə atası Mehdi babaya oxşamışdır. O, 3 övlad atasıdır. Övladları Kamil və Kərəm də ataları kimi olduqca güclü və cüssəlidirlər. Novruz Əliyevin ailəsi hər il kolxoza 4-5 ton tütün təhvil verirdi. Novruz baba ömrünün 86-cı ilində rəhmətə getmiş və Yevlax rayonunun Kövər kənd qəbirstanlığında dəfn olunmuşdur.

Allah rəhmət eləsin!

## PİRİYEV ƏLİ ZEYNAL OĞLU



Əli Piriyev 1928-ci ildə elimizin, obamızın sayılan, nüfuzlu ağsaqqalı Zeynal Məşədi Pir Məhəmməd oğlunun ocağında dünyaya gəlmişdi. Dinə, Allahın sevimli insanlarına meyilli olan ailə körpənin adını Əli qoydu. Böyüyüb məktəb yaşına çatan Əli Qaragüney kəndində orta təhsilə başlasa da, tam təhsili Kəlbəcər rayon 1 saylı orta məktəbində bitirdi. Atası Piriyev Zeynal zamanının nüfuzlu şəxsi, polis işçisi idi. Orta təhsilini başa vuran Piriyev Əli Ağdam rayon Kənd Təsərrüfatı Texnikumunun aqronomluq fakültəsinə daxil olur. Uzun müddət Puşkin adına kolxozun aqronomu işləyib. 1955-ci ildə həmyerlisi Nübar İdris qızı ilə ailə qurub. 8 nümunəvi, tərbiyəli övlad böyüdüblər. 3 il Leninqrad şəhərində hərbi xidmətdə olub. 1972-ci ildə tale onu sərt sınağa çəkir. O, sevimli həyat yoldaşı Nübar xanımı itirir. Nübar xanımın sevgisinə və ruhuna sadiq qalan Əli dayı düz 13 il övladlarını təkbaşına böyüdüb həddi-büluğa çatdırır. Nəhayət, 13 ildən sonra, qohum-əqrəbanın təkidi ilə Kəlbəcər rayon sakini gözəl və qayğıkeş insan Rəna xanımla ailə həyatı qurur. Onların birgə nikahlarından 4 layiqli qız övladları vardır. Onlardan üçü hazırda gözəl ailə başçısıdır.

Son zamanlar kənd mağazasının müdiri işləyən Əli dayı məlum hadisələrdən sonra Bərdə rayonunun Mirəssəfli kəndində məskunlaşmışdır. Şair təbiətli insan o illərin xatirələrini yaddaşında əziz saxlayır. On iki layiqli, tərbiyəli övladın atası, iyirmiyə yaxın nəvənin sevimli babasıdır. Ömrünün 81-ci ilində köçkünlük taleyi yaşayan Əli babanın dilindən Kəlbəcər sözü, qəlbindən Kəlbəcər həsrəti əskik olmur. İlahidən ona uzun ömür arzulayaq ki, torpağımıza qayıdanda dəyərli məsləhətlərinə çox ehtiyacımız olacaq.

Şair təbiətli Əli dayının çoxsaylı şeirlərindən bir neçəsini sizlərə çatdırırıq:

# ATA

*Atamın vaxtsız vəfatına ithaf*

Başsağlığı verir qohum-qardaşın,
Yetmədi dadına yadın-sirdaşın.
Ağlayıb yaş tökür bacın,yoldaşın,
Açılan səhərin yaşa dönübdü.

Qazdılar, hazırdı məzarın sənin,
Düşməz öz evinə güzarın sənin.
Olmadı azarın-bezarın sənin,
Taleyin bir uçan quşa dönübdü.

Bu fani dünyanı varmadın başa,
Məzarda yatarsan Qənbərlə qoşa.
İstər əlli yaşa,istər yüz yaşa,
Sonda hər kəs cansız daşa dönübdü.

**30 may 1968-ci il.**

## AĞLARAM

***Musayev Umudun məktubuna cavab***

Murovdan, Kəpəzdən ovunu alan,
Həmişə dostları yadına salan,
Bir tərlan quş kimi şikarın salan,
Mahir ovçu atam olub, ağlaram.

Bütün ovlaqları tutubdu xəbər,
Bizdə gəzən ovçu hanı bu səhər?
Bilsən ürəyimdən nə keçir əgər,
Onları yadıma salıb ağlaram.

Özü getdi, şəkli nişanə qaldı,
Yandırdı cismimi, odlara saldı.
"Bir ağ atlıyamı" o, aciz qaldı?
Baxıb məzarına solub, ağlaram.

Tarix az yetirir belə insanı.
Əli, o dünyada görünmür, hanı?
Ləli-cəvahirə bərabər canı,
Torpaq kəməndinə salıb, ağlaram.

## ABBASOV BAHADIR HƏBİB OĞLU



Abbasov Bahadır Həbib oğlu 1929-cu ildə Moz Qaraçanlı (Qoturlu) kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra İstisu qəsəbəsinin tikintisində əmək fəaliyyətinə başlayıb. O, burada bənna peşəsinin sirlərinə yiyələnmişdir.

1950-ci ildə Nəcəfalılar kənd sakini Abbasova Balış Qaçay qızı ilə ailə həyatı quraraq Nəcəfalılar kəndində yaşayırlar. O öz zəhmətsevərliyi, halallığı, mehriban təbiəti ilə camaatın dərin hörmətini qazanır. Kolxozun quruculuq işlərində yaxından iştirak edir. Bir çox kənd sakinlərinin evlərini bu gözəl sənətkar tikmişdir.

Hər biri öz zəhməti ilə həyatda yer tutan 8 övlad atasıdır.

Bahadır baba ömrünün 80-ci ilini köçkünlük şəraitində yaşayır. Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşan ustanın sənətini oğlanları layiqincə davam etdirirlər.

Qolunuza qüvvət, usta! Bir azca da möhkəm olun! Mənfur erməni daşnaklarının darmadağın etdiyi doğma kəndimizin bərpasında Sizin köməyinizə hələ çox ehtiyac duyacağıq.

## PİRİYEV İSA ƏLİF OĞLU



Piriyev İsa Əlif oğlu 1932-ci il avqust ayının 4-də Piri–lər kəndində zəhmətsevər kəndli ailəsində anadan olub. 1940-cı ildə bir çox sakinlər kimi Kilsəli kəndində olan məktəbin 1-ci sinfinə gedib. 1950-ci ildə həmin məktəbin 10-cu sinfini bitirib. 1952–1954-cü illərdə SSRİ silahlı qüvvələrinin ordu sıralarında Kuybışev vilayətində xidmət edib. 1955-ci ildə Sumqayıt şəhərində alüminium zavodunun, 1961-ci ildə isə Kəlbəcər rayonu İstisu qəsəbəsinin tikintisində bənna işləmişdir. Cavabdehliyi, zəhmətsevərliyi və yorulmadan işləməyini qiymətləndirən rəhbərlik onu tikintidə briqadir təyin etmişdir. Briqadası kompleks briqada adlandırılmış və qabaqcıl briqada kimi fəaliyyət göstərmişdir. Briqadasında olan bənnalar, dülgərlər, qaynaqçılar, suvaqçılar və üzlükçülər öz öhdəliklərinə düşən işləri yüksək keyfiyyətlə təhvil vermişlər. Son vaxtlar Kəlbəcər rayonunda tikilən hündürmərtəbəli binaların inşasında, yeni şəhərciyin salınmasında bu briqadanın böyük əməyi olmuşdur. İsa Piriyev rayon Partiya komitəsinin büro üzvü seçilmişdi. 1982-1990-cı illərə qədər büronun üzvü olan Piriyev öz sevimli peşəsindən əl çəkmir, hər gün sübh tezdən axşamacan tikintidə işləyirdi. Briqadada bəzən 3-4 bənnanın hördüyü qədər barını özü tək hörərək hamıya örnək olmuşdu.

1986-cı ildə Azərbaycan Sov. İKP-nin qurultayına nümayəndə seçilmişdi.

Öz halal əməyi sayəsində bir çox ziyalıların, vəzifəli şəxslərin, məmurların dərin hörmətini qazanmışdır. Ulu öndərimiz Heydər Əliyev cənabları ilə birlikdə olduqları görüşdən indi də böyük təəssüratlarla danışır.

İstisu qəsəbəsində yaşamasına baxmayaraq

doğulduğu Nəcəfalılar kəndinin taleyi ilə daim maraqlanır, elin-obanın xeyir-şər işlərinin birindən qalmırdı. El arasında böyük nüfuz və hörmətə malikdir. Xırda ədavətlərin, düşmənçiliklərin aradan götürülməsində, qız elçiliklərində sözü keçən, nüfuzlu ağsaqqal kimi camaatın köməyinə çatır.

Piriyev İsa taleyin acı hökmü ilə məcburi köçkün kimi məskunlaşdığı Lənbərəndə yaşadığı evin həyətində bir gülşən yaradıbdır. Ağac bitməz isti çöllərdə öz əlləri ilə bir çox ağac əkib-becərmişdir. O, altı layiqli övlad atasıdır

Qəlbində gəzdirdiyi kədərlərdən ən ağırı vətən həsrəti, şəhid oğul dərdi olmasına baxmayaraq təmkinliliyini əldən vermir. 19 yaşlı oğlu Piriyev Rasim 1993-cü ildə Laçın rayonunun Hocaz yüksəkliyi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur..

İlahi qalan övladlarının canını sağ, yollarını uğurlu eləsin! Özünə isə nəvələr görməyi və Kəlbəcər camaatının öz yurduna qayıdacağı günün fərəhini qismət eləsin. Amin!



## İBRAHİMOV ABBAS RƏHİM OĞLU



İbrahimov Abbas Rəhim oğlu 1932-ci ildə Nəcəfalılar kəndində anadan olub. İbtidai təhsilini qonşu Kilsəli kəndində alıb. 7-ci sinfi bitirəndən sonra Ağdam rayonunda yerləşən Kənd Təsərrüfatı Texnikumuna daxil olub. O, 3 il hərbi xidmətdə olmuşdur.

1958-ci ildə həmkəndlisi Piriyeva Minəş Əlif qızı ilə ailə həyatı qurmuşdur.

Kəndin işlərində fəal iştirak edən Abbas İbrahimov briqadir kimi də öz dəyərli məsləhətlərini əsirgəməyib. Sonralar o, Kəlbəcər rayon arıçılıq sovxozunda arıçı işləmişdir. O, həmyerlimiz Hümbətov Cəmal İmamverdi oğlu ilə birlikdə sovxozun 100-120 arı ailəsinə can-başla qulluq edərək arı ailələrindən bol məhsul götürmüşlər. Yaz-yay aylarında arı qutularını Nəcəfalıların səfalı yaylaqlarında saxlayar, qışda aran rayonlarına aparardılar.

Qulluq etdiyi arı ailəsi kimi, öz ailəsini də halallıq və zəhmət özülü üzərində qurmuşdur. 3 oğul, 4 qız atasıdır. Layiqli övladlarının hər biri gözəl ailə sahibidir.

Ömür-gün yoldaşı Minəş xala ilə birlikdə Şəmkir rayonunda köçkünlük taleyi yaşayır. Sakit təbiətli, ehtiyatlı, təmkinli ağsaqqal Abbas dayıya Ulu Tanrıdan səbir və cansağlığı arzulayırıq. Qoy, o gün olsun ki, əliaçıq Abbas dayının tərifli, xüsusi dadlı, təbii arı balından Nəcəfalılarda dadmaq bir daha bizə qismət olsun! Amin!

## HƏMİDOV İBRAHİM ŞAHMAR OĞLU



Həmidov İbrahim Şahmar oğlu 10.10.1934-cü ildə Pirilərdə axund ailəsində anadan olub. Atasını tez itirdiyindən cəmi 5-ci sinfə qədər oxumasına baxmayaraq hesabı, ədəbiyyatı və tariximizi yaxşı bilirdi. 1950-ci ildən 1953-cü ilə kimi SSRİ silahlı qüvvələrinin sıralarında Norofominsk şəhərində qulluq edib. Ailənin bütün əziyyətini öhdəsinə götürdüyündən şəxsi ailə həyatını çox gec, yəni 1964-cü ildə dayısı qızı Həmidova Qumru (Şövkət) ilə qurmuş və cəmi 24 il birgə həyat yaşamışlar.Gənc yaşlarından kolxozun qoyun sürüsünü, mal-qarasını otararaq, yaylaqdan-yaylağa, bulaqdan-bulağa at belində ömür sürmüşdür. Neçə köhlən atları yorub, neçə yüz çiçəyin ətrini qoxlayıb, çiyələyin, göbələyin nübarını dadıb.

Cavanından ağsaqqalına qədər Nəcəfalılar camaatının hər birinin dili ilə desək, halal adam olub. "Kimsənin toyuğuna daş atmayıb", "Mayasına bircə haram tikə də qatmayıb", "Zəhmətsevər və yorulmaz olub". Uşaq yaşlarından mal-qara saxlayan İbrahim kişi heyvanların dilini yaxşı bilirdi. Üzünə baxan kimi heyvanların xəstəliklərini, nə üçün ot yemədiyini anlayırdı. Köpmədən, sancıdan, zəhərlənmədən heyvanları necə xilas etməyi də bacarırdı.

Öz zəhməti, ağıllı məsləhəti və halal çörəyi ilə elinin hörmətini qazanmışdır. Həyatında bir neçə çətin anın, ağır yükün daşıyıcısı olmuşdu. Dayılarının, əmilərinin, həyat yoldaşının, bacısı ərinin, qaynının və başqa əzizlərinin vəfatını böyük kədərlə qarşılamışdı. Ancaq Kəlbəcər itkisi ona daha ağır gəlirdi. Ölümlə olum arasında bir addım qaldığı çağda hər kəs öz başını götürüb Murova doğru üz tuturdu. Onun ailəsi də kəndin bir çox sakini ilə kəndi tərk edir. Lakin 113 yaşlı anası ağlayıb yurd-yuvasını tərk etmək istəmir. Ananı sakitləşdirib yola gətirmək lazım idi. Bu

səbəbdən İbrahim kişi öz ailə üzvlərini kənd camaatına qoşaraq yola salır. Özü isə doğma ocağından ayrılmaq istəməyən anası ilə evdə qalır. Oğlunun onu tək qoyub getməyəcəyini dəqiq bilən ana, onu təhlükədə qoyduğunu başa düşüb, nəhayyət onun üçün əziz olan yerləri tərk etməsinə razılıq verir. İbrahim kişi anasının razılığını aldıqdan sonra həmin gecə mal-qaranı, atı yaxşı yemləyir, yol üçün azuqə, su hazırlayır. O, səhər tezdən atın hər iki tərəfinə döşək bağlayıb anasını yükün ortasında oturdaraq təkbaşına yola düşür. Yolda gah gətirdiyi mal-qarasının arxasınca yüyürür, gah da anasını atdan düşürüb, yedirib– içirib yoluna davam edir. Murovda gecənin qaranlığından istifadə edən öz " ermənilərimiz " onun başının anasına qarışdığını görüb, fürsətdən istifadə edərək qoyunlarının ən yaxşılarını və 7 baş mal-qarasını oğurlayıb aparırlar. Ən çətin sınaq günündə də öz pis əməlindən çəkinməyən haramzadələrin hərəkəti dünya görmüş, gözütox kişini öz anasından əl çəkməyə vadar edə bilmir. O, "təki anamı sağ-salamat aparıb mənzil başına çıxarım" deyə düşünür. Olmazın əzabla bir həftə yol gələrək Murova çatır. Murovda oğlu və qohumları onları tapıb Yevlax rayonun Malbinəsi kəndində yaşayan qardaşı qızı Bəstigilə gətirirlər. Artıq İbrahim kişinin anası ilə birlikdə ermənilərə əsir düşdüyünü güman edən kənd camaatı onları sağ-salamat görəndə sevinc dolu göz yaşları içində fərəh, qürur hissi ilə qarşılayırlar. O, cənnətməkan Kəlbəcərin talan edilməsini, ədalətsizliyi, etibarsızlığı və onlarla günahsız insan həlak olmasını öz gözləri ilə görmüşdü. Bircə təsəllisi vardı: qoca anasını düşmən əlinə verməmişdi, gözü arxada kimisə axtarmırdı. Hələ bundan sonra da 5 il nazını çəkəcəyi və öz çiyinlərində qəbrə aparacağı 113 yaşlı anası onunla idi. Bu çətin anları, çəkilməz dərdləri üzə vurmayan dağ ürəkli İbrahim kişi, bütün ağrını-acını özü təkbaşına çəkirdi.

"Özümü narahat hiss edirəm" sözü ilə həkimə müraciət edən insanın böyük ürəyində düz 4 yerdə çat olduğunu təyin etdilər. O, ömrünün 73-cü payızında övladlarına ev qurub, onları rahatlayıb getdi bu dünyadan. Təkcə axırıncı gün hündürdən bayatı deyib Kəlbəcər dərdini ağlamağı olmasaydı...

Ruhun şad olsun, gözəl insan! Sən ananı və Vətəni tükənməz məhəbbətlə sevməyinlə bizə örnək oldun. İnşallah, sevdiyin ananı da, səni də həsrəti ilə gözyaşı tökdüyün Nəcafalılarda torpağa tapşırarıq. Heç olmasa o gün qəriblikdə dolaşan ruhun gəzdiyin yaylaqlara qovuşub şad olar...

## HƏMİDOV MƏHƏMMƏD ŞAHMAR OĞLU



Həmidov Məhəmməd Şahmar oğlu 1932-ci ildə Nəcəfalılar kəndində doğulmuşdur. Hərbi xidmətdən sonra həmkəndlisi Əmirova (Həmidova) Günəş Nədir qızı ilə evlənmişdir. Onların birgə nikahlarından Səxavət, Sədaqət, Ziyafət və Məhər adlı oğlanları, Mədinə, Şəfiqə, Sayalı və Bəsti adlı qızları olub.

Həmidov Məhəmməd kəndimizin sayılan-seçilən ağsaqqallarından olmuş, kəndin xeyir-şər işlərində, el şənliklərində daim başda olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət "Bakı fəhləsi" kimi Bakı şəhərinə gəlmiş, şəhər salınma işlərində fəal iştirak etmişdir. Lakin az sonra doğma kəndinə qayıdaraq kolxoz quruculuq işlərində yaxından kömək etmişdir. Bəlkə də, A.S.Puşkin adına kolxozu həmidovlar ailəsi olmadan təsəvvür etmək olmazdı desək yanılmarıq. Toy şənliklərində maraqlı rəqsləri ilə seçilən Məhəmməd Həmidovun xətrini hamı çox istəyir. Bu nəcib insan heç kimin xətrinə dəyməz, halal zəhmətilə özünə böyük hörmət qazanmışdır.

Ömrünün 68 yaşında Gəncə şəhərində köçkünlük həyatı yaşayan Məhəmməd kişi hər dəqiqə doğma el-obasını düşünür və o yerlərə qayıtmaq arzusu ilə yaşayır.

## ƏLİYEVA MƏNZƏR BAXŞƏLİ QIZI



Əliyeva Mənzər Baxşəli qızı 1936-cı ildə Nəcəfalılar kəndində Baxşalı Seydalı oğlunun ailəsində dünyaya gəlmişdir. Uşaqlıq və gənclik illəri qanlı-qadalı müharibə illərinə təsadüf edən Mənzər nənənin həyatı olduqca ağır və çətin keçmişdir. Ata və qardaş itkiləri, sonradan isə ana itkisi onun kədər yükünü bir az da artırmışdır. Bir yandan da qismətinə düşən nakam ailə taleyi… Yeganə övladı olan Elçinlə özünə təsəlli tapır. Oğlunun təhsil alması, qayğısız böyüməsi və özünə cəmiyyətdə mövqe tutması üçün bütün çətinliklərə qatlaşmış, əlindən gələni əsirgəməmişdi. Atasız övlad böyütmək nə qədər ağır və çətin olsa da, balasının bütün arzularını yerinə yetirməyə çalışmışdır. Hətta pərakəndə ticarətin qadağan olunduğu ciddi sovet rejimində oğlunun əmin-amanlıq içində, ehtiyacsız yaşaması üçün bununla məşğul olmuşdur. Bir müddət Mingəçevir şəhərində və Tərtər rayonunda yaşayan Mənzər Əliyeva 1980-ci illərin əvvə llərində köçərək dogma Nəcəfalılar kəndinə qayıtmışdır. Kolxozda tütün əkib-becərməklə əmək fəaliyyətini davam etdirmişdir. Ulu Tanrı Mənzər Əliyevanın çəkdiyi bütün əziyyətlərinin müqabilində onun mükafatını vermişdir. Oğlu Elçin Əliyev Türkmənistanda, daha sonra isə Moskvada təhsil alaraq alitəhsilli hüquqşünas kimi cəmiyyətdə özünə layiqli mövqe tutmuşdur. Mənzər Əliyeva üç gözəl nəvənin nənəsi olmaq sevincini də yaşayır. Lakin erməni təcavüzkarlarının doğma Nəcəfalıları işğal etməsi hamı kimi, ona da ağrılı-acılı günlər yaşatdı. Həmin gecə babası Seyid Əli (Seydalı) yuxusuna girmişdi. Ata–baba yurdundan didərgin düşəcəklərini, ocaqlarının sönəcəyini demişdi. Seyid babası xəbərdar etmişdi ki, əgər Tunel yolu getməsinlər, yoxsa onda başlarına böyük bəlalar gələcək. Dəfələrlə yuxularını sınamış

Mənzər nənə səhəri gün özünü Comərd-Tunel istiqamətində getməyə hazırlaşan kənd camaatının maşın karvanının qabağına atır. Yuxusunu onlara danışıb Pirilər yolu ilə kənddən çıxmalarını təkid edir. Nə yaxşı ki, kənd camaatı bu ağbirçək ananın sözünü eşidirlər. Yoxsa camaatımız da həmin günü ermənilərin Tuneldə qurduqları pusquya düşər və ermənilərin orada törətdikləri qanlı qətliam bizdən də yan keçməzdi.

Mənzər nənə doğma kəndinə qayıtmaq arzusu ilə hal-hazırda Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır.



**Əliyeva Şövkət və Əliyeva Rəbiyyə (arxa fonda Nəcəfalılar kəndinin bir hissəsi görünür).**

# IX FƏSİL

## BİZ SİZDƏN ÖYRƏNİRİK

Elimizin-obamızın sayılan-seçilən, sözündə, əməlində bütöv, yerişi, duruşu sanballı, sözü-kəlməsi ağır çəkili, zəhmli olduqları qədər də mehriban və səxavətli adamları çox olub. Hələ uşaq olarkən ağsaqqallarımızdan Seyid Alının, Məşədi Pirməmmədin səxavəti, Zeynalın hökmü, Əlifin ciddiliyi, Təhməzin qəhrəmanlığı, Mehdinin gücü, Heydərin əliaçıqlılığı, Səfərin halallığı, İmanverdinin, Ələsin, İdrisin və onlarla başqa ağsaqqallarımızın haqqında çox eşitmişik. Bizə örnək olan ata-babalarımız haqqında məlumatlara, rəvayətlərə qulaq asdıqca onlara bənzəməyə, oxşamağa çalışmış, böyüyə hörmət, vətənə məhəbbət, insanlara mərhəmət ruhu ilə böyümüşük.

Kəndimizin örnək yeri olan şəxsiyyətləri olduqca çoxdur. Onların bəziləri ilə sizi tanış edirik.

## MUSAYEV UMUD VƏLİ OĞLU



Hələ 20 yaşında olarkən taleyinə doğma yurddan aralı yaşamaq düşsə də, qəlbi daim elinin-obasının dərd-səri ilə birgə döyünən dəyərli eloğlumuz Umud Musayev 1929-cu ildə səfalı Nəcəfalılar kəndinin füsunkar tə– biətinin qoynunda dünyaya göz açıb.

1949-cu ildə Kəlbəcər rayon Partiya Komitəsinin birinci katibinin qərarı ilə Sumqayıta oxumağa göndərilən Umud Musayev təhsil aldıqdan sonra "Aliminium tikinti" trestinə işə düzəlir. Rəhbərliyin dərin hörmətini və nüfuzunu qazanan zəhmətsevər, bacarıqlı işçi diqqətdən kənarda qalmır. O, 1961-ci ildən briqadir, az sonra isə həmin trestin rəisi vəzifəsində işləyir.

Dəfələrlə Sumqayıt şəhər sovetinin deputatı, mərkəzi həmkarlar komitəsinin I qurultayının nümayəndəsi olmuşdur.

1965-ci ildə Politexnik institutunda sənaye və mülkü tikinti ixtisasına yiyələnmiş, 1967-ci ildə isə Sumqayıt şəhər komitəsinin nəzdində olan Marksizm-Leninizm universitetini bitirmişdir. Bir neçə dəfə həmkarlar komitəsinin plenumuna üzv seçilmişdir.

Şərəfli əməyə görə, əməkdə fərqlənməyə görə, Leninin anadan olmasının 100 illiyi medalları ilə təltif olunmuşdu. Umud Musayev Sumqayıtın fəxri vətəndaşı adına layiq görülmüşdü.

1961-ci ildə "Alüminiumtikinti" trestinin ilk partiya təşkilatının katibi seçilib. Bəhruz, Şəfiqə, Adilə, Solmaz adlı gözəl övladları vardır.

Umud Musayev həm də təbiət vurğunu, gözəllik aşiqi olan şairdir. Onun təbiətə vurğunluğu şeirlərində özünü daha parlaq göstərir.

# DAĞLARDA

Fəslin odlu nəfəsində
Nə çox qalmış qar dağlarda.
Keçib zavallı günləri,
İndi şənlik var dağlarda.

Zirvəsi nə şən görünür,
Elə bil gülşən görünür.
Kimsəyə hər an görünür,
Güllü çəmənzar dağlarda.

Təzə doğub dan ulduzu,
Dağ döşündə qoyun, quzu.
Aşıq qardaş, götür sazı,
Könlümüzü al dağlarda.

Dədə Şəmşir oylağında,
Vurğunumun yaylağında,
Ələsgərin sayağında,
"Göyçə gülü" çal dağlarda.

Sinəsində gəzmək üçün,
Gül-çiçəyin üzmək üçün,
Tənəsinə dözmək üçün
Bircə günüm var dağlarda.

Umud, getdi cavanlığın,
Nə xeyri var bir anlığın.
Çalış saxla insanlığın,
Həm mənliyin var dağlarda.

## AĞLAR

***(Atasının vəfatı ilə əlaqədar Piriyev Əliyə təskinlik məktubundan).***

Dünyanın gərdişi belədi, qardaş,
İnsan bu dünyaya gələndə ağlar.
Ömr edib yaşayar, ağaranda baş,
Bir də o dünyaya gedəndə ağlar.

Qəzadan gələrsə, sovuşmaz qada,
Eşitməz məzlumu, baxmaz fəryada.
Vədəsiz ölümü görsə dünyada,
Ağ kağız kövrələr, qələm də ağlar.

Kimi xoşbəxt edib səbirsiz gəzmək?
Ağlayıb, sızlayıb, ürəyi üzmək?
Eşitsən Umudu, vacibdi dözmək,
Yas yası gətirər, aləm də ağlar.

***Musayev Umud Vəli oğlu.***

## ABBASOV MUXTAR ŞÜKÜR OĞLU



Rayonumuzun hörmətli, nüfuzlu şəxslərindən olan Abbasov Muxtar Şükür oğlu 1910-cu ildə Nəcafalılarda Avazlılar nəslinin hörmətli nümayəndəsi Şükür babanın ailəsində dünyaya gəlib. Anası Xəlilbəyli Bənövşə əslən Laçın rayonunun Bülövlük kəndindən olan Rəhim bəyin qızı idi. Rəhim bəy əvvəlcə Kəlbəcər rayonunun Kilsəli kəndində "Xəlillər" talasında, sonra isə Ağqayada məskunlaşmışdı. Bəy nəslindən olan Bənövşə nənə Nəcəfalılara Ağqayadan gəlin gəlib.

Abbasov Muxtar Şükür oğlunun ictimai fəaliyyəti Kilsəli kənd məktəbində müəllimliklə başlayıb.

1939–cu ildə Comərd kənd sakini Əliyeva Göyçək Qasım qızı ilə ailə həyatı quran Muxtar Abbasov 1942-ci ildə müharibəyə getmişdir. Birillik xidmətində böyük şücaətlər, qəhrəmanlıqlar göstərmiş və ağır yaralanaraq Səmərqənd hərbi xəstəxanasında müalicə olunmuşdur. Ayağından və qolundan ağır yaralanan həmvətənlimiz I qrup əlil kimi vətənə qayıtmışdır. O öz gücünü, zehnini, əməyini arxa cəbhədə də əsirgəməmişdir.

Muxtar Abbasov 1942-ci ildə Kilsəli kənd sovetinin katibi, 1943-46-cı illərdə isə həmin sovetliyin sədri vəzifəsində çalışmışdır.

1948-ci ildə Qılınclı və Zülfüqarlı kənd sovetinin sədri, 1949–cu ildə isə Rayon İcra Komitəsinin təlimatçısı işləmişdir. 1951-ci ildə Rayon İcra Komitəsi yanında kommunal təsərrüfat müfəttişliyində, partiya komitəsində təlimatçı vəzifəsində çalışmışdı.

1959–cu ildə Biləcəri Dəmir yol stansiyasının nəzdində ixtisasartırma kursunu bitirmişdir.

1963–cü ildə Kəlbəcər rayon Partiya Komitəsi təsərrüfat şöbəsinin müdiri, 1970–1986–cı illərdə isə rayon

kino birliyinin müdiri vəzifələrində işləmişdir.

İşlədiyi bütün illər boyu kollektivin hörmətini, rəhbərliyin diqqətini, elin nüfuzunu qazanan Muxtar Abbasov dəfələrlə rayon sovetinin deputatı, büronun üzvü, ağsaqqallar cəmiyyətinin üzvü seçilmişdir.

1974-cü ildə "sosializm yarışının" qalibi, 1976–cı ildə Nazirlər Kabinetinin Həmkarlar İttifaqının "Sosializm yarışının qalibi" medalına layiq görülmüşdür.

"Qələbənin 20 illiyi", "Qələbənin 30 illiyi", "Qələbənin 40 illiyi ", "Qələbənin 50 illiyi", "Qələbənin 60 illiyi", " Qələbənin 70 illiyi , "Silahlı qüvvənin 70 illiyi" fəxri fərmanları və döş nişanları ilə təltif olunmuşdur. 50 il Sov İKP-nin sıralarında qulluq etmişdir.

"Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində böyük qələbənin 40 illiyinə görə" nişanlarının nomenantı, "Böyük Vətən Müharibəsi" və əmək veteranı titullarının layiqi daşıyıcısı olub.

3 oğul, 2 qız atası olan qayğıkeş insan 1988-ci ildə ailəsi ilə birlikdə Bakıya köçməli olsa da, fikri daim narahat dünyamızın amansız hökmlərində olub, qəlbi vətənin ağrı-acısı ilə bir döyünüb.

1990-cı ildə dünyasını dəyişsə də, özündən sonra xoş təəssürat, yaxşı əməl, vətənpərvər, nüfuzlu insan obrazı qoyub getmişdir.

Allah Muxtar babaya rəhmət, ocağında qalanlara isə sağlam və uzun ömür bəxş etsin!

# MUSAYEV PƏNAH VƏLİ OĞLU



Musayev Pənah Vəli oğlu 1928-ci ildə Nəcafalılarda anadan olub. Orta təh–silini bitirdikdən sonra Ağdam Kənd Təsərrüfatı Texnikumunu bitirib. 1949-1953-cü illərdə Brest qalasında hərbi xidmətdə olub. 1965-ci ildən 1993-cü ilədək İstisu qəsəbəsində İstisu sanatoriyasının mühasibi vəzifəsində çalışıb. "Arxa cəbhədə fədakar əməyinə görə" və "Əmək veteranı" medalı ilə təltif olunub. 1993-cü ildə Kəlbəcərin işğalından sonra Bakıda məskunlaşıb. 2007-ci il, iyun ayının 19-da dünyasını dəyişən Pənah dayı Abşeron rayonu Masazır qəsəbəsində məcburi köçkünlər qəbiristanlığında dəfn olunub. 4 layiqli övlad atasıdır.

Həyat yoldaşı Piriyeva Çiçək (1926) Pirilər kənd sakini Zeynal kişinin qızıdır. Uzun illər İstisu Çörəkbişirmə zavodunda işləyib. Əmək veteranı idi. Ömür-gün yoldaşının vəfatından cəmi 1 il sonra 2008-ci il yanvar ayının 10-da vəfat edib. Masazırda məcburi köçkünlər qəbiristanlığında qoşa uyuyan həmyerlilərimizin ruhları vətənin göylərində narahat gəzir. Övladlarının vətənə dönüşünü görən ruhların rahatlıq tapması arzusu ilə gözəl ağsaqqallarımıza İlahidən rəhmət diləyirik.

## ABBASOV HEYDƏR ŞÜKÜR OĞLU

Abbasov Heydər Şükür oğlu 1912 -ci ildə Nəcafalılarda anadan olmuşdur. Gənc yaşlarında ailə quran Heydər Abbasovu tezliklə müharibəyə aparırlar. Həyat yoldaşı Qaragüney kənd sakini Sifayi Əziz qızı uşaqların tərbiyəsi ilə təkbaşına məşğul olur.

Qanlı-qadalı Vətən müharibəsi kəndimizin 18 nəfərinin həyatına son qoymuşdur. Xoşbəxtlikdən bir neçə həmyerlisi ilə birlikdə sağ qayıdanların arasında Heydər Abbasov da var idi.

Müharibədən qəhrəman kimi qayıdan müharibə veteranı Abbasov Heydər quruculuq illərində kəndin xeyir-şər işlərində yaxından iştirak edib. Kolxozun katibi, sonralar isə meşəbəyi vəzifələrində çalışıb. İmkansızlara əl tutmaq, işi ləngiyənlərə kömək olmaq Heydər babanın peşəsi olub. Kənddə ilk məktəb binası tikilənə qədər öz evində uşaqların təhsil almasına şərait yaradıb. Minayə, Sara və Qəzənfər adlı 3 övlad atası idi.

Uşaq yaşlarında oğlu Qəzənfəri itirən Heydər kişi daha sonra həyat yoldaşı Sifayinin vəfatından sarsılır. Bir müddətdən sonra Almalıq kəndindən Sultan kişinin qızı Yetər xanımla ailə qurur. Yetər xanımdan Maya və Bahar adlı 2 qızı və Mübariz adlı layiqli, vətənpərvər oğul balası ocağının nişanələridir.

08.08.1967-ci ildə dünyasını dəyişən Heydər kişinin qəbri doğma kəndində olsa da, ruhu Azərbaycanın 21 rayonuna səpələnən həmyerlilərinin ətrafında dolaşır.

Ruhun şad olsun, Heydər baba ! Gün gələcək, layiqli övladın Mübariz müəllim Nəcəfalılardakı evinin çırağını yandıracaq.

## MƏMMƏDOV TELMAN SALMAN OĞLU



Kəndimizin mehriban və gülərüz oğlu Telman dayının Bakıdan gəlişi əsl toy-bayram olurdu. Hələ gənc yaşlarından taleyini fırtınalı neft daşları ilə bağlayan dəniz fatehi 1936-cı ildə elimizin sayılan-seçilən oğlu Salman kişinin ailəsində anadan olmuşdur.

Göz açandan vergi müfəttişliyində işləyən atasının və qanlı-qadalı müharibə illərində rəhbərliyi öz üzərinə götürən kolxoz sədri Tuyğun nənənin qonaqlı-qaralı, gəlimli-gedimli evində tərbiyə almışdır.

Orta məktəbi bitirəndən sonra Bakıda 4 №-li peşə məktəbinə daxil olur. Təhsilini başa vuran kimi təyinatını "Jiloy" adalarına götürür. Az vaxtda kollektivin dərin hörmətini qazanan zəhmətsevər və bacarıqlı işçi istehsalatdan ayrılmadan təhsilini M. Əzizbəyov adına Neft və Kimya İnstitutunda davam etdirir.

1958-ci ildə 22 yaşlı gənc neftçi Kəlbəcərin nüfuzlu kişilərindən olan Muxtar Abbasovun qızı Rəfiqə xanımla ailə həyatı qurur.

Neft daşları veteranı Telman Məmmədov polad dirəklər üzərində tikilən şəhərin ilk günlərindən yeraltı quyuların təmirində operator, çilingər, qaynaqçı və nəhayət, usta və briqadir vəzifələrində çalışır. Rəhbərlik etdiyi briqadada daim illik öhdəlik planını vaxtından əvvəl və yüksək faizlə yerinə yetirib.

1529 nömrəli quyunun istismarı da təcrübəli usta T.Məmmədovun briqadasına tapşırılıb. Təbiətin ecazkar qüvvələrinə qarşı mərdliklə vuruşan dəniz fatehlərindən olan T. Məmmədovun briqadası planı 109%-lə yerinə yetirərək 900 tondan artıq məhsul çıxarmağa nail olmuşdur.

Sanqaçalda 4.936 m dərinlikdə, yerin yeddinci qatından neft çıxarılmasında eloğlumuzun da fədakar əməyi

olmuşdur. Onlarla şagirdinə dənizin şıltaqlıqlarına sinə gərməyi və neftçıxarmanın sirlərini öyrədərək istehsalata yola salmışdı.

50 il bir kollektivdə hörmətlə işləyən, şərəfli ömür sürən, 4 layiqli övlad atası olan Telman Məmmədov 2005-ci ilin yanvarında dünyasını dəyişdi. Oğlu Məmmədov Söhrab kiçik yaşlarından idmanla məşğul olmuş, dəfələrlə respublikamızda və kənarda keçirilən güləş üzrə turnirlərin qalibi olmuş, vətənə medal və təltiflərlə qayıtmışdır. 1972-ci ildən etibarən uzun illər respublika çempionu adını layiqlə daşımışdır.

Qızlarından Məmmədova Sevda ticarətçi, Məmmədova Elza tibb bacısı, Məmmədova Elnarə isə mühasiblik peşəsinə yiyələnmişdir. Hər biri gözəl ailə sahibidir.

Həyat yoldaşı Rəfiqə xanım Yüngül Sənaye Texnikumunu bitirmiş və 34 il ticarətdə işləmişdir. O, Çörək Ticarəti Birliyində müxtəlif vəzifələrdə çalışmışdır.

Böyük Yaradan bu zəhmətsevər ailənin ruzisini, çörəyini bol, süfrəsini açıq, özlərini sağlam və xoşbəxt eləsin!

## PİRİYEV MUSA ƏLİF OĞLU



Piriyev Musa Əlif oglu 1934-cü ildə Nəcafalılarda Əlif kişinin ailəsində dünyaya göz açmışdır. Gənc yaşlarında "Bakının pionerləri" cərgələrinə düşərək neft daşlarında işə başlamışdır. Hərbi xidmətini layiqlə başa vuran həmyerlimiz Sumqayıtda 2 № li tikinti trestinin qarajında sürücü vəzifəsində işləməyə başlayır. Zəhmətsevər insan kollektivin dərin hörmətini qazanır. İmkan tapan kimi doğma rayonuna, sevimli kəndinə baş çəkirdi. Onun gəlişi qohum-əqrəbalarda hədsiz sevincə, toy-bayrama çevrilirdi. Musa dayı 4 layiqli oğul atasıdır.

1985-ci ilin avqust ayında qohumlarına muştuluq xəbəri verərək "Sabah rayona gəlirəm" deyərək zəng vuran Musa dayı sözünə əməl etdi. Lakin özü gəlmədi. Gətirdilər onu. Gecə ürək çatışmazlığından dünyasını dəyişən insan sabah doğma el-obasına çatdırıldı. Bu ağır itki bütün sovetliyin kədərinə səbəb olmuşdur.

Kəlbəcərə yolu düşən hər kəs qəbiristanlıqda üzərində dağ cüssəli, gülərüzlü bir insan portreti və 5 qərənfil rəsmi döyülmüş başdaşına təsadüf etsə, bilsin ki, bu ağır elin layiqli oğlu Piriyev Musa Əlif oğlunun qəbridir. Qərənfillərin 4–ü şax, düz, biri isə boynu bükülmüş halda təsvir olunub. 4 şax, düz qərənfillər - 4 layiqli, ağıllı oğul balalarına, bir boynu bükük isə nakam həyatının ömür–gün yoldaşına həsr olunub.

İlahi sizi boynubükük eləməsin, Ofeliya xanım. Şükürlər olsun, bu gün 4 igid , mehriban, savadlı oğul balaların hər biri qulluğunda hazır dayanıb. Hər biri ali təhsil alıb.

Ruhun şad olsun, Musa dayı! Ocağında layiqli övladlar var: Oğlanların əməlinin, sözünün sahibi olan, vətənə, elə-obaya gərəkli övladlardır.

Zaman ən böyük hakim, ən təcrübəli həkimdir. Hər şeyi yerbəyer edən, hər yaranı sağaldan zaman, inşallah, hər kəsin öz yerini tutmasında yardımçı olar !

## PİRİYEV YUSİF MƏHƏMMƏDƏLİ OĞLU



Kəndimizin sayılan-seçilən ağsaqqallarindan, zəhmətkeş sakinlərindən biri də Piriyev Yusif Məhəmmədəli oğludur. Piriyev Yusif Məhəmmədəli oğlu 1934-cü ildə Nəcəfalılar kəndində anadan olub. Atasını erkən itirən Yusif dayı ailənin qayğılarını çəkməli olur. O, əslən Kəlbəcər rayonunun Zülfüqarlı kəndindən olan Piriyeva Suqra Rüstəm qızı (1935) ilə evlənmişdir. Onların Nüşabə, Südabə, Arzuman, Səfər, Rəfail, Nəsif, Süsən, Xalidə adlı övladları vardır.

Yusif kişi elinin, obasının xeyir-şərinə yarayan, olduqca zəhmətkeş və mehriban adamdır. O, dünyasını vaxtsız dəyişmiş qardaşı Qəmbərin övladlarına sahib çıxmış, onları öz övladlarından ayırmamışdır, böyüdüb, boya-başa çatdırraraq ailə sahibi etmişdir. Bu xeyirxahlığın müqabilində Ulu Yaradan Yusif kişiyə gözəl ailə, çoxlu övlad və nəvələr bəxş etmişdir.

Hal-hazırda Piriyev Yusif Məhəmmədəli oğlu ömrünün 76-cı baharını ailəsi ilə birlikdə məcburi köçkün kimi Bərdə rayonunun Həsənqaya kəndində qarşılayır. Zəhmətsevər ağsaqqalımıza Ulu tanrıdan səbir arzulayırıq!

## ƏLİYEV ŞURA BAXŞALI OĞLU



Əliyev Şura Baxşalı oğlu 1937-ci ildə Nəcəfalılar kəndində Baxşalı Seydalı oğlunun ailəsində dünyaya gəlmişdir. Hələ uşaq vaxtlarından ata itkisi, qardaş itkisi ilə üzləşən Şura Əliyevin uşaqlığı müharibə illərinə təsadüf etmişdir. O, həyatın çətinliklərində bişərək polad kimi bərkimişdir. Zəhmət onu iri gövdəli, güclü biləkli, qorxmaz və cəsur insan kimi formalaşdırmışdı. Hələ gənc yaşlarından o, qeyri-adi gücü ilə çoxlarını heyrətləndirirdi. Şura kişi Bərdə rayon texniki peşə məktəbinin sürücülük kursunu bitirmiş və uzun illər sürücü işləmişdir. Kəndinin xeyrinə-şərinə yarayan, kəndin ictimai həyatında fəal iştirak edən bir ağsaqqal kimi özünə dərin hörmət qazanmışdır. Elimizin qanlı-qadalı günlərində, yaşının çox olmasına baxmayaraq, silaha sarınmış və igid eloğlularımızla birlikdə doğma Kəlbəcərimizin mənfur ermənilərdən qorunmasında və müdafiəsində fəal iştirak etmişdir. Oğlu Nadir də atası ilə birlikdə çiyin-çiyinə Vətən torpaqlarının azadlığı uğrunda vuruşurdu. Şura Əliyev Kəlbəcər rayonunun Almalıq kəndindən Qənirə Əliyeva ilə ailə həyatı qurmuşdur. O, 9 övlad atasıdır. Şura Əliyev ailəsi ilə birlikdə məcburi köçkün kimi hal-hazırda Yevlax rayonunun Kövər kəndində «40 evlər» adlanan yaşayış məntəqəsində məskunlaşmışdır. Bacısı oğlu Elçin Əliyevlə birrlikdə «Seyid Əli» icması yaradaraq, ona rəhbərlik edir. Elinin-obasının ağır günlərində onlara mənəvi dayaq olmaqla bərabər, maddi yardım etməyi də özünə borc bilir. Ən böyük arzusu doğma Nəcəfalılara qayıtmaq, hər qarışını tanıdığı çöllərində yenə də əlik, cüyür ovlamaqdır. Hər şeyə qadir olan Allah səni arzularına çatdırsın, Şura dayı. Amin!

## DƏYİŞMƏRƏM

Ədalət yolundan çıxıb kənara,
Haqqı nahaqlara dəytşmərəm mən.
Namərd qoysa topa güllə yerinə,
Sarsılıb yerimi dəyişmərəm mən.

Yaşım keçsə də əllini, yüzü,
Ürəkdən sevimişəm doğrunu, düzü.
Elin axsaqqalı dediyi sözü,
Qiymətli qızılla dəyişmərəm mən.

Sevilib, seçilib atalar sözü
Yüz yol sınaqlardan çıxarar özü.
Mərdin yaram üstə qoyduğu közü,
Namərd məlhəminə dəyişmərəm mən.

Şura zəhmətiylə istəyir varı
Mərdlər rastına çıxmasın yağı
Hala qazandığım acı soğanı
Haram şərbətlərə dəyişmərəm mən.

**Şura Əliyev.**

## PİRİYEV PİRİ ABBASƏLİ OĞLU



Piriyev Piri Abbasəli oğlu 15 may 1941-ci ildə Pirilərdə Abbasəli babanın ocağında dünyaya göz açıb. 1948 -ci ildə Qaragüney kəndində ibtidai təhsilə başlayıb, orta təhsilini isə Kilsəli kəndində başa vurub.

Piri Piriyev Gəncə Kənd Təsərrüfatı texnikumunun mühasibatlıq fakültəsini bitirib.

1962-ci ildə kolxozda briqadir vəzifəsinə təyin olunub. 1975-ci ildə kənd sovetinin katibi, sonra isə kənd sovetinin müavini vəzifəsində çalışıb. Puşkin adına kolxozda iqtisadçı olmaqla yanaşı, ilk partiya komitəsinin fəal üzvü, sonra isə katibi olub.

Kəndin bütün xeyir-şər işlərində fəal iştirak etmiş, küsülülərin barışmasında, qız elçiliklərində nüfuzlu ağsaqqal kimi camaatın hörmətini qazanmışdır.

Kəlbəcərin işğalından sonra Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşan Piri dayı 1994-cü ildən bəri keçirilən seçkilərdə məntəqə katibi kimi ölkənin ictimai-siyasi işlərində fəal iştirak edir.

O, 5 oğul, 1 qız atasıdır. 3 övladı isə hələ uşaqkən rəhmətə gedib. Övladları evlidir. Oğlu Piriyev Firdovsi BDU–in tarix fakültəsini əla qiymətlərlə bitirib.

Həyat yoldaşı Piriyeva Səkinə kəndin sayılan-seçilən kişilərindən olan Əlif kişinin qızıdır. Həyat yollarında daim Piri kişinin yaxın dostu, köməyi, qonaqlı-qaralı evinin layiqli xanımı olub.

Yaşa, Piri dayı! Sənin dəyərli məsləhətlərinə çox ehtiyacımız var.

# X FƏSİL

## ULU NƏSLİN GÜVƏNCLİ GƏLƏCƏYİ

Elimiz-obamız daim elmə, savada meyilli, həvəsli olmuşdur. Cəmi 60-70 evdən ibarət olan Nəcəfalılar kəndində onlarla müəllim, mühəndis, hüquqşünas, rəngsaz, bənna, inşaatçı, neftçi, aktyor, mühasib, musiqiçi və digər peşə sahibləri vardı. Bir çox fərqli peşə sahibləri ilə yanaşı Kəlbəcərdə yalnız alimlərin sayının 73 olması buna əyani sübutdur.

Bütün çətinliklərə, maddi və mənəvi zərbələrin dəyməsinə baxmayaraq, Nəcəfalılar əhalisi bu gün də yaşayır, yaradır, mütaliə edir, fəaliyyət göstərir. Ulu nəslimizin güvəncli gənclərindən bir neçəsi haqqında sizlərə məlumat verməyi özümüzə borc bilirik.

## MUSAYEV NİZAMİ PƏNAH OĞLU

Nizami Pənah oğlu Musayev 05 iyul 1958-ci ildə Nəcəfalılarda anadan olub. Nizaminin ailəsi İstisu qəsəbəsinə köçdüyündən 1965-1973– cü illərdə 8 illik məktəbi İstisuda fərqlənmə şəhadətnaməsi ilə bitirib. Sumqayıt şəhər 16 saylı məktəbdə təhsilini davam etdirib. Bu məktəbi də nümunəvi davranış və əla qiymətlərlə bitirib hərbi xidmətə yola düşmüşdür.



1979-cu ildə Leninqrad Kənd Təsərrüfatı İnstitutunun zoomühəndis fakültəsinə qəbul olub. 1984-cü ildə həmin institutu bitirərək Oğuz rayonunda Kalinin adına kolxozda baş zoomühəndis işləyib. 1985-ci ildən Kəlbəcər rayon Aqrar Sənaye Birliyində tədarük üzrə böyük müfəttiş, Kəlbəcər rayon İcra Hakimiyyəti Aparatının Ərazi İdarəetmə orqanları ilə iş və Kənd Təsərrüfatı şöbələrində baş mütəxəssis və Kəlbəcər rayon təsərrüfatlararası iri buynuzlu mal-qara yetişdirmə və kökəltmə birliyinin direktoru vəzifələrində çalışıb.

Kəlbəcərin işğalından sonra Beynəlxalq Xilasetmə Komitəsində ( BXK) Aqrar Emal üzrə baş mütəxəssis, Az RİP-də ( Azərbaycan kənd İnvestisiya Layihəsi) təlimatçi vəzifəsində çalışmışdır. 200 -ci ildən "Travelers-Coffee " şirkətinin Azərbaycan filialının meneceridir.

İngilis və rus dillərini, kompyuteri, riyaziyyatı yaxşı bilir. Geniş dünyagörüşə, məntiqi təfəkkürə malikdir. Vətənpərvərdir. Ailəlidir, 3 övladı var. Öz sözləri ilə desək, narahat anlarında bəzi "cızmaqaralar" da yazır. Onlardan birini "Vətəndə Vətənsiz" başlığı ilə yazıb.

## VƏTƏNDƏ VƏTƏNSİZ

Vətəndə Vətənsiz-didərgin qardaş,
Necə keçir güzəranın Bakıda .
Heç vaxt verməz  Kəlbəcərin yerini,
Muğan, Şirvan , Gəncəbasar, Bakı da .

Məşhur idi torpağıynan, daşıynan
Başdan-başa  ləlü -gövhər İstisu.
Bədhaxların ayağında aşınan ,
Min bir dərdə şəfa-təpər İstisu.

Neyləyirik  xəzrini, gilavarı,
Bizi Dəlidağın mehi yaşadar.
Dünyada qalacaq dünyanın varı,
Qəlbimiz genişdir, nəfsimizsə dar .

Tərsinə qurulub dünyanın işi ,
İşləyən yox , işləməyən dişləyir .
Arvad öndə gedir, arxada kişi,
Xəcalətdən dil-dodağın dişləyir .

Tükənibdir dost–tanışda etibar,
Təmənnasız salamını alan yox.
Piştaxtaya düzülübdür namus-ar,
Təklifləri tələbatdan kalan, çox .

Kimsə yetmir bir kimsənin hayına ,
Damarlarda axan qanı buz  kəsir .
Şükr edirik Tanrının hər payına ,
Qatarımız son mənzilə tələsir .

Nizamini üzür Vətən həsrəti
Cismən burda, ruhən orda yaşayır.
Əlli bir yaşının  böyük sərvəti
Vətənli günləri ömürdən sayır!!!

## ABBASOV HİCRAN ASİF OĞLU



Polkovnik-leytenant Abbasov Hicran Asif oğlu 1964-cü ilin avqustayının 1-də Nəcəfalılarda anadan olub. Orta təhsilini doğma kəndində əla qiymətlərlə başa vurduqdan sonra, 1982–84–cü illərdə SSRİ silahlı qüvvələrində hərbi xidmətdə olub. 1985- 1989-cu illərdə AZPİ-nin radiotexnika fakültəsini bitirərək ali təhsil almışdır. Bakı Radio Zavod İstehsal Birliyində mühəndis vəzifəsində işə başlamışdır. Vətənin çətin günləri başlananda, 1991-ci il dekabrın 1-dən könüllü olaraq Azərbaycan Respublikasının Milli Ordusunda artilleriya bölməsində taqım komandiri kimi xidmətə başlamışdır. 1991-94-cü illərdə Kəlbəcər, Murovdağ, Füzuli, Tərtər bölgələrində erməni işğalçılarına qarşı gedən döyüşlərdə fədakarlıq və şücaət göstərmişdir. Hal-hazırda döyüş bölgəsində yerləşən hərbi hissənin komandiri vəzifəsində işləyir.

Yaxşı xidmətinə görə Azərbaycan Respublikası Ali Baş Komandanı və Müdafiə Nazirliyi tərəfindən bir neçə dəfə mükafatlandırılmışdır:

24. 01. 1994 - cü ildə “Hərbi xidmətə görə” medalı ilə.

26. 06. 2003 – cü ildə “ Qüsursuz xidmətə görə” 1 – ci dərəcəli medal ilə.

26.06.2003–cü ildə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi” yubileyi medalı ilə.

25. 06. 2007 – ci ildə “ Qüsursuz xidmətə görə” 2 – ci dərəcəli medal ilə.

25. 06. 2008 – ci ildə “Azərbaycan Bayrağı “ ordeni ilə.

19. 07. 2008 – ci ildə “Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 90 illiyi ( 1918 – 2008 ) “ yubiley medalı ilə.

Hicran Abbasov həm də gözəl ailə başçısıdır. Səbuhi adlı oğlu, Aytac və Zərintac adlı iki qız övladı var

## ƏLİYEV MEHMAN ŞURA OĞLU



Əliyev Mehman Şura oğlu 1964 -cü ildə Nəcəfalılar kəndində Şura Baxşalı oğlunun ailəsində dünyaya göz açmışdır. O, 1981-ci ildə Nəcəfalılar kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir. Hərbi xidmətdən qa–yıtdıqdan sonra bir müddət Sumqayıt şəhərində yaşamış və işləmişdir. Mehman Əliyev təhsilini davam etdirmək üçün Rusiya Federasiyasına getmişdir. O, Belqorod şəhərində ali məktəbə daxil olmuş və arxitektor sənətinə yiyələnmişdir. Hazırda ailəsi ilə birlikdə Rusiya Federasiyasının Kotlos şəhərində yaşayır və şəxsi bizneslə məşğuldur. Qardaşlarını, əmisi oğlanlarını və digər həmyerlilərini ətrafına toplayaraq onlara həyatda özlərinə düzgün yol seçməkdə, işbirliyi qurmaqda yaxından köməklik edir. Ailəlidir. 3 qızı və 1 oğlu var.



***Mehman qardaşı Anarla birlikdə (RF Kotlos şəhəri.)***

## MUSAYEV KAMAL ZÜLFÜ OĞLU



Kamal Musayev 1964 -cü ildə, şaxtalı qış günlərinin birində Nəcəfalılarda anadan olub. Orta təhsilini doğma kəndində alaraq, Politexnik İnstitutunun radiotexnika fakültəsinə daxil olmuşdur. İnstitutu əla qiymətlərlə başa vuran Kamal Musayevin istehsalata gedən yolu müharibədən keçdi. Kəlbəcərin mühasirədə keçirdiyi ağır illərdə qəlbində təpər olan hər kəsin seçdiyi bir yol...

1991-ci ildə Kamal da xidmət etmək üçün könüllü olaraq cəbhəyə yola düşür və 2000-ci ilə kimi müxtəlif bölgələrdə zabit kimi xidmət edir.

O, hal-hazırda AzEnerji-də baş mühəndis vəzifəsində işləyir. Kollektivin həmkarlar ittifaqının sədridir.

Evlidir. Ülvi və Kamil adlı iki oğul balası var.

## ƏLİYEV ELÇİN BEHBUD OĞLU



Əliyev Elçin Behbud oğlu 11 iyun 1966-cı ildə Mingəçevir şəhərində anadan olmuşdur. Atası Əhmədov Behbud Əhməd oğlu Kəlbəcər rayonunun Çaykənd kəndindən, anası Əliyeva Mənzər Baxşəli qızı isə Kəlbəcər rayonunun Nəcəfalılar kəndindəndir.

Elçin Əliyev 1983-cü ildə Nəcəfalılar kənd orta məktəbini bitirdikdən sonra təhsilini davam etdirmək üçün Türkmənistan Respublikasına getmişdir. 1984-86-cı illərdə Pskov şəhərində Sovet ordusu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən qayıdandan sonra 1986-cı il dekabr ayının 1-dən Türkmənistan Respublikası Çələkən şəhər Daxili İşlər Şöbəsində milis nəfəri kimi fəaliyyətə başlamışdır. 1990-cı ildə Aşqabad Milis Məktəbinin əyani fakültəsini fərqlənmə diplomu ilə bitirərək həmin ilin avqust ayında Moskva Ümumittifaq Ali Hüquq İnstitutunun qiyabi şöbəsinə daxil olmuşdur. 1994-cü ildə həmin ali təhsil ocağını da müvəffəqiyyətlə bitirərək, Aşqabad şəhərində milis sahə müvəkkili, əməliyyat müvəkkili və milis müstəntiqi vəzifələrində işləmişdir.

Doğma Kəlbəcərin və bütünlükdə Qarabağın işğalına dözə bilməyən Elçin Əliyev 1994-cü ilin fevral ayında öz xahişi ilə köçürmə yolu ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin sərəncamına gəlir. O, cəbhə bölgəsində yerləşən hərbi hissədə, hərbi polis orqanlarında, 1995-ci ilin sentyabr ayından isə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemində müxtəlif vəzifələrdə işləmişdir. Kapitan hərbi rütbəsi vardır.

Elçin Əliyev 2003-cü ildə "Ədl Hüquq Servis" MMC-ni təsis etmiş və onun direktoru vəzifəsində işləmişdir.

O, hal-hazırda Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvüdür.

Elçin Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Yevlax rayonunun Kövər, Malbinəsi, Qoyunbinəsi və ətraf kəndlərində məskunlaşmış məcburi köçkün ailələrinə, həmçinin şəhid və imkansız ailələrə maddi yardım göstərilməsi məqsədilə ulu babası Seyid Əlinin adını daşıyan «Seyid Əli» icması yaradılmışdır. Həmin icmanın 5500 -dən çox üzvü vardır. «Seyid Əli» icması bir çox beynəlxalq hummanitar təşkilatlarla, o cümlədən Amerikanın «Kounterpart» Beynəlxalq humanitar təşkilatı ilə sıx əlaqələr saxlayır. Həmin təşkilatın xətti ilə dəfələrlə icma üzvlərinə müxtəlif yardımlar: ərzaq məhsulları, geyim paltarları, məişət əşyaları, xeyir -şər məclisləri üçün çadırlar və başqa yardımlar paylanmışdır.

Atası Əhmədov Behbud Əhməd oğlu 1941-ci ildə Kəlbəcər rayonunun Çaykənd kəndində anadan olmuşdur. Uzun illər Türkmənistan Respublikasında, daha sonralar isə Azərbaycanda neft sənayesində işləmişdir. 2004-cü ildə o, yaşadığı Bakı şəhərində rəhmətə getmiş və Abşeron rayonunun Ceyranbatan qəsəbəsindəki qəbiristanlıqda dəfn olunmuşdur. Allah rəhmət eləsin!

Anası Əliyeva Mənzər Baxşəli qızı 1936-ci ildə Kəlbəcər rayonunun Nəcəfalılar kəndində Baxşalı Seydalı oğlunun ailəsində anadan olmuşdur. Hal-hazırda Kəlbəcər rayonundan məcburi köçkün kimi Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır.

Onun Ramilə (1981), Mətanət (1982) adlı bacıları və Elvin (1985) adlı qardaşı var.

Elçin Əliyev həm də nümunəvi ailə başçısıdır. O, 1986-cı ildə Məmmədova Yeganə Böyükkişi qızı ilə ailə həyatı qurmuşdur. Həyat yoldaşı Əliyeva (Məmmədova) Yeganə Böyükkişi qızı 1 noyabr 1966-cı ildə Ağcabədi rayonunun Qaradolaq kəndində anadan olmuşdur. Onun atası Məmmədov Böyükkişi Aslan oğlu əslən Ağcabədi rayonunun Qaradolaq kəndindən, anası Xıdırova Səriyyə Xasay qızı isə Laçın rayonunun Soyuqbulaq kəndindəndir.

Onların birgə nikahlarından Ramil (1988), Aytən (1992) və Emil (1999) adlı övladları vardır. Ramil Odlar Yurdu Universitetində tələbədir. Aytən Bakı şəhəri 90 saylı orta məktbin 11-ci sinfində, Emil isə həmin məktəbin 5-ci sinfində oxuyurlar.

## ABBASOV MÜBARİZ HEYDƏR OĞLU



Abbasov Mübariz 20 iyul 1966-cı ildə Nəcəfalılar kəndində Avazlılar nəslinin hörmətli nümayəndəsi olan Heydər kişinin ailəsində dünyaya göz açıb. Hələ körpə yaşlarından taleyin sərt imtahanına çəkilən Mübariz kiçik yaşlarında olarkən atasını itirdiyindən ailə qayğılarını çox erkən yaşlarından çəkməli olur. O, 1973-1983-cü illərdə Nəcəfalılar kənd orta məktəbini bitirib, Rusiyanın Beloqorsk şəhərinə hərbi xidmətə yola düşür. 1990-93-cü illərdə Bakı Yeyinti Sənayesi Texnikumunda təhsil almışdır. O, 1996-cı ildən Daxili İşlər Nazirliyində fəaliyyətə başlamaqla yanaşı, Taras Şevçenko adına Kiyev Dövlət Universitetinin hüquq fakültəsinə daxil olur və 2002-ci ildə həmin universiteti bitirir. Sonra isə Polis Akademiyasında təhsilini artırır. 2007-ci ildə Akademiyanı bitirib, Daxili İşlər orqanlarında fəaliyyətini davam etdirir. Polis kapitanıdır. Ailəlidir. Rəhimə və Mədinə adlı iki gül balası var.

Son dərəcə vətənpərvərdir. İşdə olduqca dözümlü, nizam-intizamlı və lazımı qədər möhkəm olan Abbasov elinin, xüsusilə də həmkəndlilərinə qarşı olduqca mülayim, dərd-sərlərinə qarşı çox həssasdır.

El-obasının adət-ənənələrinin və adının yaşaması üçün əlindən gələni əsirgəmir. Doğma kəndin adını yaşatmaq məqsədilə onun ailə üzvləri Bakı şəhərində «Nəcəfallar» MMC təsis etmişdir. Cəmiyyət bu gün də fəaliyyətini davam etdirir. Ona gördüyü bu işlərində uğurlar arzulayırıq.

# HƏMİDOV ADİL İBRAHİM OĞLU



Həmidov Adil İbrahim oğlu 07.12. 1967-ci ildə Pirilərdə anadan olub. Orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra sənədlərini M. F. Axundov adına instituta versə də daxil ola bilməyib, SSRİ silahlı qüvvələrində hərbi xidmətə yola düşür. Qazaxıstanın Alma-ata, Balxaş, Karaqanda şəhərlərində hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən sonra isə arzuladığı instituta daxil olur. O, 1995-ci ildə M. F. Axundov adına APRDƏ-nin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Ali təhsil illərində həmkarlar təşkilatının sədri, bədii -özfəaliyyət dərnəklərinin fəal üzvü olmaqla yanaşı, öz şeirləri ilə tədbirlərdə dəfələrlə çıxış etmişdir.

Kəlbəcər işğal olunduğu üçün institutdan azad təyinat götürərək Rusiyanın Novosibirsk şəhərində yaşayan qohumlarının yanına getmişdir. Novosibirsk şəhəri Oktyabrsk rayonunun 167 N-li məktəbində rus dili müəllimi işləməyə başlayır. 1997-ci ildə Vətənə dönərək əvvəl 88 saylı liseydə, sonra isə Binəqədi rayon 157 saylı məktəbdə müəllim işləyib. 2001-ci ildən həmin məktəbdə direktor müavini işləyir. Rayonun bütün ictimai-siyasi tədbirlərində fəal iştirak edir. YAP -ın fəal üzvlərindəndir. 1999 -cu ildən bu günədək məntəqə seçki komissiyasının üzvü və katibidir. Dəfələrlə dövri mətbuatda şeirləri çap olunub. ”Qisasa çağırır”, “Kəlbəcər dünyası” almanaxlarının və «Müəllim ömrü» kitabının müəlliflərindən biri, “Təmənnasız sevgi yoxmuş” kitabının isə müəllifidir. Təbiətcə romantikdir. Kəlbəcəri xəyallarında yaşadır. Təkcə Vətən həsrəti olmasaydı, həyatdan narazı olmazdı. Gözəl ailə başçısıdır. Xanımı-təcrübəli tibb bacısı Ziyarət xanım bu ağır dərdlə mübarizə aparmaqda ona yardımçı olur. Xanımının anası Məmmədova Səbirə isə ona ana dərdini yüngül

keçirməyə kömək edir. Oğlu Həmidov İlkin 7-cı sinfin əlaçı şagirdlərindəndir. Daim Böyük Yaradana şükürlə yaşayan şair zəhmətsevər atasına, gözəl müəllimlərinə və sevimli ailəsinə təşəkkür etməyi özünə borc bilir. Dünya yaxşı insanlardan xali deyil.

Ancaq gözəl insanların ətrafında yaşasa da, həyatda tapdıqlarından çox itirdikləri olub. Bu itirilənlərdən üçü isə onun varlığına daha çox zərbə vurub; əvvəl əziz ana, sonra sevdiyi el-oba, sonra da müdrik ata itkisi. Bu və ya digər yaraları sağaltmaq uğrunda daim axtarışda olan Adil Həmid hər qarışında izi qalan vətəni Kəlbəcər haqqında, doğma kəndi Nəcəfalılar haqqında kitab yazmaqla elinə-obasına olan borcunun yüzdə birini vermək istəyir.











## ŞÜKÜROV ELŞAD XASAY OĞLU



Elşad Xasay oğlu Şükürov 1969-cu ilin dekabrında dünyaya gəlib. Atası Şükürov Xasay Qaçay oğlu Yevlax rayon Hacımahmudlu kəndinə köçdüyündən uşaqlıq illərini orada keçirmişdir.

1987-ci ildə orta məktəbi başa vuraraq, Tambov Ali Hərbi təyyarəçilik məktəbinə daxil olmuşdur. Vətən göylərini qara buludlar alan zaman faciələri ən yüksəkdən seyr etmişdir. Döyüş bölgələrinin ən qaynar nöqtələrinə özünü vaxtında çatdıran Şükürov, Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Aviasiyasında təyyarəçi-mühəndis vəzifəsində çalışır. Qarabağ müharibəsi iştirakçısı kimi dəfələrlə xüsusi xidmətinə görə müxtəlif medallarla təltif olunub.

Evlidir. Bir oğlu, bir qızı var.

Peşəkar təyyarəçimizə aydın səma və rahat uçuş arzulayırıq. O gün olsun ki, Elşad Şükürov barıt qoxusuz Vətən göylərində Kəlbəcərin müalicəvi -istirahət ocağı olan İstisuya gedən turistləri və həmvətənlərimizi daşıyan təyyarələrimizi idarə etsin.

# PİRİYEV ELÇİN MUSA OĞLU



1972-ci il iyulun 3-də Piriyev Musanın ailəsində bayram ab havası varıydı. Ailədə ikinci oğul dünyaya gəlmişdi. Məşədi Pirməmməd kişinin davamçısı-nəticəsi olan oğul. Məsləhətləşib adını Elçin qoydular. 1989-cu ildə 27 № li Sumqayıt şəhər məktəbini əla qiymətlərlə başa vurub, maksimum balla AzPİ (indiki AzTU)-ya qəbul oldu.

İnstitutu fərqlənmə diplomu ilə bitirib hərbi xidmətə yollandı. Azərbaycan Silahlı Qüvvələrinin cəbhə bölgəsində xidmət edib. Hal-hazırda ehtiyatda olan zabitdir. İdmanla daim məşğul olan Piriyev, "Bodibildinq" üzrə mütəxəssis, "TEYD" idman kompleksinin baş məşqçisidir. Tələbələri müxtəlif idman yarışlarında uğurlar qazanmışdır.

Riyaziyyatı yaxşı bilməklə yanaşı, ensiklopedik yaddaşa, məntiqi təfəkkürə malik sağlam düşüncəli bir gəncdir. Xobbisi kitab oxumaq, muğamlara, xalq musiqilərinə qulaq asmaqdır. Füzulinin, Nizaminin yaradıcılığını yaxşı bilir. İbadətlə məşğul olur.

Ailəlidir. Babasının adını yaşadan Kamran adlı bir oğlu var.

Qoy bu evdən həmişə uşaq gülüşünün səsi, ana-ata qayğısı, nənə nəvazişi əskik olmasın. Qoy Allahın izni ilə bu evə baş çəkməyə gələn ata ruhu ailəni gümrah, gülərüz və xoşbəxt görüb səmalara rahat və şad qayıtsın!

## ƏLİYEV NAZİM ŞURA OĞLU



Əliyev Nazim Şura oğlu 1970-ci ildə Nəcəfallıar kəndində Şura Baxşəli oğlunun ailəsində dünyaya gəlmişdir. 1987-ci ildə Nəcəfalılar kənd orta məktəbini bitirmişdir. O, sovet ordusu sıralarında hərbi xidmətini başa vurduqdan sonra təhsil almaq üçün Türkmənistan Respublikasının Aşqabat şəhərində yaşayan bibisi oğlu Elçin Əliyevin yanına getmişdir. Nazim Əliyev Türkmənistan Respublikasında ali təhsil alaraq iqtisadçı sənətinə yiyələnmişdir. Uzun müddət Aşqabad şəhərində Ağac Emalı Kombinatında sex rəisi və başqa vəzifələrdə işləmişdir.

Hal-hazırda Rusiya Federasiyasının Kotlos şəhərində qardaşı Mehman Əliyevlə birlikdə bizneslə məşğuldur.

# HƏMİDOVA ZƏHRA İBRAHİM QIZI



Zəhra Həmidova 1972-ci il mart ayının 15-də sıravi kolxozçu ailəsində - İbrahim kişinin evində anadan olub. Uşaqlıqdan səliqəli, ağıllı, nəzakətli, dərs əlaçısı kimi tanınıb. Məktəbi əla qiymətlərlə bitirsə də, əvvəl anasının uzun sürən xəstəliyi və vəfatı, sonra da həssas qəlbində dərin iz buraxan köçkünlük həyatı ona ali təhsil almaq arzusuna çatmağa imkan verməyib. Əvvəllər gülə, çiçəyə, sonra isə ana həsrətinə şeir yazan Zəhra Qəmginli indi Kəlbəcər həsrətinə şeir yazaraq qəlbinə təskinlik verir. 50-yə yaxın vətən həsrətli, ana həsrətli şeirləri var. Ailəlidir. Rayonun sayılın-seçilən ağsaqqalı olan Piriyev İsanın evində gəlindir. Ceyhun adlı bir igid oğul bala böyüdür. Zəhranın şeirlərindən ikisini sizə təqdim edirik .

## KƏLBƏCƏR

Doğma məskənisən ulu babamın,
Çöllərinə qurban olum, Kəlbəcər!
Həsrətin çəkirəm elin, obamın,
Ellərinə qurban olum, Kəlbəcər!

Gülünü dərmişəm uca dağların,
Suyundan içmişəm buz bulaqların.
Yadımdan çıxmayır göy yaylaqların,
Güllərinə qurban olum, Kəlbəcər!

Bir qərib eldəyəm, könlüm qəfəsdə,
Gözüm yollardadır, qulağım səsdə.
Sağalar sorağın alan bu xəstə,
Dillərinə qurban olum, Kəlbəcər!

## YADIMA DÜŞDÜ

Bir gül dərdim solub getdi əlimdə,
Dağın laləzarı yadıma düşdü.
İstidən darıxdı ürək sinəmdə,
Murovun ağ qarı yadıma düşdü.

Biganə baxdılar yoldan ötənə,
"Köçkün" deyib dağ çəkdilər sinəmə.
Bələd oldum yaxşı-yaman elinə,
Elin etibarı yadıma düşdü.

Taleyim bəd gəldi əzəl yaşımdan,
Tərtər cuşa gəldi kədər yaşımdan.
Ovunduğum bir parça qara daşından,
Anamın məzarı yadıma düşdü.

## PİRİYEVA NƏZMİYYƏ SALMAN QIZI



Nəzmiyyə Hicran 1974-cü ilin ilk baharında Kəlbəcər rayonunun Vəng kəndində əslən Nəcafalılar kəndindən olan Piriyev Salman və Piriyeva Mərcan xanımın ailəsində anadan olub. Həyatın ilk acısını atasını itirəndə dadıb. Sonra da bacı və vətən dərdi... Kədərin məngənəsində böyüyüb, mətinləşib. Əla qiymətlərlə ali təhsil də alıb, perspektivli iş sahibi, gözəl ailə başçısı da olub. Dövri mətbuatda çap olunur. ”Günəş könlümün hərarəti” şeirlər kitabının müəllifidir. Yazıçılar birliyinin üzvüdür. Kədərli anlarının, həsrətli günlərinin həmdəmi olan bir neçə şeirini ixtiyarınıza veririk.

### TORPAQ

Atam üz qoyubdu qoynuna sənin,
Necə tapdalayım mən səni, torpaq?
Sığınıb, sarılıb boynuna sənin ,
Necə tapdalayım mən səni, torpaq?

Gəzərək üstündə oxşadım səni,
Tutub əllərimdə qoxladım səni,
Gözümün üstündə saxladım səni,
Necə tapdalayım mən səni, torpaq?

Atamı saxlayan ata evimsən,
Ağzımda alışıb yanan dilimsən.
Sən ki onu məndən çox istəmisən,
Necə tapdalayım mən səni, torpaq?

Məzarların qəriblikdə qalıbsa,
Sevdam səndə saralıbsa, solubsa,
Necə tapdalayım mən səni, torpaq?

Dərdimizə qalan yaxşı-yamansan,
Gahdan boşalansan, gahdan dolansan,
Nə vaxtsa mənə də qismət olansan,
Necə tapdalayım mən səni, torpaq?..

## A DÜNYA

Özümlə üz-üzə gələ bilmirəm,
Məni əllərimdən alan, a dünya.
Nəmli gözlərimi silə bilmirəm,
Qəmli gözlərimə dolan, a dünya.

Dolmusan köksümə bir istək kimi,
Gəldim hüzuruna mən dilək kimi,
Tumurcuq bağlayan gül-çiçək kimi
Açmamış gözümdə solan, a dünya.

Cavan ömrüm başdan-başa kədərmiş,
Nə faydası, ağlamağım hədərmiş.
Yarananlar sənə gəldi-gedərmiş,
Özünə tək özü qalan, a dünya!

# ABBASOV EMİN ƏLİ OĞLU



Adının fəxrlə çəkilməsini yüksək mədəniyyəti, gözəl tərbiyəsi ilə özünə hörmət qazanan dəyərli eloğullarımızdan biri də Emin Abbasovdur.

1979-cu il avqustun 20-də ziyalı ailəsində dünyaya gələn Abbasov Emin 1993-cü il Kəlbəcərin işğalına qədər Nəcəfalılar kəndində yaşamış və təhsil almışdır. Sonra Yevlax rayonunun Malbinəsi kəndində, daha sonra isə Bakı şəhəri Yasamal rayonu nun 20 və 286 saylı orta məktəblərində təhsilini davam etdirmişdir.

O, 1996-cı ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın tənzimlənməsi fakültəsinə daxil olub. 2000-ci ildə universitetin magistraturasına daxil olmuşdur. 2002-ci ildə magistraturanı fərqlənmə diplomu ilə bitirib hərbi xidmətə göndərilmiş və 2003-cü ildə hərbi xidməti başa vurmuşdur.

O, tələbə olarkən mətbuat orqanları ilə əməkdaşlıq etmiş, 2003-cü ildə isə “Zaminbank” KB-nin kredit şöbəsində kredit mütəxəssisi kimi fəaliyyətə başlamışdır. 2004-2007-ci illərdə “Aqrarkredit” QSC-də aparıcı iqtisadçı kimi çalışmışdır.

Emin Abbasov 2007-ci ildən bəri Azərbaycan Respublikası Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondunda çalışır. Hazırda “Risklərin idarə olunması qrupunun analitiki vəzifəsində işləyir. Evlidir, 2 övladı var.

## IBRAHİMOV RAMİL MƏHƏBBƏT OĞLU



Ibrahimov Ramil Məhəbbət oglu 22.07.1982–ci ildə Kəlbəcər rayon Nəcəfalılar kəndində ziyalı ailəsində anadan olmuşdur. O, 1988-ci ildə Kəlbəcər rayonunu Nəcəfalılar kənd orta məktəbinin birinci sinfinə daxil olmuş, lakin Kəlbəcərin işğalından sonra, 1993-cü ildə Bakı şəhəri Sabuncu rayonunda yerləşən Şuşa səhər Quşçular kənd orta məktəbində təhsilini davam etdirmişdir. Ramil 1999-cu ildə həmin məktəbi bitirib ADİU-nin Iqdisadiyyatın Dövlət Tənzimlənməsi Fakultəsinə qəbul olmuş, 2005-ci ildə həmin universitetin magistraturasını fərqlənmə diplomu ile bitirmişdir . Sağlam bədəndə sağlam ruh olar prinsipi ilə yaşayan həmyerlimiz müxtəlif idman sahələrinin də sirlərinə yiyələnmiş və gözəl fiziki hazırlığa müvəffəq olmuşdur.

2005-2006- cı illərdə həqiqi hərbi xidmətdə olmuş və nümunəvi xidmət göstərmişdir . Hal- hazırda Qaz emalı zavodunda ƏTS iş icraçısı vəzifəsində işləyir. Ailəlidir. Bir oğul övladının qayğıkeş atası və gözəl ailə başçısıdır.

# IBRAHİMOV AZƏR MƏHƏBBƏT OĞLU



Həmin gün Kəlbəcər rayonunun Nəcəfalılar kəndində bir xoş xəbər, bir müjdəli səda camaatda sevinc əhvalı yaratmışdır. 04. 07.1980–ci il. Elimizin sevimli ziyalıları olan Ibrahimovlar ailəsində çoxdan arzuolunan bir övlad dünyaya gəlmişdi. Azərbaycanın layiqli övladına çevriləcək bu oğulun adını məsləhətləşib Azər qoydular. O, 1986–cı ildə Nəcəfalılar kənd orta məktəbinin birinci sinfinə daxil olmuşdur. 1993- cü ildə Kəlbəcər rayonunun bədxah “qonşular” tərəfindən işğal olunandan sonra Bakı şəhəri Sabuncu rayonunun 112 saylı orta məktəbində təhsilini davam etdirmişdir. Azər İbrahimov 1997-ci ildə həmin məktəbi bitirib ADNA (Az Dovlet Neft Akademiyası)-nın Geoloji Kəşfiyyat Fakültəsinə qəbul olmuşdur. 2001-ci ildə həmin akademyanı bitirmişdir. 2002-ci il həqiqi hərbi xidmətə leytenant rütbəsiylə başlasada nümunəvi hərbi xidməti və fiziki hazırlığı rəhbərliyin diqqətindən yayınmamışdır. 2003 ilde baş leytenant rütbəsi almiş, 2004 ildə isə ehtiyata buraxılmışdır . Hal -hazirda Azərinşaat serviz MMC-də Topoqraf vəzifəsində işləyir. Kollektivin nüfuzlu və hörmətli gənclərindəndir. Ailəlidir. Bir övladı var.

## XƏLİLOV MAQSUD ƏDALƏT OĞLU

Xəlilov Maqsud Ədalət oğlu 27.04.1981-ci ildə Kəlbəcər rayonunun Qılınclı kəndində zəhmətsevər usta ailəsində dünyaya gəlib. Atası alitəhsilli inşaatçıdır. 1982-ci ildə ailəsi ilə birlikdə Bakıya köçüblər. 5-ci sinfə qədər Binəqədi rayon 3 № li məktəbdə, sonra isə 144 № li məktəbdə oxuyub. 1997-ci ildə həmin məktəbi bitirən Maqsud Xəlilov Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəqliyyat tikintisi fakültəsinə daxil olur. 2001-ci ildə 20 yaşında Universiteti bitirən gənc məzun hərbi xidməti başa vurub . O vaxtdan "Azərkörpü " səhmdar cəmiyyətində iş icraçısı vəzifəsində çalışır. " Əzizbəyov", "20 yanvar" körpülərinin tikintisində "Bakı-Samur" yolunun çəkilişində, "Taxtakörpü-Ceyranbatan" su kanalının tikintisində böyük əməyi olub. Ailəlidir. Bir qızı var.



# PİRİYEV ELŞƏN MUSA OĞLU



Piriyev Elşən (Eloğlu) 1975-ci ildə Sumqayıt şəhərində Məşədi Pir Məhəmməd nəslinin seçilən, hörmətli şəxslərindən biri olan Musa Piriyevin ailəsində dünyaya göz açmışdır. Orta təhsilini Sumqayıt şəhəri 37 №li məktəbdə almışdır. Uşaqlıqdan şeirə, ədəbiyyata meyilli olub. M.Ə. Sabirin, Ə.Vahidin, pərəstiş etdiyi Axund Yavərin şəxsiyyətinə və yaradıcılığına daha çox maraq göstərmişdir.

Sumqayıt Politexnik Texnikumunu bitirdikdən sonra hərbi xidmətə çağırılıb. Ağdam, Füzuli və Tərtər bölgələrində gedən döyüşlərin iştirakçısıdır.

Satirik şeirlər, qəzəllər, meyxanalar müəllifidir. Sumqayıt şəhərində fitri istedadlı meyxanaçı kimi tanınır. Məclislərdə onun iştirakını arzulayanlar çoxdur. Mühitin təsiri böyükdür, deyənlər yanılmır. Sumqayıt, Saray, Corat ustadlarının dilindən meyxana eşidən, onların ətrafında böyüyən Nəcəfalılar oğlunun qismətinə həmyerliləri kimi qoşma, gəraylı, rübai, təcnis yox, məhz qəzəl və meyxana yazmaq düşüb.

Hələ ki, "subaylıq sultanlıqdır" şüarını üstün tutur.

Adətən, satirik janrda yazan həmyerlimizə demək istəyirik ki, "optimist ol, şair! Gündən-günə inkişaf edən, gözəlləşən dünyada heç də hər şey pis deyil". "Pis günün ömrü isə az olar" deyiblər. İnşallah, yaradıcılığında yeni ruhlu şeirlərə, optimist fikirlərə təsadüf etmək arzusu ilə sağollaşaq.

## SƏRF ELƏMİR

Gələ bir sakit həyat, baş-qulağın dinc gedəsən,
Bu olar salamatı, birdəfəlik dincələsən.
İraq olsun, əzizin öldü, özün dəfn edəsən,
Mollanın çəkdiyi, qardaş, salavat sərf eləmir.

Tutalım, öldü bir insan, demə tək gözyaşı var.
3 – ü var, 7- si var, 40 – ı var, həm  başdaşı var.
Üstəlik ehsanı var, mollası var, bozbaşı var,
O səbəbdən də tez ölmək, bu saat sərf eləmir.

O qızıl onluğu ki, qabaq qoyardın cibinə,
Eyləyib tam bazarlıq, həm də baxardın kefinə.
Hələ artıq  qalardı, pul gətirərdin evinə,
Çox heyiflər o pula, indi manat sərf eləmir.

Gəldi Barmek ki, o gün qulluğa, kəsdik beçəni,
Nə biləydik fikrini, ya ürəyindən keçəni.
Qoşasan, vay o günə, mənzilində tok peçini,
Yazacaq hər bir aya yüzcə manat, sərf eləmir.

Kişi lazımdır bu gün baxsın  həyat yoldaşına.
Palına – paltarına, sırğasına, üst-başına.
Kişi ki, işsiz oldu, daş salıbdı öz başına,
Dəli şeytan da deyir, arvadı at, sərf eləmir.

Dedi: get alver elə, bir dəfə dostum Fərəməz,
Guya ki, dövlət işi alverə heç olmaz əvəz.
Mən yazıq da mayamı tez verib aldım tərəvəz,
O da ki, al manata , sat manata , sərf eləmir.

## DÜZƏLƏR

Kimi dindir, deyəcək qəm yemə, dövran düzələr
Qılaraq üzdə namaz, xəlvəti meydən dadarıq.
Çıxarıb çərçivəsindən zamanı oynadarıq,
Bizə şeytan nə gərək, şeytanı biz aldadarıq.
Biz müsəlmanlar düzəlsək, yəqin ki şeytan düzələr,
Kimi dindir, deyəcək qəm yemə, dövran düzələr.

Başa sal sən məni bəs, qəm yeməyim mən nə yeyim,
Qəm hopubdur canıma, qəmlə dolubdur iliyim.
Doğulandan bu cahan mülkünə qəmdir yediyim,
Mən qəmin sarvanıyam,qəm mənə karvan, düzələr,
Kimi dindir, deyəcək qəm yemə dövran düzələr.

Evdə arvad-uşağın rəngi solub mərci kimi.
Nə qədər pul alasan qonşudan əl borcu kimi?!
Gələ bir minlik hər ay cibinə cib xərci kimi.
Düz uzatsan ayağı ölçüyə ,yorğan düzələr.
Kimi dindir, deyəcək qəm yemə dövran düzələr.

Bakidə mərkəzi “torqovi”yə gir, Ankara bul.
Dilənir qapımızın ağzında hər gün Arabul,
Paranın vaxtı gəlib çatdı ,əfəndim para bul.
Param olsa qoşaram sayğaca cərəyan düzələr.
Kimi dindir,deyəcək qəm yemə, dövran düzələr.

Unuduldu qara zurnayla mağar, kənd havası,
Ya “Süleymani”, “Papaq”, “Montini”, “Dərbənd” havası.
Əvəzində çalınır amerikan, rus, hind havası,
Təzə qanunla, görən, köhnə dəyirman düzələr,
Kimi dindir, deyəcək qəm yemə, dövran düzələr.

***Elşən Eloğlu.***

## İBRAHİMOV EYVAZ ABBAS OĞLU



İbrahimov Eyvaz Abbas oğlu 14.01.1969-cu ildə Nəcəfalılarda anadan olmuşdur. Orta məktəbi əla qiymətlərlə qurtaran Eyvaz, həm də məktəbin mədəni tədbirlərində ən fəal şagird olub. Hələ uşaq yaşlarından aktyor olmaq arzusunda olan Eyvaz şagird vaxtlarından məktəbin özfəaliyyət dərnəyində bir neçə tamaşada maraqlı rollar oynamışdır.

1987-1989-cu illərdə Ukraynanın Donetsk şəhərində hərbi xidmətdə olmuşdur. 1990-cı ildə Azərbaycan Dövlət İncəsənət Universitetinin dram və kino aktyoru fakültəsinə daxil olmuşdur. Hələ III kursda oxuyarkən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında aktyor kimi işləməyə başlayır. 1995-ci ildə Universiteti bitirir və teatrın ən fəal aktyorları sırasına daxil olur.

"Bala başa bəladı" tamaşasında jurnalist, "Mənim ağ göyərçinim"də Bəhruz, U.Şekspirin "Səfillər" tamaşasında Doktor Pinc rollarında, "Bu gözəl dünya", "Etiraf", " Küçələrə su səpmişəm" filmlərində epizodlarda çəkilmişdir.

Dəfələrlə Azərbaycan Mədəniyyət Nazirliyinin xətti ilə Türkiyədə, Ukraynada və Rusiyanın şəhərlərində qastrol səfərlərində olmuşdur. Xobbisi musiqi və əl işləridir. Bir çox musiqi alətlərində ifa etməyi bacarır.

Ailəlidir. Xanımı Sadıpuri Könül Tofiq qızı ilə birgə nikahından Nərgiz və Cavad adlı iki övladı var.

# HƏMİDOV ELÇİN MƏHƏR OĞLU



Həmidov Elçin Məhər oğlu 30.07.1988-ci ildə Rusiyanın Novosibirsk şəhərində dünyaya gəlib. 1990-cı ildə doğma Nəcəfalılar kəndinə qayıtmış və 1993-cü il Kəlbəcərin işğalına qədər bu səfalı yerlərin havasını ciyərlərinə çəkmək ona nəsib olmuşdur. Məlum hadisələrdən sonra Yevlax rayonunda oxumuş, sonra isə Novosibirskiyə qayıdaraq orta təhsilini orada başa vurmuşdur. Təhsil almaqla yanaşı, həm də sərbəst güləş idman növü ilə məşğul olmuşdur. Bu illərdə Omsk, Tomsk, Kemerovo, Barnaul şəhərlərində keçirilən yarışların iştirakçısı olmuş və qalib yerləri tutmuşdur. 2003-cü ildə Rusiyada "Yeniyetmələr arasında keçirilən yarışda" sərbəst güləş üzrə federasiya kubokunun qalibi olmuşdur.

2003-cü ildə ailəsi ilə birlikdə Gəncəyə gələrək təhsilini və idman sahəsində nailiyyətlərini orada davam etdirmişdir. 2004-2006-cı illərdə keçirilən DİN-in "Açıq döşək birinciliyində" qalib olmuşdur.

2005-ci ildə şəhid Mehman Ələkbər oğlu Ələsgərovun xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə 5-ci Respublika turnirində II yerə layiq görülmüşdür. 2006-cı ildə həqiqi hərbi xidmətə çağırılan Həmidov Naxçıvan MR-ın DİN DQ-da xüsusi təyinatlı bölmədə nümunəvi xidmət edib. Yüksək fiziki hazırlıq, nizam -intizam göstərdiyinə görə hərbi hissə komandiri tərəfindən fərman və həvəsləndirici təltiflərə layiq görülmüşdür.

Vətənpərvərlik və milli ruh hissinə, mətinlik və dözümlülük keyfiyyətinə malik olan Həmidov həqiqi hərbi xidməti başa vurduqdan sonra öz sevimli peşəsini davam etdirmək məqsədi ilə DİN DQ-nin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirir.

Komandanlığın dərin hörmətini və etimadını qazanaraq, keçirilən bütün tədbirlərdə layiqincə iştirak edir. Dəfələrlə fəxri fərman və təltiflərə layiq görülmüşdür.

2008-ci il iyunun 26-da keçirilən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 90 illiyinə həsr olunmuş paradda iştirak edib və möhtərəm Prezident İlham Əliyev cənablarının adından verilən "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 90 illiyi" medalı ilə təltif olunmuşdur. 14 iyun 2009-cu ildə "Dirçəliş bayramı"na həsr olunmuş sərbəst güləş üzrə DİN DQ-nin arasında keçirilən yarışda birinci yerə layiq görülmüş və medalla təltif olunmuşdur. Dəfələrlə Daxili İşlər Nazirliynin rəhbərliyi tərəfindən müxtəlif təltiflərə layiq görülmüşdür.

25 iyul 2009-cu il tarixində DİN-in keçirdiyi paraşüt kursu zamanı paraşütdən nümunəvi sıçrayış nümayiş etdirmişdir.

Bu şərəfli yolda ona uğurlar arzulayırıq !



# ƏLİYEV RAMİL ELÇİN OĞLU



Əliyev Ramil Elçin oğlu 23 yanvar 1988-ci ildə Türkmənistan Respublikasının Çələkən şəhərində dəyərli eloğlumuz Elçin Əliyevin ailəsində dünyaya gəlmişdir. O, 2006-cı ildə Bakı şəhəri 90 saylı orta məktəbi bitirmişdir. 2006-2008-ci illərdə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətində həqiqi hərbi xidmətdə olmuşdur. Nümunəvi xidmətinə görə taqım komandirinin müavini təyin olunmuş, çavuş hərbi rütbəsini almışdır. O, «Odlar Yurdu» Universitetində Biznesin təş–kili və idarə edilməsi fakültəsində oxuyur. Ouduğu universitetin ictimai həyatında fəal iştirak edir, qrup nümayəndəsidir. Gözəl tərbiyəsi, nümunəvi davranışı və elmə olan həvəsi ilə universitet rəhbərliyinin, pedaqoji kollektivin, həmçinin qrup yoldaşlarının dərin hörmətini qazanmışdır. Olduqca vətənpərvərdir. Doğma Nəcəfalıları, uşaqlıq çağlarının orada keçirdiyi anlarını ən xoş xatirələr kimi əziz tutur. Vətən torpaqlarının tezliklə işğaldan azad olmasını, qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmalarını arzulayır.



## PİRİYEV SİRAC SABİR OĞLU



Nəslinin gələcəyini davam etdirən, güvəncli gənclərdən biri də Piriyev Siracdır. Sirac 1989-cu ildə Pirilərdə dəyərli ziyalımız Sabir ailəsində anadan olub.

Vətənin ağır günlərini körpəlik yaddaşına qara hərflərlə yazan Sirac, ailəsi ilə birlikdə Bakıda məskunlaşıb.

Orta təhsilini Binəqədi rayon 300 (əvvəlki 5 № li) saylı məktəbdə alıb. O, həmin ilə BDU-nun hüquq fakültəsinə (əyani) 600 balla qəbul olub.

Böyük planlar, yüksək amallar uğrunda çalışan Sirac Piriyev tanınmış Məşədi Pirimməmməd nəslinə və sevimli, ziyalı atasına layiqli övlad olmağa söz verib. "Niyyətin hara, mənzilin ora" deyiblər. Ulu Tanrı yardımçın olsun!!

## ƏLİYEV ELXAN NATİQ OĞLU



Elxan Əliyev 1994-cü ildə Nəcəfalılar kənd sakini Natiq Şura oğlunun ailəsində doğulmuşdur. Şura kişinin qeyri -adi gücü nəsildən -nəslə keçərək bu gün nəvələrində də özünü göstərir. Nəvəsi Əliyev Elxan Natiq oğlu yaşının az olmasına baxmayaraq, istər respublikamızda, istərsə də xarici ölkələrdə bir çox idman yarışlarının qalibi olmuş, xeyli sayda medal və fəxri fərmanlara layiq görülmüşdür. O, 2009-cu ildə azyaşlılar arasında keçirilən kikboksinq üzrə yarışda dünya çempionu olmuşdur. İdmanda olduğu kimi dərslərində də uğurlar qazanır.

Ulu Tanrıdan gənc pəhləvanımıza gələcək döyüşlərdə daha böyük uğurlar qazanmasını, yüksək zirvələri fəth etməsini diləyirik!

## HƏMİDOV İLKİN ADİL OĞLU



İlkin Həmidov 1997-ci ildə Bakı şəhərində Nəcəfalılar kənd sakini Adil İbrahim oğlu Həmidovun ailəsində doğulmuşdur. O, Bakı şəhəri 157 saylı orta məktəbin 7-ci sinfində oxuyur. Hələ kiçik yaşlarından incəsənətə meyli olan İlkin rəssam Yaşar Rəhimovun şagirdidir və ondan rəssamlığın sirlərini öyrənir. O, pianoda bir çox el havalarını da çalır. Bundan başqa İlkin bir çox aktyor və müğənniləri parodiya etməyi də bacarır. Gənc və hazırcavablar dərnəyinin üzvü kimi R.Behbudov adına Mahnı Teatrında nümunəvi səhnəciklər göstərərək tanınmış aktyorların diqqətini cəlb etmişdir. İdmana böyük həvəs göstərən İlkin İdman Universitetində üzgüçülüyə də gedir. Bütün bunlarla yanaşı, dərslərində də məsuliyyətlidir, sinif əlaçısıdır. Məktəbdə keçirilən tədbirlərdə fəal iştirak edir, bu tədbirlərin mahir aparıcısıdır.

Hələ üzünü görmədiyi Nəcəfalıların bir çox yer -yurd adlarını bilir, nəcəfalıların çoxunu isə şəxsən tanıyır və onlarla ünsiyyətdə olmağı xoşlayır.

## ƏLİYEV EMİL ELÇİN OĞLU



Emil Əliyev 19 iyun 1999-cu ildə Bakı şəhərində Elçin Əliyevin ailəsində dünyaya gəlmişdir. O, Bakı şəhəri Rixard Zorqe adına 90 saylı orta məktəbin 5-ci sinfində oxuyur. Dərs əlaçısıdır. Emil idmana da böyük həvəs göstərir. Futbol, güləş kimi idman növlərini sevir və bu idman növləri üzrə məşqlərə gedir. Məktəbdə keçirilən idman yarışlarında iştirak edir, uğurlu nəticələr qazanır. Tərbiyəsi, nümunəvi davranışı, ağlı və zəkası ilə həm yaşadığı qəsəbə sakinlərinin, həm də müəllim və sinif yoldaşlarının sevimlisinə çevrilmişdir.

Emil doğma Nəcəfalılarda olmasa da, ondan "haralısan" deyərək soruşanda, o böyük qürur hissi ilə "mən kəlbəcərliyəm" - deyə cavab verir.

Atası kimi gələcəkdə hüquqşünas olmaq arzusundadır. uru Tanrıdan ona öz ülvü arzularına çatmasını diləyirik.

Bu gün bütün çətinliklərə, narahatçılığa, mənəvi sıxıntılara baxmayaraq Nəcəfalılar gəncliyi yaşayır, inkişaf edir. Onlar müxtəlif sahələrdə uğurlar, nailiyyətlər qazanaraq bizlərdə ümidverici hisslər, fərəhli anlar yaşadırlar.

Şükürlər olsun ki, belə gənclərimiz çoxdur. Bizdən asılı olmayan səbəblərdən barələrində yaza bilmədiyimiz hələ bir çox bacarıqlı, layiqli, gənclərimiz vardır. Onlardan Piriyev Cəbrailin, Piriyev Tofiqin, Piriyev Çingizin, Piriyev Elnurun, Piriyev Firdovsinin, Həsənov Vüqarın, Həsənov Adilin, Əliyev Əlizamanın, Həmidov Məhərin, Piriyev Ənvərin, Məmmədov Əlinin, Əliyev Şahmalının, Əliyev Anarın, Əliyev Vurğunun, Mikayılov Ehtibarın, Mikayılov Anarın və s. adlarını böyük fərəhlə göstərmək olar.

# XI FƏSİL

## DÜNYA GÜLMƏSƏ YAŞAMAZ



## LƏTİFƏLƏR VƏ MARAQLI ƏHVALATLAR

Günbəgün inkişaf edən, gözəlləşən, zənginləşən Kəlbəcər əhalisi öz xoş günlərini yaşayırdı. İlbəil yeni binalar tikilir, yollar çəkilir, mənzillər abadlaşırdı. Əhali deyə-gülə öz gündəlik qayğıları ilə məşğul olurdu. Bütün bu qayğıların içərisində vətənə bağlılıq, el-obaya məhəbbət hissi duyulurdu. Çətin anlarda şən zarafatlar, lətifələr, musiqi sədaları köməyə gəlirdi.

Kəlbəcərdə hələ uzun illərdən adət-ənənələrini, məişətini, insanların xarakterlərini özündə qoruyub saxlayan folklor nümunələrinə tez-tez təsadüf edilirdi. Kəlbəcərin lətifə ustalarından Kərbəlayı Fərəci, Rəfini, Kəlbalanı çox adam söz altında qalmayan hazırcavab adamlar kimi tanıyırdı.

Bir çox kəndlərdə olduğu kimi, Nəcəfalılarda da lətifələri və maraqlı əhvalatları ilə tanınan adamlar vardi. Bu əhvalatlar camaatın xeyir işlərini daha duzlu, məzəli, maraqlı keçirər, ot biçinində, ev tikintisində, kolxoz işlərində fasilə vaxtı yorğunluğu aradan qaldırardı.

## MUSAYEV ZÜLFÜ VƏLİ OĞLUNUN LƏTİFƏLƏRİ

Nəcəfalılarda duzlu-mə–zəli sözləri, əhvalatları ilə, xüsusi danışıq tərzi ilə tanınan, söz altında qalmayan, hazırcavab kişilərdən biri də Zülfü kişidir. Musayev Zülfü Vəli oğlu 1935-ci ildə Nəcəfalılarda anadan olub. Zəhmətkeş bənnadır. Kəlbəcərin bir çox kəndində bənnalıq edib. Müxtəlif yerlərdə işləyərkən məzəli əhvalatlarla rastlaşaraq, həmin əhvalatlara öz «istiotunu-duzunu» qatmaqla özü–nəməxsus danışıq tərzi ilə lətifələrə çevirmişdir. Zülfü kişinin şahidi olduğu lətifələrə çevrilmiş həmin əhvalatlardan bir neçəsini Sizlərə təqdim edirik.

### İtdən yağa getdi, yağdan itə getmədi

Zülfü kişi bir evdə bənna işləyirdi. Ev sahibəsi çöl ocağında qazanda yağ əridirdi. Birdən it gəlib ayağını

yağ qazanına salır. Evin uşağı yüyürüb itin ayağını qazandan çıxarır və… Anasının narahat halda ona tərəf gəldiyini görən qız anasını sakitləşdirib deyir:

–Ana, narahat olma, elə sıxdım ki, itdən yağa getdi, yağdan itə getmədi.

## Südlü aş və it yalı

Zülfü kişi usta işlədiyi evdə ev sahibəsi çöl ocağın üstündə biri-birinə yaxın qoyulmuş iki qazanda xörək bişirir. Qazanların ağzı açıq olduğundan usta Zülfü hər iki qazanda bişən xörəklərin südlü xörəklər olduğunu görür. Nahar fasiləsi yaxın olduğundan acmış ustanın gözü qazanlarda qalır. Bu zaman Zülfü kişi görür ki, paqqapaqla qaynayan xörəklər qaynadıqca biri-birinə qarışır. Nahar vaxtı usta yemək gətirən ev sahibəsindən sorusur:

– Bacı, bəs o biri qazanda bişən nə idi ?

– O biri üzsüz südlə bişirdiyim it üçün yal idi. Necə bəyəm?

Bu sözlərdən əhvalı pozulan usta ac olmasına baxmayaraq naəlac qalaraq deyir :

– Heç, bu gün o qədər yorulmuşam ki, heç yeməyə də iştahım yoxdur. Ancaq çay içəcəm.

## Bax gör yıxılmadım ki?

Kənddə toy məclisi idi. Zülfü kişi Süleyman baba ilə bir stol arxasında əyləşmişdilər. Süleyman babanın uzun-uzadı etirazına baxmayaraq onu bərk içizdirməyə nail olan usta üstəlik onun cibinə bir şüşə araq qoyur ki, bunu da evdə iç, sənə xeyirdi. Camaata isə işarə vurub deyir:

– Bax, birdən Süleyman babanın cibinə baxarsız haaa. Onda araq-zad yoxdur.

Zarafatı başa düşən cavanlar onun cibində araq şüşəsi olduğunu bilib gülüşürlər. Bayıra çıxanda pilləkənləri düşmək lazım gəlir. Zülfü kişi Süleyman babanı pilləkənin kənarına gətirib deyir:

– Ehtiyatlı ol, mən 3 deməmiş düşmə və sayır: 1,2,3. Üç deyəndə Süleyman baba pilləkəni tullanır və tarazlığın saxlaya bilməyib yerə sərilir. Zülfü kişini çağırıb deyir:

– Ay bala, bax, gör yıxılmadım ki?

## Bu işi raykoma bildirəcəm

Bir gün ot biçini vaxtı Zülfü kişi görür ki, Süleyman babanın bığları səliqəsizdir.

Zülfü kişi ciddi halda elan edir:

– Eşitdim, bu gün raykom işimizə baxmağa gələcək. Süleyman dayının da bığları biz-biz durub. Görəsən, raykom bunu görəndə bir söz deməz ki?

Təşvişə düşən Süleyman kişi deyir:

– Bacıoğlu, çoxmu pis qalır? Bəlkə bir şey fikirləşəsən.

– Yaxşı, dayı, sən uzan, mən də biz duran tükləri bir-bir çəkib təmizlərəm.

İşin ilk mərhələsindən razı qalan kişi tez-tez deyir:

– Oxay, əllərinə qurban olum!

Birdən Zülfi kişi bir neçə tükü birdən dartıb qoparır.

Canı ağrıyan Süleyman kişi üzünə sərin su vura-vura deyir:

– Mən bu işi belə qoymaram. Düz raykoma deyəcəm. Sənə on il iş kəsdirəcəm.

## Bu gün çox iş görmüşük

Zülfü kişi ilə Surxay kişi cavan ikən birlikdə kolxoz üçün işləməli olurlar. Nəfəslərini dərəndə Surxay deyir:

– Əmi oğlu, maşallah, usta işləyirsən, olmaz məni də yanıncan aparasan, bir işinə yarıyaram.

– Yaxşı, tutaq ki, getdik işə. 2000 manat aldıq.Yarısı sənin, yarısı mənim. Al xərclə –, deyərək boş əlini ona tərəf uzadır.

Surxay onun əlini ehmalca geri qaytararaq deyir :

– Yox, əmioğlu, razı olmaram, az ver. Axı işin çoxunu sən görürsən.

Zülfü kişi:

– Götür-götür. Subay adamsan, ev üçün əşya al. Özünə toy elə.

– Yaxşı, nə alım?

– İki çarpayı götür. Toydan sonra lazım olacaq.

– Hə, düz deyirsən. Ayrı nə götürüm?

– Bir inək al, sağarsan uşağların südün içər.

– Yaxşı, əmioğlu, ayrı nə götürək?

– İnək üçün duz al, – deyib kənarda görünən iri köklü daşı göstərir.

Surxay kişi nə qədər çalışırsa, daşı götürə bilmir və ağırlıqdan onun beli sərpir. O, ufuldaya-ufuldaya belini tutub əyləşir. Həmən gün iş görə bilmirlər. Axşam briqadir heç bir iş görməyən işçilərə baxıb narazılıqla soruşur:

– Bu gün niyə az işləmisiniz?

Təmkinini pozmayan usta deyir: – yoldaş, briqadir, bu gün xeyli iş görmüşük və əhvalatı olduğu kimi danışır.

Briqadirin başını bulamaqdan başqa çarəsi qalmır.

## Sallananı verməрəm

Ustanın yanına gəlib ondan ev tikmək üçün divarı düz aparan dəmir uclu kəndir (şaqul) istəyirlər. Lakin adı yadından çıxdığından ustaya deyirlər:

– Usta, sallananı ver. Mən də ev tikmək istəyirəm.

Usta özünü bilməməzliyə vurub deyir:

– Bax, nə istəyirsiniz verə bilərəm. İstəsən, lap bir inək də sənə bağışlayaram. Amma sallananı verə bilmərəm.

– Bir dəfə oynadım inəyin gözü çıxdı.

Rəqs etməyi bacarmayan Zülfü kişi qərara alır ki, sabahkı toyda oynasın. Axşam inəkləri yemləmək adı ilə pəyəyə gedir və rəqs etməyi məşq edir. Bir neçə dəfə fırlanmışdı ki, əli ilə inəyin gözünü vurub çıxarır. Ertəsi gün evdəkilər ona inəyin gözünün çıxdığını xəbər verirlər. İşi başa düşən Zülfü kişi o anda özünü bilməməzliyə vuraraq, dillənmir. Bir neçə vaxtdan sonra kənddə toy olanda onu oynamağa çağırırlar. Zülfü kişi qəti etiraz edərək töybəyinə deyir :

– Bir dəfə oynadım, onda da inəyin gözü çıxdı.

## LƏTİF HƏMİDOVUN LƏTİFƏLƏRİ

Kəndin sakit təbiətli, dinə-imana inanan, halal kişilərindən biri də Həmidov Lətif idi. Axund və məşədi ailəsində doğulan, lakin uşaqlıq illəri müharibənin ağır illərinə təsadüf etdiyindən sonacan təhsilini davam etdirə bilməyən Lətif kişi çox sadəlövh adam idi. Kəndin cavanları hərdən ona zarafat edib cırnadırdılar. Bərk əsəbiləşəndə isə hamıya söyərdi. Buna görə kim Lətif kişiyə irad tutanda isə o, sakitcə deyərdi:

– Yox, qaqines, sənə söymədim. Səni ürəyimdə çıxmışdım.

## Onu mən bələdləmişdim.

Meşədən düz, sağlam bir ağac kəsib gətirəni görəndə Lətif kişi deyərdi:

– Allah xeyir versin, ancaq onu mən də bələdləmişdim.

## Çox sağ ol, ayağım.

Qoz ağaclarının dibi ilə gedən Lətif kişinin ayağına qoz dəyir. Əyilib qozu götürüb deyir:

– Sağ ol, ayağım, bir qoz tapdın!..

## İkimizdən birimiz, sən get

Lətif kişini kəndin mal-qarasını otarmağa növbəyə yazırlar. Növbə yoldaşı ilə mal otaran Lətif kişi yoldaşına hər dəfə deyir:

– Qaqines, ikimizdən birimiz, sən get o inəyi bəri qaytar.

### ƏLİYEV MİRZALI MİRZALI OĞLU

Nəcəfalılarda öz zəhməti ilə, halallıqla, heç bir dələduzluq bilmədən yaşayan kişilər çox olub. Onlardan biri də Mirzalı kişi idi. Qardaşı Hüseyn kişi 114 yaşında Qaragüneydə rəhmətə getdi. Deyirlər, son illər o, körpə uşaq kimi təzə dişlər çıxarmışdı. Mirzalı kişi Sənəm adlı həmyerlisi ilə evlənmiş, Qasım və Fərzalı adlı oğlanları olmuşdu.

## Burda olsa, verərdim

Sovet rejiminin ilk illərində qaçaqlara qarşı qızğın mübarizə gedirdi. Əhalidən tüəng və digər silahlar yığılırdı. Bu mənsədlə rayondan gələn təhkimçilər (sterjinlər) təsadüfən Mirzalı kişidən soruşurlar:

– Kişi silahın-zadın yoxdur ki?

Ürəkdən düz, Mirzalı kişi söyləyir:

– Var, amma burda deyil, Quzeyçirkində Mikayıl dayımgildədi. Burda olsaydı, verərdim.

## Bəlkə sən də atasan?

Kəndin cavanları yığışıb nişanəyə güllə atırlar. Mirzalı kişinin gəldiyini görəndə hamı bir ağızdan:

– Mirzalı dayı, bəlkə sən də atasan!?

Mirzalı kişi tüfəngi əl ağacı kimi tuşlayaraq nişanəyə tullayır. Nişanəyə dəyən tüfəng, həm də daşa dəyib çilik-çilik olur. Mirzalı razı halda dillənir:

– Sonra deyirlər, Mirzalı tüfəng ata bilmir.

## Bərxudar dayı, sən də burdasan?

O vaxtlar qapılara qıfıl vurmazdılar. Sadəcə, qapı açılmasın deyə, arxasına ağac və ya bel söykəyirdilər. Mirzalı baba Bərxudar kişinin dəyirmanında dən üyüdürmüş. Bərxudar kişi dəni üyüdüb qurtarır və Mirzalıya unu xurcuna yığmaqda kömək edir. Mirzalı baba xurcununu götürüb Bərxudar kişi ilə sağollaşır və dəyirmanın qapısına söykədilmiş ağacın altından keçir və yenidən üzü dəyirmana tərəf dönəndə dəyirmanın içində duran Bərxudar kişini yenidən görür və deyir :

– Salamca məleyküm. Bıy, Bərxudar əmi, sən də burdasan?

## Ay bacı, məni itdən ötür

Yaylaq vaxtı Mirzalı kişi qonşu kəndə getməyi qərara alır. Duman, çiskin, çən hər tərəfi bürüdüyündən Mirzalı kişi yolu azır. Göz -gözü görməyən dumanda fırlanıb öz alaçıqlarının yanından keçərkən itlər hürməyə başlayır. Qonşu kəndə çatdığını hesab edən kişi :

– Ay ev yiyəsi, ay ev yiyəsi, gəl məni itinizdən keçir, – deyə çağırır.

Mirzalı babanın səsinə çölə çıxan arvadı Sənəm nənə itə təpinib deyir :

– Bıy, başıma xeyir, a kişi, öz alaçığını tanımadın?!

## Gedəndə ağır getdim, gələndə yüngül

Qonşu kənddə dəyirmana dən üyütməyə gedən Mirzalı kişinin ununu götürüb yerinə kəpək qoyurlar. Yol boyu şələsinin yüngül olduğundan sevinən kişi evinə yaxınlaşanda həyat yoldaşı Sənəm nənəni çağırıb deyir :

– Sənəm bajı, Sənəm bajı, gedəndə ağır getdim, gələndə yüngül, qabağıma gəl.

## SEYİDALI KİŞİNİN LƏTİFƏLƏRİ

Seyidalı kişi yolun kənarında bir daşın üstündə əyləşmişdi. Yanından bir kişi keçir, qabağında da əl ulağı. Kişi salam vermədən onun yanından ötüb keçir. Onun salam vermədən keçməsi seyidin xətrinə dəysə də, bir söz demir. Bir azdan başqa bir kişi Seyidalıya yaxınlaşır, salam verib soruşur:

– Salaməleyküm, Seyidalı kişi, buradan qabağında uzunqulaq olan bir adam keçmədi ?

Seyidalı kişi cavab verir :

- Adam yox, ancaq uzunqulaq keçdi.

## BAXŞALI KİŞİNİN LƏTİFƏLƏRİ

**Baxşalı quymaq yemir**

Ot biçini vaxtı Baxşalının həyat yoldaşı Gülbəs nənə onun naharına bir tava quymaq göndərir. Nahar vaxtı Baxşalı kişi quymağı ortalığa qoyur ki, birlikdə yesinlər. Bu vaxt yoldaşları bir ağızdan deyir:

– Sən bir işə bax, Baxşalı quymaq yemir, ona da quymaq göndəriblər.

Baxşalı kişi onların bu sözlərindən sonra quymağı yemir.

**Sevgidən inəyin beli qırıldı**

Baxşalı qarşısında mal-qara yol gedərkən xoşu gəldiyi qız onun qarşısına çıxır. Özünü göstərmək üçün inəyin belinə necə vurursa, inəyin bel sümüyü 2 yerə bölünür.

## KƏL MEHDİNİN LƏTİFƏLƏRİ

Mehdi Seyidalı oğlu olduqca güclü adam imiş. Ona Kəl Mehdi deyirlərmiş. Onun nəslindən olan Salah kişi, Fehruz, Əlizaman, Sübhan, Şura kişi öz fərqli güclülüyü ilə tanınırlar. Dama orta dirək qoyan zaman dirəyin bir başını 10-12 nəfər götürəndə, o biri başını Mehdi kişi tək götürərmiş.

Bir dəfə Kalafalıqda (Tağının çuxurunda) Mehdi kişi kəllə yer şumlayan zaman kəl açılıb meşəyə qaçır. Axtarıb kəli tapmayan Mehdi kişi hirslənib özü boyunduruğa qoşulub yerin qalanını şumlayır.

### Ayının ölümünə səbəb nə oldu?

Armud ağacının altında oturan Mehdi kişi yuxarıdan kal armud düşdüyünü görüb, elə bilir ki, kimsə cavanlardan ona zarafat edir. Hündürdən qışqırır:

– Mən armud yemirəm !

Səsdən diksinən ayı ağacdan yerə yıxılır. Mehdi kişi isə onu boğub öldürür və ağacın üstünə qoyaraq sürüyüb kəndə gətirir.

### Dəyirman niyə uçdu

Dənini üyütdürüb çuvalların birini sağ qoltuğuna, birini sol qoltuğuna, birini də boynuna alıb sağollaşıb çıxan Mehdi kişi dəyirmanın qapısını uçurduğunu hiss etmir. Dəyirmançı arxadan qışqırır:

– A kişi, dəyirman uçdu !

Mehdi kişi təəccüblə dönüb dəyirmançıya baxır:

– Mən dəyirmana neylədim ki?!

## İBRAHİM KİŞİNİN LƏTİFƏLƏRİ

İbrahim kişinin toyuq hinindən yumurtaları papağının içinə doldurub çıxdığını görüb ondan soruşurlar:

– İbrahim kişi, haradan gəlirsən?

– Heç, tülkü toyuq hininə girmişdi. Onu qovurdum.

Həmsöhbəti İbrahim kişinin başına vurub deyir:

– Başına xeyir, tülkünü də qovarlar?

Bu vaxt yumurtalar qırılaraq, papağın altından axmağa başlayır. İbrahim kişi başının yarıldığını zənn edib qışqırır:

– Vay nənə, başım yarıldı!

## ŞURA KİŞİNİN ƏHVALATLARI

Şura kişi Bərdədə güləş üzrə çempionla güləşir. Məğlub olan güləşçi ona verilən qızıl saatı çıxarıb Şura kişiyə bağışlayır.

İçərisində 200 litr neft olan çəlləyi maşına qoyub kəndə gətirmək lazım olur. Yaxınlıqda köməkçi görməyən Şura kişi çəlləyi özü təkbaşına maşına qaldırıb kəndə gətirir.

Zil və ya Qaz - 66 maşınlarının mühərriklərini aşağı düşürən zaman bir neçə adam bir tərəfdən götürəndə, o biri tərəfini Şura kişi tək götürürdü.

Kəl Mehdinin qardaşı oğlu Şura kişi qeyri-adi gücü ilə fərqlənirdi.

## MƏNZƏR NƏNƏNİN QARPIZ ƏHVALATI

Oğlu Elçinlə birlikdə Tərtər (keçmiş Mirbəşir) rayonundan gələn Mənzər nənə axşamçağı Comərd kəndinə çatır. Bu vaxtlar artıq kəndə maşın getməyəcəyini bildiklərindən gecələmək barədə düşünürlər. Bu zaman Tunel tərəfdən içi qarpızla dolu Zil markalı maşın onların yanında dayanır. Sürücü qarpızı hansı kəndlərdə tez satmağın mümkünlüyünü onlardan soruşanda, Mənzər nənə doğma Nəcəfalılar kəndinin adını çəkir və həmin

kəndə gedən yolu sürücüyə göstərir.

Nəcəfalılara gedən yolun olduqca sərt, dolanbac və dar olduğunu görən sürücü Nəcəfalılara getməkdən imtina edir. Sürücünü dilə tutmağın faydasız olduğunu görən Mənzər nənə ondan qarpızı neçəyə satdığını soruşub, bir maşın qarpızın dəyərini sürücüyə nəğd verərək maşını Nəcəfallıara sürdürür. Səhəri günü Mənzər nənə nübar qarpızı bütün kənd camaatına pay göndərir. Dayısı Süleyman kişi Mənzər nənə ilə hal-əhval tutaraq nübar qarpıza görə ona təşəkkür edir və necə gəlməsini soruşur. Mənzər nənə cavabında deyir:

– Mirbəşirdən Comərdə qədər yaxşı gəldim.

Sonra isə Süleyman kişinin qabağında düzülmüş qarpızlara işarə vurub zarafatla deyir :

– Comərddən bura gəlmək isə mənə bir maşın qarpıza başa gəldi.

# XII FƏSİL

## KƏLBƏCƏRİN İŞĞALI



*Kəlbəcərin işğalı zamanı mənfur ermənilərə əsir düşüb alçalmaqdansa, ölümü üstün tutaraq özlərini sərt qayadan atan Kəlbəcərin qeyrətli qızlarının əziz xatirəsinə...*

# BƏDXAH QONŞULAR

İlahi Azərbaycan adlı bir məmləkəti yaradarkən ondan heç bir gözəlliyi əsirgəməmişdir. Səfalı meşələrimiz, ayna üzlü göllərimiz, gur sulu, şəffaf və təmiz, süd kimi axıb gedən çaylarımız, zəngin sərvətli torpaqlarımız, başı buludlara çatan ulu dağlarımız, qalalarımız, dünyanın ən böyük gölü olan zəngin Xəzər dənizimiz daim qonşu dövlətlərdə paxıllıq, xəbislik, riyakarlıq, həsəd hissləri yaratmışdır ki, bu da zaman-zaman Azərbaycan xalqının başına bəlalar gətirmişdir. Ancaq rəhmdil, ürəyiyumşaq, həssas xalqımız bu olayları tez unutmuş və bu unutqanlığının nəticəsində bir əsrdə üç dəfə işğala, deportasiyaya məruz qalmışdır. Afrikanın şimal-şərqində yaşayan, tarixi, yeri, soykökü müəmmalı olan, heç kimin sığınacaq vermədiyi «hay» tayfası qədim Türk torpaqlarında-Ar–meniyada (türkcə dağlıq ölkə) Van gölünün ətrafında özlərinə müvəqqəti sığınacaq tapmağa müvəffəq olmuşlar. Köçəri haylar sonralar bu yerlərin adı ilə özlərini «erməni»lər adlandırmışlar. Sonra onlar anbaan öz yerlərini genişlətmək məqsədilə daim məkrli planlar qurmuş, türk tayfalarına, o cümlədən azəri türklərinə qarşı işğalçı siyasət aparmışlar. Özünün heç nəyi olmayan bu “kəslər” zaman-zaman dilimizi, sözlərimizi, vəzn formamızı, mahnılarımızı, qədim alətlərimizi, xalçalarımızı və ən nəhayət, torpaqlarımızı oğurlamaqla məşğul olmuşlar. ”Ayağıma yer eylərəm, gör sənə



nə eylərəm" prinsipi ilə qarış-qarış içərilərə soxulur, "kardaş", "kirba" deyə-deyə hər şeyi özününküləşdirərək əliaçıq, qəlbitəmiz və unutqan Azərbaycan millətini hətta yaşadıqları dədə-baba torpaqlarından qovmağa belə nail ola bilmişlər.

Onlar böyük «qardaş»larına güvənərək dəfələrlə Azərbaycan torpaqlarına basqınlar etmiş, Şamaxıda, Qarabağda, Bakıda, Zəngəzurda, Naxçıvanda, Qubada kütləvi soyqırımları törətmiş, əhaliyə ağılasığmaz əzablar və işgəncələr vermişlər. 1918-ci ildə Quba rayonunda törədilən kütləvi qırğını sübut edən qəbirstanlığın aşkar edilməsi zamanı burada işgəncələrə məruz qalmış 600-dən çox insanın sümüyü tapılmışdır. Metrolarda, qatarlarda, avtobuslarda və digər ictimai yerlərdə terrorlar törətmiş, yüzlərlə kəndləri yandırmışlar. Ermənilər əsir və girovların başlarını diri-diri kəsir, ətlərini kəsib özlərinə yedizdirir, kürəklərinə qaynar samovar bağlayır, ağızlarına yanan köz qoyur, sağlam dişlərini çəkirdilər. Onlar uşaqları, gəlinləri, qızları, qocaları əvvəlcədən hazırladıqları borulara dolduraraq qapağını qaynaq etmiş və od vuraraq dərəyə atmışlar. Əsrlərin bədənlərinə qızdırılmış xaçla dağ basır, qadınların döşlərini kəsir, süngü ilə hamilə qadınların bətnindəki körpələri öldürmüşlər. Daha nələr-nələr etmişlər... İlahi, bu qədər də vəhşilik və azğınlıq olarmı?! Öz amansızlığı və zorakarlığı ilə mənfur «hay»lar tarixin qan yaddaşında qəddar və amansızlıqları ilə qalmış faşistləri də geridə qoymuşlar. Mənfur «hay»lar bununla da kifayətlənmir, öz vəhşiliklərini həyata keçirmək üçün yeni fürsətlər gözləyir. Adı və soyadının kökü



bizdən olan Zori Balayan (zor və bala) öz biabırçı "Ocaq" kitabında ədavət toxumunu səpmiş və öz havadarlarına arxalanaraq acgöz fikirlərini həyata keçirməyə can atmışdır.

Torpaqlarımız dəfələrlə igidlərimizin qanı ilə suvarılıb. İnsanın başqa hisslərlə yanaşı qan yaddaşı adlanan bir fəhmi hissi də var ki, bu, insanın özündən asılı olmayaraq, baş qaldırır və insana qəribə şeylər pıçıldayır. Lakin daxili paklıq, qəlbiyumşaqlıq və insanpərvərlik kimi ülvi və ali hiss və amillər heç zaman bizi tərk etməmişdir. C.Məmmədquluzadənin "Kamança" əsərini yadımıza salaq. Bizim mahnını kamançada ifa edən erməni Baxşını azad edən qəhrəmanımız nə böyük ürək sahibi imiş...

Hələ 1904-cü ildə görkəmli rus yazıçısı V.L.Veliçko öz kitabında azərbaycanlılar haqqında yazırdı: "Azərbaycanlıların qanı xeyirxahlıqla yoğrulub. Onlar təbiətən alicənab, mərd və qəlbiaçıqdır. Zehni və əxlaqi keyfiyyətlərə malikdirlər".

Bəs, görəsən, ermənilər özləri barədə nələr yazırlar:

"İndi olduğu kimi, keçmişdə də hayların ağızdan-ağıza keçən



nəğmələrə həvəsləri olmayıb. Ona görə də kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır”.

***Moves Xorenatsis, erməni tarixçisi, İrəvan, 1975.***

“Ermənilər həmişə yaşadıqları yerlərin yaramaz sahibləri olublar, öz yaxınlarını sataraq, həmişə güclü qonşularına məharətlə qulluq ediblər”.

***Akademik Keqor Patkanyan, 1975, № 175.***

“1831-ci ildə İrəvan şəhərinin 18766 nəfər əhalisinin 15992 nəfəri, 1866-cı ildə 27246 nəfərindən 23626 nəfəri, yəni 85,2% -i azərbaycanlı olmuşdur”.

“Sovet Ermənistanının əhalisi 1831–1931” adlı statistik məlumatlar kitabı.

***Zaven Korkodyan***

və yaxud:

“Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim, necə təsir göstərib?

Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur”

“Sovet Ermənistanının əhalisi 1831–1931” statistik məlumatlar kitabı.

***Zaven Korkodyan***

Bəli, məhz pis xislətli, kinli, ürəkdən sancmaq üçün ayağına sürünməyə hazır olan haylar qonşuluqda yerləşən zəngin sərvətli, cənnət bağları tək barlı-bərəkətli Kəlbəcəri və başqa Qarabağ torpaqlarını görür və oraları ələ keçirmək uğrunda daim gizli məkrli planlar hazırlayırdı. Hələ qonşuluq münasibətləri yaxşı olan vaxtlarda kimsə ev tikdirmək, dam vurmaq üçün erməniləri usta kimi dəvət edərdilərsə, onlar gizli olaraq həmin evin himinə və ya barısına iyrənc niyyətlərlə «xaç» işarələri qoyurlarmış.

0Ağdərədən Həsənrizə ot biçməyə, taxıl dərzi bağlamağa gələn ermənilər bu yerlərdə öküzü və ya ulağı

azərbaycanlılardan almış, sonralar isə bu yerlərə yiyələnərək adını dəyişdirib «Haterk» və başqa adlar qoymuşlar. Elə indi də torpağı qazaraq özlərinin məkrli niyyətləri ilə hazırladıqları «tarixi daşlar»ı ora basdırırlar ki, nə vaxtsa dünyaya səs salıb bu torpaqların onların olduqlarını «sübut» etsinlər.

Yaddaşımızda ağrılı, acılı bir şəhidlik tarixi vardı – imam Hüseyn ağanın islam dini yolunda Kərbəlada şəhidliyə yetişdiyi Məhərrəmlik ayı. Hələ sovet hakimiyyəti illərində dini mərasimlərin qadağa olunan vaxtı biz bu ayı çox təntənəli qarşılayır, onun bütün qaydalarına əməl edərdik. Böyüklərimiz "şaxsey" gedər, kimsə ağ köynək geyib başını yardırar, kəndin görünən yerində "Ələm" ağacı qurular, böyük qazanlarda halva bişirib kasıblara paylayardılar. Cavanlar isə hazırlıq işlərində yaxından kömək edər və bütün olanları seyr edərdilər. Bu ayda heç bir şənlik mərasimləri keçirilməzdi. Onda heç ağlımıza da gəlməzdi ki, nə vaxtsa bizə yuxu kimi gələn bu şəhidlik taleyi bizim özümüzə də qismət olacaqmış.

Kəlbəcər artıq 5 ildi ki, mühasirədə idi. Əslində, öz daxili «ermənilərimiz» tərəfindən artıq tədricən ermənilərə verilmişdi; əvvəl qızıl karyeri, sonra isə yaylaqlar, "Böyük Alagöllər"dən çıxarılan balıqlar. Ağdamdan Kəlbəcərə gələn elektrik işığının axırıncı dəfə nə vaxt yandığını unutmuşduq. Otlaqlardan mal – qaranı oğurlayıb aparan ermənilər, sonra da Ağdərədən keçən kəlbəcərlilərə daş atırdılar. Qaranlıq gecələr, informasiya azlığı, şayiələr, xof adamlar arasında vahimə yaradırdı. Rayonun rəhbərliyi səriştəsiz insanlara, idarələr sürücülərə, hərbi hissələr isə traktorçulara tapşırılmışdı.

Camaatın çətin günlərində elin dəyərli oğlanları – Gəncə şəhər Daxili İşlər İdarəsinin rəisi vəzifəsində işləmiş Eldar Həsənov, ziyalılardan Şamil Əsgərov, Əlövsət Ağalarov, Nadir Həsənov, Cavid Qurbanov, Bəhrəm Sarıyev, Adil Cəmil, Zahid Məhərrəmov və başqaları öz köməklərini əsirgəmir, əhaliyə maddi və mənəvi köməklik edir, rayondakı avtomobillərin yanacaqla təmin edilməsi üçün bütün imkanlarını işə salırdılar. Ağdərədən Kəlbəcərə gedən yol təhlükəli və çox vaxt isə bağlı olduğundan qısa yolumuzu uzaq edərək böyük çətinliklə Laçın rayonundan arana ya bazarlığa, ya da başqa bir iş üçün gedirdik. Qonşumuz, arxamız olan Laçın rayonunun işğalı əhalini bir az da sarsıtmışdı. Ancaq, buna baxmayaraq,

Kəlbəcərin özünümüdafiə dəstələri Kəlbəcəri göz bəbəyi kimi qoruyurdu. Düşmənin bir neçə həmləsini igidliklə dəf etmişdik. Söyüdlü tərəfdən hücuma keçən erməni ordusu böyük itkilər verərək rayonumuzun "könüllü" dəstələri tərəfindən geri oturdulmuşdu. Camaat öz arzusu ilə silah almaq üçün pul, əşya, qida məhsulları toplamış, düşmənlə üzbə-üz duran oğullarının arxasında dağ kimi dayanmışdı. Bu könüllü dəstələrin tərkibində doğma Nəcəfalılar kəndinin də bir çox igid oğlları qəhrəmanlıqla döyüşürdülər. Onlardan Şura Əliyevin, Nadir Əliyevin, Vüqar və İlqar Həsənov qardaşlarının, Hicran və İsgəndər Abbasov qardaşlarının, Rasim Piriyevin, Oqtay Məmmədovun, Kamal Musayevin, Rəfael Piriyevin və başqalarının adlarını fəxrlə çəkə bilərik!

**1989-cu il iyulun 14-də** Kəlbəcər 8 fidan balasını şəhid verməklə, Azərbaycanda ilk dəfə taleyinə qovğalı-qadalı illərin şəhidliyini yazdı. 6 nəfər erməni quldurunu aparmağa gələn erməni təyyarəsi Kəlbəcərdə qalxıb-enən zaman meydançada oynayan 8 azəri körpəsini parça-parça edib cəsədlərini ətrafa səpmişdi.

**11 iyul 1990-cı il.** "Otaq qayada" şəhidlik tarixi Şahlar Şükürovun, Dədə Şəmşirin qızı Çimnaz xanımın, Eldar Cəbrayılovun, Aslan Xıdırovun və Sergey Medelyovun taleyinə yazıldı.

**1992-ci ilin baharı** Kəlbəcərə gül yox, güllə yağışı gətirdi. Bu bahar isti nəfəsilə yox, ilikləri üşüdən şaxtalı xəbərləri ilə yadda qaldı. Mirsəyyaf Zamanlının diliylə desək:

Duyub ki, qan içir burda qərənfil,
Günahsıza güllə açılır qəfil,
Didərgin düşməkdən ya qorxur bu il,
Bu bahar dağlara könülsüz gəlir...

**1992-ci il aprelin 8-i** Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakininə qeyri -insani işgəncələr verilmişdir, 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90 -100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri -diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir. Ulu Göyçənin, Aşıq Ələsgərin qaçqınlıq taleyinə yanan qəlb dostu Aşıq Şəmşirin kəndi, mülkü və dəyərli arxivi yandırıldı.

Kəlbəcərin yaz ovqatı xəzandı,
Dolu vurub növrağını, Şəmşirin.
Ağdabana qara əllər uzandı,
Dağıtdılar tifaqını Şəmşirin.

***Ağacavad Əlizadə***

**Aprelin 28-i** isə Narıncların faciəsi baş verdi. **İyunun 9-da** isə Çərəkdar işğal olundu. Kəlbəcərdən Ağdərəyə gedənlər ordunun müşayiəti ilə karvanla keçirdlər.

"Otaq qayada" ermənilərin yolu təmizləmək xəbəri bütün rayonu ayağa qaldırdı. Kəlbəcər könüllüləri düşmənin xeyli texnikasını, əsgərini məhv edərək hücumu dəf etdilər. Qələbə əzmi camaatı həvəsə gətirmişdi. Rayonumuzun qəhrəmanlıq təcəssümü çərəkdarlı ağsaqqalımız **Yunus müəllim** şəhidlik zirvəsinə burda ucaldı. O gündən başlayaraq kəndlər bir-bir geri alınır, igidlərimizin qüruru artır, igidlik, şücaət əhvalı çoxalırdı. Dovşanlı kəndinə çatan döyüşçülərimiz Xankəndi, Vardenis döyüşləri barədə düşünürdü. Lakin...

Qələbəyə bir addım qalmış satqınlıq planı, kreslo mübarizəsi, şan-şöhrət eşqi işə düşdü. Ordu geri çəkildi, ordunun qol -qanadı qırıldı, qələbə ruhu göylərə uçdu. Ağdərə-Kəlbəcər yolu birdəfəlik bağlandı. Əhalinin yeganə ümid yolu, xilas yolu , tale yolu zirvədən keçirdi-başı qarlı, quş səkməyən, dırnaq dəyməyən keçilməz Murov dağından. 1988-ci ilin aprel–may aylarında çəkilişinə başlanan Kəlbəcər yolu kəlbəcərlilərin xilaskarı, "nicat yolu" oldu. Bu yolun çəkilişində rayonun əhalisi əlindən gələni edirdi. 1988-ci ilin sentyabrında yolun açılışı böyük bayram kimi qeyd olundu. Fəlakətin yaxınlaşdığını hiss edən camaat bu yolu özünə son çıxış yolu kimi vaxtında çəkməsəydi, itkin düşənlərin və şəhidlərin sayı-hesabı olmazdı. Rayonun kolxoz və sovet sədrləri, başda rayonun ikinci katibi Təhməz Cəfərov və "Pravda" kolxozunun sədri Əvəz Şükürov olmaqla yolun çəkilişində böyük səy göstərmişlər. Rayonun birinci katibi İnqilab Nadirov bu xeyirxah işə şəxsən özü nəzarət edirdi.

Böyük fəxr və iftixar hissi ilə deyirik ki, bu «nicat yolu»nun çəkilişində həmkəndlilərimiz bulduzerçi **Nəbi kişinin** böyük əməyi olmuşdur. Buldozerçilərdən **Nəsrəddin,**

**Telman, Çingiz, Möhübbət, Musa** və bir çox adamlar bu yolun çəkilişində əsl fədakarlıq göstərmişlər. Kəlbəcərin mühasirədə yaşadığı illərdə Murov yollarının daim işlək vəziyyətdə olmasına nəzarət edən, Yol Tikinti İdarəsi rəhbərlərindən biri olan, elimizin dəyərli, qeyrətli oğlu Nizami Çıraqovun da əvəzsiz xidmətləri daim yaddaşımızda qalacaqdır.

Hər tərəfdən düşmən bizi mühasirəyə almışdı. Yüksəkliklər bir -bir tutulurdu. Əhalidən ov tüfəngi də yığılırdı. Laçın ordusu da Murov yolu ilə çəkilib getdi. "Qaragöl", "Qaraqaya", "Çiçəkli" yüksəklikləri, "Yellicə" məntəqəsi düşmən silahlıları tərəfindən tutulmuşdu. Artıq əhaliyə "köç" əmrini də vermişdilər. Alçalmaq, təhqir olmaq, əsir düşmək qorxusundan ayağı tutan yavaş-yavaş Murov yolu ilə çəkilib gedirdi. Ölümlə qalım arasında bir addım qalmışdı. Bu addımı irəli atanın mənəviyyatı ölürdü, geri atanın cismi. Onsuz da ölüm idi. Ancaq ölüb vətəndə qalmaq, tərki-vətən olub "qaçqın", "köçkün" adı ilə ruh kimi dolaşmaqdan qat-qat üstün imiş.

İri çayları yaradan xırda sısqa sular, kiçik bulaqlardır. "El bir olsa, dağ oynadar yerindən" deyiblər. Amma biz "bir" olmadıq. "mən"lər, "sən"lər olduq. Bu da neçə minillik dədə-baba yurdunun düşmən əlinə keçməsinə imkan verdi. Bu isə işğala qədər sadaladığımız və yaddaşlarımızdan çıxan daha nələrin və kimlərin itirilməsi ilə nəticələndi.

Kəlbəcərin 60 minə yaxın dinc əhalisi Azərbaycanın 59 rayonuna səpələndi. 13000 fərdi yaşayış mənzili, 32 yaşayış məntəqəsi dağıldı. 37,852 ha meşə təsərrüfatı, 53 kolxozu, 2 sovxozu, 128 kəndi, 1 şəhər tipli qəsəbəsi, 1 şəhər mərkəzi, 115 ümumtəhsil məktəbi, 107 səhiyyə obyekti, 62 körpü, 9 uşaq bağçası, 172 mədəniyyət obyekti dağıdıldı və yandırıldı. 600 mindən çox iri və xırda buynuzlu mal-qara, 1 milyon ev quşu, 50 min arı ailəsi, 130 minik maşını, 26 min məişət əşyası və 390 min dəst yorğan-döşəkləri talandı, İrəvana daşındı.

İşğal zamanı sıralarında Azərbaycanın milli qəhrəmanları polis mayoru Şahlar Şükürov, baş leytenant Sərdar Səfərov, baş leytenant Yunis Nəcəfovla yanaşı, yüzlərlə şəhid olmaqla 55 nəfər hərbçi, 511 nəfər dinc əhali öldürülmüş, 321 nəfər əsir götürülmüşdü.

Hazırda işğal olunmuş ərazidə mənfur işğalçılar tərəfindən qanunsuz bitkilər (narkotik mənşəli) əkilir, Kəlbəcərin flora və faunası dağıdılır, ağaclar kəsilərək qiymətli tikinti materialı kimi valyutaya satılır, İstisu Ermənistanın mineral suyu kimi təqdim olunaraq dünya bazarına çıxarılır. İlmə-ilmə toxunan 195 min azəri xalça -kilimləri erməni xalısı kimi şöhrət qazanır.

Milli adət-ənənələrimiz yavaş-yavaş unudulur. Fərqli iqlimdə dərd-kədərlə, vətən həsrəti ilə yaşayan əhali onlara yad olan "ürəkkeçmə", "qan təzyiqi", "infarkt" kimi xəstəliklərlə dünyasını dəyişir. Oğlanlarımız at belində doğulmur, qızlarımız qara zurnanın dağlara səs salan "Vağzalı" sədaları altında ər evinə köçmür, səhənglər təmiz bulaq suyuna həsrət qalıb...

Hələ 1993-cü ilin qiymətlərinə görə, Kəlbəcərin xalq təsərrüfatına 761,4 milyon dollar ziyan vurulub. Mənəvi zərbələrin dəyərini isə heç bir hesablayıcı maşın saya bilməz.

Əzizim, binə qaldı,
Kənd qaldı, binə qaldı.
Allah, Kəlbəcər eli
Nə yaman günə qaldı!

Yenilməz və səbirli Allahın dərgahından millətimə bu ağır dərdi çəkməyə dözüm, dəyanət və səbir arzu edirəm. Qoy Tanrı Türkü qorusun!!!





# XIII FƏSİL

## ŞƏHİDLƏRİMİZİ UNUTMAYAQ!



## Şəhidlər

(ixtisarla)

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən torpağına əkdi şəhidlər.

Zalım öyünməsin zülmləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər.

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı, el qeyrəti çəkdi şəhidlər.

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu ana yurdun.
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz cildini çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi şəhidlər.

*Bəxtiyar Vahabzadə.*

## DAĞDAN AĞIR XƏBƏR

Hə, əziz dost! Beləcə, bəzən qayğılı, bəzən şən, bəzən sərt qışın şaxtasında, bəzən də yayın səfalı yaylaqlarında günlərini ilmə-ilmə kilimlərə, xalçalara, daş yaddaşlara köçürən Nəcəfalılar əsrlərdən bəri yurd salıb yaşadığı babalarının adətini, ənənəsini, xeyrini, şərini, dağını, aranını yaşadır və yaşayırdılar. Son illər əhalinin güzəranı xeyli yaxşılaşmışdı.

Güllü çəmənlərin, yaşıl meşələrin, loğman suların əhatəsində ciyərlərinə təmiz hava dolan elimiz-obamız xoşbəxt günlərini yaşayırdı. Xəyallara çevrilən əsl xoşbəxt günlərini...

Təkcə bu xəbər olmasaydı. Kim gətirdi bu xəbəri? Sözün ağırlığına, çəkisinə baxın siz! Adicə sözmü? 60 minə yaxın əhalini, əsrlərlə toplanan var-dövlətləri, yeraltı-yerüstü sərvətləri bir andaca darmadağın edən, pərən-pərən edən söz!

Əslində bu söz 5 il idi ağır-ağır yol gəlirdi. Zəhərini dağlara-daşlara yayaraq sürünən bu əfi ilanın qarşısı alınmadı, yeddi başı olan bu əjdahanın başı əzilmədi; əvvəl camaatın Ağdamdan gələn işığı kəsildi, dünyada gedən hadisələrdən, xəbərlərdən kənarda qalan əhali zülmət içərisində qaldı. Yüksəkliklər uğrunda gedən mübarizələrdə Kəlbəcər neçə-neçə igid oğullarını itirdi.

O gün kənd müdhiş bir gün yaşayırdı. Kəndin ağsaqqalı Piriyev İsanın Laçın rayonunda qəhrəmancasına həlak olan oğlu Rasimin dəfn mərasimi idi. Kənd artıq sonuncu şəhidini dəfn edirdi. Öz yurdunda dəfn edilən sonuncu şəhid.

Birdən xəbər gəlir... Ermənilər Comərd kəndinin yaxınlığındakı Tuneli ələ keçirdilər. Camaat kəndi tərk etmək məcburiyyətində qalmışdı. Onsuz da uzun müddət qorxu, xof, zülmət içərisində yaşayan camaatın iliklərinə işlədi bu xəbər. Ayaqları yerə mıxlandı. Hara və necə getməli? Əldə olan ov tüfəngləri də yığılmış, yolu isə əli silahlı amansız yağı kəsmişdir. Hələ görüləsi o qəldər işlər var idi ki…Təzəcə torpağa tapşırılan şəhidin 3-ü, 7-i, 40-ı, başdaşı da hələ hazır deyildi və daha nələr, nələr... Bundan başqa, əl-ayağa dolaşan qocalar, qarılar, uşaqlar, min əziyyətlə qışdan yaza

çıxardıqları mal-qara, illərlə diş-dırnaqları ilə topladıqları var-dövlət və ondan da şirin olan can.

Amma durmaq da olmazdı. Hər şey vaxtı gözləsə də, vaxt heç nəyi gözləmirdi. Dizi tutan, tabı olan hər kəs ağır bir səfərə, çətin bir yola çıxmalı idi. Amma bu ağır imtahandan üzüağ çıxan camaat məsləhətləşib heç bir şey götürmədən kəndin maşınlarıyla yalnız qız-gəlini, qoca-qarını göndərməyi qərara aldı. Özləri isə piyada meşə yolu ilə Nadirxanlıya, oradan da xalqın nicat yolu olan Murova üz tutdular.

Elin çətin günündə maşını, traktoru olan kənd adamları daha çox fədakarlıq göstərdilər. Camaatın yaddaşına həkk olunan sənətkarlardan Şirəliyev Bəşiri, Novruzov Vaqifi, Şamilov Ziyəddini, Piriyev Arzumanı, Abbasov Əlini, Piriyev Bəxtiyarı, Kazımov Umudvarı, Əliyev Qəhrəmanı, Əliyev Söhbəti, Abbasov İdrisi, Əliyev Kamili, Həsənov Adili, Şamilov Yaqubu, Məmmədov Hüseyni və Xəlilov Raufu böyük iftixar hissi ilə göstərmək olar.

Bəli, kimsə toyuq-cücəyə dən tökdü, kimsə mal-qaranı açıb ot tayasının üstünə buraxdı, kimsə bağda olan iti açıb azad etdi. Əli tutar-tutmaz bəzi lazımi əşyaları çamadanlara, əl çantalarına yığıb, kəndin maşınlarına əyləşdilər. Comərd yolu getmək istəyən maşınların qabağını kəsən kənd sakini Əliyeva Mənzər onların qabağını kəsmiş və Nadirxanlı yolu getmələrini anda vermişdi... O, Comərd yolunda camaatı gözləyən təhlükəni gecə yuxusunda görmüşdü. Ona görə də həmin təhlükənin qarşısını almaq üçün camaatın Nadirxanlı yolu ilə getmələrini təkid etmişdi. Üzlərdə kədər, gözlərdə qanlı yaş ürəkləri göynədən ağılarla, bayatılarla tarixə qanlı hərflərlə yazılan vaxtsız bir köç başlandı. Qədim Azərbaycan torpaqlarından, ulu babalarımızdan miras qalmış doğma yurddan məcburi köç!!! Bu qeyri-adi köçü hiss edən inəklərin, buzovların mələşməsi, itlərin tükürpərdici səslərlə ulaşması insanı dəhşətə gətirirdi. Çünki, adətən, köç may ayının sonuncu günlərində olurdu və üzü yaylaqlara tərəf gedərdi. Bu köç isə soyuq və qarlı martın 28-də baş vermişdi. Özü də üzü çiçəkli dağlara tərəf yox, başı daima qarlı keçilməz Murova tərəf!

Nəcəfalılar camaatı Pirilərdən keçəndə Pirilərdən olan adamları da çağırıb maşınlarına mindirdilər. İbrahim kişinin ailəsi Bəşirin traktoruna mindi.

Qız-gəlini maşınlara mindirəndə İbrahim kişinin anası Həmidova Mələk ağlayıb özünü öldürür ki, bu doğma yerləri qoyub hara gedirsiz? Kiminsə bucağına sığınmaqdansa burda qalıb ölmək yaxşıdır. Anasının inadkarlığını görən İbrahim kişi onu incitməmək üçün qızlarını qohumlarla yola salıb, anasını özü aparmağı qərara alır.

Kənddən sonuncu çıxan da İbrahim kişi olur. Axşam atı doyunca yemləyir ki, Murovu qalxmağa taqəti olsun. Bir -iki hind toyuğu kəsib yola hazırlayır. Anasının əyin -başını isti edir. Səhər tezdən atın hər iki tərəfinə bir yorğan bağlayıb anasını onların arasına qoyur. Öz mal-qarasını qabağına qatıb 59 illik zəhmətinin bəhrəsi olan mülkünə son dəfə nəzər salıb yola düşür.

Min bir əzabla Murov yoluna qədər gəlir. Axşam düşür. 115 yaşlı ananın yol boyu rahatlığını təmin edən böyük insanın başının anasına qarışdığını görən öz "ermənilərimiz" onun xeyli davarını və 7 baş mal-qarasını oğurlayıb aparırlar. Ancaq dünyanın hər üzünü görən İbrahim kişi ana rahatlığını hər şeydən üstün tutur və anasını sağ-salamat Qarabağa (Yevlağa) gətirir. Vətəndən söhbət salıb kövrələndə özünə təskinlik verib deyərdi: Şükür, arxada qalanımız, girovumuz olmadı. Anamı gətirə bilməsəydim, mənə çox ağır dərd olardı.

Allah çox çətin imtahana çəkdi bizi. Ata oğulu, oğul atanı, qardaş qardaşı yarı yolda qoyub canını qaçırırdı. Həqiqətlə yalanın sərhədi itmişdi. Sərnişinləri "yol verin, şərait yaradın, yaralı aparırıq!" deyə qışqıran "Kamaz"ların arxasına baxanda içərisində xalça, palaz, televizor, mebel görürdün. Atasını itirən körpə qızların ağlaşması, soyuqdan donan körpəsinə imdad edə bilməyən naçar anaların gözyaşı, yol boyu donub ölən insanların sahibsizliyi, təzəcə doğulmuş buzovun, quzunun qara batıb məzlum-məzlum baxması ürək göynədirdi. Nər igidlərin, məşhur ovçuların zaman-zaman keçilməz gədiklərində, cığırlarında çaşıb qaldığı amansız Murov dağını çəliyə söykənə-söykənə qalxan qocaları görəndə bu elin hansı böyük günahı etdiyi barədə düşünürdüm. Bəlkə, nə vaxtsa bu yerlərin var-dövlətinə kəm baxmışıq, şükür etməmişik? Yəqin, həmin gün yaş da qurunun oduna yandı...

Bəli, o müdhiş günü, o məhşər gününü görənlər gördü, görməyənlərə İlahi göstərməsin! "Odla su arasında qalmaq" atalar məsəli tam dəqiqliyi ilə özünü göstərdi;

Köçdən geri qalanlar mənfur erməni qəsbkarlarına rast gəlib onların olmazın əzabını, işgəncələrini görərdilər. İrəli gedən isə əsrlərdən bəri yaşadığı doğma yerlərdən, od-ocaqdan, əzizlərinin qəbirlərindən uzaqlaşırdı. Qarşıda isə səni nələr gözlədiyini isə hələ bilmirsən.

Kəndin qorxmaz, mərd oğlu, mahir ovçu Əliyev Şakir Həmzə oğlu yol boyu o qədər dəhşətlər görmüşdü ki, yaşamağa marağı qalmamışdı. Nə qədər təskinlik verirdiksə, yenə də "Mən o ölənlərdən artıq deyiləm ki, ölmək istəyirəm deyirdi. Məşəqqətli Murov yolunu bir neçə günə aşıb gəlmək mümkün olmurdu. Təbiət də qan ağlayırdı. Sanki Murov insanların yolunu kəsib bu tarixi faciəyə mane olmaq istəyirdi.

Nəhayət, Xanlar (Göygöl) rayonunun Toğana kəndinə gəlib çatan camaat hara gedəcəyini bilməyən nabələd adamlar kimi çarəsizliklə bir-birlərinə baxırdılar. Aran rayonlarında qohum-əqrəbası olan yavaş-yavaş istiqamət götürürdü. Heç kimi olmayanlar isə daha çox təlaş keçirirdi. Hara getsinlər, kimə pənah aparsınlar! Təsadüfi tanışlar yada düşürdü. "Suda boğulan saman çöpündən yapışar" deyiblər. Naəlac əhali hara oldu müvəqqəti məskunlaşmağa razılaşırdı. Əslində, gülün-çiçəyin içərisində, sərin yaylaqların, buz bulaqların əhatəsində yaşayan dağ adamlarını aran rayonlarında yerləşdirməyin özü də bir cinayət idi. Onsuz da ağır dərddən, kədərdən sıxılan ürəkləri aranın istisi bir az da sıxırdı. Əhalinin əksəriyyəti ilk illərdə ürək çatışmazlığı, işemiya və miakardın infarktı xəstəliklərindən vəfat edirdilər.

Dərd-kədər dinməz adamları da dilə gətirmişdi. Kəlbəcər həsrətinə şeirlər, poemalar yazılır, ağılar, bayatılar söylənilirdi. Yerli şairlərlə bərabər başqa bölgələrin şairləri-yazıçıları da bu dərdə öz münasibətini bildirirdi. Tanınmış xalq şairi, millət vəkili Zəlimxan Yaqub da bu dərdə acı gözyaşı tökənlərdən bir idi. Onun "Şair harayı" adlı kitabında Kəlbəcərə həsr etdiyi bir neçə şeirlərdən biri olan "Kəlbəcərdən gələn qarı" adlı şeiri daha çox diqqəti cəlb edir:

## Kəlbəcərdən gələn qarı

Ərişindən, ocağından,
Sürüsündən, arxacından,
Meşəsindən, ağacından
ayrı düşən,
Allı-güllü alçasından
Lilparından, dolçasından,
Hanasından, xalçasından
ayrı düşən,
Barını yellər aparan,
Baxtını sellər aparan,
Qazancını
Fitnələr, fellər aparan,
Canı üzgün, rəngi sarı,
Kəlbəcərdən gələn qarı.

Təzəsi, köhnəsi gedən,
Çörəyi, təknəsi gedən,
Arxının suyu dağılan,
Sökülüb dəhnəsi gedən,
Bir zamanlar çox sevdiyi
Dünyadan zəhləsi gedən
Pətəyindən ayrı düşüb
Yavaş-yavaş ölən arı,

Daha bəsdir durmağımız,
Daha bəsdir yatmağımız,
Daha bəsdir bu millətin
Günahına batmağımız.

Gəlin, bir az silkələnək,
Gəlin bir az heyrətlənək,
Gəlin, bir az qeyrətlənək,
Əlimizi yalın görüb,

Gönümüzü qalın görüb
Tüpürməsin bizə barı.
Kəlbəcərdən qayıdanda
Öpsün bizim əlimizdən
Kəlbəcərdən gələn qarı.

***Zəlimxan Yaqub.***

Bəzi şairlər isə Sücaət kimi:

Bir gün gülə-gülə qayıdacaqdı,
Ağlaya-ağlaya köçən Kəlbəcər

- deyərək təskinlik verirdilər.

Müvəqqəti məskunlaşıb geriyə dönmək məqsədilə Azərbaycanın 21 rayonuna səpələnən Nəcəfalılar camaatı yavaş-yavaş kökündən, adət-ənənəsindən ayrılır, gündəlik qayğıları ilə başı qarışdığından yaddaşlarda unutqanlıq yaranırdı.

Sözsüz ki, biz o yerlərə qayıdacağıq. Gündən-günə qüvvətlənən, inkişaf edən ölkəmizin daxili və xarici siyasəti bunu deməyə əsas verir. Ancaq çox heyif ki, artıq kimlərisə orada görməyəcəyik. Bax, bunu fikirləşmək belə dəhşətdir.

# NƏCƏFALILARIN QƏHRƏMANLIQ SƏHİFƏSİ

Azərbaycanımızın bir parçası olan Nəcəfalılar əsrlər boyu millətmizin başına açılan bütün müsibətləri onunla birlikdə çəkmiş, dəfələrlə tarixin sınaqları ilə üzləşərək neçə-neçə ağrılı-acılı illər yaşamışdır. Kəndimizin oğulları həmin qanlı-qadalı illərdə böyük şücaətlər göstərmiş, ölümün gözünə dik baxaraq qəhramanlıq salnamələrini yazmış, neçə-neçə şəhidlərini vermişdir.

XX əsrin sonunda Kəlbəcərin işğal tarixinə dinc əhalidən 511 nəfər, hərbçilərdən isə 55 nəfər olmaqla, şəhidlik salnaməsi yazıldı. Əhalinin 321 nəfəri isə itkin və əsir düşdü. Nəcəfalılar kəndi də özünün 7 nəfər, həmçinin ətraf kəndlərdə yaşayan onlarla yaxın qohumlarını şəhid verməklə bu qanlı səlnaməyə öz şəhidlik səhifəsini yazdı. Taleyin xoş qismətindən bu müharibədən sağ çıxanlar da oldu. Həmkəndlilərimizdən Piriyev Rəfail Yusif oğlu Qarabağ müharibəsi əlili, Şura Əliyev, Nadir Əliyev, Vüqar Həsənov və onlarla başqa həmkəndlilərimiz isə Qarabağ müharibəsi iştirakçılarıdırlar.

...Gələnə, gedənə bir geniş yoldu,
Ətirli çiçəkdi, tikanlı koldu;
Dünyaya kim gəldi dünyanın oldu,
Heç kimin dünyası olmadı dünya!!!

Məşhur şərkərdələrə, böyük fatehlərə qalmayan bu beş gün–lük fani dünyada onsuz da hərə bir cana borcludur. Ancaq bu borcu hansı anda, hansı şəraitdə verməkdən çox şey asılıdır. Qədərsiz qiyməti olan vətən yolunda verilən can ən şərəfli borc, axıdılan qan ən müqəddəs qandır.

Vətənin dar günündə canını sipər edən, onu ən şirin nemət olan yaşamaqdan üstün tutan qorxmaz, igid, ölümün gözlərinə düz baxan Kəlbəcər şəhidlərinin içərisində onlarla qohum-əqrabası, qonşusu olmaqla yanaşı, 7 nəfəri isə bilavasitə Nəcəfalılar oğlu idi. Mədətov Oruc Həmzə oğlunun döyüş yolunun harada bitdiyi isə məlum deyil. Onu sonuncu dəfə Murov

yolunda əlində avtomat görüblər.

Qədirbilən Kəlbəcər xalqı vətəni bizdən çox sevib, onun qoynunda qalmağı hər şeydən üstün tutan şəhidlərin xatirəsini hər an əziz tutacaq və qəlbində vətən məhəbbəti olan hər kəs onların ruhlarının şad olması naminə əllərindən gələni əsirgəməyəcək.

Ən müqəddəs qandır, Vətən yolunda,
Vətən torpağına axıdılan qan,
Şəhidlik zirvəsin fəth eyləyəndə
Ən uca məqama yetişir insan...

***Mehdixan Kəlbəcərli.***

## ONLAR GERİ QAYITMADI

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Kəlbəcərin Nəcəfalılar kəndindən də Böyük Vətən müharibəsinə gedən çoxlu oğullarımız olmuşdur. Fədakarlıq göstərən, rütbələrlə, medallarla vətənə dönənlər də oldu. Ancaq itkisiz olmayan müharibədə Nəcəfalıların da bir neçə igidi qayıtmaz oldu.

**Fin və Böyük Vətən müharibəsi illərində şəhid olmuş həmkəndlilərimiz.**

1. Əliyev Çərkəz Seydalı oğlu ( Fin müharibəsi)
2. Əbdürrəhman oğlu Binnət ( Fin müharibəsi)
3. Namazov Misir Məmməd oğlu (1941-1945)
4. Namazov Fərman Məmməd oğlu (1941-1945)
5. Abbasov İdris İmamalı oğlu (1941-1945)
6. Əliyev Şahmalı Baxşalı oğlu (1941-1945)
7. Əliyev İsa Əli oğlu (1941-1945)
8. Qədir Tahar oğlu (1941-1945)
9. Əmirov Ədil Nədir oğlu (1941-1945)
10. Əmirov Bəşir Nədir oğlu (1941-1945)
11. Əmirov Məhər Nədir oğlu (1941-1945)
12. İsmayıl Xəlil oğlu (1941-1945)
13. Hüseyn oğlu Əvəz (1941-1945)
14. Hüseyn oğlu Bəhmən (1941-1945)
15. Şükür oğlu Məhəmməd (1941-1945)
16. Şükür oğlu Qaçay (1941-1945)
17. Həsən oğlu Salah (1941-1945)
18. Əliyev Məmməd Mədət oğlu (1941-1945)
19. Əliyev Hümbətalı Əli oğlu (1941-1945)
20. Məmmədov Salman Sərxan oğlu (1941-1945)
21. Şəmilov Rəhim İbrahim (1941-1945)

Kəndimizin sevimli, sayılan, hörmətli ağsaqqallarından olan Əliyev Əlabbas Hümbətalı oğlu, Hümbətov İmamverdi Əli oğlu , Əliyev Yunus Mehdi oğlu, Əliyev Novruz

Mehdi oğlu, Abbasov Heydər Şükür oğlu, Abbasov Muxtar Şükür oğlu müharibənin son günlərinədək iştirakçı olmuş və medallarla, təltiflərlə vətənə qayıtmışlar.

Bundan başqa, İbrahimov Əlövsət İslam oğlu Əfqanıstan müharibəsinin iştirakçısıdır. Piriyev İsbəndiyar Əziz oğlu isə Çernobıl iştirakçısıdır.

# QARABAĞ MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

## ƏLİYEV MİSİR PƏNAH OĞLU

*Gəldi vətən hayına,*
*Ölüm düşdü payına.*

***Adil Həmid***



Müharibəyə gedəndə, bil ki, ölümə gedir–sən. Taleyin xoş qismətindən sağ qaldınsa, bu sənin hünərin deyil, Allahın köməyidir.

Misir də hara getdiyini yaxşı bilirdi. Ancaq çəkinmədən, qorxmadan gedirdi. Bütün təkidlərə, təkliflərə baxmayaraq seçmişdi bu yolu.

Misir Nəcəfalılar kəndində əvvəldən dədə-baba qohumu olan Abbas kişinin qızı Nailə xanımla təzəcə ailə qurmuşdu.

Əliyev Misir Pənah oğlu 1957-ci ildə Ağdərə rayonunun İmarət -Qərvənd (Kərəmli) kəndində anadan olmuşdur. Gəncədə texnikum bitirmişdi. Qozlu körpüdə asfaltzavodda müdir işləmiş , sonra da ailəsi ilə birlikdə Rusiyaya getmişdilər. İşi, gücü, güzəranı var idi. Vətən torpaqlarına yağı basqın edəndə hər şeyi atıb vətənə dönmüşdü və ən şərəfli zirvə olan Şəhidlik zirvəsini fəth etdi...

1991-ci ildə ermənilər kəndlərini yandırdığı üçün Kəlbəcərin Laçın kəndində məskunlaşmışdılar.

1992-ci ildə isə özü könüllü dəstə yaratmışdı.

Ailəsini çox sevirdi. Qayğıkeş ata, sevimli ailə başçısı idi. Ancaq, görünür, vətən sevgisi daha çox

imiş.İki gül balası var – qızı Jalə və oğlu Elçin.

1992-ci il aprel ayının 8-də Ağdabanın harayına gedən bir çox qəhrəmanların içərisində Misir də var idi.

Döyüşə gedən igidin günorta qara xəbəri gəldi. Bu ağır xəbər bütün kəlbəcərliləri sarsıtdı, bütün kərəmliləri kədərə bürüdü.

Nəcəfalılarda bu xəbər ən ağır itki kimi qarşılandı. Camaat yasa batdı.

O dəhşətli günlərdən bizi 17 illik bir zaman kəsiyi ayırır. Böyük çətinliklərlə olsa da, həyat yoldaşı Nailə xanım uşaqlarını layiqlə, namusla böyütdü. Atası Abbas kişinin onlara himayəsi daha çox oldu. Hal-hazırda Şəmkirdə ata-anası ilə birlikdə qalan Nailə xanımın dərd yükünü çəkməyə havadar olan iki layiqli övladı böyüyür. Qızı Jalə ADU-nun tarix fakültəsində ən sevimli və əlaçı tələbədir. Oğlu Elçin sürücüdür.

İnşallah, bu gündən sonra bu ailəyə yalnız uğurlu xəbərləri, xoş xəbərlər gələcək. Bax, onda həm zəhmətkeş ana, həm nisgilli baba, nənə, həm də göylərdə şəhid ruhu da şad olacaq. Elinin qəhrəman oğlu, vətənpərvər zabiti Misirin ruhu şad olmaq naminə görülən hər bir iş, qazanılan hər bir uğur yalnız şərəfə layiqdir.

## ABBASOV İSGƏNDƏR ASİF OĞLU

*... Doğulan məqamdan, yaranan gündən,*
*Özüylə yaşadır insan dərd-səri,*
*Silinməz heç zaman könül mülkündən*
*Doğma Kəlbəcərin el şəhidləri.*

***Hikmət Mahmud.***



Doğulan gündən zəhmət, qayğı, atasızlıq, kasıbçılıq içində polad kimi bişən, bərkiyən Asif dayı təzə-təzə sevinməyə başlayırdı. Qayğıkeş ana olan həyat yoldaşı Günəş Şəmkir qızı ilə çiyin-çiyinə, əl-ələ verib gözəl bir ailənin təməlini qurmuş və ilk barını dadan bağban kimi fərəhlənirdi. Böyük oğlu Hicran ali təhsil almışdır, ikinci oğlu İsgəndər hərbi xidməti nümunəvi başa vurub, kolxozda sürücü işləyirdi. Hər şey öz axarı ilə gedirdi. Təkcə mənfur ermənilərin pis xislətləri və o gecəki yuxusu olmasaydı. Yuxuda ağacdan dəyməmiş meyvənin töküldüyünü və iki dişinin düşdüyünü görmüşdü.

Əsrlərlə səbəbini və izahını heç bir alimin isbat edə bilmədiyi bir yuxunun dəqiqliyinə baxın. Təzəcə bar verən ağacın meyvələrini tökməsi və insanı ən bərk incidən diş ağrısı. Kaş tərsinə olaydı bu dəfə yuxular. Amma "insan doğulanda öz alın yazısı ilə doğulur" deyiblər. Taledən qaçmaq olmazmış.

İsgəndər 1967-ci ildə Nəcəfalılarda doğulub. Uşaqlıqdan qoçaq, qorxmaz, haraya gedən oğlan kimi tanınırdı. Vətənpərvər eloğlumuz vətəni o qədər sevirdi ki, ondan ayrı düşmək istəmədi. Könüllü orduya yazılmış və daim döyüşə atılmışdır.

O gecə də Ağdabanı yandırmışdılar. Xəbəri eşidən kimi ilk haraya gələnlərdən biri də İsgəndər oldu. Ancaq

köməyə tələsən igidlər Çayqovuşanda ölümlə üz-üzə gəldilər. Bu xəbər bütün Nəcəfalılar camaatını qəm dəryasına qərq etdi.



Xüsusilə də özündən iki yaş kiçik olan bacısı Yaqutu (biz ona Cəmilə deyirdik). Onsuz yaşamağı təsəvvür etməyən bacı gecə-gündüz gözyaşı tökürdü. Bəlkə bu, İlahinin acığına getmişdi. Axı İsgəndər ən şərəfli ölümə, ən yüksək ada-şəhid adına layiq görülmüşdü. Və bir gün fikir dənizində, qəm dəryasında üzən bacı Tunel yolunda yuxarıdan gələn nəhəng qayaya tuş gəldi. Heç qaçmadı da...

Qismət olsa, Nəcəfalılar qəbiristanlığına yolunuz düşsə, yanaşı iki mehriban qəbir görsəniz, bilin ki, bu Abbasovlar ailəsinin son qəmlərinin nişanələridir. Bəli, məhz son qəmlərinin. Çünki hamılıqla İlahidən bu ailəyə bu gündən belə yalnız sevinc, xoş günlər diləyirik. Allah, qalan övladlarından zəhmətkeş Asif dayının barını, bəhrəsini versin. O gün olsun ki, doğma kəndimizə qayıdanda şəhidimizin adını əbədiləşdirən İsgəndər bulağına, İsgəndər yaylağına rast gəlib fəxrlə deyirik ki, bu kənddə belə oğlanlar yaşayıb....

*Tərsinə yozulsa bəzən yuxular,*
*Qəm-qüssə də bu dünyadan yox olar.*

***Adil Həmid.***

# QABİLOV SƏDRƏDDİN QƏDİR OĞLU

*Qanlı yaddaşımıza 7 aprel gecəsi,*
*Al qanlarla yazıldı Ağdaban faciəsi.*

***Adil Həmid.***



Vətənpərvərlik, hərb sənətinə həvəs Sədrəddinin qanında, genində özünə uşaqlıqdan yer eləmişdi. O, dünyaya göz açandan iri gövdəli, hərbi geyimli bir şəxsi görmüşdü. Bu onun atası-elinin, obasının seçmə kişilərindən olan, hələ Böyük Vətən müharibəsinin qanlı-qadalı günlərində Kəlbəcər rayon hərbi komissarlığında II hissə rəisi işləyən Qədir İsmayılov idi.

Həm də halal süd əmmişdi qəhrəmanımız. Anası tanınmış el ağsaqqalı, Nəcəfalılarda hörmətli, nüfuzlu adamlarından olan Məşədi Piri Məhəmmədin nəvəsi idi.

Sədrəddin Zaqatala Politexnik Texnikumunun dağ-mədən kəşfiyyatı fakültəsini bitirmişdi. Sən demə, vətənin yeraltı, yerüstü sərvətini öyrənmək məqsədilə təhsil alan insanın taleyinə hərbi şəraitdə mənfur ermənilərin pis niyyətini, dağıdıcı planlarını öyrənməkdə kəsfiyyat aparmaq lazım olacaqmış Düşənbədə hərbi xidmətdə olduqdan sonra Gürcüstanda 6 ay hərbi yığımda olub. Leytenant rütbəsi ilə evə dönən vətənpərvər vətəni darda olduğundan ona lazımlı olduğunu anlayıb, 1992-ci ildən doğma Azərbaycana qayıdaraq onun ordu sıralarında hərbçi kimi fəaliyyətini davam etdirir. Evdə onu gözəl ailəsi və 3 övladı gözləyirdi.

1992-ci ilin baharı elin yaddaşında gülləri açılmayan, güllələr, mərmilər baharı, müqəddəs Dədə Şəmşir ocağının dağıldığı bahar kimi qaldı. Ancaq bu bahar Ağdaban taleyinə daha ağır faciə kimi yazıla bilərdi. Həmin gün-

7 apreldə erməni quldurları bütün kəndi yandırmaq, qalanları isə əsir aparmaq planı cızmışdılar.

Aprelin 8-də elimizin qədim adətlərindən biri-darda olanın köməyinə çatmaq adəti 13 nəfər igidi də öz yuvasından uçurtmuşdu. Məhz uçurtmuşdu. Çünki onlar bu xəbəri eşidən kimi özlərini Ağdabana çatdırmaq üçün uçurdular. Qansızlar nəinki sağlam adamı, hətta qoca, uşaq və xəstə adamları da məhv etməkdən zövq alırdılar. Musa adlı bir xəstəni ot tayasının üstündə diri-diri yandırmışdılar. Gecikmək olmazdı. Əliyev Misir, Bağırov Vidadi, Süleymanov Azad, Abbasov İsgəndər və başqaları kimi Qabilov Sədrəddin də haraya gedənlərin içərisində idi. Gözlənilməz zərbə ermənilərin planlarını pozdu. Lakin güclü ordu, zirehli texnika və amansız erməni yırtıcıları igidlərimizin həyatına son qoydu. Buna baxmayaraq, bütün Ağdaban camaatı o igidlərin şücaəti, qəhrəmanlığı və qanı bahasına əsirlikdən xilas ola bildi. O 13 nəfərdən yalnız biri-Yusibov Famil xoş təsadüfdən sağ qaldı. Bəs digərləri?..Digərləri isə əbədiyyata qovuşaraq, qədirbilən Azərbaycan xalqının yaddaşına qanlı hərflərlə qəhrəmanlıq salnaməsi yazdı. Onlar hər birimizin atasına, qardaşına çevrildi. Ən əsası isə, onlar vətəndə qalıb tərki vətən olmadı.

Bu gün Sədrəddinin 2 qız balası və bir oğlu-Sədrəddin yaşayır.

Allah şəhidlərimizə rəhmət eləsin. Biz onlara görə varıq, yaşayırıq. Əgər buna yaşamaq demək mümkündürsə.



## ƏLİYEV MƏZAHİR FƏRZALI OĞLU

*Şəhid oldu sonbeşiyim,*
*Talan oldu ev-eşiyim.*
***Adil Həmid.***



Sayad xala həyat yoldaşı Fərzalı kişini Kəlbəcərdə torpağa tapşırmışdı. Vətən həsrəti onsuz da köksünü sökürdü. Sonbeşiyi Məzahirin hərbi xidmətə çağırılması dərdinin üstünə bir dərd də gətirmişdi. Lakin vətən borcunu layiqlə verən Məzahirin fərəhli xəbərlərini eşitdikcə fərəhlənir, bundan təsəlli tapırdı. Oğlunun hələ uşaqlıq illərindən hərbiyə olan həvəsini və marağını yaxşı bilirdi.

Əliyev Məzahir Fərzalı oğlu 1975-ci il avqust ayının 1-də Nəcəfalılarda doğulmuşdu. 8-ci sinfi bitirdikdən sonra Qılınclı kənd peşə məktəbində oxumuşdur.

1994-cü ilin şaxtası çox kəskin oldu. O, damarlarda qanı dondururdu. Çünki bu il bu ailəyə və Nəcəfalılara şəhid yanğısı, şəhid xəbəri gətirmişdi. Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vuruşan igid Məzahirin snayper (kəskin nişancı) gülləsindən aldığı yara onun həyatına son qoymuşdur. Cəmi 18 qış qarşıladı bu igid. Ancaq bu 18 illik ömür 100 il yaşasa da vətənə xeyri dəyməyən insanların ömründən şərəfli və üstün oldu. O ən müqəddəs, ən yüksək zirvə olan şəhidlik zirvəsində yurd saldı. Murov zirvəsindən keçib gələn şəhidlik zirvəsi. Yevlax rayonunun Şəhidlər xiyabanında bir Nəcəfalılar şəhidi - Əliyev Məzahir Fərzalı oğlu uyuyur. Ruhun şad olsunb Məzahir! Qədirbilən elin səni öz ürəklərində daima yaşadacaqdır.

Qəddini əymə, Sayad xala! Fitat, Rəbiyyə və

Validə bacıları. Allah Musa və Niyaz qardaşlarınızı gözü dolusu versin. Nəvələrinin xoş gülüş səsi əskik olmasın. Vətəni, atanı, ananı qorumağa orda da kimsə qalmalı idi...



***Məzahir Əliyev sinif yoldaşı və uşaqlıq dostu Şahmalı Əliyevlə.***

# HƏSƏNOV İLQAR KÖÇƏRİ OĞLU

*Tuş gəlsə  də namərdin fitnəsinə,*
*Can vermədi düşmənin gülləsinə.*

***Adil Həmid***



Artıq bir neçə il idi ki, ermənilər Kəlbəcərin sərhəd kəndlərini atəşə tutur, Ağdamdan gələn işığı kəsir, əhalini vahimə  və qorxu içində saxlamağa çalışırdılar.

Kəlbəcərin qorxmaz oğullarından ibarət könüllülər dəstəsi hər cür  fədakarlıq göstərərək onların planlarına mane olmağa çalışır, gecə-gündüz səngərlərdə ayıq-sayıq dayanaraq vətən torpaqlarını göz bəbəyi kimi qoruyurdular.

Son vaxtlar Qozlu tərəfdən Çərəktara,  Mərciməyə, Narınclara hücumlar edən  ermənilər əhalinin mal-qarasını  yığıb aparır, çobanları  öldürür, yaxın kəndləri qorxuya salırdılar.

Ermənilərin növbəti dəfə Narınclar istiqamətində güclü döyüş planı hazırlamaları xəbəri gəlmişdi. Bu planın qarşısını almaq məqsədilə İlqargilin kəşfiyyatçı dəstəsi əməliyyata çıxmışdı. 12 nəfərdən ibarət qorxmaz vətən oğulları dumanlı bir gündə sıx meşədə irəliləyirdilər. İlqarın səsi dəstənin üzvlərini çaşdırdı. Bir neçə addım irəlidə onu yaralı vəziyyətdə yerə sərilmiş gördülər. Qonşu Comərd kəndindən olan qorxmaz və vətənpərvər Xəlil özünü İlqarın üstünə atdı. Ancaq namərd gülləsi ona həmyerlisinə yardım etməyə imkan vermədi. O, İlqarın yanında yerə sərildi. Ona köməyə gələn silahdaşının şəhid olduğunu görən İlqarın düşmənə nifrəti birə-beş artdı. Amma o, yaralı idi, yerindən qalxa bilmirdi.  Yoldaşları isə mühasirəyə düşmüşdü. Mühasirədə  olduğundan  düşmənə  əsir

düşə biləcəyini bilib, o, düşmənə əyilməkdən, alçalmaqdansa ölümü üstün tutdu. Qorxmaz eloğlumuza cibində dar gün üçün saxladığı gülləsi köməyə gəldi. O, son məqam üçün saxladığı həmin gülləni özünə tuşladı…

Uzun müddət məzarları öz şəhidlərini gözlədi.

22 yaşlı gəncin minilliklərin yaddaşına yazılan qəhrəmanlıq yolu beləcə başa çatsa da, bundan sonra hələ çox insanlara örnək olacaq. Öləndə də kişi kimi ölməyi bacarasan gərək.

Başını vüqarlı tut, Köçəri dayı! Hər biri bir qəhrəman olan 8 oğul atasısan. İllər boyu daşdan çıxardığın çörəyin və qayğıkeş Zabilə ananın südü onlara halaldır.

## MƏMMƏDOV OQTAY SURXAY OĞLU

*Baharda açan tər bənövşələr,*
*Şaxtaya, borana dözmür deyirlər.*

**Adil Həmid.**



Qonşu Laçın rayonunun Hocaz kəndi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksələn qəhrəmanın işinin, əməlinin ətri bənövşə ətri kimi daim ruhlara qıda, özündən sonra dünyaya gələn oğluna ən böyük həyat məktəbi oldu.

Qəddini əymə, Surxay dayı! İlahi sevdiyi şəxsləri tez-tez sınağa çəkər. Bu da bir sınaqdır. Sən dözümlü adamsan.

Səbirli ol, Səmərqə xala! Şükür, Böyük Yaradan oğul payı da verib sənə, gözəl nəvə də. Sən hər kəsin qalxa bilmədiyi bir zirvəni fəth eləyən şəhid anasısan.

Taleyindən gileylənmə, Gülgəz bacı. Sənə qorxaq, qaçan, gizlənən yox, mərd, igid, qəhrəman, ən müqəddəs sevgi olan vətən sevgisi ilə ürəyi çırpınan bir ər qismət oldu. Qoy, Ulu Tanrı onun nişanəsini sənə gözü dolu versin!

Nə zamansa doğma kəndimizə dönəndə bu qəhrəmanların adını əbədiləşdirər və fəxrlə gələcək nəsillərə bildirərik ki, biz bu qəhrəmanların elindən-obasındanıq.

İndi isə yalnız Ulu Tanrıdan övladlarına rəhmət, sizə uzun ömür, səbir diləyirik! Amin!

## PİRİYEV RASİM İSA OĞLU

*«Silahımı düşmənə verib, özümüzə tuşlatmayın!»*
*Şəhid Rasim Piriyevin son sözləri.*



Adlı-sanlı Məşədi Pir Məhəmməd ocağının ağır təbiətli, sayılan-seçilən el ağsaqqalı İsa kişinin evində 15 iyun 1974-cü ildə bir şadyanalıq var idi. Bu gün ailənin sonbeşiyi, dördüncü oğul balası Rasim dünyaya gəlmişdi. Günbəgün, ilbəil böyüyən, palıd ağacı təki möhkəmlənən, gövdələnən bu gənc qeyri-adi xarakterə malik idi. Vətənin hər qarışını, hər gülünü-çiçəyini sevmək onda nəzərəçarpacaq dərəcədə hiss olunurdu. Hər işdə birinci olmaq istəyirdi.

1992-ci ilin payız çağında könüllü orduya getmişdi. Xidmətinin ilk günlərindən cəsur döyüşçünün kəndinə xoş xəbərləri gəlirdi.

Bir dəfə də 15 günlük məzuniyyətə gəlmişdi. Amma çox qalmadı. Bir az dincəlib geri qayıtdı. Sonradan məlum oldu ki, "Ağduzdaxda" kəşfiyyata gələn 2-3 erməni məhv etmişdir. Dal-Qılınclı kəndindən olan Mübariz adlı döyüş yoldaşının dediklərinə görə, Rasimin bu igidliyini qiymətləndirən komandiri onu məzuniyyətə buraxmışdı.

Laçın rayonunun Hocaz yüksəkliyi uğrunda gedən döyüşlərdə onun düşmənə nifrəti birə beş artmışdı. Atışma zamanı 7 nəfər erməni vurmuşdur. Başlarının üstündən yağış kimi yağan düşmən gülləri onları səngərə yatmağa məcbur etmişdir. Düşmənin bu üstünlüyü ilə barışmayan Rasim "nə vaxtacan onların qarşısında baş əyəcəyik", - deyərək səngərdən çıxaraq vuruşa-vuruşa irəli atılmışdır. Lakin mənfur düşmənin gülləsi ona tuş gəlmişdi. Rasimin bu qəhrəmanlığından ruhlanan

döyüş yoldaşları hücuma keçərək düşməni geri oturtmuşlar. Şücaətli və qəhrəman döyüş yoldaşlarının səyi nəticəsində Rasimin cənazəsini ermənilərin döyüş ərazisindən götürmək mümkün olmuşdu.

27 mart 1993-cü ildə Nəcəfalılar camaatı öz qəhrəmanını-yeddinci şəhidini torpağa tapşırırdı. Səhəri gün isə özləri bu torpağı tərk etmək kimi dəhşətli məcburiyyət qarşısında qaldılar.Torpağı çox sevdiyindən bu torpağı qorumağa tələsən igidin ruhu sanki sabahkı köçü duymuşdu.

Bakıda yaşayan qardaşı Tofiq Murov yolunda köçün qabağına gəlir. Müxtəlif bəhanələrlə onu aldatmaq istəsələr də, o, qardaş xəbərini duymuşdu. Onunla mütləq vidalaşmalı idi. Tofiq qardaşı Cəbrayılla birlikdə kəndə qayıtdı. O vaxt hamı bir istiqamətə-Gəncə istiqamətinə gedirdi. Təkcə iki qardaş axına qarşı hərəkət edirdilər. Təzəcə dəfn olunan qardaşlarının qəbri üstə ürəklərini boşaldıb, yenidən Murova doğru yola düşən qardaşların qəlbində yalnız düşmənə nifrət və qisas hissi var idi.

Kövrək ananın fəryadına, bacının göz yaşlarına ən etibarlı dayaq isə təmkinli el ağsaqqalı İsa kişinin dözümlülüyü, məğrurluğu və səbiri oldu. Onu narahat edən bir şey var. Bu cür qəhrəmana hələ də ad verilməmişdi. Düzdür, o heç bir qapı döyməmiş, heç kimə xahiş də etməmişdi. Ancaq Rasim öz adını, öz yolunu özü seçmişdi. Ona ən yüksək qiyməti vermək isə bizim borcumuzdur.

# XIV FƏSİL

## NƏCƏFALILARIN KÖÇKÜNLÜK HƏYATI



## ƏSRLƏRLƏ SIĞIŞMIRDI EV-EVƏ, BİRCƏ GÜNDƏ NECƏ SIĞDI EL-ELƏ?!

***Adil Həmid.***

Əsrlərdən bəri dağlı-aranlı, köçlü, elatlı Kəlbəcərin tarixində 1993-cü ilin aprel ayı ən arzuolunmaz, ən könülsüz və ən rüsvayçı köç kimi yaddaşlara həkk olundu. Adət-ənənəsi, var-dövləti, məğrurluğu, qüruru, göy çəməni, şəlaləsi, buz bulaqları, axtarması, yağı, balı başı dumanlı dağların o üzündə qalan zəngin bir elin, obanın Azərbaycanın 21 rayonunda müxtəlif şəraitdə, müxtəlif iqlimdə Kəlbəcərsiz keçən ilk köçkünlük günü başlandı. Doğma od-ocağından ayrı düşən, ağır itkilər vermiş həssas, kövrək olduğu qədər də məğrur və əyilməz kəlbəcərlilərin ən çətin günləri idi o günlər. Qohum-əqrəbası olmayanlar çadırlarda, dövlət müəssisələrinin künc -bucaqlarında müvəqqəti məskunlaşaraq hər açılan sabahdan bir xoş müjdə gözləyirdilər.

Kəlbəcərlilərin çətin günlərində onların dadına çatan, maddi və mənəvi dayaq olan layiqli el oğullarının xidmətləri çox olub.



***Həsənov Eldar Hümbət oğlu***

Dəyərli həmyerlimiz, Kəlbəcərin və bütövlükdə Azərbaycanın fəxri oğlu, hüquq elmələri doktoru, ikinci dərəcəli ədliyyə müşaviri, respublikanın sabiq baş prokuroru, hal-hazırda isə Azərbaycanın Rumıniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Həsənov Eldar Hümbət oğlu, onun qardaşı polis polkovniki Ələkbər Həsənov, görkəmli şair Bəhmən Vətənoğlu, Sücaət, Məmməd Aslan, Şamil Əsgərov, Respublika Yol Polis İdarəsinin sabiq şöbə rəisi Nadir Həsənov, Rəşid Qurbanov, təcrübəli jurnalist, publisist, "Azərnəşr"in baş redaktoru, "Murovdağ" Xeyriyyə Cəmiyyəti İdarə Heyətinin sədri, sabiq millət vəkili Əlövsət Ağalarov, yazıçı-publisist Adil Cəmil, Kəlbəcər rayon İHB-nin müavini Çıraqov

Novruz Qafar oğlu, Yol Trestinin rəisi Çıraqov Nizami Qafar oğlu, Bakı şəhəri Su Satışı İdarəsinin rəis müavini Vəliyəddin İsmayılov, qonşu Günəşli kənd sakini, ziyalı eloğlumuz Nəsib Göyüşov, Gömrük Komitəsinin əməkdaşı Vahid Həsənov, iş adamı Mehman Quliyev, Kəlbəcərin şəhidlik tarixini yazan Məhəmməd Nərimanoğlu və onların şəxsində onlarla ziyalılar, şairlər və iş adamları öz maddi və mənəvi dəstəkləri ilə Kəlbəcər elinə köçkünlük günlərinin ağırlığını, az da olsa, unutdurmağa çalışırlar. Əhaliyə maddi və mənəvi dayaq olan millət vəkili, ləyaqətli eloğlu, Dədə Şəmşir ocağının nümayəndəsi Cavid Qurbanovun adını xüsusi qeyd etmək lazımdır. Bunlardan başqa böyük imkan sahibi olmasalar da öz kəndinin dara düşəninə, ehtiyacı olanına yardım əlini uzatmağa tələsən həmkəndlilərimizdən Elçin Əliyevin, Mübariz Abbasovun, Ramiz Musayevin, Hicran Abbasovun adını çəkmək yerinə düşərdi.



***Qurbanov Cavid Qənbər oğlu.***

Həmkəndlimiz Elçin Əliyevin dəstəyi və təşkilatçılığı ilə Yevlax rayonunun Kövər, Malbinəsi, Qoyunbinəsi və ətraf kəndlərində yaşayan məcburi köçkün və imkansız ailələrə maddi yardım göstərilməsi məqsədilə Nəcəfalılar kəndində yaşamış Seyid Əlinin adını daşıyan «Seyid Əli» icması yaradılmış və fəaliyyət göstərir. Həmin icmanın 5500–dən çox üzvü vardır. İcmanın rəhbəri həmkəndlimiz Əliyev Şura Baxşəli oğludur. Bundan başqa icmanın idarə heyətində həmkəndlilərimizdən Piri Pİriyev, Sayat Əliyeva və başqaları təmsil olunurlar. «Seyid Əli» icması bir çox beynəlxalq hummanitar təşkilatlarla, o cümlədən Amerikanın «Kounterpart» Beynəlxalq Humanitar təşkilatı ilə sıx əlaqələr saxlayır. Həmin təşkilatın xətti ilə dəfələrlə icma üzvlərinə müxtəlif yardımlar: ərzaq məhsulları, geyim paltarları, məişət əşyaları, xeyir-şər məclisləri üçün çadırlar və başqa yardımlar paylanmışdır.

Qoynunda yaşadıqları Murov və Dəlidağ kimi məğrur və əyilməz olan kəlbəcərlilər yarı minnətli, yarı minnətsiz, qayğılı, nisgilli günlərini yaşaya-yaşaya ömrünün ən mənalı keçə biləcək 17 ilini köçkünlük şəraitində, vətəndə

vətənsiz olaraq keçirirlər. Bu dərdin ağırlığını isə çəkməyən bilməz.

Dağların vüqarlı oğlu Müzəffər müəllim yazırdı:

Vətəndən didərgin düşməyən bilməz
Vətən nə deməkdir, el nə deməkdir!
Utana-utana gözü kölgəli
Qürbətdə yaşanan il nə deməkdir.

Zülmünü görməyən zalım fələyin,
Nazını çəkməyən nazlı mələyin.
Nə bilər ki, dağ döşündə küləyin
Sığala çəkdiyi tel nə deməkdir.

Yenə yada düşdü hər qaya, hər daş,
Gözlərimdən ixtiyarsız axdı yaş.
Dağları gəzməyən nə bilər, qardaş,
Çəmən nə deməkdir, çöl nə deməkdir.

Müzəffərəm, qəm ələndi başıma,
Bu görkəmim uyğun gəlmir yaşıma,
Ay bizi qınayan, gəlsin başına
Qaçqınlıq, qəriblik, bil, nə deməkdir.

İlk baharda yarpızlı bulaqları, isti yay günlərində gül ətri qoxuyan sərin mehi, diş göynədən lilparlı bulaqları, şanı balı, payızda barlarını yığıb-yığışdırmaq mümkün olmayan barlı -bəhrəli bağları, qışda axtarma motalı, ərinmiş yağı, qovurmanı yada salıb xoş xatirələrini vərəqləyən əhali gələcəyə ümidlə baxaraq tezliklə o yerlərə dönəcəyinə inanır. İnsanı yaşadan ümiddir. Bu ümidin çırağında Kəlbəcər əhalisi bu gün yaşayır, yaradır.

01.01.2008-ci ilin siyahıyaalmasına görə Kəlbəcərin əhalisinin 96,6 % -ni azəri türkləri, 1,9%-ni kürdlər, 1,5%-ni isə digər millətlər təşkil edir. Əhalinin 6311 nəfəri öz rayonunun idarə və müəssisələrində işləsə də, qalanları müxtəlif işlərdə çalışır. Hazırda rayonun 114 ümumtəhsil məktəbi, 1-mədəniyyət evi, 1 kitabxanası, 1 muzeyi, 1 mərkəzi xəstəxanası,

1 poliklinikası fəaliyyət göstərir.

Heyvandarlıq sahəsində daim nailiyyəti olan əhali sıfırdan başlasa da, böyük əziyyətlərlə bu gün iri-buynuzlu mal-qaranın sayını 20,687-yə, xırdabuynuzlu davarın sayını isə 162,716-ya çatdırıb. 3917 arı ailəsi var. İldə 25125 sentner ət, 67711 sentner süd, 2045 sentner yun, 8019 sentner buğda istehsal edilir.

**O YERLƏRİN**

Hər daşında, qayasında,
Hər kolunda , ağacında,
Hər düzündə, yamacında,
İzim qalıb o yerlərin.

Göllərinin sonasında,
Çeşmələrin aynasında,
Şirin ana laylasında,
Gözüm qalıb o yerlərin.

Neçə rəngdə gül bitirən,
Ağır ellərin itirən,
Hicranına tab gətirən,
Dözüm qalıb o yerlərin.

Qızınaydım nəfəsinə,
Adil can deyə səsinə,
Min gözəlin hərəsinə,
Sözüm qalıb o yerlərin.

***A.Həmid***

## HARDASAN?

Qızmar yay günüdür , səhər günəşi
Boylanır Xəzərin üfüqlərindən.
Yenə bişirəcək bizi atəşi,
Yada düşdün , çox səfalım, hardasan?

Könül istər qaymağa bal qatmağa,
Bihuş olub çəmənində yatmağa.
Ömür aman verə sənə çatmağa,
Var-dövlətim, cah-cəlalım, hardasan?

Bənövşə qoxulu meh burdan əsə,
Üzəm çiçəyini , şeh məni kəsə.
Oyanam sehirli , mehriban səsə,
Kədər yüküm , dərd-məlalım, hardasan?

Nəbisi qılınclı, Həcəri atlı,
Eli qonaqpərvər, əli sovqatlı.
Yayı bol bəhrəli, şirin ovqatlı,
Zimistanı xoş cəfalım, hardasan?

Çox axtardım yaxınını, yadını,
Hər nə daddım, verəmmədi dadını.
Fəxr edib, fərəhlə çəkdim adını,
Tay sənə yox, NƏCƏFALIM, hardasan?

***Adil Həmid.***













***Yevlax rayonu Malbinəsi kəndində məskunlaşmış Nəcəfalıların məcburi köçkünləri.***

# II HİSSƏ

## NƏCƏFALILAR ELİNİN ŞƏCƏRƏSİ



# I FƏSİL

## I. SEYİD ƏLİ XƏLİFƏNİN NƏSLİNİN ŞƏCƏRƏSİ



Tarixi qədimliyi ilə əlaqədar olaraq **Seyid Əlı** xəlifənin ata-anası, bacı-qardaşları, həyat yoldaşı və digər qohumları barədə məlumatlar əldə etmək mümkün olmamışdır. Kəndimizin yaşlı nəslinin nümayəndələrinin dediklərinə görə, Seyid Əli xəlifə əslən İraqın Nəcəf şəhərindən gəlmişdir. O, sonuncu peygəmbərimiz Muhammad peygəmbər (s.ə.s.) əhli beytindən olan imamlarımızın övliyalarından biri olmuşdur. O dövrdə İraqda və digər yerlərdə Əli (ə) şiələri təqib edildiyindən Seyid Əli Xəlifə, onun qohumlarının bir qismi və Əli (ə) tərəfdarlarının bəziləri İslamda şiəliyin dayağı kimi tanınmış İrana gəlmişlər. Bir müddət İranda yaşadıqdan sonra, Seyid Əli xəlifə ailə üzvləri və yaxın tərəfdaşları ilə birlikdə indiki Laçın rayonunun Dambulaq kəndinə gəlmişlər. Onlar Laçın rayonunda yığın seyidlər kimi tanınmışlar. Sonradan Seyid Əli xəlifə öz ailə üzvləri və yaxın qohumları ilə birlikdə Laçın rayonunun Böyük Seyidlər kəndinə köçmüş və ömrünün sonunadək həmin kənddə yaşamışdır. O, Böyük Seyidlər kəndində dəfn olunmuşdur və qəbri ən inanclı və müqqəddəs ziyarətgahlardan biridir. Seyid Əli xəlifənin növbəti nəsillərində onun adını daşıyan Əli adında çoxlu şəxslər olmuşlar. Seyid olduqlarından onların adlarının əvvəlinə «seyid» sözü əlavə olunurmuş.

Seyid Əli xəlifənin sonrakı nəslinin övladlarından biri olan və onun adının daşıyıcısı olan (neçənci nəslinin nümayəndəsi olmasını bilmirik) şəxslərdən biri də Seyid Əli olmuşdur. Seyid Əli münbit torpaqlı yeni yaşayış məkanları

tapmaq məqsədilə indiki Kəlbəcər rayonunun ərazisinə gəlmişdir. O, Kəlbəcər rayonunun Comərd kəndinə gələrkən həmin kəndin sakinlərindən biri ona indiki Nəcəfalılar kəndinin yerləşdiyi ərazinin əkin və yaşayış üçün əlverişli olmasını nişan vermişdir. Seyid Əli həmin yerə gəlir və oranın münbit torpağını, coğrafi mövqeyini və iqlim şəraitini bəyənərək burada məskən salmaq qərarına gəlir. O, həmin yeri kəlin buynuzu ilə şumlayıb əkir və darı səpir. Sahədən bol məhsul götürən Seyid Əli burada məskən salaraq yaşamaq qərarını qətiləşdirir. Bu məqsədlə o, oğlu Seyid Xudaverdini, Seyid Şahbəndəni və bizə məlum olmayan digər ailə üzvlərini indiki Nəcəfalılar kəndinə gətirmiş və onlara həmin yerdə məskən salaraq yaşamışlar.

Təəssüflər olsun ki, Seyid Əlinin həyat yoldaşı barədə məlumat əldə edə bilməmişik. Onun övladlarından isə bizə məlum olanı yalnız **Seyid Xudaverdi** və **Seyid Şahbəndədir**.

**Seyid Şahbəndə** barədə məlumatlar olduqca məhduddur. Onun barəsində belə rəvayət edirlər ki, o, hələ körpə olarkən atası Seyid Əlinin öz ailə üzvlərinə və nökər-naibinə qəzəbi tutmuş və onlara qarğış etmişdir. Seyidin qəzəbinə səbəb isə qulluqçuları tərəfindən təsadüf nəticəsində onun malına haram mal qatmaları olmuşdur. Ulu Tanrı Seyid Əlinin qarğışını eşitmiş və yaşadığı dəyədə yanğın baş vermişdir. Təlaşa düşən ailə üzvləri və nökər-naiblər körpə Şahbəndənin dəyədə yanğının içində qaldığını görüb Seyid Əliyə xəbər verirlər. Seyid halını pozmadan Şahbəndəyə heç nə olmayacağını deyərək, yalnız halal malına qatılmış haram malın yanacağını bildirmişdir. Həqiqətən də, adamlar yanğını söndürən zaman Şahbəndənin salamat olduğunun, yanğının ona heç bir xəsarət yetirmədiyinin, sadəcə, istidən onun alnının tərlədiyinin, alovun isə yalnız onun yatdığı yüyrüyün (beşiyin) kənarlarını yüngül yandırdığının şahidi olmuşlar. Həmin hadisədən sonra Şahbəndəyə həm də «yanıq yüyrük» ağa da deyirmişlər.

## SEYİD XUDAVERDİ SEYİD ƏLİNİN OĞLUNUN NƏSLİ



**Atası:** Seyid Əli
**Anası:** məlum deyil
**Bacıları:** məlum deyil
**Qardaşları:** məlum olanı yalnız Seyid Şahbəndədir.
**Həyat yoldaşı:** Laləqız (el arasında Lalağız) nənə olmuşdur.
**Övladları:** Seyid Əli (el arasında Seydalı), Böyük Seyid Mirzalı, Seyid Bayramalı. Başqa övladları barədə məlumat əldə etmək mümkün olmamışdır.

## Seyid Alı (Əli) Seyid Xudaverdi oğlunun ailəsi

**Seyid Əli (Seydalı)** - Kəlbəcər rayonunun Çərəkdar kəndindən olan **Gülsaat Möyvalı qızı** ilə evlənmişdir. Gülsaat nənənin anasının adı isə Şərəf nənədir. Seyid Əli dövrünün tanınmış və sınanmış seyidlərindən olmuşdur. O, nəinki yaşadığı bölgədə, hətta Qarabağ və digər mahallarda da tanınırdı. Seyid Əli o dövrün qubernatoru ilə şəxsən tanış olmuş və onunla yaxın dostluq münasibəti olmuşdur. Seyid Əlinin xahişi ilə qubernator özünün şəxsi nümayəndəsini Nəcəfalılar kəndinə göndərmiş və seyidin torpaq sahələrini dlyanka (o dövrün ölçü aləti olmuşdur) ilə ölçərək ona vermişdir. Həmin dlyanka son vaxtlara qədər Seyid Əlinin gəlini Gülbəs Məhəmməd qızının evində saxlanılırdı. Bundan başqa, Seyid Əlinin ocağı həm də sınaqlı seyid ocağı kimi tanınırdı. Yaşlı nəslin dediyinə görə, Seyid Əlinin ocağına ilanlar ziyarətə, marallar sağına gələrmişlər. Gülbəs Məhəmməd qızının evində həmin maralların südü sağılan sərnic son günlərə dək, saxlanılırdı. Sovet rejimi qurulandan sonra həmin rejimin dinə və dini adət-ənənələrə qarşı yürütdüyü

siyasət nəticəsində Seydalı övladları onlara mənsub olan seyidlikdən və onlara xas olan xüsusiyyət və ənənələrdən yavaş-yavaş uzaqlaşmışlar. Sovet rejiminədək çoxlu sayda məşədi, kərbalayı və mollaları olan Nəcəfalılar kəndində sonradan, hətta kənd məscidi və mollası belə olmamışdır. Şura hökuməti, hətta Nəcəfalılar kəndində yaşamış və dövrünün ən savadlı və tanınan mollalarından biri olmuş molla Şahmara Qurani-Kərimdən dərs verməyi və dini mərasimlər keçirməyi belə qadağan etmişdir.

Seyid Seydalının Gülsaat nənə ilə nikahlarından **Baxşəli, Mehti, Novruz, Çərkəz, Tükəzban və Əzət** adlı övladları olmuşdur.

Çərkəz Seyidalı oğlu-hələ subay ikən Fin müharibəsinə getmiş və orada həlak olmuşdur.

Novruz Seydalı oğlu-hələ subay ikən rəhmətə getmişdir.

Tükəzban Seydəli qızı - hələ subay ikən rəhmətə getmişdir.

Əzət Seydalı qızı-Qarabağa ərə getmiş, bir qızı olmuş, qızı hələ uşaq ikən hər ikisi rəhmətə getmişlər. Allah onların hamısına rəhmət eləsin!

## Əliyev Baxşəli Seydalı oğlunun ailəsi

**Əliyev Baxşəli Seydalı oğlu** – həmkəndlisi **Əliyeva Gülbəs Məhəmməd** qızı (1906) ilə ailə qurmuşdur. Gülbəs Əliyevanın atası Məhəmməd Nəcəfalılar kənd sakini Namazın oğludur. Anası Şəpəri nənə isə Kəlbəcər rayonunun Ağdaş kəndindəndir. Onların **Şahmalı, Səfər, Qəfər, Mənzər, Mənaf, Şura, Aydın və Məryəm** adlı övladları vardır.

Əliyev Qəfər və Mənaf-hələ uşaq ikən rəhmətə getmişlər.

Əliyev Şahmalı Baxşalı oğlu-1941-45-ci illər Böyük Vətən müharibəsinə getmiş və orada həlak olmuşdur. Allah onların hamısına rəhmət eləsin!

## Əliyev Səfər Baxşəli oğlunun ailəsi

**Əliyev Səfər Baxşəli oğlu**-1928-ci ildə Nəcəfalılar kəndində anadan olmuşdur. 1993-cü ilin aprel ayının 2-də mənfur təcavüzkar erməni silahlı qüvvələrinin Kəlbəcər rayonunu işğal etməsi nəticəsində Səfər Əliyevin ailəsi digər həmkəndliləri ilə birlikdə doğma el-obasından məcburi köçkün düşmüşlər. O, ailəsi ilə birlikdə məcburi köçkün kimi Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır. Səfər Əliyev 2001-ci ildə Yevlax rayonunun Malbinəsi kəndində rəhmətə getmiş və həmin kəndin qəbiristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin! Səfər Əliyevin həyat yoldaşı **Əliyeva Zöhrə Zeynal** qızı 1920-ci ildə Nəcəfalılar kəndində anadan olmuşdur. Onun atası Piriyev Zeynal Nəcəfalılar kənd sakini Məşədi Pirməmmədin oğludur. Anası Ayna nənə isə Nəcəfalılar kənd sakini Rəhim Məşədi Şəmir oğlunun qızıdır. Əliyev Səfər Baxşəli oğlu Nəcəfalılar kəndində tanınan və sayılan ağsaqqallardan biri olmuşdur. O, müxtəlif vaxtlarda «Puşkin» adına kolxozda briqadir, kassir və digər vəzifələrdə işləmişdir. Öz halallığı və ağır təbiəti ilə sayılan-seçilən kişilərdən biri olmuşdur. Kəndin ağsaqqalı kimi

kəndin ictimai həyatında fəal iştirak etmişdir. El tədbirlərində, şənliklərində, elçilikdə, barışıqlarda və digər mərasimlərdə sözünü yerə salmazdılar. Kənd camaatı onun hörmət və xətrini həmişə uca saxlayardı.

Səfər Əliyevin və Zöhrə Əliyevanın birgə nikahlarından Behbud, Şövkət, Tahir, Zahid, Təzəgül və Ələsgər adlı övladları vardır.

**Əliyeva Şövkət Səfər qızı (1953)**–subaydır. O, Yevlax rayonunun Malbinəsi kəndində anası Zöhrə Əliyeva və qardaşı Zahid Əliyevin ailəsi ilə birlikdə yaşayır.

**Əliyev Ələsgər Səfər oğlu (1962)**–subaydır. Ələsgər Əliyev Rusiya Federasiyasında yaşayır.

## Əliyev Behbud Səfər oğlunun ailəsi

**Əliyev Behbud Səfər oğlu (1952)** – əslən Quba rayonundan olan Əliyeva Tavat Nəciməddin qızı (1957) ilə ailə həyatı qurmuşdur. Onların birgə nikahlarından Rövşən və Arzu adlı övladları vardır. Behbud Əliyev 2000-ci ildə Sumqayıt şəhərində rəhmətə getmiş və Sumqayıt şəhər qəbiristanlığında dəfn edilmişdir. Allah rəhmət eləsin!

**Əliyev Rövşən Behbud oğlu** (1981) və **Əliyeva Arzu Behbud qızı** (1984) – hələ ki, subaydırlar. Onlar anaları Əliyeva Tavat Nəciməddin qızı ilə birlikdə Sumqayıt şəhərində yaşayırlar. Allah onlara da toy qismət eləsin!

## Əliyev Tahir Səfər oğlunun ailəsi



**Əliyev Tahir Səfər oğlu (1956)**- öz həmkəndlisi Əliyeva Rəbiyyə Fərzalı qızı (1961) ilə ailə həyatı qurmuşdur. Həyat yoldaşı Rəbiyyə Nəcəfalılar kənd sakini Fərzalı Mirzalı oğlu Əliyevin və Sayat Əlif qızı Əliyevanın qızıdır. Əliyev Tahirin Rəbiyyə Əliyeva ilə birgə nikahlarından Məlahət, Vurğun və Gülnarə adlı övladları

vardır. Tahir Əliyev 1986-cı ildə Tunel-Comərd yolunda baş vermiş avtomobil qəzası nəticəsində rəhmətə getmişdir. O, Nəcəfalılar kənd qəbiristanlığında dəfn edilmişdir. Allah rəhmət eləsin!

## Əliyev Vurğun Tahir oğlunun ailəsi

**Əliyev Vurğun Tahir oğlu** (1982) - əslən Astara rayonundan olan Əliyeva Rəbiyyə Əyyar qızı (1988) adlı şəxslə 2008-ci ildə evlənmişdir. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin!



***Rəbiyyə övladları Vurğun və Məlahətlə.***

**Əliyeva Məlahət Tahir qızı** (1981) – həmkəndlisi və yaxın qohumu Əliyev Anar Şura oğlu ilə 2003-cü ildə ailə qurmuşdur. Onların birgə nikahlarından Nicat (2004) adlı oğulları vardır. (bax Anar Əliyevin ailəsi barədə olan məlumatlara).

**Əliyeva Gülnarə Tahir qızı** (1983) – Kəlbəcərin Quzeyçikin kəndindən olan xalası oğlu Mikayılov Etibar Əmrah oğlu adlı şəxslə ailə həyatı qurmuşlar. Onların birgə nikahlarından **Mələk** (2007) və **Fatimə (2010)** adlı qızları vardır.

## Əliyev Zahid Səfər oğlunun ailəsi



**Əliyev Zahid Səfər oğlu (1958)** – həmkəndlisi Həmidova Adilə İbrahim qızı (1965) ilə ailə həyatı qurmuşdur. Həyat yoldaşı Adilə Pirilərdə yaşamış İbrahim Şahmar oğlu Həmidovun və Qumru Əlif qızı Həmidovanın qızıdır. Zahid Əliyevin həyat yoldaşı Adilə Əliyeva ilə nikahlarından **Nigar** (1992), **Vahid** (1993), **Əsmər** (1996), **Orxan** (1998), **Sevil** (2002) adlı övladları vardır. Zahid Əliyev ailəsi ilə birlikdə Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır. Onun uşaqları hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

**Əliyeva Təzəgül Səfər qızı (1960)** – Kəlbəcər rayonunun Günəşli kənd sakini Bəylərov Qürbət Yunus oğlu adlı şəxslə ailə həyatı qurmuşlar. Onların birgə nikahlarından **Könül** (1986) və **Çingiz** (1987) adlı övladları vardır. Təzəgül Əliyeva ailəsi ilə birlikdə Sumqayıt şəhərində yaşayır. Qızı Könül Sumqayıt Dövlət Universitetinin riyaziyyat fakültəsini bitirmişdir. Oğlu Çinciz isə Neft-Kimya Texnikumunda oxuyur. Övladları, hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

# Əliyeva Mənzər Baxşəli qızının ailəsi



**Əliyeva Mənzər Baxşəli qızı (1936)** – əslən Laçın rayonunun Minkənd kəndindən olan, Kəlbəcər rayonunun Çaykənd kəndində yaşamış **Əhmədov Behbud Əhməd** oğlu ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından Elçin adlı övladları vardır. Mənzər Əliyeva hal-hazırda Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır.

**Əliyev Elçin Behbud oğlu (1966)** – əslən Ağcabədi rayonunun Qaradolaq kəndindən olan **Əliyeva (Məmmədova) Yeganə Böyükkişi** qızı ilə evlənmişdir. Onların birgə nikahlarından **Ramil** (1988), **Aytən** (1992) və **Emil** (1999) adlı övladları vardır. Əliyev Ramil Elçin oğlu «Odlar Yurdu» Universitetinin iqtisadiyyat fakultəsində təhsil alır. O biri uşaqları isə hələ ki, orta məktəbdə oxuyurlar. Elçin Əliyev ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır. Onun övladları, hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!



**Elçin Əliyev, həyat yoldaşı Yeganə xanım, qızı Aytən, oğlanları Ramil və Emil.**

## Əliyev Şura Baxşəli oğlunun ailəsi

**Əliyev Şura Baxşəli oğlu (1937)** – əslən Kəlbəcər rayonunun Almalıq kəndindən olan **Əliyeva Qənirə Abbas qızı** (1945) ilə ailə həyatı qurmuşdur. Şura Əliyev Bərdə rayon texniki peşə məktəbinin sürücülük kursunu bitirmiş və uzun illər sürücü işləmişdir. O, kəndinin xeyrinə-şərinə yarayan, kəndin ictimai həyatında fəal iştirak edən bir ağsaqqal kimi özünə hörmət qazanmışdır. Şura kişi iri gövdəli, sağlam bədənli və olduqca güclü bir adamdır. O, həm də mahir ovçu kimi də tanınmışdır. Elimizin qanlı-qadalı günlərində, ömrünün ağsaqqallıq dövrünü yaşamasına baxmayaraq, silaha qurşanmış və igid eloğlularımızla birlikdə doğma Kəlbəcərimizin mənfur ermənilərdən qorunmasında və müdafiəsində fəal iştirak etmişdir. Şura Əliyev ailəsi ilə birlikdə hal-hazırda Yevlax rayonunun Kövər kəndində «40 evlər» adlanan yaşayış məntəqəsində məskunlaşmışdır. Şura Əliyevin Qənirə Əliyeva ilə birgə nikahlarından Mehman, Natiq, Nazim (Adil), Nadir, Vəsilə, Şahmalı, Vüsalə və Anar adlı övladları vardır.

## Əliyev Mehman Şura oğlunun ailəsi

**Əliyev Mehman Şura oğlu (1964)** – əslən Belqorod şəhərindən olan Əliyeva Tatyana ilə ailə həyatı qurmuşdur. Onunla birgə nikahlarından **Alyona** (1993), **Alina** (2000), **Elza** (2004) və **Ruslan** (2006) adlı övladları vardır. Mehman Əliyev Belqorod Politexnik İnstitutunun sənaye-mülki tikinti fakültəsini bitirmişdir. Hal-hazırda ailəsi ilə birlikdə Rusiya Federasiyasının Kotlos şəhərində yaşayır.



## Əliyev Natiq Şura oğlunun ailəsi



**Əliyev Natiq Şura oğlu (1967)** – həmkəndlisi Əliyeva Şəhla Elman qızı (1967) ilə ailə həyatı qurmuşlar. Onların birgə nikahlarından **Elxan** (1994) və **Sevinc** (1996) adlı övladları vardır. Oğlu Elxan dəfələrlə kik-boks üzrə keçirilmiş Avropa və Dünya çempionatlarında Azərbaycanı layiqincə təmsil edərək həmin yarışların qalibi olmuşdur.

Natiq Əliyev hal-hazırda Gəncə şəhərində məskunlaşmışdır.

## Əliyev Şahmalı Şura oğlunun ailəsi

**Əliyev Şahmalı Şura oğlu (1975)** – əslən Kəlbəcər rayonunun Ağcakənd kəndindən olan Əliyeva Asya Azad qızı (1980) ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından **Qənirə** (2004), **Samirə** (2005) və **Aydın** (2007) adlı övladları vardır. Şahmalı Əliyev ailəsi ilə birlikdə Yevlax rayonunun Kövər kəndində məskunlaşmışdır.

## Əliyev Anar Şura oğlunun ailəsi

**Əliyev Anar Şura oğlu (1982)** – öz həmkəndlisi və qohumu Əliyeva Məlahət Tahir qızı ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından **Nicat** (2004) adlı övladları vardır. Anar Əliyev hal-hazırda Yevlax rayonunun Kövər kəndində məskunlaşmışdır.

**Əliyeva Vəsilə Şura qızı (1974)** – əslən Kəlbəcər rayonunun Çərəhdar kəndində yaşayan xalası oğlu Məmmədov Mobil Behbud oğlu ilə ailə həyatı qurmuşdur. Onların **Zülfiyyə** (1998), **Günay** (2002) adlı övladları vardır. Onlar hal-hazırda Cəncə şəhərində yaşayırlar.

**Əliyeva Vüsalə Şura qızı (1979)** – əslən Kəlbəcər rayonunun Çərəkdar kəndindən olan Məmmədov Sərdar Yunus oğlu ilə ailə həyatı qurmuşlar. Birgə nikahlarından **Aynurə** (2004) və **Xətai** (2008) adlı övladları vardır. Onlar hal-hazırda Rusiya Federasiyasının Rostov şəhərində yaşayırlar.



**Əliyev Adil Şura oğlu (1970) və Əliyev Nadir Şura oğlu (1972)** – hələ ki, subaydırlar. Adil Əliyev hal-hazırda Rusiya Federasiyasının Kotlos şəhərində qardaşı Mehmanla birlikdə biznes qurmuşlar. Nadir Əliyev isə valideynləri ilə birlikdə Yevlax rayonunun Kövər kəndində "40 evlər" qaçqın şəhərciyində məskunlaşmışdır.

Allah onlara da toy qismət eləsin!

## Əliyev Aydın Baxşalı oğlunun ailəsi

**Əliyev Aydın Baxşalı oğlu (1941)** – hələ institut illəri dövründə əslən Ağdərə rayonundan olan Əliyeva Valya adlı şəxslə evlənmişdir. Onların birgə nikahlarından **Sevil** (1967), **İlqar** (1969), **Sahilə** (1971), **Nailə** (1972) və **Rafiq** (1975) adlı övladları vardır. Aydın Əliyev Gəncə Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Nəcəfalılar kənd orta məktəbinin ilk müəllimlərindən biri olmuşdur və ömrünün sonunadək həmin məktəbdə müəllim işləmişdir. 1988-ci ildə Qarabağda baş verən məlum hadisələr zamanı Ağdərə rayonunda mənfur ermənilər tərəfindən onun damarına naməlum məhlul vurulmuşdur. Bunun nəticəsində Aydın Əliyevin səhhətində ağırlaşmalar baş vermiş və o, 1991-ci ildə yaşadığı Nəcəfalılar kəndində faciəli surətdə rəhmətə getmişdir. Aydın Əliyev Nəcəfalılar kənd qəbiristanlığında dəfn olunmuşdur. Allah ona rəhmət eləsin!

**Əliyeva Məryəm Baxşalı qızı (1945)** – həmkəndlisi Həsənov Etibar İdris oğlu ilə ailə həyatı qurmuşdur (bax Etibar Həsənovun ailəsi barədə olan məlumatlara).

# Əliyev Mehti Seyid Əli (Seydalı) oğlunun ailəsi

**Əliyev Mehti Seyid Əli oğlu** – öz həmkəndlisi **Əliyeva Zeynab Məhəmməd qızı** ilə ailə qurmuşdur. Əliyeva Zeynabın atası Məhəmməd Nəcəfalılar kəndindən Namazın oğludur. Anası Şəpəri nənə isə Kəlbəcər rayonunun Ağdaş kəndindəndir. Mehti Əliyevin həyat yoldaşı Zeynab Əliyeva ilə birgə nikahlarından Zərniyar, Yunus, Nabat, Tavat, Hayat, Novruz, Yetər, Salah və Salman adlı övladları vardır. Mehti Əliyev oduqca iri gövdəli və qeyri - adi gücə malik bir insan olmuşdur. Hətta güclülüyünə görə ona «kəl» ləqəbi verilmiş və ona Kəl Mehti deyirmişlər. Yaşlı nəslin deməsirnə görə, Mehti baba meşədə ayını yalın əlləri ilə boğmuş və sürütmə ilə kəndə gətirmişdir. Mehti baba Seyidəli ocağında seyidlik edən son şəxs olmuşdur.

**Əliyeva Nabat** və **Əliyeva Tavat** hələ subay ikən rəhmətə getmişlər.

**Əliyeva Hayat Mehti qızı** – həmkəndlisi Xəlilov Qəfər İsmayıl oğluna ərə getmişdir (bax Qəfər Xəlilovun ailəsi barədə olan məlumatlara).

**Əliyeva Yetər Mehti qızı** – Kəlbəcər rayonunun Günəşli (Kilsəli) kənd sakini aşıq Cahangirə ərə getmişdir.

**Əliyeva Zərnigar Mehti qızı** – əslən Qubadlı rayonundan olan Kazımov Möylam adlı şəxsə ərə getmişdir. Möylam Kazımov Nəcəfalılar kəndinin ilk müəllimlərindəndir. Onların Sehran, İmran, Əntiqə, Reyhan və Qəhrəman adlı övladları vardır (bax Möylam Kazımovun ailəsi barədə olan məlumatlara).

## Əliyev Novruz Mehti oğlunun ailəsi

**Əliyev Novruz Mehti oğlu (1924)** – həmkəndlisi Ülkər Qədir qızı ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından Kamil, Kərəm, Məxmər adlı uşaqları olmuşdur. Xəlilova Şahnigar isə Ülkərin əvvəlki əri Dadaşın qızıdır. Novruz Əliyev 1941– 45-ci illər Böyük Vətən müharibəsi iştirakçısı və əlilidir. O da atası kimi iri gövdəli və güclü bir insandır. İki barmaqları arasında istənilən şəxsin əlini sıxaraq dizi üstə qoymayana qədər əl çəkməyən bu nəhəng insan, öz nəcib və mülayim xasiyyəti ilə kənd camaatı arasında özünə dərin hörmət və ehtiram qazanmış ağsaqqallarımızdandır. Novruz Əliyev hazırda Yevlax rayonunun Kövər kəndində məskunlaşmışdır.

**Xəlilova Şahnigar Dadaş qızı (1938) və Əliyeva Məxmər Novruz qızı** isə subaydırlar. Onlar Yevlax rayonunun Kövər kəndində məskunlaşmışlar.

## Əliyev Kərəm Novruz oğlunun ailəsi

**Əliyev Kərəm Novruz oğlu (1956)** – Əliyeva Familə Babakişi qızı (1965) ilə evlənmişdir. Onların **Afət** (1990), **Müsabir** (1992) adlı övladları vardır.

## Mehtiyev Kamil Novruz oğlunun ailəsi

**Mehtiyev Kamil Novruz oğlu (1951)** – öz həmkəndlisi Mehtiyeva (Həsənova) Sahibə Köçəri qızı (1957) ilə evlənmişdir. Onların **Yaşar** (1979), **Sevinc** (1980), **Ləman** (1983), **Ülkər** (1987), **Ahu** (1990) adlı uşaqları olmuşdur. Onlar Yevlax rayonunun Kolanı kəndində məskunlaşmışlar. Uşaqlarından Sevinc Milli kəndinə ərə getmişdir. Ləman isə Oruclu kəndinə ərə getmişdir.

**Mehtiyev Yaşar Kamil oğlu** (1978) – əslən Ağdam rayonundan olan Mehtiyeva Amalya Barat qızı ilə evlənmişdir.

## Əliyev Yunis Mehti oğlunun ailəsi

**Əliyev Yunis Mehti oğlu** – öz həmkəndlisi və qohumu Əliyeva Minə Süleyman qızı ilə ailə həyatı qurmuşdur. Onunla birgə nikahlarından Cəmil, Famil, Sona və Nazilə adlı övladları vardır. Minə Əliyeva hələ Nəcəfalılar kəndində olarkən cavan yaşlarınıda rəhmətə getmişdir. Yunis Əliyev 1941–45-ci illər Böyük Vətən müharibəsi iştirakçısı və veteranıdır. O, müharibə dövründə əsir düşdüyündən, müharibədən yeddi il sonra doğma kəndinə qayıtmışdır. Öz zəhmətsevərliyi, ağır təbiəti və halallığı ilə kənd camaatı arasında özünə dərin hörmət və ehtiram qazanmışdır. Əliyev Yunis məcburi köçkünlük dövründə Yevlax rayonunun Malbinəsi kəndində rəhmətə getmiş və həmin kəndin qəbiristanlığında dəfn olunmuşdur. Allah onlara rəhmət eləsin.

**Əliyev Cəmil Yunis oğlu** – hələ cavan yaşlarında rəhmətə getmiş və Nəcəfalılar kəndində dəfn olunmuşdur. Allah rəhmət eləsin!

**Əliyeva Sona Yunis qızı** – ailə həyatı qurmadan məcburi köçkünlük dövründə rəhmətə getmiş və Yevlax rayonunun Malbinəsi kəndində dəfn olunmuşdur. Allah rəhmət eləsin!

## Əliyev Famil Yunis oğlunun ailəsi

**Əliyev Famil Yunis oğlu (1955)** – əslən Kəlbəcər rayonunun Milli kəndindən olan Əliyeva Gülbəstə Vəli qızı (1954) ilə evlənmişdir. Birgə nikahlarından Fazilət, Fazil, Qabil Ulduza və Şəmsiyyə adlı övladları vardır. Famil Əliyev hal-hazırda ailəsi ilə Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır.

**Əliyev Fazil Famil oğlu** (1979) – Əliyeva Xumar Bəhram qızı (1977) ilə evlənmişdir. Birgə nikahlarından Yunis (2005), Aysel (2006), Günay (2008) adlı uşaqları olmuşdur.

**Əliyev Qabil Famil oğlu** (1980) – Əliyeva İlhamə Hacı qızı (1985) ilə evlənmişdir. Onların Arzu (2006), Famil (2008) adlı uşaqları anadan olmuşdur.

**Əliyeva Fazilət Famil qızı** (1978) – Kəlbəcər rayonunun Şapılar kəndinə, Ələmdar Telman oğluna ərə getmişdir. Onların Elvin, Günel və Bəsti adlı övladları vardır.

**Əliyeva Ulduza Famil qızı** (1982) – Kəlbəcər rayonunun Milli kəndinə Fizuli Vahid oğluna ərə getmişdir. Onların Türkan (2003) adlı övladları vardır.

**Əliyeva Şəmsiyyə Famil qızı** (1985) – Milli kəndinə Rəşid Vahid oğluna ərə getmişdir. Onların Şəlalə, Təranə və Sənan adlı övladları vardır.

**Əliyeva Nazilə Famil qızı** (1969) – öz həmkəndlisi və əmisi oğlu Əliyev Söhbət Salah oğluna ərə getmişdir (bax Söhbət Əliyevin ailəsi barədə olan məlumatlara).

## Əliyev Salah Mehti oğlunun ailəsi

**Əliyev Salah Mehti oğlu (1933)** – öz həmkəndlisi Əliyeva Firəngiz Qədim qızı (1931) ilə evlənmişdir. Onların birgə nikahlarından Sərəngiz, Mətləb, Fəxrəndə, Fehruz, Söbət, Şahvələd, və Əbülfəz adlı övladları vardır. Salah Əliyev hah-hazırda ailəsi ilə birlikdə Gəncə şəhərində məskunlaşmışdır.

**Əliyeva Sərəngiz Salah qızı (1959)** – öz həmkəndlisi Abbasov Zilfirman Məhəmməd oğluna ərə getmişdir (bax Zilfirman Abbasovun ailəsi barədə olan məlumatlara).

**Əliyeva Fəxrəndə Salah qızı (1964)** – öz həmkəndlisi Həsənov Vaqif Köçəri oğlu ilə ailə qurmuşdur. Onların Xalid (1986) adlı uşaqları olmuşdur. Sonradan onların nikahları pozulmuş və Fəxrəndə Gəncə şəhərinə ərə getmişdir.

## Əliyev Mətləb Salah oğlunun ailəsi

**Əliyev Mətləb Salah oğlu (1962)** – Comərd kəndindən olan Əliyeva Sahibə Kərim qızı (1961) ilə evlənmişdir. Onların birgə nikahlarından, **Seymur** (1984), **Rüsxarə** (1985), **Şəlalə** (1988) adlı övladları vardır. Mətləb Əliyev ailəsi ilə birlikdə Samux rayonunun Alıuşağı kəndində məskunlaşmışdır. O, 2008-ci ildə rəhmətə getmiş və həmin kəndin qəbiristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin.

**Əliyev Seymur Mətləb oğlu (1984)** – Əliyeva Günay Adil qızı ilə evlənmişdir. Onların Samirə (2006) və Aytac (2007) adlı uşaqları vardır. Qızları, hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

## Əliyev Fehruz Salah oğlunun ailəsi

**(Əliyev Fehruz Salah oğlu (1966)** – Kəlbəcər rayonunun Şapılar kənd sakini Babayeva Minayə Babaverdi qızı (1960) ilə evlənmişdir. Birgə nikahlarından **Niyazi** (1987), **Mərdan** (1991), **Rövşən** (1993) və **Emin** (1996) adlı

uşaqları olmuşdur. Hal-hazırda Bərdə rayonunun Otuzikilər kəndində məskunlaşmışlar. Uşaqları, hələ ki, subaydırlar.

## Əliyev Söhbət Salah oğlunun ailəsi

**Əliyev Söhbət Salah oğlu (1970)** – öz əmisi qızı Əliyeva Nazilə Yunis qızı (1969) ilə evlənmişdir. Onların **Zülfiyyə** (1991), **İsmət** (1992), **Qismət** (1994), **Ziyadə** (1997), **Gülnaz** (2001) və **Jalə** (2003) adlı uşaqları olmuşdur. Uşaqları subaydırlar. Gəncə şəhərində məskunlaşmışlar.

## Əliyev Şahvələd Salah oğlunun ailəsi

**Əliyev Şahvələd Salah oğlu (1973)** – Əliyeva Səmayə Həsən qızı (1962) ilə evlənmişdir. Onların **Aygün** (1994) və **Niyaməddin** (1996) adlı uşaqları olmuşdur. Uşaqları subaydırlar.

## Əliyev Əbülfəz Salah oğlunun ailəsi

**Əliyev Əbülfəz Salah oğlu (1975)** – Əliyeva Qaragöz Məhəmməd qızı (1970) ilə ailə qurmuşdur. Birgə nikahlarından **Etibar** (1997), **Elgün** (1998) və **Səbinə** (2003) adlı uşaqları olmuşdur. Uşaqları hələ subaydırlar.

## Əliyev Salman Mehti oğlunun ailəsi

**Əliyev Salman Mehti oğlu (1942) –** öz həmkəndlisi Əliyeva Suma Salman qızı (1942) ilə evlənmişdir. Birgə nikahlarından Filyar, Əlzaman, Şəhla, Bakilə, Tacirə və Sübhan adlı övladları vardır. Əliyev Salman 1978-ci ildə ömrünün ən qaynar çağlarından rəhmətə getmişdtir. O, olduqca güclü, güclü olduğu qədər də təvazökar və sakit adam idi. Özünə dərin hörmət qazanmış Salman kişinin vaxtsız ölümü bütün kənd əhlini və eləcə də onu tanıyan bütün insanları sarsıtmışdır. Bu gün də insanlar onu dərin hörmət və rəğbətlə yad edirlər. Allah rəhmət eləsin! Əliyeva Suma Salman qızı hal-hazırda ailəsi ilə birlikdə Gəncə şəhərində məskunlaşmışdır.

**Əliyeva Filyar Salman qızı (1964)** – Kələbəcər rayon sakini İsmayılov Kamil Bəhlul oğlu ilə ailə həyatı qurmuşdur. Onların **Sevinc, Aypara, Vaqif** adlı uşaqları vardır. Hal-hazırda Gəncə şəhərində məskunlaşmışlar.

## Əliyev Əlzaman Salman oğlunun ailəsi



**Əliyev Əlzaman Salman oğlu (1965)** – öz həmkəndlisi Əliyeva Səltənət Bahadur qızı (1966) ilə evlənmişdir. Onların **Münsib** (1990), **Rahib** (1992), **Rəvan** (1996) adlı uşaqları vardır. Onlar Gəncə şəhərində məskunlaşmışlar.

**Əliyeva Şəhla (Ofilə) Salman qızı (1967)** – öz həmkəndlisi İbrahimov İlham Abbas oğlu ilə ailə həyatı qurmuşdur. (Onun barəsində olan məlumatlar barədə bax İbrahimov İlham Abbas oğlunun ailəsi barədə olan məlumatlara).

**Əliyeva Bakilə Salman qızı (1973)** – Kəlbəcər rayonunun Ağqaya kəndindən olan Mətləb adlı şəxsə ərə getmişdir. Onların **Vüsal** adlı oğlu, **Zülfiyyə** adlı qızı vardır.

**Əliyeva Tacirə Salman qızı (1975)** – Kəlbəcər rayonunun Zülfüqarlı kəndindən olan Mehman adlı şəxslə ailə qurmuşdur. Onların **Xəyyam** adlı oğlu və **Lalə** adlı qızı vardır.

## Əliyev Sübhan Salman oğlunun ailəsi

**Əliyev Sübhan Salman oğlu (1977)** – Rəhimova Vəfa Rəhim qızı (1977) ilə evlənmişdir. Onların **Təhmasib** (2003), **Fidan** (2004) adlı uşaqları vardır.

## MİRZALI SEYİD XUDAVERDİ OĞLUNUN NƏSLİ



**Böyük Mirzalı** –Laçın rayonunun Xolazək kəndindən olan Qızxanım nənə adlı şəxslə evlənmişdir. Onların birgə nikahlarından Mirzalı adlı oğlu vardır. Bundan başqa, Qızxanım nənənin digər həyat yoldaşı olmuş Alış adlı kişidən isə Hüseyn adlı oğlu da olmuşdur. Hüseyn baba Qaragüney kəndində yaşamış və həmin kənddə 114 yaşında rəhmətə getmişdir. Allah onlara rəhmət eləsin!

## Kiçik Mirzalının ailəsi

**Kiçik Mirzalı** – Nəcəfalılar kənd sakini Sənəm Hümbətalı qızı ilə evlənmişdir. Mirzalı kişi olduqca sakit, təvazökar və sadəlov insan olmaqla, həm də zəhmətkeşliyi və halallığı ilə də tanınmışdır. Mirzalı babanın Sənəm nənə ilə birgə nikahlarından Fərzalı və Qasım adlı övladları vardır.

## Əliyev Qasım Mirzalı oğlunun ailəsi

**Əliyev Qasım Mirzalı oğlu (1937)** – həmkəndlisi Əliyeva Həcər İsmayıl qızı ilə (1940) evlənmişdir. Onların birgə nikahlarından Cəfər (1961), Raya (1964), Səidə (1966), Nazlı (1975) və Sevindik (1977) adlı uşaqları olmuşdur.

**Əliyev Cəfər Qasım oğlu** – atasının xalası qızı Sərfinazla evlənmişdir. Onların Maqsud və Sevda adlı uşaqları vardır.

**Əliyeva Raya Qasım qızı** – Yevlax rayonunun Hacımahmudlu kəndinə ərə getmişdir.

**Əliyeva Səidə Qasım qızı** – Kəlbəcər rayonunun Şapılar kəndinə ərə getmişdir.

**Əliyeva Nazı Qasım qızı –** xalası oğlu Mamedov Qəşəm Həsən oğlu ilə ailə qurmuşdur (bax Mamedov qəşəm Həsən oğlu barəsində olan məlumatlara).

**Əliyev Sevindik Qasım oğlu** – Kəlbəcər rayounun Şapılar kəndindən olan Əliyeva Arifə adlı şəxslə ailə qurmuşdur. Birgə nikahlarından iki qızı və Nurlan adlı bir oğlu var.

## Əliyev Fərzalı Mirzalı oğlunun ailəsi

**Əliyev Fərzalı Mirzalı oğlu (1928) –** öz həmkəndlisi Əliyeva Sayat Əlif qızı (1937) ilə evlənmişlər. Birgə nikahlarından Fitat, Rəbiyyə, Validə, Murad, Niyaz və Məzahir adlı uşaqları olmuşdur. Əliyev Fərzalı 1988-ci ildə Nəcəfalılar kəndində rəhmətə getmişdir. Əliyeva Sayat ailəsi ilə birlikdə Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır.



**Əliyev Fərzalı və Əliyeva Sayad.**

**Əliyev Məzahir Fərzalı oğlu – 1975**-ci ilin avqust ayının 1-də Nəcəfalılarda doğulmuşdu. O, Qarabağın azadlığı uğrunda gedən döyüşlər zamanı, 1994-cü ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. O, Yevlax rayonunun Şəhidlər xiyabanında dəfn edilmişdir.

**Əliyeva Fitat Fərzalı qızı** – Kəlbəcər rayonunun Qaragüney kəndində yaşayan Muxtar kişinin oğlu Xanoğlana ərə getmişdir.

**Əliyeva Rəbiyyə Fərzalı qızı (1961)** – həmkəndlisi Əliyev Tahir Səfər oğluna ərə getmişdir (bax Əliyev Tahir Səfər oğlu barəsində olan məlumatlara).

**Abbasova (Əliyeva) Validə Fərzalı qızı (1964)** – həmkəndlisi Abbasov Nemət Məhəmməd oğluna ərə getmişdir (bax Abbasov Nemət Məhəmməd oğlu barəsində olan məlumatlara).

## Əliyev Murad Fərzalı oğlunun ailəsi

**Əliyev Murad Fərzalı oğlu (1968)** – həmkəndlisi Əliyeva Xalidə Yusif qızı ilə evlənmişdir. Onların **Hikmət** (1992), **Azad** (1994), **Aygün** (2000) adlı uşaqları olmuşdur.

## Əliyev Niyaz Fərzalı oğlunun ailəsi

**Əliyev Niyaz Fərzalı oğlu (1971)** – Kəlbəcər rayonunun Quzeyçirkin kəndində yaşayan xalası qızı Əliyeva Tünzalə Əmrah qızı ilə evlənmişdir. Birgə nikahlarından **Günay** (1999), **Günel** (2001), **Məzahir** (2005) adlı uşaqları olmuşdur.

# BAYRAMƏLİ SEYİD XUDAVERDİ OĞLUNUN NƏSLİ



**Bayrəməli baba** – İrəvanın Zəngəzur mahalının Bazardüzü adlanın yerindən Mehriban nənə adlı şəxslə evlənmişdir. Onların Hümbətalı adlı oğlu olmuşdur.

## Hümbətalı Bayraməli oğlunun ailəsi

**Hümbətalı Bayraməli oğlu** – həmkəndlisi Məşədi Əmirin qızı Fatma nənə ilə ailə qurmuşdur. Onların Nurəli və Əliabbas adlı oğlanları, Sənəm, Gözəl, Yəmən, Güllü, Xırda və Qızbəs adlı qızları olmuşdur.

**Əliyeva Sənəm Hümbətalı qızı** – həmkəndlisi Əliyev Mirzalı ilə ailə həyatı qurmuşdur. (bax kiçik Mirzalı haqqında olan məlumatlara).

**Əliyeva Qızbəs Hümbətalı qızı** – İrəvana ərə getmişdir.

**Əliyeva Güllü Hümbətalı qızı** – həmkəndlisi Qaçay Şükür oğluna ərə getmiş, lakin övladları olmamışdır.

**Əliyeva Xırda Hümbətalı qızı** – hələ subaykən rəhmətə getmişdir.

**Əliyeva Yəmən Hümbətalı qızı** – Bərdə rayonunun Hacallı kənd sakini Möhnət adlı şəxsə ərə getmişdir.

**Əliyeva Gözəl Hümbətalı qızı** – həmkəndlisi Misir Məhəmməd oğluna ərə getmişdir (bax Misir Məhəmməd oğlu barəsində olan məlumatlara).

**Əliyev Nurəli Hümbətalı oğlu** – həmkəndlisi Nədirin qızı Lalə ilə evlənmişdir. Onların Gövhər adlı qızı olmuşdur. Gövhər Tərtər rayonunda yaşayan əslən iranlı olan Molla Əjdərə ərə getmişdir.

## Əliyev Əliabbas Hümbətalı oğlunun ailəsi



**Əliyev Əliabbas Hümbətalı oğlu** – əvvəl Qaragüney kənd sakini Tağı kişinin qızı Hamar ilə evlənmişdir. Onların Gülüm adlı qızı olmuşdur. Gülüm Qılınclı kənd sakini Şirin adlı şəxsə ərə getmişdir. Sonradan Əliabbas Əliyev Günəşli (Kilsəli) kənd sakini Bəylərin qızı Sayalı nənə ilə evlənmişdir. Bu nikahdan onların övladları olmamışdır.

**Atakişiyeva (Əliyeva) Gülüm Əliabbas qızı (1947)** – Kəlbəcər rayonunun Qılınclı kənd sakini Atakişiyev Şirin Çərkəz oğluna (1932) ərə getmişdir. Onların birgə nikahlarından Behbud, Dağbəyi, Ulduza, Vidadi, Tərgül, Mehti və Rəşad adlı övladları vardır.

**Atakişiyev Behbud Şirin oğlu (1966)** – Kəlbəcər rayonunun Halçalı kənd sakini Rəbiyyə adlı şəxslə evlənmişdir. Onların Ruslan və Nicat adlı övladları vardır.

**Atakişiyev Dağbəyi Şirin oğlu (1967)** – Kəlbəcər rayonunun Qılıncılı kənd sakini Sevinc adlı şəxslə evlənmişdir. Onların Ayşən, Günay və Şirin adlı övladları vardır.

**Atakişiyeva Ulduza Şirin qızı (1970)** – Göran rayonundan Araz adlı şəxslə ailə qurmuşdur. Onların Səbri və Səma adlı övladları vardır.

**Atakişiyev Vidadi Şirin oğlu (1971)** – əslən Ağdam rayonunundan olan Bənövşə adlı şəxslə evlənmişdir. Onların Ömər adlı övladları vardır.

**Atakişiyeva Tərgül Şirin qızı (1971)** – əslən Tərtər rayonundan olan Seyfəddin adlı şəxslə ailə qurmuşdur. Onların Samir və Sərvan adlı övladları vardır.

**Atakişiyev Mehti Şirin oğlu (1973)** – hələ subay ikən 1993-cü ildə Murov yüksəkliyi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. O, Bərdə rayonunun Mehtixanlı kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Atakişiyev Rəşad Şirin oğlu (1984)** – hələ ki, sübaydır. Allah ona da toy qismət eləsin!

# II FƏSİL

## II. MƏHƏMMƏDİN NƏSLİNİN ŞƏCƏRƏSİ



Nəcəfalılar kəndində yaşayan digər bir qolun nümayəndsi isə Məhəmməd babanın (bəzi məlumatlara görə isə Məmmədxan) övladlarıdır. Kəndimizin ağsaqqal və ağbirçəklərinin dediklərinə görə Məhəmməd baba əvvəllər Dağıstanda yaşamışdır və orada yüzbaşı olmuşdur. Yaşadığı yerdə qan düşmənçiliyi düşdüyündən Məhəmməd baba Dağıstandan köçərək indiki Nəcəfalılar kəndinə gəlmişdir. O, burada Xədicə adlı xanımla evlənmişdir. Onların Namaz, Avaz və Hümbət adlı uşaqları olmuşdur.

## NAMAZ MƏHƏMMƏD OĞLUNUN NƏSLİ



**Namaz Məhəmməd** oğlunun həyat yoldaşı barədə məlumat əldə edə bilməmişik.

**Oğlanları:** Məşədi Şəmir, Məşədi Əmir, Məhəmməd və Məşədi Pirməmməd

**Qızları :** Baxşı və Məşədi Zərnişandır.

**Baxşı Namaz qızı** – Kəlbəcər rayonunun Geşdək kəndinə ərə gedib.

**Məşədi Zərnişan Namaz qızı** – Kəlbəcər rayonunun Dalqılınclı kəndinə ərə gedib.

## Məşədi Şəmir Namaz oğlunun ailəsi

**Məşədi Şəmir** – həmkəndlisi Zeynəb nənə ilə evlənmişdir. Zeynəb nənənin atası Ağalar, anası isə Faxrı nənə olmuşdur. Məşədi Şəmirin həyat yoldaşı Zeynəb nənə ilə nikahlarından İbrahim, Həsən, Hüseyn, Gülcamal və Gülüstan adlı övladları vardır.

**Gülcamal Məşədi Şəmir qızı** – əslən Göyçə mahalından molla Şiralıya ərə getmişdir (onun barəsində bax Molla Şiralının səcərəsinə).

**Gülüstan Məşədi Şəmir qızı** – Göyçə mahalına ərə getmişdir. Onun barəsində məlumat əldə edə bilməmişik.

## İbrahim Məşədi Şəmir oğlunun ailəsi

**İbrahim Məşədi Şəmir oğlu** – Kəlbəcər rayonunun Almalıq (Laçın) kəndindən Məşədi Mirzalının qızı Saçlı nənə ilə evlənmişdir. Onların Rəhim, Ayna, Gülgəz, Ziba və Mülayim adlı övladları vardır.

**Ayna İbrahim qızı** – həmkəndlisi Məşədi Pirməmmədin oğlu Zeynala ərə getmişdir (bax Zeynalın barəsində olan məlumatlara).

**Ziba İbrahim qızı** – Kəlbəcər rayonunun

Almalıq kəndinə Ramazana ərə getmişdir. Onların Məhi adlı oğlu olmuşdur.

**Mülayim İbrahim qızı** – Göyçə mahalına ərə getmişdir.

## Rəhim Məşədi Şəmir oğlunun ailəsi



*Şamilova Yəmən Fərzalı qızı (1910-1983)*

**Rəhim Məşədi Şəmir oğlu** – Kəlbəcər rayonunun Laçın kəndindən olan **Yəmən** adlı şəxslə evlənmişdir. Onların birgə nikahlarından Abbas, Məhəbbət, Səadət və Cənnət adlı övladları olmuşdur.

**Səadət Rəhim qızı** –həmkəndlisi Məmmədov Elman Salman oğlu ilə ailə qurmuşdur (onun barəsində olan məlumatlar – bax Məmmədov Elman Salman oğlunun şəcərəsinə).

**Cənnət Rəhim qızı** – Kəlbəcər rayonun Quzeyçirkin kəndindən olan Fərman adlı şəxsə ərə getmişdir.

## İbrahimov Abbas Rəhim oğlunun ailəsi

**İbrahimov Abbas Rəhim oğlu (1932) –** həmkəndlisi İbrahimova (Piriyeva) Minəş Əlif qızı (1938) ilə evlənmişdir. Onların birgə nikahlarından Yazgül, Şölə, Nailə, İlham, Eyvaz, Mahir və Tünzalə adlı övladları olmuşdur. Abbas İbrahimov ailəsi ilə birlikdə Şəmkir rayonunda məskunlaşmışdır.

**Xəlilova (İbrahimova) Yazgül Abbas qızı (1960)** – Kəlbəcər rayonunun Qılınclı kəndindən Xəlilov Ədalət Hüseynalı oğlu (1961) ilə ailə qurmuşdur. Onların birgə nikahlarından Maqsud (1981) və Pərvanə (1984) adlı övladları var. Onlar Bakı şəhərində yaşayırlar.

Xəlilov Maqsud Hüseynalı oğlu – Kəlbəcər rayonunun Çobangərəhməz kənd sakini Xəlilova Səbinə Binnət qızı ilə evlənmişdir. Onların Fatimə adlı bir qızları var.

**İbrahimova Şölə Abbas qızı (1962)** – Gədəbəy rayonunun İsmayıllı kəndindən olan Məsim adlı şəxsə

ərə getmişdir. Onların Vüqar (1981), Təranə (1984) və Anar (1986) adlı uşaqları var. Hal-hazırda Şəmkir rayonunda yaşayırlar.

**Əliyeva (İbrahimova) Nailə Abbas qızı (1964)** – Ağdərə rayonunun İmarət-Qərvənd (Kərəmli) kəndindən olan Əliyev Misir Pənah oğlu (1957) ilə ailə həyatı qurmuşdur. Onların birgə nikahlarından oğlu Elçin (1989) və qızı Jalə (1987) anadan olmuşdur. Jalə ADU-nun tarix fakültəsinin tələbəsidir. Əliyev Misir Pənah oğlu Qarabağın azadlığı uğrunda gedən döyüşlər zamanı Kəlbəcər rayonunun Ağdaban kəndində vuruşarkən qəhrəmancasına şəhid olmuşdur. O, Kəlbəcər rayonunun Laçın kəndində dəfn olunmuşdur. Allah rəhmət eləsin!

**İbrahimova Tünzalə Abbas qızı (1977)** – Gədəbəy rayonundan Valeh adlı şəxslə ailə qurmuşdur. Onların Röyal adlı oğlu var.

## İbrahimov İlham Abbas oğlunun ailəsi

**İbrahimov İlham Abbas oğlu (1966)** – həmkəndlisi İbrahimova (Əliyeva) Şəhla Salman qızı (1967) ilə evlənmişdir. Onların birgə nikahlarından Zülfiyyə (1988), Raman (1990), Kəmaləddin (1992) adlı övladları var. Raman və Kəmaləddin subaydılar.

İbrahimova Zülfiyyə İlham qızı Laçın rayonunun Ağcakəndindən olan Hüseynov Rabil Seyfəli oğluna ərə getmişdir. Onların Dərya adlı qızı var.

## İbrahimov Eyvaz Abbas oğlunun ailəsi

**İbrahimov Eyvaz Abbas oğlu (1969)** – Gəncə şəhərindən olan İbrahimova Könül Tofiq qızı (1977) ilə ailə qurmuşdur. Onların Nərgiz adlı qızı və Cavad adlı oğlu var.

## İbrahimov Mahir Abbas oğlunun ailəsi

**İbrahimov Mahir Abbas oğlu (1972)** – İbrahimova Məhəbbət adlı şəxslə evlənmişdir. Onların Səbinə, Ruşanə adlı qızları və Cavid adlı oğlu vardır.

## İbrahimov Məhəbbət Rəhim oğlunun ailəsi

**İbrahimov Məhəbbət Rəhim oğlu (1943)** – Kəlbəcər rayon sakini İsmayılova Səmayə İsmayıl qızı (1955) ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından Azər, Ramil, Vüsal və Tacəddin adlı övladları olmuşdur. İbrahimov Məhəbbət ailəsi ilə birlikdə hal-hazırda Bakı şəhərinin Pirşağı qəsəbəsində məskunlaşmışlar.

**İbrahimov Tacəddin Məhəbbət oğlu (1990)** – hələ subaydır.

## İbrahimov Azər Məhəbbət oğlunun ailəsi

**İbrahimov Azər Məhəbbət oğlu (1980)** – əslən Saatlı rayonundan olan Amanova Nigar Nazim qızı (1985) ilə evlənmişdir. Onların İbrahim (2008) adlı oğlu var.

## İbrahimov Ramil Məhəbbət oğlunun ailəsi

**İbrahimov Ramil Məhəbbət oğlu (1982)** – həmkəndlisi İbrahimova Pərvanə Ədalət qızı (1984) ilə evlənmişdir. Onların Rəhim (2008) adlı oğlu var.

## İbrahimov Vüsal Məhəbbət oğlunun ailəsi

**İbrahimov Vüsal Məhəbbət oğlu (1982)** – dayısı qızı İsmayılova Şəbnəm Telman qızı (1985) ilə evlənmişdir. Onların Kənan (2009) adlı oğlu var.

## Novruzova Gülgəz İbrahim qızının ailəsi

**Novruzova Gülgəz İbrahim qızı (1913)** – əslən Göyçə mahalından olan Molla Şiralının oğlu Şəmşirə ərə getmişdir. Onların birgə nikahlarından Salman, İman, Xanoğlan, Bəşir, Vaqif, Minəş və Günəş adlı övladları olmuşdur.

**Novruzov Salman Şəmşir oğlu (1950)** – hələ subay olarkən Bakı şəhərində Xəzər dənizində suda bataraq rəhmətə getmişdir.

**Novruzov Xanoğlan Şəmşir oğlu (1953)** – hələ subay ikən Kəlbəcər rayonunun Qılınclı kəndində avtomobil qəzası nəticəsində rəhmətə getmişdir. Allah onlara rəhmət eləsin!

## Şirəliyev İman (Cəmil) Şəmşir oğlunun ailəsi

**Şirəliyev İman (Cəmil) Şəmşir oğlu (1946)** – Ağdam rayonunun Tağıbəyli kəndindən olan Şirəliyeva (Əliyeva) Təzəgül Məhər qızı (1958) adlı şəxslə evlənmişdir. Onların birgə nikahlarından Səməndər, Azad, Könül, Ramin və Elməddin adlı övladları olmuşdur. İman ailəsi ilə birlikdə Tərtər rayonuna köçərək orada yaşamışlar.

**Şirəliyev Səməndər İman oğlu (1975)** – Ağdam rayonun Muğanlı kəndindən Rüstəmova Gülçöhrə Dədəkişi qızı ilə evlənmişdir. Onların Şahanə (1998) və Nihad (2002) adlı övladları vardır.

**Şirəliyev Azad İman oğlu (1977)** – əslən Şəmkir rayonundan olan Qafarova Kifayət Mamed qızı ilə evlənmişdir. Onların Tural (2002), Fatimə (2003) və Məhəmməd (2008) – adlı övladları vardır.

**Şirəliyeva Könül İman qızı (1979)** - Ağdam rayonunun Muğanlı kəndindən Rüstəmov Elşən Dədəkişi oğluna ərə getmişdir. Onların Əfsanə (1998), Sevda (1999) və Rövşən (2001) adlı övladları vardır.

**Şirəliyev Ramin İman oğlu (1980) –** Ağdam rayonunun Tağıbəyli kəndində olan Şirəliyeva Ülviyyə

Baxşeyiş qızı ilə evlənmişdir. Onların Jalə (2007) və Təzəgül (2009) adlı övladları vardır.

**Şirəliyev Elməddin İman oğlu (1985)** – hələ ki, subaydır. Allah ona da toy qismət eləsin!

## Şirəliyev Bəşir Şəmşir oğlunun ailəsi

**Şirəliyev Bəşir Şəmşir oğlu (1954)** – həmkəndlisi Piriyeva Südabə Yusif qızı (1959) ilə ailə qurmuşdur. Onların Taleh (1983), Əlzamin (1985), Saqi (1989) adlı övladları var.

**Şirəliyev Əlzamin Bəşir oğlu (1985)** – qohumu Şirəliyeva Afət Yunis qızı ilə evlənmişdir. Onların Nicat (2008) adlı övladı vardır.

**Şirəliyev Taleh Bəşir oğlu və Şirəliyev Saqi Bəşir oğlu** isə hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

## Novruzov Vaqif Şəmşir oğlunun ailəsi

**Novruzov Vaqif Şəmşir oğlu (1957)** – Kəlbəcər rayonunun Qılınclı kəndindən olan Əliyeva Nazilə Salman qızı (1963) ilə evlənmişdir. Onların İntizar (1986), Nicat (1988), Gülgəz (1990) adlı övladları vardır. Övladları hələ ki, subaydırlar. Allah onlara toy qismət eləsin! Hal-hazırda Bakı şəhərinin Binəqədi rayonunda məskunlaşmışlar.

## Həsən Məşədi Şəmir oğlunun ailəsi

**Həsən Məşədi Şəmir oğlunun** həyat yoldaşı Şamama nənə olmuşdur. Onların İdris, Ələs, Valeh, Salah və Vəli adlı oğlanları olmuşdur.

Saleh, Valeh və Əli 1941–45-ci illər Böyük Vətən müharibəsindən qayıtmamışlar.

## Həsənov İdris Məşədi Şəmir oğlunun ailəsi

**Həsənov İdris Məşədi Şəmir oğlu (1901)** – həmkəndlisi Molla Şiralının qızı Sultan adlı şəxslə evlənmişdir. Onların Vəli (1929), Etibar və Nübar adlı uşaqları olmuşdur. İdrisin ikinci həyat yoldaşı həmkəndlisi Allahverdinin qızı Qüdrət (1929) olmuşdur. Ondan isə Ziyəddin (Valeh) (1954), Yaqub, Əyyub, Teyyub, Ənnaf (1955), Şamama (1959), Adilə 1963) , Nəcibə (1961) və Qəmər (1957) adlı uşaqları olmuşdur.

**Həsənova Nübar İdris qızı** – həmkəndlisi Piriyev Əli Zeynal oğlu ilə ailə qurmuşdur (bax Piriyev Əlinin şəcərəsinə).

**Həsənova Şamama İdris qızı** – Kəlbəcər rayonunun Qılınclı kəndinə Niyaz Novruz oğluna ərə getmişdir. Onların Aybəniz, Nemət, Zaur, Araz adlı övladları vardır.

**Həsənova Adilə İdris qızı** –İsayev Mübariz Şirin oğluna ərə getmişdir. Onların Sara və Cəfər adlı övladları vardır.

**Həsənova Qəmər İdris qızı** – Kəlbəcər rayonunun Alçalı kəndinə Hidayət adlı şəxsə ərə getmişdtir. Gündüz, Vüsal, Arzu, Yaqut və Aqil adlı övladları vardır.

**Həsənova Ənnaf İdris qızı** – həmkəndlisi Məmmədov Binnət Əsgər oğluna ərə getmişdir (bax Binnət Məmmədovun ailəsi barədə olan məlumatlara).

**Həsənova Nəcibə İdris qızı** – Şəmkir rayonuna Həsənov Köçəri Süleyman oğluna ərə getmişdir. Hələ ki, övladı yoxdur. Allah qismət eləsin!

## Həsənov Vəli İdris oğlunun ailəsi

**Həsənov Vəli İdris oğlu (1930)** – Kəlbəcər rayonunun Laçın kəndindən olan Ziba adlı şəxslə evlənmişdir. Birgə nikahlarından Şamil, Solmaz (1956), Nofəl (1958), Səfa, Elminaz (1964), Rəhilə (1966), Zümrüd (1967), Adil (1969) adlı uşaqları var.

**Həsənov Şamil Vəli oğlu** – Rusiya Federasiyasına köçərək orada yaşamışdır. O, 2008-ci ildə rəhmətə getmiş və orada dəfn olunmuşdur.

**Həsənova Solmaz Vəli qızı** – həmkəndlisi Piriyev Barat (Dilqəm) Abbasəli oğluna ərə getmişdir. (bax- Barat Piriyev barəsində olan məlumatlara).

**Həsənova Səfa Vəli qızı** – Kəlbəcər rayonunun Qılınclı kəndinə Əbülfət adlı şəxsə ərə getmişdir.

**Həsənova Elminaz Vəli qızı** – həmkəndlisi Əmirov Ədalət Həmzə oğluna ərə getmişdir (bax Ədalət Əmirovun barəsində olan məlumatlara).

**Həsənova Rəhilə Vəli qızı** – subaydır. O, valideynləri ilə birlikdə İsmayıllı rayonunda məskunlaşmışdır.

**Həsənova Zümrüd Vəli qızı** – Kəlbəcər rayonunun Bağlıpəyə kəndinə Bağırov Əziz adlı şəxsə ərə getmişdir.

## Həsənov Nofəl Vəli oğlunun ailəsi

**Həsənov Nofəl Vəli oğlu** – Kəlbəcərin Moz-Qaraçanlı bölgəsindən Həsənova Fazilə Sabir qızı (1959) adlı şəxslə evlənmişdir. Birgə nikahlarından Şəfəq (1980), Hədiyyə (1981), İqbal (1983), Yasəmən (1988), Dürdanə (1991) adlı uşaqları var. Onlar Bakı şəhərinin Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində məskunlaşmışlar.

## Həsənov Adil Vəli oğlunun ailəsi

**Həsənov Adil Vəli oğlu** – İsmayıllı rayonundan Həsənova Könül Zahid qızı (1979) ilə ailə qurmuşdur. Birgə nikahlarından Elvin (200), Vəli (2003) adlı uşaqları var.

## Həsənov Etibar İdris oğlunun ailəsi



**Həsənov Etibar İdris oğlu (1943)** – həmkəndlisi Həsənova (Əliyeva) Məryəm Baxşəli qızı ilə 1966-cı ildə ailə həyatı qurmuşdur. Onlar Kəlbəcər rayonunun İstisu qəsəbəsində yaşamışlar. Birgə niklarından 1969-cu ildə qızı Südabə, 1971-ci ildə oğlu Teymur, 1975-ci ildə oğlu Fazil anadan olmuş. Hal-hazırda Bərdə rayonunun Otuzikilər kənədində məskunlaşmışlar.

**Həsənova Südabə Etibar qızı** (1969) əslən Agcabədi rayonunun Qaravəlli kəndindən olan Ələkbərov Muxtar Səmid oğlu ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından 1989 ildə qızı Alagöz, 1993-cü ildə oğlu Rəşad anadan olmuşdur.

## Həsənov Teymur Etibar oğlunun ailəsi

**Həsənov Teymur Etibar oğlu** (1971) əslən Bərdə rayonunun Otuzikilər kəndindən olan Həsənova Nəzakət Tapdıq qızı ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından Aysun (2003), Etibar (2005) adlı uşaqları anadan olmuşdur.

## Həsənov Fazil Etibar oğlunun ailəsi

**Həsənov Fazil Etibar oğlu (1975)** əslən Kəlbəcər rayonunun Oruclu kəndindən olan Həsənova Səbinə İkram qızı ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından Ülvü (2007), Məryam (2009) adlı uşaqları anadan olmuşdur.

## Həsənov Ziyəddin (Valeh) İdris oğlunun ailəsi

**Həsənov Ziyəddin (Valeh) İdris oğlu (1954)** – Kəlbəcər rayonunun Qılınclı kəndindən olan Həsənova Səmər Nəsib qızı ilə evlənmişdir. Onların Əkbər (1980), Nurəddin (1985), Nicat (1993) adlı uşaqları olmuşdur.

**Həsənov Əkbər Ziyəddin oğlu** – Piriyeva Könül Əli qızı ilə (1985) evlənmişdir. Onların Elnur (2007) adlı uşaqları var.

**Həsənov Nurəddin Ziyəddin oğlu** - Həsənova Aygün Məzahir (1988) qızı ilə evlənmişdir. Onların Vüsalə (2007) adlı qızı var.

## Şəmilov Yaqub İdris oğlunun ailəsi

**Şəmilov Yaqub İdris oğlu (1965)** – Şəmilova Şərqiyyə Xanoğlan qızı (1965) ilə evlənmişdir. Birgə nikahlarından Gülnarə (1992), Nəsimi (1994), Sənubər (2002) adlı uşaqları olmuşdur.

## Şəmilov Əyyub İdris oğlunun ailəsi

**Şəmilov Əyyub İdris oğlu (1967)** – Kəlbəcərin Milli kəndindən İsmayılova Güllü Fərzalı qızı (1969) ilə evlənmişdir. Onların Zeynəb (1988), Nahid (1990), İdris (1998) adlı uşaqları var.

## Şəmilov Teyyub İdris oğlunun ailəsi

**Şəmilov Teyyub İdris oğlu (1969)** – Şəmilova Gülşən İnqilab qızı (1969) ilə evlənmişdir. Onların Azad (1993), Ayaz (1995), Qüdrət (1999) adlı uşaqları var.

Onlar Göranboy rayonunun Qərvənd kəndində məskunlaşmışlar.

## Şamilov Ələs Həsən oğlunun ailəsi

**Şamilov Ələs Həsən oğlu (1901)** – Günəşli (Kilsəli) kəndindən Şamilova Gülarə Nurəli qızı (1906) ilə ailə həyatı qurmuşdur. Ələs baba 30.06.1990-cı ildə, Gülarə nənə isə 22.04.1986-cı ildə rəhmətə getmişlər və Nəcəfalılar kənd qəbiristanlığında dəfn olunmuşlar. Allah rəhmət eləsin! Onların Köçəri, Hüseyn və Sura adlı uşaqları olmuşdur.

**Şamilova Sura Ələs qızı (1941)** – Qaragüney kəndindən olan Çıraqov İbrahim Cümşüd oğluna ərə getmişdir.

## Həsənov Hüseyn Ələs oğlunun ailəsi

**HəsənovHüseyn Ələs oğlu (1951)** – əslən Şəmkir rayonunundan olan Həsənova Süreyya Ramazan qızı ilə evlənmişdir. Həsənli Yazgül Hüseyn qızı adlı övladları vardır. Qızları hələ ki, subaydır. Hal-hazırda ailəsi ilə birlikdə Şəmkir rayonunda yaşayır.

## Həsənov Köçəri Ələs oğlunun ailəsi

**Həsənov Köçəri Ələs oğlu (1938)** – həmkəndlisi Mamedova Zabilə Salman qızı (1940) ilə evlənmişdir. Onların birgə nikahlarından Sahibə, Eldar, Vaqif, Vahid, Sərdar, Vüqar, İlqar, Veysəl, Sevda, Leyla və Nahidə adlı uşaqları olmuşdur.

**Həsənova Sahibə Köçəri qızı (1957)** – həmkəndlisi Əliyev Kamil Novruz oğlu ilə ailə həyatı qurmuşdur (bax Kamil Əliyev barəsində olan məlumatlara).

**Həsənova Leyla Köçəri qızı (1976)** – Kəlbəcər rayonunun Qaragüney kəndindən Sarının oğlu Rasim adlı şəxsə ərə getmişdir.

**Həsənova Aidə Köçəri qızı (1980)** – Tovuz rayonundan Fehruz adlı şəxsə ərə getmişdir.

**Həsənova Səidə Köçəri qızı (1984)** – Kəlbəcər rayonunun Zar kəndindən Zaur adlı şəxsə ərə getmişdir.

**Həsənova Sevda Köçəri qızı (1974)** – Gədəbəy rayonundan Qalib adlı şəxsə ərə getmişdir.

## Həsənov Eldar Köçəri oğlunun ailəsi

**Həsənov Eldar Köçəri oğlu (1960)** – həmkəndlisi Piri–yeva Narıngül (Təzəgül) Əli qızı (1960) ilə evlənmişdir. Onların Yasin (1979), Nahid (1982), Qoşqar (1984) – adlı uşaqları olmuşdur.

**Həsənov Yasin Eldar oğlu (1979)** – Novosibirsk şəhərindən milliyyətcə rus olan İrina adlı şəxslə evlənmişdir. Onların Aynur (2004) adlı övladları vardır.

**Həsənov Nahid Eldar oğlu (1982)** – Həsənova Gülnar Hakim qızı (1984) ilə evlənmişdir. Onların Aysun (2004), Asiman (2006) adlı uşaqları var.

**Həsənov Qoşqar Eldar oğlu (1984)** – Rusiya Federasiyasında yaşayır. Hələ ki, subaydır. Allah ona da toy qismət eləsin!

## Həsənov Vaqif Köçəri oğlunun ailəsi

**Həsənov Vaqif Köçəri oğlu (1962)** – həmkəndlisi Əliyeva Faxrəndə Salah qızı ilə evlənmişdir. Onların Xalid (1986) adlı uşaqları olmuşdur.

**Həsənov Vahid Köçəri oğlu (1964)** – subaydır. Hazırda Gəncə şəhərində məskunlaşmışdır.

## Həsənov Sərdar Köçəri oğlunun ailəsi

**Həsənov Sərdar Köçəri oğlu (1967)** – Həsənova Kəmalə Çingiz qızı (1971) ilə evlənmişdir. Onların Tural (1992), Jalə (1994), Günel (2002), Ayşən (2003) adlı uşaqları var.

## Həsənov Vüqar Köçəri oğlunun ailəsi

**Həsənov Vüqar Köçəri oğlu (1968)** – həyat yoldaşı Həsənova Bəsti Zilfü qızıdır (1966). Onların Vüsal (1992), Vüsalə (1996) adlı uşaqları olmuşdur.

## Həsənov Vasif Köçəri oğlunun ailəsi

**Həsənov Vasif Köçəri oğlu (1972)** - Həsənova Mehriban Çingiz qızı ilə evlənmişdir. Onların Lalə (1994), Əfsanə (2000), Xədicə (2003) adlı uşaqları var.

## Həsənov Veysəl Köçəri oğlunun ailəsi

**Həsənov Veysəl Köçəri oğlu (1978)** – Həsənova Fərziyyə Zeynal qızı (1980) ilə evlənmişdir. Onların İlkin (2001), Gülçin (2004) adlı uşaqları var.

## Həsənov İlqar Köçəri oğlunun ailəsi

**Həsənov İlqar Köçəri oğlu (1969)** – Qarabağ uğrunda gedən döyüşlər zamanı 1992-ci ildə Kəlbəcərin Narıclar kəndi istiqamətindəgedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Allah rəhmət eləsin (onun barəsində məlumatlara bax şəhidlər bölməsinə).

## Hüseyn Məşədi Şəmir oğlunun ailəsi

**Hüseyn Məşədi Şəmir oğlunun** həyat yoldaşı – Kəlbəcərin Nədirxanlı kənd sakini Səkinə nənə olmuşdur.

Onların bizə məlum olan **Əvəz, Gülxanım və Bəhman** adlı övladları olmuşdur.

Hüseynin oğlanları **Bəhman və Əvəz** 1941– 45-ci illər Böyük Vətən müharibəsindən qayıtmamışlar.

Hüseynin qızı **Gülxanım** isə subay rəhmətə getmişdir.

**Əvəz Hüsyen oğlu** – Kəlbəcərin Nədirxanlı kəndindən olan Yəmən adlı şəxslə evlənmişdir.

Onların **Təzəgül, Müslüm, Nuru** adlı övladları olmuşdur.

**Təzəgül Əvəz qızı** həmkəndlisi Şirəliyev İman Şəmşir oğluna ərə getmişdir (bax İman Şirəliyevin barəsində olan məlumatlara).

Əvəzin oğlanları Müslüm və Nuru isə Tərtər rayonunda yaşamışlar.

## Məşədi Əmir Namaz oğlunun ailəsi

**Məşədi Əmir Namaz oğlunun** həyat yoldaşı Kəlbəcər rayonunun Comərd kəndindən olan Balaxanım nənə olmuşdur. Onların Giləxanım, Yaxşı, Xatın, Sona, Fatma, Gülsaat, Təhməz, Qədir və Nədir adlı övladları olmuşdur.

**Giləxanım Məşədi Əmir qızı** – əslən İrandan olan həmkəndlisi İbrahimin oğlu Xəlilə ərə getmişdir (bax İbrahimin oğlu Xəlil barəsində olan məlumatlara).

**Yaxşı Məşədi Əmir qızı** – Kəlbəcər rayonunun Comərd kənd sakini Rza kişiyə ərə getmişdir. Onların Nəriman, Əli, Zərif və Xeyrənsə adlı övladları olmuşdur.

**Xatın Məşədi Əmir qızı** – Kəlbəcər rayonunun Sarıdaş kəndinə ərə getmişdir.

**Sona Məşədi Əmir qızı**– subay rəhmətə getmişdir.

**Fatma Məşədi Əmir qızı** – həmkəndlisi Bayraməlinin oğlu Hümbətalıya ərə getmişdir (bax Bayraməli oğlu Hümbətalının barəsində olan məlumatlara).

**Gülsaat Məşədi Əmir qızı**– öz həmkəndlisi Seyid Xudaverdinin oğlu Seyid Əliyə (Seyid Alıya) ərə getmişdir (bax Seyid Xudaverdi oğlu Seyid Əli barəsində olan məlumatlara).

## Təhməz Məşədi Əmir oğlunun ailəsi

**Əmirin oğlu Təhməz** – Kəlbəcər rayonunun Qaragüney kənd sakini Tağının qızı Hamar ilə evlənmişdir. Onların birgə nikahlarından Həmzə, Qəmzə, Pürüş, Mirzə və Pakizə adlı övladları olub.

**Qəmzə Təhməz qızı** – Qaragüney kənd sakini Savad kişiyə ərə getmişdir. Onların Eynulla, İradə və Sabirə adlı övladları olmuşdur.

**Pürüş Təhməz qızı** – Qaragüney kənd sakini Əzizov Kamal Mədət oğluna ərə getmişdir. Onların Üzeyir, Nizami, Elmira, Gülşən və Sədaqət adlı övladları olmuuşdur.

**Pakizə Təhməz qızı**– hələ uşaq olarkən rəhmətə getmişdir. Allah rəhmət eləsin!

## Əmirov Həmzə Təhməz oğlunun ailəsi

**Əmirov Həmzə Təhməz oğlu** – həmkəndlisi Şəmşirin qızı Əmirova Minəş (1932) ilə evlənmişdir. Onların Ədalət (1962), İdaya (1958), Samaya (1964), İzzət (1966), Hafiz (1968) və Polad (1973) adlı uşaqları olmuşdur.

**Əmirova İdaya Həmzə qızı** – Agdərə rayonunun Ümudlu kəndinə Yaşar adlı şəxsə ərə getmişdir. Onların Xəyalə, Xəyyam, Elnarə, Cəmalə adlı uşaqları var.

**Əmirova Samaya Həmzə qızı (1964)** – subaydır. O, Şamaxı rayonunun Kirovka kəndində anası Əmirova Minəş Şəmşir qızı ilə birlikdə məskunlaşmışdır.

## Əmirov Ədalət Həmzə oğlunun ailəsi

**Əmirov Ədalət Həmzə oğlu (1962)** – həmkəndlisi Həsənova Elminaz Vəli qızı (1963) ilə evlənmişdir. Onların Aygün (1988), Mənsur (1990)

adlı övladları olmuşdur. Onlar hal-hazırda Şamaxı rayonunun Kirovka kəndində məskunlaşmışlar.

### Əmirov İzzət (Rafiq) Həmzə oğlunun ailəsi

**Əmirov İzzət (Rafiq) Həmzə oğlu (1966)** – o, Xocalı rayonundan olan Əmirova Nəzani Teymur qızı ilə evlənmişdir. Onların Aynurə (1999), Aysel (2001) adlı uşaqları var. Onlar hal-hazırda Abşeron rayonunun Xırdalan qəsəbəsində məskunlaşmışlar.

## Əmirov Hafiz Həmzə oğlunun ailəsi

**Əmirov Hafiz Həmzə oğlu (1968)** – həmkəndlisi Piriyev Əli Zeynal oğlunun qızı Cəmilə (1969) ilə evlənmişdir. Onların Rüfət (1992), Rəşad (1994) adlı övladları var.

### Əmirov Polad Həmzə oğlunun ailəsi

**Əmirov Polad Həmzə oğlu (1973)** – Naxçıvan Muxtar Respublikasından Hicran adlı şəxslə evlənmişdir. Onların Fuad (2004) və Fərid (2005) adlı uşaqları var.

## Qədir Məşədi Əmir oğlunun ailəsi

**Qədir Əmir oğlu** – Qaragüney kəndindən olan Məşədi Hüsnü ilə evlənmişdir. Onların Ülkər, Hilal, İsmayıl, Tahar, Nabat, Minə və Günəş adlı övladları olmuşdur.

**Tahar Qədir oğlu** – 1941-45-ci illər Böyük Vətən müharibəsindən qayıtmamışdır.

**Minə Qədir qızı** – Kəlbəcərin Züfüqarlı kəndindən Səlim adlı kişiyə ərə getmişdir.

**Günəş Qədir qızı** – Kəlbəcər rayonunun Zülfüqarlı kəndinə Zülfü adlı şəxsə ərə getmişdir.

**Ülkər Qədir qızı** – həmkəndlisi Xəlilin oğlu Dadaşa ərə getmişdir (bax Xəlil oğlu Dadaş barəsində olan məlumatlara).

**Hilal Qədir qızı** – həmkəndlisi Xəlilin oğlu İsmayıla ərə getmişdir (bax Xəlil oğlu İsmayıl barəsində olan məlumatlara).

**Nabat Qədir qızı** – Comərdli Məşədi Dərvişə ərə gedib.

## İsmayıl Qədir oğlunun ailəsi

**İsmayıl Qədir oğlu** – həmkəndlisi tat İbrahimin oğlu Xəlilin qızı Hilal ilə evlənmişdir. Onların Qəfər, Həcər, Ruzigar və İsmayıl adlı uşaqları vardır.

**Əliyeva Həcər İsmayıl qızı** – həmkəndlisi Əliyev Qasım Mirzalı oğluna ərə getmişdir (bax Qasım Əliyevin ailəsi barədə olan məlumatlara).

**Mamedova Ruzigar İsmayıl qızı** – həmkəndlisi Mamedov Həsən Fərman oğluna ərə getmişdir (bax Həsən Mamedovun barəsində olan məlumatlara).

## Xəlilov Qəfər İsmayıl oğlunun ailəsi

**Xəlilov Qəfər İsmayıl oğlu (1938)** – həmkəndlisi Əliyeva Həyat Mehti qızı (1926) ilə evlənmişdir. Onların Ələkbər (1959), İnqilab 1962), Müzəffər (1960), Pünhan (1964) və Tehran (1965) adlı övladları vardır. Xəlilova Həyat 2001-ci ildə, Xəlilov Qəfər isə 2007-ci ildə rəhmətə getmişlər. Onlar Yevlax rayonunun Kövər kənd qəbiristanlığında dəfn olunmuşlar. Allah rəhmət eləsin!

## Xəlilov Müzəffər Qəfər oğlunun ailəsi

**Xəlilov Müzəffər Qəfər oğlu (1960)**– Kəlbəcər rayonunun Mozqaraçanlı bölgəsindən Xəlilova Təzəgül Qədir qızı ilə evlənmişdir. Onların Alim, Razi, Vəfa və Şəfa adlı övladları vardır. Müzəffər Xəlilov 1998-ci ildə rəhmətə getmişdir. O, Yevlax rayonunun Kövər kənd qəbiristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin!

## Xəlilov Ələkbər Qəfər oğlunun ailəsi

**Xəlilov Ələkbər Qəfər oğlu (1959)** – əslən Kəlbəcər rayonundan olan Xəlilova Sərvinaz Salman qızı (1962) ilə evlənmişdir. Onların İsmayıl (1981), Niyaməddin (1985), Saməddin (1992) adlı övladları vardır.

**Xəlilov Niyaməddin Ələkbər oğlu (1985)** – Xəlilova Şəbnəm Nəriman qızı (1989) ilə evlənmişdir. Onların Aysel (2006) və Gülay (2008) adlı övladları vardır.

Xəlilov Ələkbərin digər övladları isə hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

## Xəlilov İnqilab Qəfər oğlunun ailəsi

**Xəlilov İnqilab Qəfər oğlu (1962)** – Kəlbəcər rayonunun Mozqaraçanlı bölgəsindən olan Xəlilova Şogül Murad qızı (1957) ilə evlənmişdir. Onların Samir

(1985), Münasib (1988), Məşuqə (1990) adlı övladları vardır. İnqilab Xəlilov 2006-cı ildə yol qəzası nəticəsində rəhmətə getmişdir. Allah rəhmət eləsin! O, Yevlax rayonunun Kövər kənd qəbirstanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin!

**Xəlilov Samir İnqilab oğlu (1985)** – Xəlilova Elnarə Telman qızı (1986) ilə evlənmişdir. Onların Leyla (2008) adlı övladları vardır.

İnqilab Xəlilovun digər övladları hələ ki, subaydır. Allah onlara da toy qismət eləsin!

**Xəlilova Pünhan Qəfər qızı (1964)** – Abbasov Kamal Əli oğlu ailə qurmuşdur. Övladları, hələ ki, yoxdur. Allah qismət eləsin!

**Xəlilova Tehran Qəfər qızı (1965)** – Ağdam rayonundan Sərhad adlı şəxslə ailə qurmuşdur. Onların Zərifə (2000) adlı övladları vardır.

## Nədir Məşədi Əmir oğlunun ailəsi

**Nədir Əmir oğlu** – həmkəndlisi Məşədi Pirməmmədin qızı Gözəl ilə evlənmişdir. Onların Aşır, Bəşir, Ədil, Məhər, Gümüş, Gülüstan, Günəş və Lalə adlı övladları olmuşdur.

**Aşır Nədir oğlu** – Kəlbəcər rayonunun Comərd kəndindən Məşədi Məmmədxanın qızı Səhərlə evlənmişdir. Onların Musa, İsfəndiyar, Rəsul, Minara, Şəmsəddin adlı uşaqları vardır. Onlar Comərd kəndində yaşamışlar.

**Bəşir Nədir oğlu** – 1941–45-ci illər Böyük Vətən müharibəsindən qayıtmamışdır.

**Ədil Nədir oğlu** – Kəlbəcər rayonunun Dalqılınclı kəndindən olan Vəlinin və Məşədi Zərnişanın qızı Zərniyarla evlənmişdir. Ədil Nədir oğlu 1941-45-ci il Böyük Vətən müharibəsindən qayıtmamışdır. Onların Hamayıl, Calal, Samal və Zərnişan adlı övladları olmuşdur.

**Məhər Nədir oğlu** – Kəlbəcər rayonunun Civə zavodundan Süsən adlı şəxslə evlənmişdir. Məhər Nədir oğlu 1941-45-ci illər Böyük Vətən müharibəsindən qayıtmamışdır.

**Gümüş Nədir qızı** – Qarabağa ərə getmişdir.

**Gülüstan Nədir qızı** – Kəlbəcər rayonunun Quzeyçirkin kəndinə ərə getmişdir.

**Günəş Nədir qızı** – həmkəndlisi Həmidov Məhəmməd Şahmar oğluna ərə getmişdir (bax Məhəmməd Həmidov barəsində olan məlumatlara).

**Lalə Nədir qızı** – həmkəndlisi Hümbətalının oğlu Nuralıya ərə getmişdir (bax Hümbətalının oğlu Nuralının barəsində olan məlumatlara).

## Məhəmməd Namaz oğlunun ailəsi

**Məhəmməd Namaz oğlu** – Şahpəri adlı şəxslə evlənmişdir. Şahpəri nənənin atası Ağdam rayonunun Alağalı kəndindən Məmmədcəfər kişi, anası isə Kəlbəcər rayonunun Ağdaş kəndindən Tubu nənə olmuşdur.

Onların birgə nikahlarından Süleyman, Fərman, Misir, Pəri, Gülpəri, Zeynəb və Gülbəs adlı övladları olmuşdur.

**Gülpəri Məhəmməd qızı** – hələ subay ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin!

**Zeynəb Məhəmməd qızı** – həmkəndlisi Mehti Seydalı oğluna ərə getmişdir (bax Mehti Seydalı oğlu barəsində olan məlumatlara).

**Gülbəs Məhəmməd qızı** – həmkəndlisi Baxşəli Seydalı oğluna ərə getmişdir (bax Baxşəli Seydalı oğlu barəsində olan məlumatlara).

**Pəri Məhəmməd qızı** – həmkəndlisi Vəli Musa oğluna ərə getmişdir (bax Vəli Musa oğlu barəsində olan məlumatlara).

## Namazov Süleyman Məhəmməd oğlunun ailəsi

**Namazov Süleyman Məhəmməd oğlu** – Kəlbəcər rayonunun Ağqaya kəndindən Şükür və Bənövşənin qızı Buluc adlı şəxslə evlənmişdir. Onların birgə nikahlarından **Minəvvər, Yaqub, Minə, Ziyadə (Sarıqız)** (1933) adlı uşaqları olmuşdur. Əliyeva Ziyadənin dediyinə görə onlar 7 bacı-qardaş olmuşlar. O biri bacı-qardaşları hələ ilk yaşlarında rəhmətə getmişlər.

Minəvvər və Yaqub hələ uşaq ikən rəhmətə getmişlər. Minə öz həmkəndlisi Əliyev Yunis Mehti oğluna ərə getmişdir (bax Yunis Əliyev barəsində olan məlumatlara). Ziyadə (Sarıqız) subaydır və hal-hazırda Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır.

## Namazov Fərman Məhəmməd oğlunun ailəsi

**Məmmədov Fərman Məhəmməd oğlu** – həmkəndlisi Məşədi Pirməmmədin oğlu Məhəmmədəlinin qızı Qönçə ilə evlənmişdir. Onların 1942-ci ildə Əsgər (Həsən) adlı oğlu anadan olmuşdur. Fərman Məmmədov 1941–45-ci illər Böyük Vətən müharibəsindən qayıtmamışdır.

## Mamedov Əsgər (Həsən) Fərman oğlunun ailəsi

**Mamedov Əsgər (Həsən) Fərman oğlu** – həmkəndlisi Məmmədova Rüzigar İsmayıl qızı ilə evlənmişdir. Onların Hüseyn (1966), Gülşən, Nəcəf, Qəşəm, Rəcəb, Ruhiyyə, Babək, Pərvanə adlı övladları olmuşdur. Mamedova Rüzigar İsmayıl qızı məcburi köçkünlük zavanı Yevlax rayonunun Malbinəsi kəndində rəhmətə getmiş və həmin kənddə dəfn edilmişdir. Allah rəhmət eləsin! Mamedov Həsən Fərman oğlu məcburi köskün düşdükdən sonra ikinci dəfə Yevlax rayonunun Hacallı kəndindən olan Mamedova Xanım İsrafil qızı (1960) ilə evlənmişdir. Onların birgə nikahlarından isə Aysel (2002) adlı uşaqları vardır. Onlar Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışlar.

## Mamedov Hüseyn Əsgər oğlunun ailəsi

**Mamedov Hüseyn Əsgər oğlu (1966)** – Kəlbəcər rayonunun Milli kəndindən Mamedova Kifayət Vəli qızı (1964) ilə evlənmişdir. Onların Zülfüqar (1989), İbadət (1991) adlı uşaqları var.

## Mamedov Nəcəf Əsgər oğlunun ailəsi

**Mamedov Nəcəf Əsgər oğlu (1970)** – Mamedova Nəzakət Tapdıq qızı (1973) ilə evlənmişdir. Onların Elmir (1994), Etiram (1997) adlı uşaqları var.

## Mamedov Qəşəm Əsgər oğlunun ailəsi

**Mamedov Qəşəm Əsgər oğlu (1972)** – Mamedova Rahilə Qolay qızı ilə evlənmişdir. Onların hələ ki, övladları yoxdur.

## Mamedov Rəcəb Əsgər oğlunun ailəsi

**Mamedov Rəcəb Əsgər oğlu (1975)** – Mamedova Rəna Qaraş qızı (1971) ilə evlənmişdir. Onların Nuranə (1999), Əlvan (2000), Əfsanə (2002) və Fərman (2004) adlı uşaqları var.

## Mamedov Babək Əsgər oğlunun ailəsi

**Mamedov Babək Əsgər oğlu (1982)** – Mamedova İlhamə Musa qızı (1983) ilə evlənmişdir. Onların İlhamə (1983), Türkanə (2006) adlı uşaqları var.

**Mamedova Gülşən Əsgər qızı (1967)** - Kəlbəcər rayonunun Ağqaya kəndinə İlqar adlı şəxsə ərə getmişdir. Onların Vilayət və Tünzalə adlı uşaqları var.

**Mamedova Ruhiyyə Əsgər qızı (1978)**– subaydır, Yevlax rayonunun Mal–binəsi kəndində məskunlaşmışdır.

**Mamedova Pərvanə Əsgər qızı (1987)**–subaydır, Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır.

**Mamedova Aysel Əsgər qızı (2002)** – anası ilə birlikdə Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışdır.

## Namazov Misir Məhəmməd oğlunun ailəsi

**Namazov Misir Məhəmməd oğlu** – həmkəndlisi Mamedova Gözəl Məhəmmədli qızı ilə evlənmişdir. Onların Əkbər, Xədicə və Şakirə (1941) adlı övladları olmuşdur.

**Namazov Əkbər Misir oğlu** – hələ subay ikən rəhmətə getmişdir.

**Namazova Xədicə Misir qızı** – öz həmkəndlisi Abbasov Məhəmməd Əhməd oğlu ilə ailə həyatı qurmuşdur (bax Məhəmməd Abbasovun ailəsi barədə olan məlumatlara).

**Namazova Şakirə Misir qızı** – öz həmkəndlisi Kazımov İm–ran Möylam oğlu ilə ailə həyatı qurmuşdur (bax İmran Kazımovun ailəsi barədə olan məlumatlara).

# Məşədi Pirməmməd Namaz oğlunun ailəsi

**Namazın oğlu Məşədi Pirməmməd** – kəndinin sayılan-seçilən kişilərindən biri olub. Xeyirxah əməlləri, xoş xüsusiyyətləri ilə özünə dərin hörmət və rəğbət qazanmışdır. Kəndin ağsaqqal və ağbirçəklərinin dediyinə görə, 1947-ci ildə 132 yaşında rəhmətə getmişdir. Allah rəhmət eləsin.

O, Kəlbəcər rayonunun Quzeyçirkin kəndindən Səkinə adlı şəxslə evlənmişdir. Onların Abbasəli, Əlif, Talıb, Məhəmmədəli və Zeynal adlı oglanları, Gözəl, Zəhra, Şahnigar, Mələk, Xırda və Bibi adlı qızları olmuşdur.

**Gözəl Məşədi Pirməmməd qızı** – həmkəndlisi Nədirə ərə getmişdir (bax –Nədir barəsində olan məlumatlara).

**Zəhra Məşədi Pirməmməd qızı**– Kəlbəcər rayonunun Dalqılınclı kəndinə Vəli adlı şəxsə ərə getmişdir. Onların İdris, İmran, Hüseyin, Həsən, Zərnigar, Həcər və Çiçək adlı övladları vardır.

**Şahnigar Məşədi Pirməmməd qızı**– Kəlbəcər rayonunun Nadirxanlı kəndinə Əsəd adlı kişiyə ərə getmidir. Onların Surxay, İzzət, Xasay, Binnət və Narın adlı övladları vardır.

**Xırda Məşədi Pirməmməd qızı**– Kəlbəcər rayonunun Qaragüney kəndinə Rəhim adlı şəxsə ərə getmiş və sonradan Qarabağa köçmüşlər. Onların Məhi, Sara və Sitarə adlı övladları vardır.

**Bibi Məşədi Pirməmməd qızı**– Kəlbəcər rayonunun Günəşli (Kilsəli) kənd sakini Mustafa adlı kişiyə ərə getmişdir. Onların Tofiq, İslam, Həbib, Hüsü, Təzəgül, Bağdad və Yazdagül adlı övladları olmuşdur.

**Mələk Məşədi Pirməmməd qızı**– Kəlbəcər rayonunun Laçın kəndindən olan İsmixan babanın oğlu Həmid kişinin oğlu Şahmara ərə getmişdir. Sonradan onlar köçərək Nəcəfalılar kəndində yaşamışlar. İsmixan baba Kəlbəcər rayonunun Laçın kəndində yaşamışdır. Deyilənlərə görə, o, sağlam və güclü gənclərdən olub. Çar Rusiyası zamanı at ordusunda xidmət edib .Ordu generalının Nina adlı qızının ondan xoşu gəlib

və onu özü ilə Qafqaza aparmağı xahiş edib. Ninanın xahişini qəbul edən İsmixan baba gecə ikən ilxıdan iki əla at seçib yəhərləyib, xurcunlara isə qızıl və yol azuqələri yığıb yola düşürlər. Nina xanım çox gözəl və səliqəli xanım olub. Adını dəyişib Minə qoyaraq islam dinini qəbul edir və Məşədə ziyarətə gedir.Bundan sonra onu Məşədi Minə deyə çağırırlar. İsmixan baba ilə birgə nikahlarından Həmid, Balabəy və Pəri adlı övladları olur. Həmid baba Kəlbəcər rayonunun Comərd kəndindən olan Nərgiz nənə ilə ailə qurur ki, onların da Şahmar, Mirzəyof, Yunis, Xanlar , Əliş, Çərkəz və Ağayof adlı oğlanları və Gülarə adlı qızları olmuşdur.

## Şahmar Həmid oğlunun ailəsi

**Şahmar Həmid oğlu** – dövrünün güclü və savadlı mollalarından biri olmuşdur. O, öz evində Qurani–Kərimdən dərs verərmiş. Məşədi Pirməmmədin qızı Mələk nənə ilə ailə qurandan sonra ailəsinin xahişi ilə Nəcəfalılara gəlir və burada yaşayırlar. Onların birgə nikahlarından Məhəmməd, İbrahim, Lətif adlı oğlanları, Savad, Xətai və Nərgiz adlı qızları olubdur.

## Həmidov Məhəmməd Şahmar oğlunun ailəsi

**Həmidov Məhəmməd Şahmar oğlu (1932)**–həmkəndlisi Əmirova (Həmidova) Günəş (1929) Nədir qızı ilə evlənmişdir. Onların birgə nikahlarından Səxavət (1959), Sədaqət (1962), Ziyafət (1964) və Məhər (1966) adlı oğlanları, Mədinə (1952), Şəfiqə (1953), Sayalı (1956) və Bəsti (1958) adlı qızları olub.

## Həmidov Səxavət Məhəmməd oğlunun ailəsi



*Həmidov Səxavət (arxa planda, sağdan birinci) qardaşı Məhər və həmkəndliləri ilə birlikdə.*

**Həmidov Səxavət Məhəmməd oğlu**–uzun müddət Rusiya Federasiyasında yaşamışdır. O, kəndin bir çox cavanlarının Rusiyada yaşamaları və işləmələri üçün şərait yaratmışdır. Nadejda adlı rus qızı ilə ailə qurmuşdur ki, bu nikahdan da Elmira (1980) və Nataşa (1982) adlı qızları olmuşdur. Hər iki qızı Gəncə şəhərində ailə qurublar. Sonradan Gəncə şəhərində məskunlaşan Səxavət Tovuz rayon sakini Nahidə adlı şəxslə ailə qurmuş və Nahid adlı oğlu olmuşdur.

## Həmidov Sədaqət Məhəmməd oğlunun ailəsi

**Həmidov Sədaqət Məhəmməd oğlu**-həmkəndlisi Piriyeva Nazilə Əli qızı ilə ailə qurmuş və Vüsal adlı bir oğlu olmuşdur. Cavan yaşlarında (1987) vəfat etmişdir. Allah rəhmət eləsin!

## Həmidov Ziyafət Məhəmməd oğlunun ailəsi

**Həmidov Ziyafət Məhəmməd oğlu**- əvvəl Rusiyada yaşamış, Aksana adlı rus qızı ilə ailə qurmuşdur ki, bu nikahdan da Leyla (1994) adlı qızı olmuşdur.

## Həmidov Məhər Məhəmməd oğlunun ailəsi

**Həmidov Məhər Məhəmməd oğlu**-Rusiya Federasiyasında yaşamış və Svetlana adlı rus qızı ilə ailə qurmuş və Elçin (1988) adlı oğlu və Arzu (1991) adlı qızı olmuşdur.

Sonra Gəncə şəhərində yaşayan Məhər Kəlbəcər rayonunun Dal Qılınclı kəndindən olan Samaya adlı şəxslə ailə qurmuşdur. Hal-hazırda Gəncə şəhərində yaşayırlar.

**Həmidova Mədinə Məhəmməd qızı**-Nədirxanlı kənd sakini Surxayla ailə qurmuş və övladları olmamışdır. Köçkünçülük dövründə həyat yoldaşı Surxay rəhmətə getmiş və Murovdağ qəsəbəsində dəfn olunmuşdur. Allah rəhmət eləsin!

**Həmidova Şəfiqə Məhəmməd qızı**-həmyerlisi Piriyev Namaz Əlif oğlu ilə ailə qurmuşdur (bax Piriyev Namaz Əlif oğlu barəsində olan məlumata).

**Həmidova Sayalı Məhəmməd qızı**-Comərd kənd sakini Baloğlan adlı şəxslə ailə qurmuş və Faiq və Mehriban adlı övladları olmuşdur. Sonralar Sayalı rəhmətə getmişdir. Allah rəhmət eləsin!

**Həmidova Bəsti Məhəmməd qızı** -Yevlax rayon Kolanı kənd sakini Hümbət adlı şəxslə ailə qurmuş və bu nikahdan övladları olmamışdır. Hümbət rəhmətə gedəndən sonra o, Piriyev Namaz Əlif oğlu ilə ailə qurmuş və İntiqam adlı oğlu olmuşdur.

## Həmidov İbrahim Şahmar oğlunun ailəsi

**Həmidov İbrahim Şahmar oğlu (1934)-**öz həmkəndlisi Piriyeva Qumru (Şövkət) (1944) Əlif qızı ilə ailə qurmuş və birgə nikahlarından Adilə, Adil, Gülnaz, Zəhra , İradə və Qabil adlı övladları olmuşdur. Cavan yaşlarında, yəni 1988-ci il avqust ayının 25-də ailəsini itirən İbrahim kişi ömrünün 73-cü payızında Bərdə rayonunun Mehdixanlı kəndində vəfat etmiş və həmin kənd qəbiristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin!

## Həmidov Adil İbrahim oğlunun ailəsi

**Həmidov Adil İbrahim oğlu (Adil Həmid Dəlidağlı, 1967)-** Bakı şəhərindən olan Məmmədova (Həmidova) Ziyarət Adil qızı ilə ailə qurmuş və birgə nikahlarından İlkin (1997) adlı oğlu olmuşdur.



## Həmidov Qabil İbrahim oğlunun ailəsi

**Həmidov Qabil İbrahim oğlu (1978)-**öz bibisi qızı Əliyeva (Həmidova) Məlahət Şükür qızı (1980) ilə ailə qurmuş və Elgiz (2003), Eşqin (2006), Saqi (2008) adlı oğlanları olmuşdur.

**Həmidova Adilə İbrahim qızı (1965)-**həmkəndlisi Əliyev Zahid Səfər oğlu ilə ailə qurmuşdur ( bax Əliyev Zahid Səfər oğlu barədə olan məlumatlara).

**Həmidova Gülnaz İbrahim qızı (1970)-**Tərtər rayonu Sarov kənd sakini Çubuyev Rəsul adlı şəxslə ailə qurmuş və Namiq (2000) adlı oğlu olmuşdur. Hal-hazırda həmin ünvanda yaşayırlar.

**Həmidova Zəhra İbrahim qızı (1972)-**öz dayısı oğlu Piriyev İlyas İsa oğlu ilə ailə qurmuşdur. Birgə nikahlarından Ceyhun adlı bir oğlu var.

**Həmidova İradə İbrahim qızı (1975)-**subaydır. Qardaşı Qabillə birlikdə Bərdə rayonunun Mehdixanlı kəndində yaşayırlar.

## Həmidova Savad Şahmar qızının ailəsi

**Həmidova Savad Şahmar qızı (1922)-**əvvəl həmkəndlisi **Əliyev İsa Əli oğlu** ilə ailə qurmuşdur. Əliyev İsa 1941-1945-ci illər müharibəsindən qayıtmamışdır. Sonradan Bərdə rayon Hacallı kənd sakini Abbas kişi ilə ailə qurmuşdur. Birgə nikahlarından Dilşad (1960) adlı qızı olmuşdur. Həyat yoldaşı vəfat etdikdən sonra Kəlbəcər rayon Nəcəfalılar kəndinə qayıtmış və qızı ilə birlikdə qardaşı İbrahimin himayəsində yaşamışdır. Uğurlu nəfəsi var. Müşkül işi olan ona nəzir deyir və işi düzələndə onu ziyarət edir.

Hal-hazırda Bərdə rayonunun Mehdixanlı kəndində yaşayır.

**Həmidova Dilişad Abbas qızı-**həmkəndlisi Əliyev Şükür Həmzə oğlu ilə ailə qurmuşdur (bax Əliyev Şükür Həmzə oğlu barəsində olan məlumatlara).

## Həmidova Xətai Şahmar qızının ailəsi

**Həmidova Xətai Şahmar qızı (1926)-**həmkəndlisi Əliyev Həmzə Mədəd oğlu ilə ailə qurmuşdur. Cavan yaşlarında rəhmətə getmişdir. Allah rəhmət eləsin! (bax Əliyev Həmzə Mədəd oğlu barəsində olan məlumatlara).

**Həmidova Nərgiz Şahmar qızı (1928)-** bacısı Xətai rəhmətə gedəndən sonra Əliyev Həmzə Mədəd oğlu ilə ailə qurmuş və Dağıstan (1966) adlı oğlu olmuşdur. Dağıstan Kəlbəcər rayonunun Barmaq Binə kəndindən Bəsti adlı şəxslə ailə qurmuşdur.Rusiya Federasiyasında uzun müddət hərbçi işləyən Dağıstan avtomobil qəzasında vəfat etmişdir. Cənazəsi Tərtər rayonunun Sarov kəndində torpağa tapşırılmışdır. Allah rəhmət eləsin!

## Həmidov Lətif Şahmar oğlunun ailəsi

**Həmidov Lətif Şahmar oğlu (1936)-**Qaragüney kənd sakini Alışova (Həmidova) Adilə (1955) Həsən qızı ilə ailə qurmuş və birgə nikahlarından Təbriz (1976) adlı oğlu, Hədiyyə (1981) və Rəsmiyyə (1983) adlı qızları olmuşdur. Qızları Hədiyyə və Rəsmiyyə subaydırlar.

## Həmidov Təbriz Lətif oğlunun ailəsi

**Həmidov Təbriz Lətif oğlu (1976)-** Kəlbəcər rayonu Çərəkdar kənd sakini Yaqub kişinin qızı Təhminə ilə ailə qumuş və birgə nikahlarından Aytac (1998), Eltac (2004), Nəsimi (2001) və Elburus (2000) adlı övladları olmuşdur.

## Abbasəli Məşədi Pirməmməd oğlunun ailəsi

**Abbasəli Məşədi Pirməmməd oğlu** – həmkəndlisi Sona Əsəd qızı ilə evlənmişdir. Onların Piri, Dilqəm, Qənifə və Quluş adlı övladları olmuşdur.

**Piriyeva Qənifə Abbasəli qızı** – Kəlbəcər rayonunun Moz Qaraçanlı kəndinə Tapdıq həkimə ərə getmişdir.

**Piriyev Quluş Abbasəli oğlu** – 15 yaşında subay rəhmətə getmişdir. Allah rəhmət eləsin!

## Piriyev Piri Abbasəli oğlunun ailəsi

**Piriyev Piri Abbasəli oğlu** – həmkəndlisi Piriyeva Səkinə Əlif qızı ilə evlənmişdir. Onların Elburus, Fazil, Firdovsi, Bəhlul, Maqsud və Südabə adlı övladları var.

## Piriyev Elburus Piri oğlunun ailəsi

**Piriyev Elburus Piri oğlu (1962)** – həmkəndlisi Musayeva Sevil Zülfü qızı (1966) ilə evlənmişdir. Onların Maral (1992) adlı qızı olmuşdur. Piriyev Elburusun həyat yoldaşı Musayeva Sevil sonradan məskunlaşdıqları İsmayıllı rayonunun Kəlbəng kəndində rəhmətə getmiş və həmin kənd qəbiristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin! Elburus Piriyev sonradan Kəlbəcər rayonunun Qaragüney kənd sakini Əzizova Yasəmən Kamal qızı ilə evlənmişdir. Onlar hal-hazırda İsmayıllı rayonunun Kəlbəng kəndində məskunlaşmışlar.

## Piriyev Fazil Piri oğlunun ailəsi

**Piriyev Fazil Piri oğlu (1963)**-həmkəndlisi Piriyeva Vəfa Barat qızı (1979) ilə evlənmişdir. Onların Fidan (2000), Əli (2002) adlı uşaqları var. Onlar hal-hazırda Abşeron rayonunda məskunlaşmışlar.

## Piriyev Bəhlul Piri oğlunun ailəsi

**Piriyev Bəhlul Piri oğlu (1976)**-Kəlbəcər rayonunun Qaragüney kənd sakini Tağıyeva Şəlalə Ziyafət qızı ilə evlənmişdir. Onların Rəqsanə (2005) adlı qızı var.

## Piriyev Maqsud Piri oğlunun ailəsi

**Piriyev Maqsud Piri oğlu (1979)**–Bərdə rayonunun Mehtixanlı kənd sakini Piriyeva İlahə Əhliman qızı (1983) ilə evlənmişdir. Onların Səkinə (2008) adlı qızı var. Onlar Yevlax rayonunun Malbinəsi kəndində məskunlaşmışlar.

**Piriyeva Südabə Piri qızı (1966)** – həmkəndlisi Əliyev Səyavuş Əskər oğluna (1962) ərə getmişdir (bax Səyavuş Əliyev barəsində olan məlumatlara).

**Piriyev Firdovsi Piri oğlu (1968)**-subaydır, hal-hazırda Abşeron rayonunda yaşayır.

## Piriyev Barat (Dilqəm) Abbasəli oğlunun ailəsi

**Piriyev Barat (Dilqəm) Abbasəli oğlu (1949)** – həmkəndlisi Həsənova Solmaz Vəli qızı ilə evlənmişdir. Onların İsmayıl (1977), Taryel (1979), Bəhman (1983), Eldəniz (1986), Elsevər (1989) və Vəfa adlı övladları var.

## Piriyev İsmayıl Barat oğlunun ailəsi

**Piriyev İsmayıl Barat oğlu (1977)** – Piriyeva Vüsalə Asif qızı (1979) ilə evlənmişdir. Onların Aysel (2004), Sona (2005), Çinarə (2007) adlı övladları var.

**Piriyeva Vəfa Barat qızı (1979)** – həmkəndlisi Piriyev Fazil Piri oğlu ilə ailə qurmuşdur (bax Fazil Piriyev barəsində olan məlumatlara).

Piriyev Taryel, Bəhman, Eldəniz və Elsevər qardaşları hələ ki, subaydırlar. Onlar İsmayıllı rayonunun Kəlbəng kəndində məskunlaşmışlar.

## Əlif Məşədi Pirməmməd oğlunun ailəsi

**Əlif Məşədi Pirməmməd oğlu** – həmkəndlisi Kəklik Əsəd qızı ilə evlənmişdir. Onların İsa, Musa, Namaz, Sayat, Minəş, Səkinə, Qumru və Gülüz adlı övladları olmuşdur.

**Əliyeva (Piriyeva) Sayat Əlif qızı (1937)** –həmkəndlisi Əliyev Fərzalı Mirzalı oğluna ərə getmişdir (bax Fərzalı Əliyev barəsində olan məlumatlara).

**İbrahimova (Piriyeva) Minəş Əlif qızı (1938)** – həmkəndlisi İbrahimov Abbas Rəhim oğluna ərə getmişdir (bax Abbas İbrahimov barəsində olan məlumatlara).

**Piriyeva Səkinə Əlif qızı (1940)**-həmkəndlisi Piriyev Piri Abbasəli oğluna ərə getmişdir (bax Piri Piriyev barəsində olan məlumatlara).

**Mikayılova (Piriyeva) Gülüz Əlif qızı (1942)** – Kəlbəcər rayonunun Quzeyçirkin kənd sakini Mikayılov Əmrah İmran oğluna ərə getmişdir. Onların Şəfəq, Afaq, Şəhla, Tünzalə, Sevda, Etibar, Anar və Azər adlı övladları var.

**İbrahimova (Piriyeva) Qumru Əlif qızı (1944)** – həmkəndlisi Həmidov İbrahim Şahmar oğluna ərə getmişdir (bax İbrahim Həmidov barəsində olan məlumatlara).

## Piriyev İsa Əlif oğlunun ailəsi

**Piriyev İsa Əlif oğlu (1932)** – həmkəndlisi Piriyeva Gövhər Zeynal qızı (1938) ilə evlənmişdir. Onların Cəbrayıl, Tofiq, İlyas, Rasim (1974), Almaz, Zəminə adlı övladları vardır.

## Piriyev Cəbrayıl İsa oğlunun ailəsi

**Piriyev Cəbrayıl İsa oğlu (1961)** – həmkəndlisi Piriyeva Büllur Salman qızı ilə evlənmişdir. Onların Ləman (1990), Pərvanə (1991), Aysel (1993) və Kənan (1997) adlı övladları var. Ləman Azərbaycan Müəllimlər İnstitutunda təhsil alır. Uşaqları hələ ki, subaydır.

## Piriyev Tofiq İsa oğlunun ailəsi

**Piriyev Tofiq İsa oğlu (1963)** – Kəlbəcər rayonunun Nadirxanlı kəndindən Ağayeva Gülbəniz Eyvaz qızı (1981) ilə evlənmişdir. Onların Orxan ( 2005), Şəbnəm (2007) adlı uşaqları var.

## Piriyev İlyas İsa oğlunun ailəsi

**Piriyev İlyas İsa oğlu (1970)** – həmkəndlisi İbrahimova Zəhra İbrahim qızı ilə evlənmişdir. Onların Ceyhun (2005) adlı oğlu var.

**Piriyeva Almaz İsa qızı (1965)** – subaydır. Bərdə rayonunun Ləmbərən kəndində məskunlaşmışdır.

**Piriyeva Zəminə İsa qızı (1967)** – Kəlbəcər rayonunun Dalqılınclı kəndindən Qurbanov Rəhman (Ramiz) İmran oğlu ilə ailə qurmuşdur. Onların Günel (1992), Tural (1998) adlı övladları var.

## Piriyev Musa Əlif oğlunun ailəsi

**Piriyev Musa Əlif oğlu (1935)** – Kəlbəcər rayonunun Qaraguney kəndindən Əzizov Kamranın qızı Piriyeva Ofelya Kamran qızı (1950) ilə evlənmişdir. Onların birgə nikahlarından Cingiz (1972), Elçin (1972), Elşən (1975), Elnur (1985) adlı uşaqları var.

## Piriyev Elçin Musa oğlunun ailəsi

**Piriyev Elçin Musa oğlu (1972)**- Şəki şəhərindən olan Piriyeva Nərgiz Ramiz qızı ilə evlənmişdir. Onların Kamran (2007) adlı oğlu var.

Digər övladları isə hələ ki, subaydırlar. Onlar Sumqayıt şəhərində yaşayırlar.

# Piriyev Namaz Əlif oğlunun ailəsi

**Piriyev Namaz Əlif oğlu (1951)-** həmkəndlisi Piriyeva Şəfiqə Məhəmməd qızı (1953) ilə evlənmişdir. Onların Nəsibə (1973), Vidadi, Aqil (1978), Vəsilə (1980), İsrayıl (984), Məqsəd (1986), Tural (1989) adlı övladları vardır.

Vidadi hələ uşaq ikən, Aqil və Nəsibə isə 2004-cü ildə cavan ikən rəhmətə getmişlər.

**Piriyeva Nəsibə Namaz qızı (1973)** – İrəvan mahalının Qafan rayonundan Sadıqov Qabil Kərim oğlu adlı şəxsə ərə getmişdir. Onların Rövşən (1998) adlı övladları vardır.

Piriyev Namazın digər uşaqları isə hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

## Piriyev Talıb Məşədi Pirməmməd oğlunun ailəsi

**Piriyev Talıb Məşədi Pirməmməd oğlu** – Kəlbəcər rayonunun Bağlıpəyə kəndindən Simovar Göyüş qızı (1903) ilə evlənmişdir. Onların İmran, Kamran, Salman, Məxmər və Minə adlı övladları vardır. Talıb baba evləndikdən sonra Vəng kəndinə köçərək orada yaşamışdır. Simovar nənə hal hazırda ömrünün 106-cı ilində Bərdə rayonunda məcburi köçkünlük həyatını yaşayır. Allah ona ömür versin!

## Piriyev İmran Talıb oğlunun ailəsi

**Piriyev İmran Talıb oğlu (1942)-**Kəlbəcər rayonunun Abdullauşağı kəndindən dərzi Məhəmmədin qızı Xanım (1949) adlı şəxslə evlənmişdir.

Onların Vüqar (1968), Vüsalə (1970), Qoşqar (1971), Elçin (1973), Ülviyyə (1980) adlı övladları var.

**Piriyev Vüqar İmran oğlu (1968)** – Ağdam rayonundan Piriyeva İlahə Zakir qızı ilə evlənmişdir. Onların Samir (1999), Aysel (2003) adlı övladları var.

**Piriyeva Vüsalə İmran qızı (1970)** – Tərtər rayonundan olan Ələstan adlı şəxslə ailə qurmuşdur.

**Piriyev Qoşqar İmran oğlu (1971)** – Kəlbəcər rayonu Çərəkdar kənd sakini elmizin igid oğlu, Qarabağ müharibəsi zamanı qəhrəmancasına şəhid olmuş Yunus Məmmədovun qızı Mənzərlə evlənmişdir.

**Piriyev Elçin İmran oğlu (1973)** – Cəbrayıl rayonundan Mükafat kişinin qızı Elmira adlı şəxslə evlənmişdir.

**Piriyeva Ülviyyə İmran qızı (1980)** – Yevlax şəhərindən Mahir adlı şəxslə ailə qurmuşdur.

## Piriyev Kamran Talıb oğlunun ailəsi

**Piriyev Kamran Talıb oğlu (1939)** –Kəlbəcər rayonunun Qılınclı kəndindən Piriyeva (İsgəndərova) Maytaban Mədət qızı (1946) adlı şəxslə evlənmişdir. Onların Sevinc, Sveta, Şahpəri, Sayalı, Paklet və Şamama adlı övladları olmuşdur. Kamran Piriyev evləndikdən sonra Kəlbəcər rayonunun Vəng kəndinə köçərək orada yaşamışdır.

**Piriyeva Sevinc Kamran qızı (1972)** – hələ ki, subaydır. Allah ona da toy qismət eləsin!

**Piriyeva Sveta Kamran qızı (1973)**-Ağdərə rayonunun Umudlu kəndinə Ərəbov Elbariz Yəhya oğluna (1971) ərə getmişdir. Onların Ayşən (1994), Günəl (1996) və Elşən (200) adlı övladları vardır.

**Piriyeva Şahpəri Kamran qızı (1975)**- Bərdə rayonunun Seyid Yusifli kəndinə Mehralıyev Nizami Xuduş oğluna (1973) ərə getmişdir. Onların Elnurə (1996), Sarıtel (2000) və Simral (2001) adlı övladları vardır.

**Piriyeva Paklet Kamran qızı (1976)**–Ağdam rayonunun Qalayçılar kəndinə İmanov Ədalət Qüdrət oğluna (1971) ərə getmişdir. Onların Qüdrət (1996), Surət (2001) adlı övladları vardır.

**Piriyeva Sayalı Kamran qızı (1978)**-Yevlax rayonunun Qaramanlı kəndinə Əliyev Seymur Nadir oğlu (1978) adlı şəxsə ərə getmişdir. Onların Nadir (2006), Natəvan (2007) adlı övladları vardır.

**Piriyeva Şamama Kamran qızı (1980)**-Bərdə rayonunun Hacallı kəndinə Məmmədov Daşqın İmamverdi oğluna (1976) ərə getmişdir. Onların Faiq (1999) və Şaiq (2003) adlı övladları vardır.

## Piriyev Salman Talıb oğlunun ailəsi

**Piriyev Salman Talıb oğlu (1936)** – əmisi qızı Piriyeva Mərcan Zeynal qızı ilə evlənmişdir. Onların Billur, Gülnar, Hicran, Afayət, Sevda və Yaşar adlı övladları vardır.

**Piriyeva Billur Salman qızı (1964)**– yaxın qohumu Piriyev Cəbrayıl İsa oğlu ilə ailə qurmuşdur ( bax Cəbrayıl Piriyev barəsində olan məlumatlara).

**Piriyeva Gülnar Salman qızı (1966)** – Bakı şəhərindən olan Telman adlı şəxslə ailə qurmuşdur. Onların Həsən (2004) adlı övladları var.

**Piriyeva Sevda Salman qızı (1968)** – Kəlbəcər rayonunun Çərəkdar kəndindən olan Qurbanov Faiq İngilis oğlu ilə ailə qurmuşdur. Onların Fərqanə (1990) adlı övladları vardır. 1991-ci ildə Çərəkdar kəndində Sevda avtomobil qəzası nəticəsində rəhmətə getmişdir. Allah rəhmət eləsin.

**Piriyeva Afayət Salman qızı (1970)** – Netçala şəhərindən olan Əziz adlı şəxslə ailə qurmuşdur. Onların Fərid (2008) adlı övladları var.

**Piriyev Yaşar Salman oğlu (1972)** - əslən İsmayıllı rayonundan olan Piriyeva (Məlikova) Nuranə Nazim qızı (1981) ilə evlənmişdir. Onların Nihad (2005), Nicat (2006) adlı övladları vardır.

**Piriyeva Hicran Salman qızı (1976)**–Neftçala şəhərindən olan Vüqar adlı şəxslə ailə qurmuşdur. Onların Taibə (2001) adlı övladları var.

## Piriyeva Məxmər Talıb qızının ailəsi

**Piriyeva Məxmər Talıb qızı** – Kəlbəcər rayonunun Bağırlı kəndindən olan Namazalı adlı şəxslə ailə qurmuşdur. Onların Sakibə, Nazilə, Familə, Fəridə, Kifayət, Faiq, Mətləb, Arzuman və Zamin adlı övladları vardır.

# Piriyeva Minə Talıb qızının ailəsi

**Piriyeva Minə Talıb qızı (1932)** - əslən Kəlbəcər rayonunun Mozqaraçanlı kəndindən olan İsmayılov Qədirlə ailə qurmuş və Kəlbəcər rayonunun Vəng kəndində yaşamışlar. Onların Fəxrəddin (1951), Sədrəddin (1954), Sahib (1959), Nuridə (1961), İlham (1963), Yeganə (1965), Xatirə (1968), Radə (1970), Kəmalə (1972) adlı övladları vardır.

**Piriyev Fəxrəddin Talıb oğlu (1951)** – Xurşud Piriyeva ilə evlənmiş və Tərtər rayonunda yaşayırlar. Onların Qafqaz, Qalib və Şümşad adlı övladları vardır.

**Piriyev Sədrəddin Talıb oğlu (1954)** – Kəlbəcər rayonunun Ağdaban kəndindən Təravət Sadıq qızı ilə evlənmişdir. Onların Ramilə, Röya, Qədir adlı övladları var. Sədrəddin Piriyev Qarabag müharibəsi zamanı Kəlbəcər rayonunun Ağdaban kəndi uğrunda gedən döyüşlər zamanı 1992-ci ili aprel ayının 8-də qəhrəmancasına şəhid olmuşdur.

**Piriyev Sahib Talıb oğlu (1959)**–Kəlbəcər rayonunun Bağlıpəyə kəndindən Piriyeva Sədaqət Yəhya qızı ilə evlənmişdir. Onların Bəhrəm, İsmayıl, Habil və Qabil adlı övladları vardır.

**Piriyeva Nuridə Talıb qızı (1961)**–Ağdam rayonundan Elbrus adlı şəxslə ailə qurmuşdur. Onların Şamxal, Elvin, Aliyə və Mədinə adlı övladları vardır.

**Piriyev İlham Talıb oğlu (1963)** - Kəlbəcər rayonunun Kərəmli kəndindən Piriyeva Zeynəblə evlənmişdir. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin!

**Piriyeva Yeganə Talıb qızı (1965)**-Kəlbəcər rayonunun Bağlıpəyə kəndindən Əmiraslanın oğlu Kamal ilə ailə qurmuşdur. Onların Mehrac və Mehparə adlı övladları vardır.

**Piriyeva Xatirə Talıb qızı (1968)** – yaxın qohumu Musayev Nizami Pənah oğlu ilə ailə qurmuşdur. Onların Vüsalə (1989), Babək (1992), Cavid (1997) adlı övladları olmuşdur (bax Nizami Musayev barəsində olan məlumatlara).

**Piriyeva Radə Talıb qızı (1970)** – Kəlbəcər rayonunun Bağlıpəyə kəndindən Mütalib adlı şəxslə ailə qurmuşdur. Onların Təbriz və Günay adlı övladları vardır.

**Piriyeva Kəmalə Talıb qızı (1972)** – Kəlbəcər rayonunun Ağdaban kəndindən Zəkəriyyə adlı şəxslə ailə qurmuşdur. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin!

## Məhəmmədəli Məşədi Pirməmməd oğlunun ailəsi

**Məhəmmədəli Məşədi Pirməmməd oğlu** – Kəlbəcər rayonunun Qılınclı kəndindən Dilbər adlı şəxslə evlənmişdir. Onların Xoşqədəm, Bəsti, Qönçə, Pəri, Nigar, Qəmbər, Səfər, Yusif, Mirzə, Yaqub, Bayram və Qəfər adlı övladları vardır.

Oğulları Səfər, Mirzə, Yaqub, Bayram və Qəfər hələ subay ikən rəhmətə getmişlər. Allah rəhmət eləsin!

**Piriyeva Xoşqədəm Məhəmmədəli qızı**-Bərdə rayonunun Mirəssəfli kəndindən (hazırda Həsənqaya kəndi) olan Yusif adlı şəxslə ailə qurmuşdur. Onların Yunis adlı oğlu var.

**Piriyeva Bəsti Məhəmmədəli qızı** - Bərdə rayonunun Mirəssəfli kəndindən olan Əmirov Allahverdi adlı şəxslə ailə qurmuşdur. Onların İmran, Əziz, Kamran, Sənubər və Svet adlı övladları vardır.

**Piriyeva Nigar Məhəmmədəli qızı**– Bərdə rayonunun Mirəssəfli kəndindən olan Mirsəyyaf adlı şəxsə ərə getmişdir. Onların Dilən, Dilqəm, Zöhrab, Məhluqə, Ziyafət adlı övladları vardır.

**Piriyeva Qönçə Məhəmmədəli qızı** – həmkəndlisi Mamedov Fərman Məhəmməd oğluna ərə getmişdir (bax Fərman Məhəmməd oğlu barəsində olan məlumatlara).

**Piriyeva Pəri Məhəmmədəli qızı** – həmkəndlisi Allahverdi Əli oğluna ərə getmişdir (bax Allahverdi Əli oğlu barəsində olan məlumatlara).

## Piriyev Qəmbər Məhəmmədəli oğlunun ailəsi

**Piriyev Qəmbər Məhəmmədəli oğlu** – əslən Bərdə rayonunun Mirəssəfli kəndindən olan Zəhra adlı şəxslə evlənmişdir. Onların Sadıq və Əzizə adlı övladları vardır.

**Piriyeva Əzizə Qəmbər qızı** – Kəlbəcər rayonunun Əsrik kəndindən olan İsmayıl adlı şəxslə ailə qurmuşdur.

**Piriyev Sadıq Qəmbər oğlu** – Kəlbəcər rayonunun Qılınclı kəndindən Piriyeva Dursun Mahmud qızı ilə evlənmişdir.

## Piriyev Yusif Məhəmmədəli oğlunun ailəsi

**Piriyev Yusif Məhəmmədəli oğlu (1934)** – əslən Kəlbəcər rayonunun Zülfüqarlı kəndindən olan Piriyeva Suqra Rüstəm qızı (1935) ilə evlənmişdir. Onların Nüşabə (1957), Südabə (1959), Arzuman (1963), Səfər (1969), Rəfail (1971), Nəsif (1976), Süsən (1966), Xalidə (1973) adlı övladları vardır.

## Piriyev Arzuman Yusif oğlunun ailəsi

**Piriyev Arzuman Yusif oğlu (1963)** – həmkəndlisi Piriyeva Nəbati Elman qızı (1969) ilə evlənmişdir. Onların Tural (1991), Müsabi (1992), Ayşən (1994) adlı övladları vardır.

## Piriyev Səfər Yusif oğlunun ailəsi

**Piriyev Səfər Yusif oğlu ( 1969)** – Piriyeva Sahibə Süleyman qızı (1966) ilə evlənmişdir. Onların Ətrabə (1992), Elxan (1997) adlı övladları vardır.

## Piriyev Rəfail Yusif oğlunun ailəsi

**Piriyev Rəfail Yusif oğlu (1971)** – Piriyeva Sədiqə Əhliman qızı ilə evlənmişdir. Onların Aysel (1994), Elnur (1995) adlı övladları vardır.

## Piriyev Nəsif Yusif oğlunun ailəsi

**Piriyev Nəsif Yusif oğlu (1976)** – Piriyeva Səbinə Məhəmməd qızı ( 1979) ilə evlənmişdir. Onların Amid (2001), Alidə (2004) adlı övladları vardır.

Piriyev Yusif Məhəmmədəli oğlunun ailəsi məcburi köçkün kimi hal-hazırda Bərdə rayonunun Həsənqaya kəndində məskunlaşmışlar.

**Piriyeva Nüşabə Yusif qızı (1957)** – Bərdə rayonunun Mirəssəfli kəndində yaşayan maması Xoşqədəmin oğlu Yunusa ərə getmişdir. Onların Elin, Niyaməddin, Fikrət, Tacəddin və Afət adlı övladları vardır.

**Piriyeva Südabə Yusif qızı (1959)** – həmkəndlisi Şirəliyev Bəşir Şəmişir (1954) oğluna ərə getmişdir (bax Bəşir Şirəli oğlu barəsində olan məlumatlara).

**Piriyeva Süsən Yusif qızı (1966)** – həmkəndlisi Abbasov Rasim Məhəmməd oğluna (1966) ərə getmişdir (bax Rasim Abbasov barəsində olan məlumatlara).

**Piriyeva Xalidə Yusif qızı (1973)** – həmkəndlisi Əliyev Murad Fərzalı oğluna (1968) ərə getmişdir (bax Murad Fərzalı oğlu barəsində olani məlumatlara).

Piriyev Yusif Məhəmmədəli oğlunun ailəsi məcburi köçkün kimi hal-hazırda Bərdə rayonunun Həsənqaya kəndində məskunlaşmışlar.

## Piriyev Zeynal Məşədi Pirməmməd oğlunun ailəsi

**Piriyev Zeynal Məşədi Pirməmməd oğlu** – həmkəndlisi İbrahimin qızı Ayna ilə evlənmişdir. Onların Əli, Əziz, Zöhrə, Gövhər, Mərcan, Çiçək adlı övladları olmuşdur.

**Piriyeva Zöhrə Zeynal qızı (1920)** – həmkəndlisi Əliyev Səfər Baxşəli oğluna ərə getmişdir. Əliyeva Zöhrə Zeynal qızı hal-hazırda Yevlax rayonunun Malbinəsi kəndində oğlu Əliyev Zahidlə birlikdə ömrünün 89-cu ilini yaşayır. Allah ona uzun ömür versin, doğma Nəcəfalılar kəndinə qayıtmağı ona nəsib etsin İnşallah! (bax Səfər Əliyev barəsində olan məlumatlara).

**Piriyeva Gövhər Zeynal qızı** – öz həmkəndlisi Piriyev İsa Əlif oğluna ərə getmişdir. Onlar hal-hazırda Bərdə rayonunun Ləmbəran qəsəbəsində yaşayırlar (bax İsa Piriyev barəsində olan məlumatlara).

**Piriyeva Mərcan Zeynal qızı** – əmisi oğlu Piriyev Salman Talıb oğluna ərə getmişdir. Onlar Kəlbəcər rayonunun Vəng kəndində yaşamışlar. Hal-hazırda məcburi köçkün kimi Bakı şəhərində məskunlaşmışlar (bax Salman Piriyev barəsində olan məlumatlara).

**Piriyeva Çiçək Zeynal qızı** – öz həmkəndlisi Musayev Pənah Vəli oğluna ərə getmişdir. Onlar məcburi köçkün kimi Abşeron rayonunda məskunlaşmışlar (bax Pənah Musayev barəsində olan məlumatlara).

## Piriyev Əli Zeynal oğlunun ailəsi

**Piriyev Əli Zeynal oğlu (1928)** – həmkəndlisi Piriyeva Nübar İdris qızı (1932) ilə evlənmişdir. Onların birgə nikahlarından Sabir (1957), Sahib (1958), Narıngül (1960), Elmira (1962), Nazilə (1964), Sərdar (1966), Cəmilə (1969) və Ənvər (1971) adlı övladları vardır. Piriyeva Nübar İdris qızı 1972-ci ildə Nəcəfalılar kəndində rəhmətə getmişdir. Allah

rəhmət eləsin! Piriyev Əli Zeynal oğlu sonradan Kəlbəcər rayonunun Zar kəndindən Piriyeva Rəna Məmməd qızı (1952) ilə evlənmişdir. Piriyev Əlinin Rəna Məmməd qızı ilə birgə nikahlarından Könül (1985), Mehriban (1987), Şəhla (1988), Afət (1990) adlı övladları vardır.

**Piriyeva Narıngül Əli qızı (1960)** – öz həmkəndlisi Həsənov Eldar Köçəri oğluna ərə getmişdir (bax Eldar Həsənov barəsində olan məlumatlara).

**Piriyeva Elmira Əli qızı (1962)** – Kəlbəcər rayonunun Comərd kənd sakini Abuzərli Vahid Əbulqasım oğlu ilə ailə qurmuşdur. Onların Ricay və Ülviyyə adlı övladları vardır. Elmira Piriyeva 1988-ci ildə Comərd kəndində rəhmətə getmiş və Nəcəfalılar kənd qəbirsitanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin!

**Piriyeva Nazilə Əli qızı (1964)** – həmkəndlisi Həmidov Sədaqət Məhəmməd oğluna ərə getmişdir (bax Sədaqət Həmidov barəsində olan məlumatlara).

**Piriyeva Cəmilə Əli qızı (1969)** – həmkəndlisi Əmirov Hafiz Həmzə oğluna ərə getmişdir (bax Hafiz Əmirov barəsində olan məlumatlara).**Piriyeva Könül Əli qızı (1985)** – həmkəndlisi Həsənov Əkbər Ziyəddin oğluna ərə getmişdir. Onların Elnur adlı övladları vardır.

**Piriyeva Mehriban Əli qızı (1987)** – xalası oğlu Səxavətlə ailə qurmuşdur. Hələki övladları yoxdur. Allah qismət eləsin!
**Piriyeva Şəhla Əli qızı (1988)** – Bərdə rayonunun Həsənqaya kəndindən olan Murad adlı şəxslə ailə qurmuşdur. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin.

**Piriyeva Afət Əli qızı (1990)** –hələ ki, subaydır. Allah ona da toy qismət eləsin!

## Piriyev Sabir Əli oğlunun ailəsi

**Piriyev Sabir Əli oğlu (1957)** – Kəlbəcər rayonunun Comərd kənd sakini Piriyeva Şirin (Nazilə) Valeh qızı (1967) ilə ailə qurmuşdur. Onların Sirac (1989), Jalə (1991) və Əfsanə (1991) adlı övladları vardır.

## Piriyev Sahib Əli oğlunun ailəsi

**Piriyev Sahib Əli oğlu (1958)** – Kəlbəcər rayonunun İstisu qəsəbəsində yaşayan yaxın qohumu Piriyeva Südabə Pənah qızı (1969) ilə evlənmişdir. Onların Samir (1992), Fərid (2003) adlı övladları vardır.

## Piriyev Sərdar Əli oğlunun ailəsi

**Piriyev Sərdar Əli oğlu (1966)** – Füzuli rayonundan Rəna adlı şəxslə evlənmişdir. Onların Amid (1996) və Seymur ( 2002) adlı övladları vardır.

## Piriyev Ənvər Əli oğlunun ailəsi

**Piriyev Ənvər Əli oğlu ( 1971)** – Naxçıvan MR-dən Gülçöhrə adlı şəxslə evlənmişdir. Onların Anar (1994) və Aysun (2004) adlı övladları vardır.

## Piriyev Əziz Zeynal oğlunun ailəsi

**Piriyev Əziz Zeynal oğlu (1932)** – əmisi Abbasəlinin qızı Fənarla (1936) evlənmişdir. Onların Arif (1959), Xurşud (1961), Xuraman (1962), Bəxtiyar (1964), İsfəndiyar (1967), Firuzə (1969), Nuridə (1971), Fəridə (1975) adlı övladları vardır.

Piriyeva Fənar Abbasəli qızı 1995-ci ildə, Piriyev Əziz Zeynal oğlu isə 1999-cu ildə Bakı şəhərində rəhmətə getmişlər. Onların hər ikisi də Bakı şəhəri Batamdar qəbiristanlığında dəfn olunmuşdur. Allah onlara rəhmət eləsin.

**Piriyeva Xurşud Əziz qızı (1961)** – Kəlbəcər rayonunun Qaragüney kənd sakini Əzizov Mədət Qəfər oğlu ilə ailə qurmuşdur. Onların Ceyhun (1985), Sevinc (1986) və Ramin (1988) adlı övladları vardır.

**Piriyeva Xuraman Əziz qızı (1962)** – Kəlbəcər rayonunun Günəşli kənd sakini Nazim Sultan oğlu

ilə ailə qurmuşdur. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin!

**Piriyeva Firuzə Əziz qızı (1969)** – Kəlbəcər rayonunun Qaragüney kənd sakini Çıraqov Sədi İbrahim oğluna ərə getmişdir. Onların Tural (1992) və Aytəkin (1997) adlı övladları vardır.

**Piriyeva Nuridə Əziz qızı (1971)** – Kəlbəcər rayonunun Dalqılınclı kəndinə Nəbi adlı şəxsə ərə getmişdir. Onların Hikmət (2002) və Nəsib (2003) adlı övladları vardır.

**Piriyeva Fəridə Əziz qızı (1975)** – Kəlbəcər rayonunun Başlıbel kəndinə Vaqif adlı şəxsə ərə getmişdir. Onların Aytəkin (1997) və Tacəddin (2001) adlı övladları vardır.

## Piriyev Arif Əziz oğlunun ailəsi

**Piriyev Arif Əziz oğlu (1959)** – Kəlbəcər rayonunun Comərd kəndindən Piriyeva Diləzbər Rəhim qızı (1970) ilə evlənmişdir. Onların birgə nikahlarından Fikrət (1989), Məlahət (1992) adlı övladları vardır.

## Piriyev Bəxtiyar Əziz oğlunun ailəsi

**Piriyev Bəxtiyar Əziz oğlu (1964)** – Kəlbəcər rayonunun Ağcakənd sakini Piriyeva Tərlan İstanbul qızı ilə evlənmişdir. Onları Azər (1999) və Anar (2005) adlı övladları vardır.

## Piriyev İsfəndiyar Əziz oğlunun ailəsi

**Piriyev İsfəndiyar Əziz oğlu (1967)** – İrəvandan Kəmalə adlı şəxslə evlənmişdir. Onların Vüqar (2005) və Xəyalə (2007) adlı övladları vardır.

## AVAZ MƏHƏMMƏD OĞLUNUN NƏSLİ



Avaz babanın həyat yoldaşı barədə məlumat əldə edə bilməmişik.

**Oğlanları:** Şükür, Əsəd, İmamalı, Kalvalı, Bəylər.

**Qızları:** Mədinə və Məsmə –hər ikisi də Kəlbəcər rayonunun Ağqaya kəndinə ərə getmişlər.

## Şükür Avaz oğlunun ailəsi

**Şükür Avaz oğlu** – Kəlbəcər rayonunun Ağqaya kəndindən Bənövşə adlı şəxslə evlənmişdir. Onların birgə nikahlarından Heydər, Muxtar, Qaçay, Buluş və Fatma adlı övladları vardır.

**Buluş Avaz qızı** – həmkəndlisi Məmmədov Süleyman Məhəmməd oğluna ərə getmişdir (bax Süleyman Məhəmməd oğlu barəsində olan məlumatlara).

**Fatma Avaz qızı** – həmkəndlisi Dadaş İbrahim oğluna ərə getmişdir (bax Dadaş İbrahim oğlu barəsində olan məlumatlara).

## Abbasov Heydər Şükür oğlunun ailəsi

**Abbasov Heydər Şükür oğlu (1912)** – Kəlbəcər rayonunun Qaragüney kəndindən Sifayə Əziz qızı ilə evlənmişdir. Onunla nikahlarından Qəzənfər, Minayə, Sara adlı övladları vardır. Həyat yoldaşı Sifayə rəhmətə gedəndən sonra Heydər Abbasov Kəlbəcər rayonunun Almalıq kəndindən Abbasova Yetər Sultan qızı (1935) ilə evlənmişdir. Onunla birgə nikahlarından isə Maya, Bahar (1965) və Mübariz

(1966) adlı övladları vardır. 2000-ci ildə Yetər Abbasova Bakı şəhərində rəhmətə getmişdir. O, Hövsan kənd qəbiristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin!

**Abbasov Qəzənfər Heydər oğlu** – hələ subay ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin.

**Abbasova Minayə Heydər qızı** – həmkədlisi Xəlilov Əhməd Dadaş oğluna ərə getmişdir (bax Əhməd Xəlilov barsində olan məlumatlara).

**Abbasova Sara Heydər qızı** – Kəlbəcər rayonunun Qılınclı kəndində Hüsyen adlı şəxsə ərə getmişdir. Onların övladları olmamışdır. Hüseyn hələ Kəlbəcər rayonunda olarkən rəhmətə getmişdir Allah rəhmət eləsin!

**Abbasova Maya Heydər qızı (1958)**– Kəlbəcər rayonunun Almalıq kəndinə Əliyev Yusif Rəhim oğluna (1950)- ərə getmişdir. Onların Səfa (1978), Ərşad (1979), Asif (1983)və Svetlana (1986) adlı övladları vardır.

**Əliyeva Səfa Yusif qızı** – Yevlax rayonunun Kolanı kəndinə Fəxrəddin İsaq oğlu adlı şəxsə ərə getmişdir. Onların Malik (2005), Roza (2007) adlı övladları vardır.

**Ərşad, Asif və Svetlana** isə hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

**Abbasova Bahar Heydər qızı (1965)**- Bərdə rayonunun Mola Gülülər kəndinə İsgəndərov Sədi adlı şəxsə ərə getmişdir. Onların Rufanə (1994) və Elgün (1995) adlı övladları vardır.

## Abbasov Mübariz Heydər oğlunun ailəsi

**Abbasov Mübariz Heydər oğlu (1966)**- Yevlax rayonundan Mahmudova Gülnarə Mahmud qızı (1967) ilə evlənmişdir. Onların Rəhimə və Mədinə (2007) adlı əkiz övladları vardır.

## Abbasov Muxtar Şükür oğlunun ailəsi

**Abbasov Muxtar Şükür oğlu (1910)**- Kəlbəcər rayonunun Comərd kənd sakini Qasımın qızı Göçəklə (1923) ailə qurmuşdur. Onların Rəfiqə (1942), Bəhman (1944), Bəhlul (1947), Abbas !1952) və Zəkiyyə (1962) adlı övladları vardır.

**Abbasova Rəfiqə Muxtar qızı (1942)** – həmkəndlisi Məmmədov Telman Salman oğluna ərə getmişdir (bax Telman Salman oğlunun ailəsi barəsində olan məlumatlara)

**Abbasova Zəkiyyə Muxtar qızı (1962)** – Beyləqan rayonuna ərə getmiş və Azad (1993) adlı oğlu vardır.

## Abbasov Bəhmən Muxtar oğlunun ailəsi

**Abbasov Bəhmən Muxtar oğlu (1944)** – Kəlbəcər rayonunun Sarıdaş kəndindən Alışanova Zənifər Məhəmməd qızı ilə ailə qurmuşdur. Onların Ramil, Amil və Nail adlı övladları vardır.

## Abbasov Bəhlul Muxtar oğlunun ailəsi

**Abbasov Bəhlul Muxtar oğlu (1947)** – Subay ikən 1982-ci ildə rəhmətə getmiş və Nəcəfalılar kənd qəbirstanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin!

## Abbasov Abbas Muxtar oğlunun ailəsi

**Abbasov Abbas Muxtar oğlu (1952)** – həmkəndlisi Həsənova Rəhilə vəli qızı ilə ailə qurmuş, övladları olmamışdır. O, 2008-ci ildə Bakı şəhərində rəhmətə getmişdir. Allah rəhmət eləsin.

## Abbasov Qaçay Şükür oğlunun ailəsi

**Abbasov Qaçay Şükür oğlu** – Kəlbəcər rayonunun Nadirxanlı kəndindən Hava adlı şəxslə evlənmişdir. Onların Xasay, Balış (1935) və Sitarə adlı övladları vardır.

**Abbasova Balış Qaçay qızı** – Kəlbəcər rayonunun Moz Qaraçanlı kəndindən olan Abbasov Bahadur Həbib oğlu ilə ailə qurmuşdur. Onlar sonradan köçərək Nəcəfalılar kəndinə gəlmiş və orada yaşamışlar (bax Bahadur Abbasov barsində olan məlumatlara).

**Abbasova Sitarə Qaçay qızı** – Kəlbəcər rayonunun Qaragü–ney kənd sakini Əzizov Qəfər Mədət oğluna ərə getmişdir (bax Qəfər Əzizov barəsində olan məlumatlara).

## Abbasov Xasay Qaçay oğlunun ailəsi

**Abbasov Xasay Qaçay oğlu** – əslən Qarabağdan olan Məxmər adlı şəxslə evlənmişdir. Onların Elşad, Çingiz, Həsən, Aydın, İlhamə və Təranə adlı övladları vardır.

## Əsəd Avaz oğlunun ailəsi

**Əsəd Avaz oğlu** – Kəlbəcər rayonunun Quzeyçirkin kəndindən olan Şərəbanı adlı şəxslə evlənmişdir. Onların Kəklik, Sona, Zərqələm və İsmayıl adlı övladları olmuşdur.

**İsmayıl Əsəd oğlu** hələ uşaq ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin!.

**Kəklik Əsəd qızı** – həmkəndlisi Namazov Əlif Məşədi Pirməmməd oğluna ərə getmişdir (bax Əlif Namazov barəsində olan məlumatlara).

**Sona Əsəd qızı** – həmkəndlisi Namazov Abbasəli Məşədi Pirməmməd oğluna ərə getmişdir (bax Abbasəli Namazov barəsində olan məlumatlara).

**Zərqələm Əsəd qızı** – Kəlbəcər rayonunun Qaragüney kənd sakini Mədət Əziz oğlu ilə ailə qurmuşdur. Onların Qəfər, Zəfər, Kamal, Kamran və Tavat adlı uşaqları vardır.

**Əzizov Qəfər Mədət oğlu** – Kəlbəcər rayonunun Nəcəfalılar kənd sakini Sitarə Qaçay qızı ilə ailə qurmuşdur. Onların birgə nikahlarından Mədət, Əlövsət, Vasif, Nüşabə və Zülfüqar adlı övladları vardır. Sitarə Qaçay qızı rəhmətə getdikdən sonra Qəfər Əzizov Kəlbəcər rayonunun Günəşli kəndindən Pakizə Əmiraslan qızı ilə evlənmişdir. Onunla birgə nikahlarından isə Sakibə, Lətafət və Vəsilə adlı övladları vardır.

**Əzizov Kamran Mədət oğlu** – Kəlbəcər rayonundan Məhbub Əzizova ilə ailə qurmuşdur. Onların Ofelya adlı övladları vardır.

**Əzizov Zəfər Mədət oğlu** – Ceyran adlı şəxslə evlənmişdir. Onların Nəsimi, Sabit, Sübhan, Sənan, Selyan və Məlahət adlı uşaqları vardır.

**Əzizov Kamal Mədət oğlu** - Kəlbəcər rayonunun Nəcəfalılar kənd sakini Pürüş Təhməz qızı ilə evlənmişdir. Onların Elmira, Yasəmən, Sədaqət, Üzeyir və Nizami adlı övladları vardır. Əzizov Nizami Kamal oğlu hələ subay ikən gənc yaşlarında rəhmətə getmişdir. Allah rəhmət eləsin!

**Əzizova Tavat Mədət qızı** – həmkəndlisi Yumuru adlı şəxsə ərə getmişdir. Onların Güloğlan, Solmaz, Sahibə, Xəqani və Fuad adlı övladları vardır. Xəqani hərbi xidmət dövründə subay rəhmətə getmişdir. Allah rəhmət eləsin!

## İmamalı Avaz oğlunun ailəsi

**İmamalı Avaz oğlu** – Kəlbəcər rayonunun Qılınclı kəndindən Banu adlı şəxslə evlənmişdir. Onların İdris, Tuygun, Asiya və Gülarə adlı övladları vardır.

**Tuygun İmamalı qızı** – əslən İrəvan mahalının Zəngəzur bölgəsindən olan Salman Məmmədova ərə getmiş və onlar Nəcəfalılar kəndində yaşamışlar (bax Salman Məmmədov barəsində olan məlumatlara).

**Asiya İmamalı qızı** – əslən Quba rayonundan olan Əhməd adlı şəxsə ərə getmişdir (bax Abbasov Əhməd barəsində olan məlumatlara).

**Gülarə İmamalı qızı** – Kəlbəcər rayonunun Günəşli kəndindən olan Əhməd adlı şəxsə ərə getmişdir.

**İdris İmamalı oğlu** – həmkəndlisi Lalə Mədət qızı ilə ailə qurmuşdur. Onların Asif və Nəsib adlı övladları vardır. İdris İmamalı oğlu Böyük Vətən müharibəsinə getmiş və müharibədən qayıtmamışdır. Allah rəhmət eləsin.

**Nəsib İdris oğlu** – hələ uşaq ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin!

## Abbasov Asif İdris oğlunun ailəsi

**Abbasov Asif İdris oğlu (1935)** – həmkəndlisi Abbasova Günəş Şəmşir qızı (1935) ilə ailə qurmuşdur. Onların Hicran (1964), İsgəndər (1967), Yaqut (Cəmilə), Əminə, Zinyət və İdris adlı övladları vardır.

## Abbasov Hicran Asif oğlunun ailəsi

**Abbasov Hicran Asif oğlu (1964)** – Kəlbəcər rayonunun Comərd kənd sakini Həşimova Minayə Əli qızı ilə ailə qurmuşdur. Onların Aytac (1987), Səbuhi (1989), Zərintac (1995) adlı övladları vardır.

## Abbasov İdris Asif oğlunun ailəsi

**Abbasov İdris Asif oğlu (1973)** – əslən Ağdam rayonunun Quzanlı kəndindən olan Abbasova Səadət Barat qızı (1972) ilə evlənmişdir. Onunla nikahlarından Gültac (1996), Eltac (1999) adlı uşaqları vardır. İdris Abbasov həmçinin Abbasova Ləman Şakir qızı (1988) ilə də evlənmişdir. Onunla nikahından isə Xəyal (2008) adlı övladı vardır.

**Abbasov İsgəndər Asif oğlu (1967)** – Azərbaycan torpaqlarının bütövlüyü uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Allah rəhmət eləsin! (bax "Şəhidlər" bölməsində onun barəsində olan məlumatlara) .

**Abbasova Yaqut Asif qızı** – 1992-ci ildə hələ cavan yaşlarında Kəlbəcər rayonunun Tunel adlanan yerində faciəli surətdə rəhmətə getmişdir. Allah rəhmət eləsin!

**Abbasova Əminə Asif qızı** – Kəlbəcər rayonunun Kərəmli kəndinə Mobil adlı şəxsə ərə getmişdir.

**Abbasova Zinyət Asif qızı** – Kəlbəcər rayonunun Vəng kəndindən Süleyman adlı şəxsə ərə getmişdir.

## Bəylər Avaz oğlunun ailəsi

**Bəylər Avaz oğlu** – Püstə adlı şəxslə evlənmişdir. Onların Qədim, Xanış, Səkinə adlı övladları vardır.

**Səkinə Bəylər qızı** – Kəlbəcər rayonunun Quşyuvası kəndinə Ramazan adlı şəxsə ərə getmişdir.

**Xanış Bəylər oğlu** – hələ cavan ikən subay rəhmətə getmişdir. Allah rəhmət eləsin.

**Qədim Bəylər oğlu** – Afərim adlı şəxslə ailə qurmuşdur. Onların Firəngiz (1931) adlı övladı vardır. Firəngiz həmkəndlisi Əliyev Salah Mehti oğluna ərə getmişdir (bax Salah Əliyev barəsində olan məlumatlara).

## Kalvalı Avaz oğlunun ailəsi

**Kalvalı Avaz oğlu** – təəssüf ki, onun həyat yoldaşı barədə məlumat əldə edə bilməmişik.

Onun yalnız Əli adlı oğlunun olması barədə məlumatımız vardır. Digər övladlarının olması barədə məlumatımız yoxdur.

**Əli Kalvalı oğlu** – təəssüf ki, onun həyat yoldaşı barədə məlumat əldə edə bilməmişik.

Əlinin yalnız Ağalar adlı oğlunun olması barədə məlumatımız vardır. Digər övladlarının olması barədə məlumatımız yoxdur.

## Ağalar Əli oğlunun ailəsi

**Ağalar Əli oğlu** – Kəlbəcər rayonunun Nadirxanlı kəndindən Fəxri adlı şəxslə evlənmişdir. Onların Mədət, Fərhad və Zeynəb adlı övladları vardır.

**Zeynab Ağalar qızı** – həmkəndlisi Məşədi Şəmirə ərə getmişdir (bax Məşədi Şəmirin ailəsi barədə olan məlumatlara).

## Mədət Ağalar oğlunun ailəsi

**Mədət Ağalar oğlu** – Kəlbəcər rayonunun Qanlıkənd kəndindən Simuzər adlı şəxslə evlənmişdir. Onların Məhəmməd, Həmzə, Zenəb, Cuna və Lalə adlı övladları vardır.

**Məhəmməd Mədət oğlu** – 1941– 45-ci illər Böyük vətən müharibəsindən qayıtmamışdır. Allah rəhmət eləsin!

**Zenəb Mədət qızı** – Kəlbəcər rayonunun Alxaslı kəndinə İsbi adlı şəxsə ərə getmişdir. Onların Nazilə, Ruqiyyə, Elburus, Mərdan və Elçin adlı övladları vardır.

**Cuna Mədət qızı** – Kəlbəcər rayonunun Qılınclı kəndinə Qabil adlı şəxsə ərə getmişdir. Onların Şəyəldi, Yemiş, Gümüş və Sərəncam adlı övladları olmuşdur.

**Lalə Mədət qızı** – həmkəndlisi İdris İmamalı oğluna ərə getmişdir (bax İdris İmamalı oğlu barəsində olan məlumatlara).

## Əliyev Həmzə Mədət oğlunun ailəsi

**Əliyev Həmzə Mədət oğlu (1927)** – həmkəndlisi Həmidova Xətai Şahmar qızı ilə evlənmişdir. Onların birgə nikahlarından Oruc (1952), Şükür (1956), Məleykə (1958), Kifayət (1960), Hida–yət (1962) adlı övladları vardır.

Həmidova Xətai rəhmətə getdikdən sonra Həmzə Əliyev baldızı Həmidova Nərgiz Şahmar qızı (1928) ilə evlənmişdir. Nərgiz Həmidova ilə birgə nikahlarından isə Dağıstan (1966) adlı övladları olmuşdur.

**Əliyev Oruc Həmzə oğlu (1952)** – Qarabağ müharibəsi zamanı şəhid olmuşdur. Allah rəhmət eləsin. Subay olmuşdur.

**Əliyeva Məlahət Şükür qızı (1980)** – həmkəndlisi və yaxın qohumu Həmidov Qabil İbrahim oğluna ərə getmişdir (bax Qabil İbrahimovun ailəsi barədə olan məlumatlara).

Qızları Mətanət və Vüsalə, hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

**Əliyeva Məleykə Həmzə qızı (1958)** –Tərtər rayonu–nun Kolanı kəndinə Eldar adlı şəxsə ərə getmişdir.

Onların Aygün və Aysel adlı övladları var.

**Əliyeva Kifayət Həmzə qızı (1960)** – Kəlbəcər rayonuna Valeh adlı şəxsə ərə getmişdir. Onların Gülnar və Kərəm adlı övladları vardır.

## Əliyev Şükür (Şakir) Həmzə oğlunun ailəsi

**Əliyev Şükür (Şakir) Həmzə oğlu (1956)** – xalası qızı Həmidova Dilşad Abbas qızı ilə evlənmişdir. Onların Məlahət (1980), Mətanət (1982) və Vüsilə (1987) adlı övladları vardır.

## Əliyev Hidayət Həmzə oğlunun ailəsi

**Əliyev Hidayət Həmzə oğlu (1962)** – Kəlbəcər rayonunun Barmaqbinə kəndindən olan Əliyeva Şəfiqə İsbi qızı (1965) ilə evlənmişdir. Onların Elçin (1992), Gülnar (1993), Mədət (1996) və Elsevər (2000) adlı övladları vardır.

## Əliyev Dağıstan Həmzə oğlunun ailəsi

**Əliyev Dağıstan Həmzə oğlu (1966)** – Kəlbəcər rayonunun Barmaqbinə kəndindən olan Əliyeva Bəsti İsbi qızı ilə evlənmişdir. Onların Arzu və Roza adlı övladları vardır.

Əliyev Dağıstan Rusiya Federasiysının Altay vilayətində hərbi qulluqçu olmuşdur. O, 2007-ci ildə avtomobil qəzası nəticəsində rəhmətə getmişdir. 2008-ci ildə elimizin vətənpərvər oğlu Həmidov Məhər Məhəmməd oğlunun köməkliyi ilə cənazəsi doğma vətənə gətirilmiş və Tər0tər rayonunun Sarov kənd qəbiristanlığında qardaşı Şükür Həmzə oğlunun qəbri ilə yanaşı dəfn olunmuşdur. Allah hər ikisinə rəhmət eləsin!

## Əliyev Fərhad Ağalar oğlunun ailəsi

**Fərhad Ağalar oğlu** – Kəlbəcər rayonunun Halçalı kəndindən Tutu adlı şəxslə evlənmişdir. Onların Çiçək, Abbas, Göyçək, Şirin və Əsgər adlı övladları vardır.

**Əliyeva Çiçək Fərhad qızı** – həmkəndlisi Abbasov Yusif Əhməd oğluna ərə getmişdir (bax Yusif Abbas oğlunun ailəsi barədə olan məlumatlara).

**Əliyeva Göyçək Fərhad qızı** – hələ subay ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin!

**Əliyeva Abbas Fərhad oğlu** – Kəlbəcər rayonunun Halçalı kəndindən Zeynəb Kalvalı qızı ilə evlənmişdir. O, ailəsi birlikdə Kəlbəcər rayonunun Qılınclı kəndində yaşamışdır. Onların Zenfira adlı övladları vardır.

**Əliyeva Şirin Fərhad oğlu** – Kəlbəcər rayonunun Qılınclı kəndindən Xəcəl adlı şəxlə evlənmişdir. O, ailəsi birlikdə Kəlbəcər rayounun Qılınclı kəndində yaşamışdır. Onların Natiq, Namiq, İbrahim və Rafiq adlı övladları vardır.

## Əliyev Əsgər Fərhad oğlunun ailəsi

**Əliyev Əsgər Fərhad oğlu (1934)** – həmkəndlisi Gülgəz Allahverdi qızı ilə ailə qurmuşdur. Onların Binnət, Məcid, Narıngül, Səyavuş, Xosrov və Ərşad adlı övladları vardır. Gülgəz Allahverdi qızı rəhmətə getdikdən sonra, Əsgər Əliyev ikinci dəfə Kəlbəcər rayonunun İstibulaq kəndindən Əliyeva Tamam İdris qızı (1936) ilə evlənmişdir. Onunla nikahlarından övladları yoxdur.

**Əliyeva Narıngül Əsgər qızı (1964)** – Kəlbəcər rayonunun Cəmilli kəndinə Yunus Məşdi oğluna ərə getmişdir. Onların Ülviyyə, Zülfiyyə və Rahil adlı övladları vardır.

**Əliyev Xosrov Əsgər oğlu (1966)** – hələ subay ikən Ağdərə rayonunda kanala düşərək rəhmətə getmişdir. Allah rəhmət eləsin!

## Əliyev Binnət Əsgər oğlunun ailəsi

**Əliyev Binnət Əsgər oğlu (1956)** – öz həmkəndlisi Həsənova Ənnaf İdris qızı ilə ailə qurmuşdur. Onların birgə nikahlarından Cahid adlı övladları vardır.

## Əliyev Məcid Əsgər oğlunun ailəsi

**Əliyev Məcid Əsgər oğlu (1961)** – Kəlbəcər rayonunun İstibulaq kəndindən Əliyeva Məhbubə Eyvaz qızı (1959) ilə evlənmişdir. Onların Sevil (1980), Zaur (1983), Səadət (1986), Məhəbbət (1990) adlı övladları vardır.

## Əliyev Səyavuş Əsgər oğlunun ailəsi

**Əliyev Səyavuş Əsgər oğlu (1962)** – həmkəndlisi Piriyeva Südabə Piri qızı ( 1966) ilə evlənmişdir. Onların Məftun (1989), Tünzalə (1992), Elməddin (1996) və Tacəddin (1996) adlı övladları vardır.

**Əliyev Ərşad Əsgər oğlu (1968)** – hələ ki, subaydır. Allah ona da toy qismət eləsin!

## Hümbət Məhəmməd oğlunun ailəsi

**Hümbət Məhəmməd oğlu** – təəssüflər olsun ki, onun həyat yoldaşı barədə məlumat əldə edə bilməmişik. Onun yalnız Musa və Əli adlı övladları bizə bəllidir.

## Musa Hümbət oğlunun ailəsi

**Musa Hümbət oğlu** – təəssüflər olsun ki, onun həyat yoldaşı barədə məlumatlar əldə edə bilməmişik. Onun **Vəli** və **Saliyə** adlı övladları olmuşdur.

**Saliyə Musa qızı** hələ subay ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin!

## Vəli Musa oğlunun ailəsi

**Vəli Musa oğlu** – həmkəndlisi Namazova Pəri Məhəmməd qızı ilə evlənmişdir. Onların Pənah, Umud, Hüsü, Bahadur və Zülfü adlı uşaqları olmuşdur.

## Musayev Pənah Vəli oğlunun ailəsi

**Musayev Pənah Vəli oğlu (1928)** – həmkəndlisi Məşədi Pirməmmədin oğlu Zeynalın qızı Çiçəklə ailə həyatı qurmuşdur. Onların Nizami (1958), Gülxar (1960) , Sürəyya (1962), Südabə (1964) adlı övladları olmuşdur.

## Musayev Nizami Pənah oğlunun ailəsi

**Musayev Nizami Pənah oğlu (1958)** – Musayeva Xatirə Qədir qızı (1968) ilə ailə həyatı qurmuşdur. Musayeva Xatirənin atası əslən Kəlbəcər rayonunun Mozqaraçanlı kəndindən olan, sonralar isə Vəng kəndində yaşayan Qədir, anası

isə Nəcəfalılar kənd sakini Məşədi Pirməmmədin oğlu Talıbın qızı Minədir. Onların Vüsalə (1989), Babək (1992), Cavid (1997) adlı övladları var.

**Musayeva Gülxar Pənah qızı (1960)** – Ağdərə rayonunun Baş Güneypəyə kəndindən olan Natiq adlı şəxslə ailə qurmuşdur.

**Musayeva Sürəyya Pənah qızı (1962)** – əslən Quba rayonundan olan İrşan adlı şəxslə ailə qurmuşdur. Onların Səbuhi adlı oğlu var.

**Musayeva Südabə Pənah qızı (1964)** – Piriyev Sahib Əli oğlu ilə ailə qurmuşdur (bax Sahib Priyev barəsində olan məlumatlara).

## Musayev Umud Vəli oğlunun ailəsi

**Musayev Umud Vəli oğlu (1929)** – Kəlbəcər rayonunun Günəşli (Kilsəli) kənd sakini Musayeva Sona Bəylər qızı ilə evlənmişdir. Onların Bəhruz, Şəfiqə, Adilə və Solmaz adlı övladları var.

**Musayev Bəhruz Umud oğlu (1969)** – subaydır.

**Musayeva Solmaz Umud qızı** – subaydır.

**Musayeva Şəfiqə Umud qızı (1958)** – əslən respublikamızın cənub bölgəsindən olan Akif adlı şəxsə ərə getmişdir. Onların Fuad və Fəridə adlı uşaqları vardır.

**Musayeva Adilə Umud qızı** – əslən Qubadlı rayonundan olan Cavanşir adlı şəxsə ərə getmişdir. Onların Anar və Cavid adlı uşaqları vardır.

## Musayev Zülfü Vəli oğlunun ailəsi



**Musayev Zülfü Vəli oğlu (1935)** – həmkəndlisi Musayeva Sehran Möylam qızı (1939) ilə ailə qurmuşdur. Birgə nikahlarından Ramiz (1958), Kamandar (1960), Xanım (1961), Kamal (1964), Şükufə (1965), Sevil (1966), Əsli (1968), Şərqiyyə (1970) adlı övladları vardır. Musayeva Sehran Möylam qızı 2003-cü ildə Bakı şəhərində rəhmətə getmişdir. Allah rəhmət eləsin!

## Musayev Ramiz Zülfü oğlunun ailəsi

**Musayev Ramiz Zülfü oğlu (1958)** – Kəlbəcər rayonunun Qılıncı kəndindən Musayeva Dilbər Hümbət qızı (1956) ilə ailə qurmuşdur. Onların Ramid (1985), Ramin (1986), Emin (1988) adlı uşaqları olmuşdur.

**Musayev Ramid Ramiz oğlu (1958)** – Kəlbəcər rayonunun Günəşli (Kilsəli) kəndindən olan Çərkəzov Qabil Səfər oğlunun qızı Lamiyyə (1985) ilə evlənmişdir. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin!

**Musayev Ramin və Emin** isə hələ subaydırlar. Allah onlara da toy qismət eləsin!

## Musayev Kamandar Zülfü oğlunun ailəsi

**Musayev Kamandar Zülfü oğlu (1960) –** Kəlbəcər rayonunun Günəşli kənd sakini Musayeva Rəhilə (Gülxar) Sabir qızı (1960) ilə evlənmişdir. Hələ ki, uşaqları yoxdur. Allah qismət eləsin!

# Musayev Kamal Zülfü oğlunun ailəsi

**Musayev Kamal Zülfü oğlu (1964)** – Kəlbəcər rayonunun Qılınclı kənd sakini Musayeva Ülviyyə Əkbər qızı (1977) ilə evlənmişdir. Onların Kamil (1995), Ülvi (1999) adlı uşaqları var.

**Musayeva Şükufə Zülfü qızı (1965)** – Kəlbəcər rayonunun Comərd kənd sakini Şükürün oğlu Ələkbər ilə ailə qurmuşdur. Onların Afət (1980), Şərifə (1988) adlı uşaqları var. Həyat yoldaşı Ələkbər məcburi köçkünlük dövründə Qarabağda rəhmətə getmişdir. Allah rəhmət eləsin!

**Musayeva Xanım Zülfü qızı (1961)** – Kəlbəcər rayonunun Milli kəndindən olan Allahverdi adlı şəxslə ailə qurmuşdur. Firdovsi (1988) və Yaməddin (1992) adlı uşaqları var.

**Musayeva Sevil Zülfü qızı (1966)** – həmkəndlisi Piriyev Elburus Piri oğlu ilə ailə qurmuşdur (bax Elburus Piriyev barəsində olan məlumatlara).

**Musayeva Əsli Zülfü qızı (1966)** – əmisi Bahadurun oğlu Mahir ilə ailə qurmuşdur. Leyla ( 1997) adlı qızı olmuşdur.

**Musayeva Şərqiyyə Zülfü qızı (1970)** – əslən Bakı şəhərindən olan, Nəcəfalılar kənd orta məktəbində müəllim işləmiş Əfəndiyev Mayil Mayis oğlu (1962) ilə ailə qurmuşdur. Onların Tacəddin (1988) və Səbinə (1993) adlı övladları var.

## Musayev Hüsü Vəli oğlunun ailəsi

**Musayev Hüsü Vəli oğlu (1932)** – Kəlbəcər rayonunun Günəşli (Kilsəli) kəndindən Musayeva Çəməngül Saleh qızı (1941) ilə evlənmişdir. Onların Xalidə (1961), Adil (1970), Nərminə (1967), Elmira (1968), Nəzakət (1974), Vəsilə (1978), Aqil (1975) və Habil (1980) adlı övladları vardır. O, 2001-ci ildə Bakı şəhərində rəhmətə getmişdir.

**Musayeva Xalidə Hüsü qızı** –subaydır.

**Musayeva Elmira Hüsü qızı (1968)** – Kəlbəcər rayonunun Çıraq kəndindən olan Şahin adlı şəxslə ailə qurmuşdur. Onların İlkin (1993), İmamverdi (1994) adlı övladları vardır.

**Musayeva Nərminə Hüsü qızı (1967)** – Kəlbəcər rayonunun Ağdaban kəndindən olan Fikrət Kamal oğlu ilə ailə qurmuşdur. Onların Xəyal və Röyal adlı övladları vardır.

**Musayeva Vəsilə Hüsü qızı (1978)** – Kəlbəcər rayonunun Zivel kəndindən olan Natiq adlı şəxslə ailə qurmuşdur. Onların Pərviz və Yusif adlı övladları vardır.

## Musayev Adil Hüsü oğlunun ailəsi

**Musayev Adil Hüsü oğlu (1970)** – Kəlbəcər rayonunun İstisu qəsəbəsindən olan Musayeva Arzu Təhməz qızı (1969) ilə ailə qurmuşdur. Onların Zülfiyyə (1993) adlı qızları vardır.

## Musayev Aqil Hüsü oğlunun ailəsi

**Musayev Aqil Hüsü oğlu (1975)** – Kəlbəcər rayonunun Bağləpəyə kəndindən olan Musayeva Mehriban Vaqif qızı ilə evlənmişdir. Onların Səbinə (2004) adlı qızları vardır.

## Musayev Habil Hüsü oğlunun ailəsi

**Musayev Habil Hüsü oğlu (1980)** Bakı şəhərindən Musayeva Aytən Fizuli qızı ilə evlənmişdir. Onların Hüsü (2008) adlı övladları var.

## Musayev Bahadur Vəli oğlunun ailəsi

**Musayev Bahadur Vəli oğlu (1937)** – Kəlbəcər rayonunun Günəşli (Kilsəli) kəndindən olan Musayeva Tovuz Oruc qızı (1945) ilə evlənmişdir. Onların Təranə (1967), Mahir (1968), Səbuhi (1982), Mehriban (1970) və Zaur (1973) adlı övladları vardır. Musayev Bahadur uzun müddət Sumqayıt şəhərində yaşamış və işləmişdir. O, 2006-cı ildə Sumqayıt şəhərində rəhmətə getmiş və Corat kənd qəbiristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin!

**Musayeva Təranə Bahadur qızı (1967)** – Kəlbəcər rayonunun Günəşli kənd sakini Şahin Eldar oğlu (1968) ilə ailə qurmuşdur. Onların Aqşin (1996) adlı övladları vardır.

**Musayeva Mehriban Bahadur qızı (1970)** – əslən İrəvandan olan Mədət adlı şəxslə ailə qurmuşdur. Onların Günay (1992), Şəfiqə (1994) adlı uşaqları vardır.

**Musayev Səbuhi Bahadur oğlu (1982)** – hələ subay ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin!

## Musayev Mahir Bahadur oğlunun ailəsi

**Musayev Mahir Bahadur oğlu (1968)** – həmkəndlisi Musayeva Əsli Zülfi qızı ilə evlənmişdir. Onların birgə nikahlarından Leyla (1997) adlı qızları vardır. Sonradan Mahir Musayev Kəlbəcər rayonunun Günəşli kəndindən Qanboyun qızı Qənifə ilə ailə qurmuşdur. Həmin nikahdan onların Bahadur (2009) adlı övladları vardır.

## Musayev Zaur Bahadur oğlunun ailəsi

**Musayev Zaur Bahadur oğlu (1973)** – Tərtər rayonundan Xatirə adlı şəxslə evlənmişdir. Onların Fəxri (1995), Pəri (1998) adlı uşaqları vardır.

## Əli Hümbət oğlunun ailəsi

**Əli Hümbət oğlu** – Kəlbəcər rayonunun Zülfüqarlı kəndindən Züleyxa adlı şəxslə ailə qurmuşdur. Onların İmamverdi və Allahverdi adlı övladları vardır.

## Hümbətov İmamverdi Əli oğlunun ailəsi

**Hümbətov İmamverdi Əli oğlu (1919)** – Kəlbəcər rayonunun Qaragüney kəndindən Abbas kişinin qızı Növrəstə (1921) adlı şəxslə evlənmişdir. Onların Camal (1940), Ələmdar (1947), Şahin (1960), Əliyəddin (1956) və Almaz (1965) adlı övladları vardır. İmamverdi baba 88 yaşında, 2007-ci ilin oktyabr ayının 10-da məcburi köçkünlük dövründə Bərdə rayonunda rəhmətə getmiş və həmin rayonun Mehdixanlı kənd qəbiristanlığında dəfn edilmişdir. Allah rəhmət eləsin!

**Əliyeva Almaz İmamverdi qızı (1965)** – Kəlbəcər rayonunun Comərd kəndinə Yunusun oğlu Əhədə ərə getmişdir. Onların Həcər və Lətafət adlı övladları vardır.

## Əliyev Camal İmamverdi oğlunun ailəsi

**Əliyev Camal İmamverdi oğlu (1940)** – Kəlbəcər rayonunun Qaragüney kəndindən Əliyeva Gilas (Təzəgül) Muxtar qızı (1949) ilə evlənmişdir. Onların Habil (1972), Sənubər (1969), İradə (1977) və Pərviz (1975) adlı övladları vardır.

## Əliyev Habil Camal oğlunun ailəsi

**Əliyev Habil Camal oğlu** – həmkəndlisi Əliyeva İlhamə Kamil qızı (1987) ilə evlənmişdir. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin!

## Əliyev Pərviz Camal oğlunun ailəsi

**Əliyev Pərviz Camal oğlu (1975)** – Kəlbəcər rayonunun Comərd kənd sakini Əliyeva Aybəniz Binnət qızı (1971) ilə evlənmişdir. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin!

**Əliyeva Sənubər Camal qızı (1970)** – Kəlbəcər rayonunun Qılınclı kənd sakini Atakişiyev Vahid Səfər oğlu (1969) adlı şəxsə ərə getmiişdir. Onların Səxavət (1991), Möhübbət (1992) və Nahid (200) adlı övladları vardır.

## Əliyev Ələmdar İmamverdi oğlunun ailəsi

**Əliyev Ələmdar İmamverdi oğlu (1947)** – Kəlbəcər rayonundan Əntiqə Vəli qızı ilə evlənmişdir. Onların Zaur (1982), İlham (1986), İlhamə (1978) və Dilarə (1980) adlı övladları vardır.

## Əliyev Zaur Ələmdar oğlunun ailəsi

**Əliyev Zaur Ələmdar oğlu (1982)** – həmkəndlisi Əmirova Aygün Ədalət qızı (1988) ilə evlənmişdir. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin!

**Əliyeva İlhamə Ələmdar qızı (1978)** – əmisi oğlu Əliyev Habil Camal oğluna ərə getmişdir (bax Habil Əliyev barəsində olan məlumatlara).

**Əliyeva Dilarə Ələmdar qızı (1980)** – Kəlbəcər rayonunun İstisu qəsəbəsində yaşayan Daşqın Allahverdi oğluna ərə getmişdir. Onların Elvin (2008) adlı övladları vardır.

## Əliyev Əliyəddin İmamverdi oğlunun ailəsi

**Əliyev Əliyəddin İmamverdi oğlu ( 1956)** – Kəlbəcər rayounun Günəşli kəndindən Binnətin qızı Kifayətlə evlənmişdir. Onların Günel, Fizuli və Ruhin adlı övladları vardır.

## Hümbətov Şahin İmamverdi oğlunun ailəsi

**Hümbətov Şahin İmamverdi oğlu (1960)** – Kəlbəcər rayonunun Qaragüney kənd sakini Hümbətova Xurma Mail qızı (1959) ilə evlənmişdir. Onların Sülhanə (1988), Şəhanə (1990) və Orxan (1991) adlı övladları vardır. Övladları, hələ ki, subaydırlar. Allah onlara toy qismət eləsin!



**Kəndimizin camaatı. Ön sırada: (sağdan-sola) Əliyev Ələmdar, Piriyev Piri, Piriyev Dilqəm, Əliyev Cəmal. Arxa sırada: uşaq Əliyev Pərviz, İmamverdi baba, Əliyeva Təzəgül, Əliyeva Almaz, Əliyeva Əntiqə, Əliyeva Növrəstə, Əliyeva Sənubər.**

## Allahverdi Əli oğlunun ailəsi

**Allahverdi Əli oğlu** – həmkəndlisi Məhəmmədəlinin qızı Pəri ilə ailə qurmuşdur. Onların Yadigar, Surxay, Qüdrət, Gülgəz, Bağdad, Səriyyə və Qaratel adlı övladları vardır.

**Məmmədova Qüdrət Allahverdi qızı** – həmkəndlisi Həsənov İdris Məşədi Şəmir oğluna ərə getmişdir (bax İdris Həsənovun ailəsi barədə olan məlumatlara).

**Məmmədova Gülgəz Allahverdi qızı** – həmkəndlisi Əliyev Əsgər Fərhad oğluna ərə getmişdir (bax Əsgər Əliyevin ailəsi barəəd olan məlumatlara).

## Məmmədova Səriyyə Allahverdi qızının ailəsi

**Məmmədova Səriyyə Allahverdi qızı** – Kəlbəcər rayonunun Qılınclı kənd sakini Ağalarov İnqilab Salah oğluna ərə getmişdir. Onlar Tərtər rayonunun Sarov kəndində yaşayırlar. Onların İntiqam və Gülşən adlı övladları vardır.

**Ağalarova Gülşən İnqilab qızı** – xalası oğlu Həsənov Teyyub İdris oğluna ərə getmişdir (bax Teyyub Həsənovun ailəsi barədə olan məlumatlara).

**Ağalarov İntiqam İnqilab oğlu** – isə hələ subaydır. Allah ona da toy qismət eləsin!

## Məmmədova Qaratel Allahverdi qızının ailəsi

**Məmmədova Qaratel Allahverdi qızı** – Kəlbəcər rayonunun Qılınclı kənd sakini İsayev Şirin Hüseyn oğluna ərə getmişdir. Onların Mübariz, Sevda və Sevil adlı uşaqları vardır.

**İsayeva Sevil Şirin qızı** – hələ cavan ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin.

**İsayeva Sevda Şirin qızı** – hələ ki, subaydır. Allah ona da toy qismət eləsin!

**İsayev Mübariz Şirin oğlu** – xalası qızı Həsənova Adilə İdris qızı ilə evlənmişdir.

## Məmmədova Bağdad Allahverdi qızının ailəsi

**Əzizova Bağdad Allahverdi qızı** – Kəlbəcər rayonunun Qaragüney kənd sakini Əzizov Qənəhət Mayıl oğluna ərə getmişdir. Onların Svet (Zeynəb), Sevda, Validə, Süsən, Yasin və Məhəmməd adlı övladları vardır.

**Əzizova Svet (Zeynəb) Qənəhət qızı (1967)** – həmkəndlisi Çıraqov Fuad Yumru oğluna (1966) ərə getmişdir. Onların Pahib (1989) və Günay (1990) adlı övladları vardır.

**Əzizova Sevda (Bahar) Qənəhət qızı (1970)** – dayısı oğlu Məmmədov Hüseyn Yadigar oğluna (1970) ərə getmişdir (bax Hüseyn Məmmədovun ailəsi barədə olan məlumatlara).

**Əzizova Validə Qənəhət qızı** – həmkəndlisi Alışov Əfqan Nəsib oğluna ərə getmişdir. O, hələ cavan ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin!

**Əzizova Süsən Qənəhət qızı** – Kəlbəcər rayonunun Günəşli kənd sakini Bəxtiyar Məhəmməd oğlu adlı şəxsə ərə getmişdir. Onların Əli və Arzu adlı övladları vardır.

**Əzizov Yasin Qənəhət oğlu** – Bərdə rayonundan Aynur adlı şəxslə evlənmişdir. Hələ ki, övladları yoxdur. Allah qismət eləsin!

**Əzizov Məhəmməd Qənəhət oğlu** – Kəlbəcər rayonunun Qamışlı kənd sakini Hədiyyə adlı şəxslə evlənmişdir. Onların Nihad, Günel və Zərtac adlı övladları vardır.

## Mamedov Yadigar Allahverdi oğlunun ailəsi

**Mamedov Yadigar Allahverdi oğlu (1938)** – Kəlbəcər rayonunun Comərd kənd sakini Mamedova Səriyyə Əkbər qızı (1938) ilə evlənmişdir. Onların Təranə (1966), Hüsyen (1970), Elşən (1971), Əli (1977) və Alagöz (1979) adlı övladları vardır. Səriyyə Mamedova 1993-cü ildə Kəlbəcər rayonunun işğalı zamanı öz doğma yurd-yuvasından məcburi köçkün kimi çıxarkən Murov dağında avtomobil qəzası nəticəsində rəhmətə getmişdir. Allah rəhmət eləsin!

**Mamedova Təranə Yadigar qızı (1966)** – həmkəndlisi Xəlilov Rauf Nəbi oğluna ərə

getmişdir (bax Rauf Xəlilovun ailəsi barədə olan məlumatlara).

**Mamedova Alagöz Yadigar qızı (1979)** – Kəlbəcər rayonunun Qılınclı kənd sakini Elçin Ramazan oğluna ərə getmişdir. Onların İlahə və Nihad adlı övladları vardır.

## Mamedov Hüseyn Yadigar oğlunun ailəsi

**Mamedov Hüseyn Yadigar oğlu (1970)** – Kəlbəcər rayo–nunun Qaragüney kənd sakini Mamedova Bahar Qənəhət qızı (1970) ilə evlənmişdir. Onların Rəqsanə (1993), İnam (1998) adlı övladları vardır.

## Mamedov Elşən Yadigar oğlunun ailəsi

**Mamedov Elşən Yadigar oğlu (1971)** – Bərdə rayonunun Mehtixanlı kəndindən Xudiyeva Şəlalə İbrahim qızı ilə evlənmişdir. Onların Ayşən (2001) və Elçin (2004) adlı övladları vardır.

## Mamedov Əli Yadigar oğlunun ailəsi

**Mamedov Əli Yadigar oğlu (1977)** – Laçın rayonunun Qorçu kəndindən Firəngiz adlı şəxslə evlənmişdir. Onların Elvin (2008) adlı övladları vardır.

## Mamedov Surxay Allahverdi oğlunun ailəsi

**Mamedov Surxay Allahverdi oğlu (1941)** – Məmmədova Səmərqə Əvəz qızı (1948) ilə evlənmişdir. Onların Məhparə (1969), Oqtay (1971), Nazim (1973), Çingiz (1976), Ceyhun (1980), Ramil (1983), Seymur (1987) və Cəsur (1990) adlı övladları vardır.

**Mamedova Məhparə Surxay qızı (1969)** – həmkəndlisi Abbasov İzzət Məhəmməd oğluna ərə getmişdir (bax İzzət Abbasovun ailəsi barədə olan məlumatlara).

## Mamedov Nazim Surxay oğlunun ailəsi

**Mamedov Nazim Surxay oğlu (1973)** – Məmmədova Brilliant Rza qızı (1971) ilə evlənmişdir. Onların Röyal (1995), Göygöl (1997), Şəhanə (2000) və Xəyal (2008) adlı övladları vardır.

## Mamedov Çingiz Surxay oğlunun ailəsi

**Mamedov Çingiz Surxay oğlu (1976)** – Mamedova Vəsilə Qəhrəman qızı (1974) ilə evlənmişdir. Onların Bayram (1999), Elvin (2003) adlı övladları vardır.

## Mamedov Ceyhun Surxay oğlunun ailəsi

**Mamedov Ceyhun Surxay oğlu (1980)** – Mamedova Pərvanə Nurəddin qızı (1984) ilə evlənmişdir. Onların Emin (2007) adlı övladları vardır.

## Mamedov Ramil Surxay oğlunun ailəsi

**Mamedov Ramil Surxay oğlu (1983)** – həmkəndlisi Mamedova Nahidə Nəbi qızı (1982) ilə evlənmişdir. Onların Samir (2006) adlı övladları vardır.

## Mamedov Seymur Surxay oğlunun ailəsi

**Mamedov Seymur Surxay oğlu (1976)** və **Mamedov Cəsur Surxay oğ–lu (1990) –** hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

## Mamedov Oqtay Surxay oğlunun ailəsi

**Mamedov Oqtay Surxay oğlu (1971)** – Kəlbəcər rayonunun Günəşli kənd sakini Mamedova Gülgəz Balaca qızı ilə evlənmişdir. Onların Dağbəyi (1993) adlı övladları vardır. Oqtay Mamedov Qarabağ uğrunda gedən döyüşlər zamanı Laçın rayonunun Xocaz yüksəkliyində qəhrəmancasına şəhid olmuşdur. Allah rəhmət eləsin!

# III FƏSİL

**Respublikamızın digər bölgələrindən Nəcəfalılar kəndinə gələrək ailə quran şəxslər və onların ailələri barədə məlumatlar**



## Kazımov Möylamın ailəsi

**Kazımov Möylam** – əslən Qubadlı rayonundandır. O, Nəcəfalılar kənd sakini Kazımova (Əliyeva) Zərnigar Mehti qızı ilə evlənmiş və onlar həmin kənddə yaşamışlar. Möylam Kazımov Nəcəfalılar kəndinin ilk müəllimlərindəndir. Onların nikahlarından Sehran, İmran, Əntiqə, Reyhan və Qəhrəman adlı övladları vardır.

**Musayeva Sehran Möylam qızı** Nəcəfalılarda anadan olmuşdur. O, öz həmkəndlisi Musayev Zülfü Vəli oğlu ilə ailə həyatı qurmuşdur. Sehran Musayeva məcburi köçkünlük dövründən sonra Bakı şəhərində rəhmətə getmişdir (digər məlumatları barədə bax – Musayev Zülfü Vəli oğlu haqqında olan məlumatlara).

**Kazımova Əntiqə Möylam qızı** – Qubadlı rayonuna ərə getmişdir.

**Kazımova Reyhan** – öz həmkəndlisi Xəlilov Əhməd Dadaş oğlu ilə ailə qurmuşdur. Onlar Kəlbəcər rayonunda yaşamışlar.

## Kazımov İmran Möylam oğlunun ailəsi

**Kazımov İmran Möylam oğlu (1941)** – öz həmkəndlisi Əliyeva Şakirə Misir qızı (1942) ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından Umudvar (1962), Namiq (1977), Faiq (1980), Süsən (1967), Tahirə (1971), Qəndab (1974), Sahilə (1982) adlı övladları vardır. Ailəsi hal-hazırda Tərtər rayonunun Qaradağlı kəndində məskunlaşmışdır. Kazımov İmran 1994 -cü ildə Tər-tər rayonunda rəhmətə getmişdir. Kazımova Şakirə hazırda ailəsi ilə birlikdə Tərtər rayonunun Qaradağlı kəndində məskunlaşmışdır.

## Kazımov Umudvar İmran oğlunun ailəsi

**Kazımov Umudvar İmran oğlu** – əslən Kəlbəcər rayonunun İstibulaq kəndindən olan Kazımova Sənəm Eyvaz qızı ailə həyatı qurmuşdur. Birgə nikahlarından 1986-cı ildə oğlu Həsrət, 1988-ci ildə oğlu Məqsəd, 1992-ci ildə oğlu Qalib, 1995-ci ildə qızı Fəxriyyə (Ülviyyə, 1995) adlı uşaqları olmuşdur. Ümudvar 1996-cı ildə rəhmətə getmişdir. Allah rəhmət eləsin. Onun ailəsi hal-hazırda Göygöl rayonunda məskunlaşmışlar.

## Kazımov Namiq İmran oğlunun ailəsi

**Kazımov Namiq İmran oğlu – 1977**-ci ildə Nəcəfalılardan anadan olmuşdur. O, əslən Qubadlı rayonundan olan Kazımova Sənubər Səttar qızı (1981) ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından 1999-cu ildə oğlu Səttar, 2001-ci ildə isə qızı Şəbnəm anadan olmuşlar. Hal-hazırda Tərtər rayonunun Qaradağlı kəndində məskunlaşmışdır.

## Kazımov Faiq İmran oğlunun ailəsi

**Kazımov Faiq İmran oğlu (1980)** – həmkəndlisi Abbasova Qətibə Rasim qızı ilə evlənmişdir. Onların Rəsmiyyə (2009) adlı övladları vardır.

**Kazımova Süsən İmran qızı (1967)** – həmkəndlisi Xəlilov Bəşir Əhməd oğluna ərə getmişdir. Onların Azad, Əhməd və Ayşən adlı övladları vardır.

**Kazımova Sahilə İmran qızı (1982)** – Qubadlı rayonundan yaxın qohumu Gündüz Səttar oğluna ərə getmişdir. Onların Əntiqə və Sərvan adlı övladları vardır.

**Kazımova Tahirə (1971) və Kazımova Qəndab (1974) –** hələ ki, subaydırlar . Onlar hal-hazırda Tərtər rayonunun Qaradağlı kəndində məskunlaşmışlar. Allah onlara da toy qismət eləsin!

## Kazımov Qəhrəman Möylam oğlunun ailəsi

**Kazımov Qəhrəman Möylam oğlu 1950**-ci ildə Nəcəfalılıar kəndində anadan olmuşdur. O, Qubadlıdan olan qohumu Kazımova Gülər Mustafa qızı (1954) ilə ailə həyatı qurmuşdur. Birgə nikahlarından Elsevər (1983), Qiyas (1977), Əfqan (1975), Səliqə (1973), Qəribə (1972) və Xatirə (1981) adlı övladları vardır. Onlar hal-hazırda Yevlax rayonunun Qaramanlı kəndində məskunlaşmışlar. Oğlu Kazımov Elsevər subaydır.

## Kazımov Qiyas Qəhrəman oğlunun ailəsi

**Kazımov Qiyas Qəhrəman oğlu** – Kəlbəcər rayonunun Ağdaban kəndindən Kazımova Bahar Hüseyn qızı ilə (1986) evlənmişdir. Vüqar (2006) və İlqar (2008) adlı övladları var.

## Kazımov Əfqan Qəhrəman oğlunun ailəsi

**Kazımov Əfqan Qəhrəman oğlu** – Qubadlıdan Kazımova Gülnarə Səttar qızı (1976) ilə evlənmişdir. Türkan (1999), Tünzalə (2000) və Qəhrəman (2003) adlı övladları var.

**Kazımova Səliqə Qəhrəman qızı (1973)** – Ağdam rayonundan Əfqan Umud oğlu ilə ailə qurmuşdur. Onların Şərqiyyə və Şəmsiyyə adlı övladları vardır.

**Kazımova Qəribə Qəhrəman qızı (1971)** – Kəlbəcər rayonunun Milli kəndindən Haqverdi Vəli oğluna ərə getmişdir. Onların Sevinc adlı övladları vardır.

**Kazımova Xatirə Qəhrəman qızı (1981)** – Tərtər rayonunun Kəngərli kəndinə Tapdıqov Tapdıq Akif oğluna ərə getmişdir. Onların Zeynəb və Təhminə adlı övladları varıdr.

**Kazımov Elsevər Qəhrəman oğlu (1983)** – hələ ki, subaydır. Allah ona da toy qismət eləsin!

## Abasov Əhmədin ailəsi

**Abbasov Əhməd** – əslən Quba rayonundandır. O, Nəcəfalılar kənd sakini Abbasova Asiya İmamalı qızı ilə evlənmiş və həmin kənddə yaşamışlar. Onların Məhəmməd, Yusif adlı övladları vardır.

## Abbasov Məhəmməd Əhməd oğlunun ailəsi

**Abbasov Məhəmməd Əhməd oğlu** – həmkəndlisi Abbasova Xədicə Misir qızı ilə evlənmişdir. Onların Zilfirman, İzzət və Rasim adlı övladları vardır.

## Abbasov Zilfirman Məhəmməd oğlunun ailəsi

**Abbasov Zilfirman Məhəmməd oğlu (1955)** – həmkəndlisi Abbasova (Əliyeva) Sərəngiz Salah qızı (1959) ilə evlənmişdir. Onların Gündüz (1979), Amin (1982), Könül (1984), Elməddin (1985) və Mətanət (1988) adlı övladları vardır.

## Abbasov Gündüz Zilfirman oğlunun ailəsi

**Abbasov Gündüz Zilfirman oğlu (1979)** – Kəlbəcər rayon sakini İsmayılova Sevinc Kamil qızı (1983) ilə evlənmişdir. Onların Vüsal (2003), Günay (2005) adlı övladları vardır.

## Abbasov Amin Zilfirman oğlunun ailəsi

**Abbasov Amin Zilfirman oğlu (1982)** – Abbasova Könül Xanlar qızı (1984) ilə evlənmişdir.

**Abbasov Elməddin Zilfirman oğlu (1985) və Abbasova Mətanət Zilfirman qızı (1988)** hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

## Abbasov Nemət Məhəmməd oğlunun ailəsi

**Abbasov Nemət Məhəmməd oğlu (1962)** – həmkəndlisi Əliyeva Validə Fərzalı qızı ilə evlənmişdir. Onların birgə nigahlarından Naibə (1986), Hüseyn (1999), Aynur (2001) adlı övladları vardır.

Abbasova Naibə Nemət qızı həmkəndlisi İskəndərov Nizami İbrahim oğlu ilə ailə qurmuşdur. (bax Nizami İskəndərovun ailəsi barədə olan məlumatlara)

## Abbasov İzzət Məhəmməd oğlunun ailəsi

**Abbasov İzzət Məhəmməd oğlu (1964)** – həmkəndlisi Abbasova Mehparə Surxay qızı (1969) ilə evlənmişdir. Onların Şirzad (1989), Eldəniz (1990), Rübai (1991) adlı övladları vardır.

## Abbasov Rasim Məhəmməd oğlunun ailəsi

**Abbasov Rasim Məhəmməd oğlu (1966)** – həmkəndlisi Abbasova Süsən Yusif qızı ilə evlənmişdir. Onların Məhəmməd (1988), Qətibə (1991) və Lətifə (1994) adlı övladları vardır.

## Abbasov Yusif Əhməd oğlunun ailəsi

**Abbasov Yusif Əhməd oğlu** – həmkəndlisi Abbasova Çiçək Fərhad qızı (1924) ilə evlənmişdir. Onların Banu (Quba) və Diləfruz adlı övladları vardır.

**Abbasova Banu (Quba) Yusif qızı** –subaydır.

## Abbasova Diləfruz Yusif qızının ailəsi

**Abbasova Diləfruz Yusif qızı (1953)** – Kəlbəcər rayonunun Sarıdaş kənd sakini İsgəndərov İbrahimə ərə getmişdir. Onların Cəbi (1978), Nizami (1979), Zamin (1981), Elmir (1983) və Elnarə adlı övladları vardır.

**Abbasova Elnarə İbrahim qızı** – Kəlbəcər rayonunun Dal–qılınclı kəndinə Ziyəddin Əliş oğluna ərə getmişdir. Onların Turanə və Aqşin adlı övladları vardır.

## İsgəndərov Cəbi İbrahim oğlunun ailəsi

**İsgəndərov Cəbi İbrahim oğlu (1978)** – İsgəndərova Samirə Faiq qızı ilə evlənmişdir. Onların Aytac (2005), Ayşən (2006) adlı övladları vardır.

## İsgəndərov Nizami İbrahim oğlunun ailəsi

**İsgəndərov Nizami İbrahim oğlu (1979)** – Kəlbəcər rayonunun Nəcəfalılar kənd sakini İsgəndərova Naibə Nemət qızı ilə evlənmişdir. Onların Nihad (2008) adlı övladları vardır.

**İsgəndərov Zamin və Elmir** qardaşları isə hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

## Mamedov Salmanın ailəsi

**Mamedov Salman Sərxan oğlu** – əslən İrəvan mahalının Zəngəzur bölgəsindəndir. O, Nəcəfalılar kənd sakini Məmmədova Tuyğun İmamalı qızı ilə evlənmiş və Nəcəfalılar kəndində yaşamışlar. Onların Elman, Telman, Sima və Zabilə adlı övladları vardır.

**Əliyeva Sima Salman qızı** – həmkəndlisi Əliyev SAlman Mehti oğluna ərə getmişdir (bax Salman Əliyevin ailəsi barədə olan məlumatlara).

**Həsənova Zabilə Salman qızı** – həmkəndlisi Həsənov Köçəri Ələs oğluna ərə getmişdir (bax Köçəri Həsənovun ailəsi barədə olan məlumatlara).

## Mamedov Telman Salman oğlunun ailəsi

**Mamedov Telman Salman oğlu (1936)**–həmkəndlisi Məmmədova (Abbasova) Rəfiqə Muxtar qızı ilə evlənmişdir. Onların Zöhrab (1961), Sevda (1963), Elza (1966) və Elnarə (1970) adlı övladları vardır. Telman Mamedov 2005-ci ildə Bakı şəhərində rəhmətə getmişdir.

## Mamedov Zöhrab Telman oğlunun ailəsi

**Mamedov Zöhrab Telman oğlu (1961)** – əslən İrəvan mahalından olan Həsənova Zərifə Tofiq qızı ilə evlənmişdir. Onların Zeynəb (1984) adlı övladları vardır.

**Mamedova Sevda Telman qızı (1963)** – əslən Lənkəran rayonundan olan Salayev Sərdar Eyyub oğlu ilə ailə qurmuşdur. Onların Səkinə (1986) adlı övladları vardır.

**Mamedova Elza Telman qızı (1966)** – Bakı şəhərindən Səmədov Kamil Müzəffər oğlu adlı şəxslə ailə qurmuşdur. Onların Səinə (1986) adlı övladları vardır.

**Mamedova Elnarə Telman qızı (1970)** – Bakı şəhərindən Bədəlov Ceyhun Salman oğlu adlı şəxslə ailə qurmuşdur. Onların Telman (1994) və Elman (1996) adlı övladları vardır.

## Mamedov Elman Salman oğlunun ailəsi

**Mamedov Elman Salman oğlu (1937)** – həmkəndlisi Məmmədova Səadət Rəhim qızı (1939) ilə evlənmişdir. Onların Əli (1962), Nətavan (1965), Şəhla (1967), Nəbati (1969), Elşad (1972) adlı övladları vardır. Elman Məmmədov 1987-ci ildə Nəcəfalılar kəndində rəhmətə getmiş və kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Mamedova Nətavan Elman qızı (1965)** – Yevlax rayonunun Malbinəsi kəndindən İsmayılov Vilayət Qədir oğluna (1956) ərə getmişdir. Onların Lamiyə (1986), Türkan (1990) adlı övladları vardır.

**Mamedova Şəhla Elman qızı (1967)** – həmkəndlisi Əliyev Natiq Şura oğluna ərə getmişdir (bax Natiq Əliyevin ailəsi barədə olan məlumatlara).

**Mamedova Nəbati Elman qızı (1969)** – həmkəndlisi Piriyev Arzuman Yusif oğluna ərə getmişdir (bax Arzuman Piriyev barəsində olan məlumatlara).

## Mamedov Əli Elman oğlunun ailəsi

**Mamedov Əli Elman oğlu (1962)** – Kəlbəcər rayonunun Qaragüney kənd sakini Mamedova Nəzakət İbrahim qızı (1972) ilə evlənmişdir. Onların Cavid (1993), Təhminə (1995) adlı övladları vardır.

## Mamedov Elşad Elman oğlunun ailəsi

**Mamedov Elşad Elman oğlu (1972)** – Məmmədova Aidə Mürsəl qızı (1972) ilə evlənmişdir. Onların Rəşad (1997), Zaur (1999) adlı övladları vardır.

## İrandən gəlmiş İbrahimin ailəsi

**İbrahim kişi** – əslən İranlıdır. O, Nəcəfalılar kəndinə gələrək, kəndin Alçalı binə adlanan yerində yaşamışdır. Təəssüflər olsun ki, onun həyat yoldaşı barədə məlumat əldə edə bilməmişik. İbrahim kişinin Xəlil, İmran və Rza adlı övladları vardır.

**İmran və Rza** qardaşları Kəlbəcər rayonunun Comərd kəndində, Xəlil İbrahim oğlu isə Nəcəfalılar kəndində yaşamışdır.

## Xəlil İbrahim oğlunun ailəsi

**Xəlil İbrahim oğlu** – Giləxanım adlı şəxslə evlənmişdir. Onların İslam, Dadaş, İsmayıl, Gülü və Hilal adlı övladları vardır.

**İsmayıl Xəlil oğlu** – hələ cavan yaşlarında subay rəhmətə getmişdir. Allah rəhmət eləsin!

**Gülü Xəlil qızı** – Kəlbəcər rayonunun Nadirxanlı kənd sakini Əbdülrəhman adlı şəxsə ərə getmişdir. Onların, Hümbət, Minəvvər, Süca, Ağca və Binnət adlı övladları vardır.

**Hilal Xəlil qızı** – həmkəndlisi İsmayıl Qədir oğluna ərə getmişdir (bax İsmayıl Qədir oğlunun ailəsi barədə olan məlumatlara).

## İbrahimov İslam Xəlil oğlunun ailəsi

**İbrahimov İslam Xəlil oğlu (1907)** – əvvəlcə Qarabağdan Sona adlı şəxslə evlənmişdir. Uzun illər keçməsinə baxmayaraq, onların uşağı olmadığından İslam kişi sonradan Kəlbəcər rayonunun Baş Şurtan kəndindən İbrahimova Saray Mirzəli qızı (1920) adlı şəxslə evlənmişdir. Onların Validə (1955), Zöhrə (1957), Surxay (1960), Mahirə (1964) və Malik (1968) adlı övladları vardır.

**İbrahimova Validə İslam qızı (1955)** – Kəlbəcər rayonundan Fərrux adlı şəxsə ərə getmişdir.

**İbrahimova Zöhrə İslam qızı (1957)** – Kəlbəcər rayonuna Hüseyn adlı şəxsə ərə getmişdir.

**İbrahimova Mahirə İslam qızı (1964)** – Kəlbəcər rayonuna Məcid adlı şəxsə ərə getmişdir. O, cavan ikən rəhmətə getmişdir. Allah rəhmət eləsin!

## İbrahimov Surxay (Əlövsət) İslam oğlunun ailəsi

**İbrahimov Surxay (Əlövsət) İslam oğlu (1960)** – Kəlbəcər rayonunun Şurtan kəndindən olan İbrahimova Gülzar Həsən qızı (1957) ilə evlənmişdir. Onların birgə nikahlarından Səkinə (1984), Sərxan (1986), Elxan (1990) adlı uşaqları var.

## Sərxan Surxay oğlunun ailəsi

**Sərxan Surxay oğlu** – Kəlbəcər rayonunun Tövlə dərəsindən Ulduza İbrahim qızı ilə evlənmişdir.

**Səkinə Surxay qızı** – Kəlbəcər rayonunun Zülfüqarlı kəndinə Fizuli adlı şəxsə ərə getmişdir.

## İbrahimov Malik İslam oğlunun ailəsi

**İbrahimov Malik İslam oğlu (1968)** – Kəlbəcər rayonunun Qılınclı kəndindən İbrahimova Sevil Qərib qızı (1971) ilə ailə qurmuşdur. Onların birgə nikahlarından Qalib (1992), Habil (1995) adlı uşaqları var. Onlar hal-hazırda Yevlax rayonunun Hacımahmudlu kəndində məskunlaşmışlar.

## Dadaş Xəlil oğlunun ailəsi

**Dadaş Xəlil oğlu** – Fatimə adlı şəxslə evlənmişdir. Onunla birgə nikahlarından Nəbi və Əhməd adlı övladları olmuşdur. Dadaş Xəlil oğlu sonradan həmkəndlisi Ülkər Qədir qızı ilə evlənmişdir. Onunla nikahlarından isə Şahnigar adlı qızı olmuşdur. Dadaş Xəlil oğlu rəhmətə getdikdən sonra Ülkər həmkəndlisi Novruz Mehti oğluna ərə getmişdir.

**Xəlilova Şahnigar Dadaş qızı (1938)** – subaydır, hal-hazırda Yevlax rayonunun Kövər kəndində məskunlaşmışdır.

## Xəlilov Nəbi Dadaş oğlunun ailəsi

**Xəlilov Nəbi Dadaş oğlu (1934)** – əslən Bakı şəhərindən olan Xəlilova Gülarə Məhərrəm qızı (1957) ilə evlənmişdir. Onların Rəhilə, Rauf, Cəmilə, Yeganə, Əsli və Ülfət adlı övladları vardır. Nəbi Xəlilov sonradan Kəlbəcər rayonunun Geştək kəndindən Xəlilova Minayə Abbasəli qızı (1947) ilə evlənmişdir. Onunla birgə nikahlarından isə Nahidə (1982) adlı övladları olmuşdur.

**Xəlilova Rəhilə Nəbi qızı (1959)** – Gəncə şəhərinə Fəxrəddin adlı şəxsə ərə getmişdir. Onların Arzu (1986) adlı övladları var.

**Xəlilova Cəmilə Nəbi qızı (1966)** – hələ ki, subaydır.

**Xəlilova Yeganə Nəbi qızı (1968)** – Kəlbəcər rayonunun Qılınclı kəndinə Əliyəddin adlı şəxsə ərə getmişdir. Onların Tünzalə, Babək və Türkan adlı övladları vardır.

**Xəlilova Əsli Nəbi qızı (1972)** – əslən Laçın rayonundan olan Karrar adlı şəxsə ərə getmişdir. Onların Mətanət və Amid adlı övladları vardır.

**Xəlilova Ülfət Nəbi qızı (1976)** – Göyçə mahalından olan Eldəniz adlı şəxsə ərə getmişdir. Onların Elman və Fidan adlı övladları vardır.

**Xəlilova Nahidə Nəbi qızı (1982)** – həmkəndlisi Mamedov Ramil Surxay oğluna ərə getmişdir (bax Ramil Mamedovun ailəsi barədə olan məlumatlara).

## Xəlilov Rauf Nəbi oğlunun ailəsi

**Xəlilov Rauf Nəbi oğlu (1963)** – Mamedova Təranə Yadigar qızı (1966) ilə evlənmişdir. Onların Xəyalə (1989), Qətibə (1991), Pərvanə (1993), İnci (1995) və Nəbi (1998) adlı övladları vardır.

## Xəlilov Əhməd Dadaş oğlunun ailəsi

**Xəlilov Əhməd Dadaş oğlu** – həmkəndlisi Minayə Heydər qızı ilə evlənmişdir. Onunla birgə nikahlarından Rizvan, Zakir və Şəfiqə adlı övladları vardır. Sonradan Xəlilov Əhməd həmkəndlisi Reyhan Möylam qızı ilə evlənmişdir. Bu nikahdan isə onların Bəkir, Azadə və Nəsibə adlı övladları olmuşdur. Əhməd Xəlilov Kəlbəcər rayonuna köçərək orada yaşamışdır.

## Abbasov Bahadur Həbib oğlunun ailəsi

**Abbasov Bahadur Həbib oğlu (1929)** – əslən Kəlbəcər rayonunun Mozqaraçanlı kəndindəndir. O, Nəcəfalılar kənd sakini Abbasova Balış Qaçay qızı (1935) ilə evlənmişdir. Onlar bir müddət İstisu qəsəbəsində yaşasmış, sonradan köçərək Nəcəfalılar kəndinə gəlmiş və orada yaşamışlar. Onların Zöhrə (1954), Əli (1956), Xanım (1960), Ramiz (1962), Zümrüd (1964), Səltənət (1966), İlqar (1968) və Xəzangül (1972) adlı övladları vardır.

**Abbasova Zöhrə Bahadur qızı (1954)** – Kəlbəcər rayonunun Güneypəyə kəndinə Eyvazov Vaqif Əli oğlu adlı şəxsə ərə getmişdir. Onların Vaqif, Azər, Azad, Dilsuz və Fərhad adlı övladları vardır.

**Abbasova Xanım Bahadur qızı (1960)** – Kəlbəcər rayonuna Şahbazov Hümbət Məhəmməd oğluna ərə getmişdir. Onların Həsən, Dilbər, Elmdar adlı övladları vardır.

**Abbasova Zümrüd Bahadur qızı (1964)** – Kəlbəcər rayonunun Qaragüney kənd sakini Rəcəbov Sahib Zülü oğlu ilə ailə qurmuşdur. Onların Əfsanə (1989) və Zamin (1994) adlı övladları vardır. Rəcəbov Sahib Zülü oğlu 2002–ci ildə rəhmətə getmişdir.

**Abbasova Səltənət Bahadur qızı (1966)** – həmkəndlisi Əliyev Əlzəman Salman oğluna ərə getmişdir (bax Əlzəman Salman oğlunun ailəsi barədə olan məlumatlara).

**Abbasova Xəzangül Bahadur qızı (1972)** – Kəlbəcər rayonuna Şahbazov Əhməd Məhəmməd oğluna ərə getmişdir. Onların Məhəmməd, Fərqanə və Asiman adlı övladları vardır.

## Abbasov Əli Bahadur oğlunun ailəsi

**Abbasov Əli Bahadur oğlu (1956)** – əslən Kəlbəcər rayonundan olan və Nəcəfalılar kənd orta məktəbində müəllimə işləyən İsmayılova Leyli Bəhman qızı ilə evlənmişdir. Onların Emin (1979), Mehriban (1981), Elnur (1986), Sevinc (1987) adlı övladları vardır.

## Abbasov Emin Əli oğlunun ailəsi

**Abbasov Emin Əli oğlu (1979)** - Əhmədova Pərvin Baxış qızı (1986) ilə evlənmişdir. Onların Ayxan (2006) adlı övladları vardır.

Abbasov Əlinin digər övladları isə hələ ki, subaydırlar. Allah onlara da toy qismət eləsin!

## Abbasov Ramiz Bahadur oğlunun ailəsi

**Abbasov Ramiz Bahadur oğlu (1962)** – Kəlbəcər rayonunun Qılınclı kəndindən Sayalı Həsənova ilə evlənmişdir. Onların Teymur, Tofiq və Rəhman adlı övladları vardır.

## Abbasov İlqar Bahadur oğlunun ailəsi

**Abbasov İlqar Bahadur oğlu (1968)** – həmkəndlisi Abbasova Validə (Hamar) Həmzə qızı (1970) ilə evlənmişdir. Onların Ayşən (1993) və Rüstəm (1995) adlı övladları vardır.

## EPİLOQ ƏVƏZİ

Dəfələrlə şahidi olduğumuz bir el inancı var: ölüm ayağında olan şəxs ürəyi istədiyi adam gəlməyincə canını tapşırmır. Bəzən də həmin adam uzaqda olduğu üçün və yaxud da rəhmətə getdiyindən onun şəklini can verənin sinəsinin üstünə qoyurlar ki, o, canını asan tapşırsın.

Nədənsə, bizdə belə bir əminlik var ki, o yerləri görməyincə ölməyəcəyik. Demək, dogma yurdu görmək səadəti bizə də qismət olacaqdır.

Deyirlər ki, insan səhvsiz olmur. Çoxları kimi biz də həyatda səhvsiz yaşamaq arzusundayıq. Ancaq, qəribədir, bu kitabı yazarkən biz bir səhvə yol vermək arzusunda olmuşuq ki, bunu da sizə etiraf edirik; doğma yurdumuz, elimiz, onun adət-ənənələri haqqında kitab yazmaq olduqca çətin olduğundan, biz son dərəcə diqqətli və məsuliyyətli olmağa çalışmışıq. Lakin, buna baxmayaraq, cənnətməkan Nəcəfalıların füsunkar təbiətinin təsvirində, saysız-hesabsız yurd, bulaq və yer adlarında yəqin ki, biz hansısa unutqanlığa yol vermişik. Arzumuz budur ki, elimiz yenidən öz yurduna qayıtsın və o yerləri qarış-qarış gəzib dolandıqca bizim unudaraq bu kitaba daxil etmədiyimiz həmin yerlərin adlarını yada salıb bizi qınasınlar ki, bax bu adları müəlliflər unudaraq kitablarına daxil etməmişlər. Biz isə öz növbəmizdə həmin unutqanlığımızı kitabımızın növbəti nəşrlərində düzəltməyi arzulayırıq.

Yəqin ki, 17 illik zaman fasiləsinin və kəşməkəşli həyat tərzinin təsiri altında zəifləyən yaddaşımızın səhvini Siz də o zaman bağışlayarsınız.

Amin!

## ƏDƏBİYYAT

1. Bolşaya Sovetskaya Ensiklopediya
2. İ. Nadirov. Tarixə qarışan illərim. Bakı 1998
3. Z. Bünyadov. Azərbaycan Atabəyləri dövləti.
4. Kəlbəcər rayonun işğalı ilə əlaqədar statistik toplu. Gəncə
5. A.S.Sumbatzadə. Azerbaycantsı etnoqenez Formirovanie narodov. Bakı, Elm, 1990.
6. Bəxtiyar Vahabzadə. Gəlin acıq danışaq. Bakı, 1998.
7. Xalq təbabətinin izi ilə. Nəsib Göyüşov. Bakı, 1986.
8. Kəlbəcər. Azərbaycanın qala qapısı. Bakı- 2001
9. Dağların sinə dağı. Məhəmməd Nərimanoğlu. Bakı. 1994
10. Kəlbəcər dünyası A. Cəmil, M.Nərimanoğlu. Bakı, 2005
11. Kəlbəcərin qəm dastanı, viran olan gülüstanı. Ş.Dəlidağ. Bakı, 1998.
12. Həzrət Əli (ə) və Azərbaycan – Axund Hacı Sultan Hüseynqulu oğlu Əlizadə. Bakı, «Ozan», 2006.

### Qəzetlər

13. Yenilik, 17 aprel 1966.
14. Neft daşları, 22 oktyabr 1968.
15. Neft daşları, 17 fevral 1970.
16. Vışka, 17 fevral 1978.
17. Neftyanıye kamni, 13 mart 1990.
18. Bakinski raboçi, 28 fevral 1990.
19. Kəlbəcər harayı, 16-31 oktyabr 2008.
20. Kəlbəcər harayı, 16-31 yanvar 2009.
21. Kəlbəcər harayı, 17-31 mart 2009.

## MÜNDƏRİCAT

Seyid Yusif Ağanın xeyir duası ilə..........................................3
Çiçəkli yurdun o biri üzü.......................................................5
Gözəl insanların dəyərli yurdu haqqında kitab.........................7
Yurd həsrəti ............................................................................9
Həsrət yüklü ömür karvanının ümid axtarışları.........................11

I HİSSƏ
**NƏCƏFALILARA GEDƏN YOL**...............................................13

**I FƏSİL**
**Tariximizə səyahət**
Fırtınalarda keçən ömür..........................................................17
Bax, bunlardan yazmalıyıq!......................................................20

**II FƏSİL**
**Qədim yurdun tarixçəsi**
Azərbaycanın zümrüd qaşı – Kəlbəcər.....................................24
Kəlbəcərin iqtisadi – coğrafi mövqeyi........................................26
Kəlbəcərin bölgələri.................................................................27
Kəlbəcərin flora və faunası.......................................................30
Dağların möcüzəsi – İstisu.........................................................34
Kəlbəcər tarix-diyarşünaslıq muzeyi..........................................36

**III FƏSİL**
**Kəlbəcərin ziyalıları**
Şamil Əsgərov..........................................................................41
Cəfər Əhmədov.........................................................................43
Sazla sözün tilsimində..............................................................47
Kəlbəcər şairləri.......................................................................50

**IV FƏSİL**

**Nəcəfalılar kəndi**

Kəndimizə gedən yol…..............................................59
Kəndimizin tarixi…..............................................…........64
Kəndimizin coğrafi mövqeyi..............................................67
Kəndimizlə həmsərhəd kəndlər..…......................................68
**Nəcəfalıların florası və faunası**
Nəcəfalıların florası...............................................................69
Loğman təbiətli kəndim..................................................……71
Nəcəfalıların faunası…..........................................................…75
**Toponimlər**……….........................................................……79
**Əhalisi**...................................................................................81
Kəndin əhalisinin məskunlaşdığı rayonlar…...................……83
Əhalinin məşğuliyyəti.......................................................….86

**V FƏSİL**

**Əsrlərdən qalan miras**

Adət və ənənlərimiz...............................................................95
Elimizin bayramları və mərasimləri…........................106

**VI FƏSİL**

**Dağlı-aranlı kəndimiz**

Unudulmayan kənd həyatı.................................................117
Kolxoz quruculuğu…..........................................................122

**VII FƏSİL**

**Biz kimlərdən dərs almışıq**

Məktəb illəri.........................................................................127
Tağıyev Nüsrət Şəfaət oğlu…...........................................…130
Əliyev Aydın Baxşəli oğlu.....................................………132
İbrahimov Məhəbbət Rəhim oğlu….….......................……134
Həsənov Hüseyn Ələs oğlu…......................................….136
İsmayılova Səmayə İsmayıl qızı….…................................137
İsmayılova Leyli Bəhmən qızı.........................................…138
Tağıyev Ziyafət Şəfaət oğlu...........................................139
Musayev Ramiz Zülfü oğlu……….............................140
Çıraqov Novruz Qafar oğlu.................................141

Əliyev Ələmdar İmamverdi oğlu.................……143
Piriyev Sabir Əli oğlu…........................................144
Piriyev Sahib Əli oğlu…........................................……145
Hümbətov Şahin İmamverdi oğlu…................…........…..146
Əmirov Ədalət Həmzə oğlu......…...............................147
Piriyeva Almaz İsa qızı............................…………148
Əzimov İslam Seyidməhəmməd oğlu…......................149
İbrahimov Nizami Aslan oğlu...............................……..151
ƏfəndiyevMayilMayisoğlu….............................………153
Abbasov Əli Bahadır oğlu…......…..............................…154

## VIII FƏSİL

### Kəndimizin uzunömürlüləri

Uzun ömürlülər məskəninə Xoş gəlmisiniz!.......................157
Məşədi Pir Məhəmməd baba….........................................158
Həmidova Mələk Məşədi Pir Məhəmməd qızı...............…160
Hümbətova Pəri Məhəmmədəli qızı…...............................162
Namazov Süleyman Məhəmməd oğlu…...........………..163
Hümbətov İmamverdi Əli oğlu……..................................165
Şəmilov Ələs Həsən oğlu..............................................……166
Əliyev Əlabbas Hümbətalı oğlu…..................................……167
Əliyev Səfər Baxşəli oğlu……...................................……..168
Əliyeva Zöhrə Zeynal qızı…..........................………..169
Həmidova Savad Şahmar qızı…....................................……170
Əliyev Novruz Mehdi oğlu….........................................………172
Piriyev Əli Zeynal oğlu.........................................…………173
Abbasov Bahadır Həbib oğlu...........................................………176
Piriyev İsa Əlif oğlu…..................................................177
İbrahimov Abbas Rəhim oğlu...........................………179
Həmidov İbrahim Şahmar oğlu……..............................……180
Həmidov Məhəmməd Şahmar oğlu …...............………182
Əliyeva Mənzər Baxşəli qızı...........................………183

## IX FƏSİL

### Biz sizdən öyrənirik

Musayev Umud Vəli oğlu…..............................187
Abbasov Muxtar Şükür oğlu..................……190

Musayev Pənah Vəli oğlu.............................191
Abbasov Heydər Şükür oğlu.....................................193
Məmmədov Telman Salman oğlu...........................194
Piriyev Musa Əlif oğlu...................................................196
Piriyev Yusif Məhəmmədəli oğlu.......................................197
Əliyev Şura Baxşalı oğlu..................................................198
Piriyev Piri Abbasəli oğlu.................................................200

**X FƏSİL**

**Ulu nəslin güvəncli gələcəyi**

Musayev Nizami Pənah oğlu...........................................203
Abbasov Hicran Asif oğlu..................................................205
Əliyev Mehman Şura oğlu.................................................206
Musayev Kamal Zülfü oğlu................................................207
Əliyev Elçin Behbud oğlu..................................................208
Abbasov Mübariz Heydər oğlu...........................................210
Həmidov Adil İbrahim oğlu...............................................211
Şükürov Elşad Xasay oğlu..................................................213
Piriyev Elçin Musa oğlu.....................................................214
Əliyev Nazim Şura oğlu....................................................215
Həmidova Zəhra İbrahim qızı.............................................216
Piriyeva Nəzmiyyə Salman qızı..........................................218
Abbasov Emin Əli oğlu......................................................220
Ibrahimov Ramil Məhəbbət oğlu.........................................221
Ibrahimov Azər Məhəbbət oğlu...........................................222
Xəlilov Maqsud Ədalət oğlu................................................223
Piriyev Elşən Musa oğlu....................................................224
İbrahimov Eyvaz Abbas oğlu..............................................227
Həmidov Elçin Məhər oğlu................................................228
Əliyev Ramil Elçin oğlu....................................................230
Piriyev Sirac Sabir oğlu.....................................................231
Əliyev Elxan Natiq oğlu....................................................232
Həmidov İlkin Adil oğlu....................................................233
Əliyev Emil Elçin oğlu......................................................234

**XI FƏSİL**

**Dünya gülməsə yaşamaz**

Lətifələr və maraqlı əhvalatlar…...............................…237
Musayev Zülfü Vəli oğlunun lətifələri............................237
Həmidov Lətif Şahmar oğlunun lətifələri……......……..240
Əliyev Mirzalı Mirzalı oğlu………….............................241
Seyidalı kişinin lətifələri……………...............................243
Baxşalı kişinin lətifələri...........................................……243
Kəl Mehdinin lətifələri………….......................................…244
İbrahim kişinin lətifələri...........................................…245
Şura kişinin əhvalatları……..........................................……..245
Mənzər nənənin qarpız əhvalatı……......................…245

**XII FƏSİL**

**Kəlbəcərin işğalı**

Bədxah qonşular.......................................…………..249

**XIII FƏSİL**

**Şəhidlərimizi unutmayaq!**

Dağdan ağır xəbər.......................................…………262
Nəcəfalıların qəhrəmanlıq səhifəsi................…………268
Onlar geri qayıtmadı.......................................…………270

**Qarabağ müharibəsi şəhidləri**

Əliyev Misir Pənah oğlu…………….....................……..272
Abbasov İsgəndər Asif oğlu..............................……..274
Qabilov Sədrəddin Qədir oğlu.........................………..274
Əliyev Məzahir Fərzalı oğlu.........................…………278
Həsənov İlqar Köçəri oğlu...........................…………280
Məmmədov Oqtay Surxay oğlu................……………..282
Piriyev Rasim İsa oğlu..............................……………283

**XIV FƏSİL**

**Nəcəfalıların köçkünlük həyatı**......................................287

## II HİSSƏ

**NƏCƏFALILAR ELİNİN ŞƏCƏRƏSİ**......................295

**I FƏSİL**
**Seyid Əlı Xəlifənin nəslinin şəcərəsi**……………..297
Seyid Xudaverdi Seyid Əli oğlunun nəsli.......................299

**Seyid Əli Seyid Xudaverdi oğlunun nəsli**.........………..299
Əliyev Səfər Baxşəli oğlunun ailəsi..........…………..301
Əliyeva Mənzər Baxşəli Qızının ailəsi...................……305
Əliyev Şura Baxşəli oğlunun ailəsi.................………306
Əliyev Aydın Baxşalı oğlunun ailəsi...............…………309
Əliyeva Məryəm Baxşalı qızı........................................309
Əliyev Mehti Seyid Əli (Seydalı) oğlunun ailəsi …..……310
Əliyev Novruz Mehti oğlunun ailəsi...............…………..311
Əliyev Yunis Mehti oğlunun ailəsi.............…………312
Əliyev Salah Mehti oğlunun ailəsi....…......………314
Əliyev Salman Mehti oğlunun ailəsi..............................316

**Mirzalı Seyid Xudaverdi oğlunun nəsli**..........…...……318
Əliyev Qasım Mirzalı oğlunun ailəsi…..............……….318
Əliyev Fərzalı Mirzalı oğlunun ailəsi…....................……319

**Bayraməli Seyid Xudaverdi oğlunun ailəsi**…...………321
Hümbətalı Bayraməli oğlunun ailəsi…..........………….321
Əliyev Əliabbas Hümbətalı Oğlunun ailəsi .....…………322

**II FƏSİL**
**Məhəmmədin nəslinin şəcərəsi**…............................…..323
**Namaz Məhəmməd oğlunun nəsli**…..............…………..324
Məşədi Şəmir Namaz oğlunun ailəsi……..............……324
İbrahim Məşədi Şəmir oğlunun ailəsi............…………324
Rəhim Məşədi Şəmir oğlunun ailəsi……...............…….325
İbrahimov Abbas Rəhim oğlunun ailəsi.........…………..325
Abbasov Məhəbbət İbrahim oğlunun ailəsi …………327

Novruzova Gülgəz İbrahim qızının ailəsi............328
Həsən Məşədi Şəmir oğlunun ailəsi..........................…330
Həsənov İdris Məşədi Şəmir oğlunun ailəsi.............330
Həsənov Vəli İdris oğlunun ailəsi…………………......331
Həsənov Etibar İdris oğlunun ailəsi..............…………332
Həsənov Valeh İdris oğlu..................................................333
Şamilov Ələs Həsən oğlunun ailəsi...................…………334
Həsənov Köçəri Ələs oğlunun ailəsi..............………..334
Həsənov Hüseyn Ələs oğlu............................................334

Hüseyn Məşədi Şəmirin oğlunun ailəsi............…………..337
Namazın oğlu Məşədi Əmirin ailəsi.........................……337
Təhməz Məşədi Əmir oğlunun ailəsi…...............………338
Əmirov Həmzə Təhməz oğlunun ailəsi.....……………..338

Qədir Məşədi Əmir oğlunun ailəsi...................…………340
İsmayıl Qədir oğlunun ailəsi.........................…………340
Xəlilov Qəfər İsmayıl oğlunun ailəsi...........……………341
Nədir Məşədi Əmir oğlunun ailəsi.................………..343

Məhəmməd Namaz oğlunun ailəsi...........…………..344
Namazov Süleyman Məhəmməd oğlunun ailəsi.........344
Namazov Fərman Məhəmməd oğlunun ailəsi................345
Mamedov Əsgər (Həsən) Fərman oğlunun ailəsi...…..345
Namazov Misir Məhəmməd oğlunun ailəsi...........……..347

Namazın oğlu Məşədi Pirməmmədin ailəsi............348
Şahmar Həmid oğlunun ailəsi…...................………..350
Həmidov Məhəmməd Şahmar oğlunun ailəsi..........350
Həmidov İbrahim Şahmar oğlunun ailəsi………........…352
Həmidova Savad Şahmar qızının ailəsi............………..353
Həmidova Xətai Şahmar qızının ailəsi..............…………354
Həmidov Lətif Şahmar oğlunun ailəsi.........………..354
Abbasəli Məşədi Pirməmməd oğlunun ailəsi......……..355
Piriyev Piri Abbasəli oğlunun ailəsi......................……355
Piriyev Barat (Dilqəm) Abbasəli oğlunun ailəsi...…356

Əlif Məşədi Pirməmməd oğlunun ailəsi.......….357
Piriyev İsa Əlif oğlunun ailəsi................……….357
Piriyev Musa Əlif oğlunun ailəsi................…………358
Piriyev Namaz Əlif oğlunun ailəsi...................……….359

Piriyev Talıb Məşədi Pirməmməd oğlunun ailəsi....………360
Piriyev İmran Talıb oğlunun ailəsi.......................……..360
Piriyev Kamran Talıb oğlunun ailəsi........................……..361
Piriyev Salman Talıb oğlunun ailəsi...........……………362
Piriyeva Məxmər Talıb qızının ailəsi................................362
Piriyeva Minə Talıb qızının ailəsi...............……………..363

Məhəmmədəli Məşədi Pirməmməd oğlunun ailəsi……….364
Piriyev Yusif Məhəmmədəli oğlunun ailəsi…………….365

Piriyev Zeynal Məşədi Pirməmməd oğlunun ailəsi………367
Piriyev Əli Zeynal oğlunun ailəsi……………..................367
Piriyev Əziz Zeynal oğlunun ailəsi................…………369

**Avaz Məhəmməd oğlunun nəsli..**...............……………..371
Şükür Avaz oğlunun ailəsi...........................................……..371
Abbasov Muxtar Şükür oğlunun ailəsi...........……………373
Abbasov Qaçay Şükür oğlunun ailəsi...….........…………374
Əsəd Avaz oğlunun ailəsi.............................……………..375
İmamalı Avaz oğlunun ailəsi.......................……………376
Abbasov Asif İdris oğlunun ailəsi.................……………..378
Bəylər Avaz oğlunun ailəsi.........................……………378
Kalvalı Avaz oğlunun ailəsi.......................……………378
Ağalar Əli oğlunun ailəsi...................................……378
Mədət Ağalar oğlunun ailəsi..............…......………..379
Əliyev Həmzə Mədət oğlunun ailəsi………...................379
Əliyev Fərhad Ağalar oğlunun ailəsi............................381
Əliyev Əsgər Fərhad oğlunun ailəsi...…...…………..381

**Hümbət Məhəmməd oğlunun ailəsi**…...........…383
Musa Hümbət oğlunun ailəsi…...............………383
Vəli Musa oğlunun ailəsi...........................………383
Musayev Pənah Vəli oğlunun ailəsi...............……………383
Musayev Umud Vəli oğlunun ailəsi..............……………384
Musyev Zülfü Vəli oğlunun ailəsi...............………………385
Musayev Hüsü Vəli oğlunun ailəsi....................……….387
Musayev Bahadur Vəli oğlunun ailəsi............……………388

Əli Hümbət oğlunun ailəsi……...................……………389
Hümbətov İmamverdi Əli oğlunun ailəsi.....…………389
Əliyev Camal İmamverdi oğlunun ailəsi.....………..389
Əliyev Ələmdar İmamverdi oğlunun ailəsi......…………390

Allahverdi Əli oğlunun ailəsi...................………………392
Məmmədova Səriyyə Allahverdi qızının ailəsi.………….392
Məmmədova Qaratel Allahverdi qızının ailəsi……392
Məmmədova Bağdad Allahverdi qızının ailəsi………393
Mamedov Yadigar Allahverdi oğlunun ailəsi………..393
Mamedov Surxay Allahverdi oğlunun ailəsi………395

**III FƏSİL**

**Respublikamızın digər bölgələrindən nəcəfalılar kəndinə gələrək ailə quran şəxslər və onların ailələri barədə məlumatlar.**

Kazımov Möylamın ailəsi…..........................................………397
Kazımov İmran Möylam oğlunun ailəsi ............................398
Kazımov Qəhrəman Möylam oğlunun ailəsi…………400

Abbasov Əhmədin ailəsi..............................……………401
Abbasov Məhəmməd Əhməd oğlunun ailəsi…………401
Abbasov Yusif Əhməd oğlunun ailəsi..........…………403

Mamedov Salmanın ailəsi............................…………404
Mamedov Telman Salman oğlunun ailəsi………………404
Mamedov Elman Salman oğlunun ailəsi..........……404

İrandən gəlmiş İbrahimin ailəsi..................406
Xəlil İbrahim oğlunun ailəsi.................................406
İbrahimov İslam Xəlil oğlunun ailəsi...................406

Dadaş Xəlil oğlunun ailəsi...........................................408
Xəlilov Nəbi Dadaş oğlunun ailəsi........................408
Xəlilov Əhməd Dadaş oğlunun ailəsi…........................409

Abbasov Bahadur Həbib oğlunun ailəsi……..................410

Epiloq əvəzi……..........................................................412
İstifadə olunmuş ədəbiyyat................................................413

**ELÇİN BEHBUD OĞLU ƏLİYEV**
**ADİL HƏMİD (DƏLİDAĞLI)**

# NƏCƏFALILARA GEDƏN YOL

**Bakı - 2010**

**Redaktor: Əlövst Ağalarov**
**Rəssam: Yaşar Rəhimov**
**Korrektor: Həqiqət**

**Yığılmığa verilmişdir: 05.04.2010**
**Çapa imzalanmışdır: 05.05 2010**
**Ofset kağızı, format: 70x100 1/16**
**Şərti çap vərəqi: 26,5**
**Nüsxə: 300 ədəd.**

**Müəlliflərlə əlaqə**

**Əliyev Elçin Behbud oğlu:** **Tel: (050) 330 60 58**
**email ünvanı: elchin_aliev@ mail.ru**

**Adil Həmid (Dəlidağlı):** **Tel: (055) 704 75 85**
**email ünvanı: adilhemid@ mail.ru**

**Kitab "E.L." Nəşriyyat və Poilqrafiya Şirkəti MMC-nin**
**mətbəəsində ofset üsulu ilə çap edilmişdir.**
**Ünvan: Bakı şəhəri, Dərnəgül qəsəbəsi 3105-ci məhəllə.**
**Tel: 562 83 03; 563 54 42**
**Direktor: Bağırov Cəfər Əziz oğlu.**



Vurğun Əliyevin toy şənliyi. Yevlax şəhəri. 2008 il.



Vurğun Əliyevin toy şənliyi. Yevlax şəhəri. 2008 il.




Nəcəfalıların toy şənliyi. Bakı şəhəri. 2009 il.



Adil Həmid, Məhər Həmidov və Elçin Əliyev Nəcəfalılar toyunda. Bakı şəhəri.




Nəcəfalıların toy şənliyi. Bakı şəhəri. 2007 il.




Elçin Əliyev, Piri Piriyev və Mübariz Abbasov Nəcəfalılar toyunda. Bakı şəhəri. 2007 il.




Elçin Əliyev, Abbas İbrahimov və Mübariz Abbasov Nəcəfalılar toyunda. Bakı şəhəri. 2007 il.




Nəcəfalıların toy şənliyi. Bakı şəhəri. 2008 il.



Adil Həmid ailə üzvləri ilə birlikdə
Nəcəfalılar toyunda. Bakı şəhəri. 2010 il.



Adil Həmid və Maqsud Xəlilovun ailəsi Abbas və Məhəbbət İbrahimov qardaşlarının ətrafında. Bakı şəhəri.




Nəcəfalılar və Qaragüney camaatı toy şənliyində.
Bakı şəhəri. 2007 il.



Natiq Əliyev, Ramiz Musayev, Mübariz Abbasov və Elçin Əliyev Nəcəfalılar toyunda. Bakı şəhəri. 2008 il.




Emil Əliyevin kiçik toyu. Elçin Əliyev və kirvəsi Rəşid Məmmədovun ailəsi. Bakı şəhəri. 2006 il.



Adil Həmid, Sirac Qabil oğlu, Ramiz Musayev, Nizami Musayev və Nüsrət Tağıyev Nəcəfalılar toyunda. Bakı şəhəri.




Nəcəfalılar və Qaragüney camaatı toy şənliyində.
Bakı şəhəri. 2008 il.



Nəcəfalıların toy şənliyi.
Zülfü Musayev yaxınları ilə birlikdə.



İzzət Əmirovun toy şənliyi.
Bakı şəhəri.



Vüsal Məhəbbət oğlu İbrahimovun toy şənliyi.
Bakı şəhəri.




Elçin Əliyev ata qohumları ilə Kəlbəcər toyunda.
Bakı şəhəri.



Əli Cəfər oğlu Əhmədov qohumları ilə Kəlbəcər toyunda.
Bakı şəhəri.



Adil Həmid həsrətində olduğu Kəlbəcər yaylaqlarının axtarışında. Murov dağın ətəyi.



Dağlar bizim dağlara bənzəyir.
Elçin Əliyev dostları Əli Səfərov, Möhvəddin Mikiyev və Şirvan Bayramovla birlikdə Quba dağlarında.



Dağlar bizim dağlara bənzəyir.
Elçin Əliyev dostları Əli Səfərov, Möhvəddin Mikiyev, Mahmud Bəxtiyarov, Şirvan Bayramov birlikdə Şamaxı dağlarında.
Öndə Emil Elçin oğlu Əliyevdir.



İbrahim Həmidov övladları ilə birlikdə.
Bərdə rayonu, Mehdixanlı kəndi.



Nəcəfalıların məcburi köçkünlük həyatı.
Yevlax şəhəri, Malbinəsi kəndi.



Şakir Əliyev qohumları ilə birlikdə.
Savad Həmidovanın bağında. Kəlbəcər rayonu Pirilər kəndi.



Çavuş Ramil Əliyev gənc əsgərlərlə təlimdə.
Neftçala şəhəri.




Əsgərlərimiz tariximizin qan yaddaşı
"Xocalı faciəsi"nin anım mərasimində.
Soldan 4-cü Ramil Əliyev. Neftçala şəhəri.



Elçin Əliyev hərbi xidmətdə olan eloğluları
Vurğun Əliyev və Səbri Tağıyevlə birlikdə.



Anar Əliyev hərbi xidmətdə. Naxçıvan MR.



Ramil Əliyev hərbi xidmətdə. Neftçala şəhəri. 2007 il.



Elçin Əliyev və Mubariz Abbasov hərbi xidmətdə olan Ramil Əliyevlə birlikdə. 2007 il.